**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

# GÖYÇAY FOLKLOR ÖRNƏKLƏRİ

## I KİTAB

**BAKI – 2022**

**Azərbaycan Milli Elmlər Akademiyası**
**Folklor İnstitutu Elmi Şurasının**
**qərarı ilə çap olunur**

**LAYİHƏ RƏHBƏRİ:** **Muxtar KAZIMOĞLU (İMANOV)**
AMEA-nın həqiqi üzvü

**TOPLAYIB**
**TƏRTİB EDƏNLƏR:** fil.ü.f.d., dos. **Ataş ƏHMƏDLİ**
fil.ü.f.d. **Xuraman KƏRİMOVA**
elmi işçi **Vüsal ABİYEV**

**REDAKTOR:** fil.ü.f.d. **Əkbər ƏLİYEV**

**Göyçay folklor örnəkləri. I kitab.** Bakı, "Elm və təhsil", 2022. 296 səh.

folklor.az

G $\frac{4603000000}{\text{N-098-2022}}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2022

# ÖN SÖZ

Göyçay rayon kimi inzibati əsasda 1930-cu ildə təşkil olunmuşdur. O vaxta qədər isə bu ərazi qəza qismində Bakı quberniyasının tabeliyində olmuşdur. Ərazinin erkən məskunlaşması daha qədim dövrlərlə səsləşsə də, bilici sakinlərinin dediyinə görə mərkəzə çevrildiyi vaxtdan hesablanarsa, Göyçayın tarixi 150 ildən bir qədər yuxarı, yəni 200 ilə yaxın olar. Belə ki, şəhərin yerləşdiyi indiki sahəsi 167 il bundan öncə (təxminən 1855-ci ilə kimi) çəmənlik, kolluq və meşəlikdən ibarət olmuşdur.

Adlanmasına gəlincə, bir neçə ciddi qaynaqda Göyçay[1] toponimindən də bəhs olunur və bu adın su anlamlı olduğu həmin qaynaqlarda əminliklə bildirilir. Məsələn, Göyçay əhalisinin bir hissəsinin Qaramanlı tayfasından formalaşdığı, bu tayfanın mənşəyi və Göyçay ərazisinə gəlişi haqqında məlumat verən mənbədə belə bir açıqlamaya da rast gəlirik: "Hazırda Türkiyənin Qaraman vilayətində axan çayın da adı Göy çaydır. Hətta belə ehtimal da var ki, Qaraman tayfasının nümayəndələri Göyçaya köçərkən özləri ilə gətirdikləri Göy çay adını yeni köçdükləri ərazidə axan çaya veriblər" (1, 15). Əlbəttə, müəllifinin də etiraf etdiyi kimi, bu bir ehtimaldır, yəni məsələnin biryolluq çözüldüyü demək deyildir. Lakin maraq doğurduğu üçün düşünürük ki, həm də bu ehtimalın daha etibarlı dəlillərlə ilişkədə araşdırılmasına ehtiyacı vardır. Belə ki, toponimin buradan əks istiqamətə daşına biləcəyi ehtimalı da istisna deyildir.

Əlimizdəki mənbələrə əsaslanmaqla deyə bilirik ki, bu ada ilk dəfə IX-X əsrlərdə yaşamış ərəb tarixçilərinin əsərlərində təsadüf olunur. Bu minvalla, Əbu əl-Həsən Əli ibn əl-Hüseyn ibn Əli əl-Məsudinin "Muruc əz-zəhəb və məadin əl-cəvahir" ("Qızıl yuyulan yer və cəvahirat mədənləri") adlı əsərində "Göyçay" sözünün yer aldığını görürük. Belə ki, əl-Məsudinin əsərində

Azərbaycanda mövcud iki "Muğan" adlı ərazidən bəhs olunur: onlardan birinin Xəzər dənizi sahilində, digərinin isə Göyçay və Girdiman çaylarının aşağı axarı boyunca uzanan ərazilərində yerləşdiyi bildirilir. Daha anlaşıqlı olsun deyə, həm də müəllif, bu arealdakı Muğanın Xəzər dənizi sahilində mövqe tutmuş Muğan ölkəsi ilə qarışdırılmamasını tövsiyə edir (2, 29-39).

Ərəb mənbələrindən, habelə X əsrə aid olub, lakin müəllifi bu günədək naməlum qalmış "Hüdud əl-aləm" ("Aləmlərin sərhədi") əsərində bu toponimə işarə olunması da olduqca zəruri məqamdır və fikrimizcə, bu məqam öncəki məlumatın səhihləşdirilməsi yönündə ortaya çıxacaq mübahisələri aradan qaldırmağa kömək edə bilər. Girdiman dövlətinin təşəkkül tarixini araşdıran tanınmış rus alimi V.F.Minorskinin həmin mənbədən gətirdiyi istinad əslində bu qənaətə gəlməyimizə əsas vermişdir. Müəllifin 1958-ci ildə, həm də əsərin ingiliscə tərcüməsinə ilk dəfə yazdığı qeydlərindən bəlli olur ki, Girdiman dövlətinin tabeliyindəki mühüm strateji məntəqələr məhz Göyçay və Girdiman çaylarının arasındakı landşaftlarda mövcud olmuşdur. Digər orta əsr mənbələrini də bu kontekstdə süzgəcdən keçirən müəllif, həmin məntəqələrdən biri kimi Layzan şahlığının adını öz qeydlərində ayrıca vurğulayır. Məlumat üçün deyək ki, əksər tarixçilər "Layzan" və ya "Laizan" kimi tələffüz olunan bu toponimin indiki Lahıcla daha sıx bağlı olduğunu bildirirlər (2, 45-46).

Sonrakı dövrlərdə Göyçay toponiminə klassik poeziyamızın dühalarından olan S.Ə.Şirvaninin əsərlərində rast gəlirik. Göyçayın Qaraxıdır kəndindən olub, "Qəbuli" təxəllüsü ilə şeirlər yazmış Mir Hüseyn əfəndi haqqında məlumat verərkən, şair, Göyçaydan da ötəri bəhs edir. Maraqlıdır ki, Şirvana məxsus bu yer şairin məlumatında Sədnərud[2] adlı mahalın bir nahiyəsi kimi təqdim edilir: "Sədnərud Şirvanın mahallarındandır. Cəmi otuz iki para kənddir təmamən gərmü

siyrdir. Göyçay ki Şah dağının qiblə tərəfindən və Baba dağından və sair cibali-əzimələrin çeşmələrindən və qar sularından cari olur, ol mahala caridir. Bağatlarında çox əla əbrişəm, innab, şaftalu hasil olur. Amma fəsli-tabistanda suları üfunət etdiyi cəhətdən çox məgəsi-pürazar olur və Qaraxıdır ol qəryələrin cümləsindəndir" (3, 134).

Məlumatdan anlaşılır ki, ümumiyyətlə, nahiyə də daxil olmaqla, bu areala aid torpaqlar bol suya malik olduğu üçün münbit və məhsuldar olub. Bütün bunlar isə deməyə əsas verir ki, məhz su amili nəzərə alınmaqla ərazinin adlandırılması təmin olunmuşdur. Beləliklə, çayın adını daşıması ilə ərazi də tədricən populyarlıq qazanmışdır.

Rayonun ən böyük çayı olan Göyçay çayı, həm də ölkənin daimi axınlı çaylarından hesab olunur. "Çay Qəbələ, İsmayıllı, Göyçay və Ucar rayonlarının torpaqlarından axıb gedir. O, öz başlanğıcını 2455 metr yüksəklikdə olan Kof dağın Salavat aşırımının 2,5 km qərbində, 1980 metr yüksəklikdə olan yamacdan – Baba dağının cənub ətəyindən alır" (4, 7). Dünyagörmüş sakinlərin dediyinə görə, çayın daşıdığı ad suyunun rənginə əsaslanıb. Hətta onu da deyirlər ki, Qaraçayın bura birləşməsindən sonra çay əvvəlki şəffaflığını tamam itirib (S:35). Əlavə edək ki, baş suayrıcından hesablanarsa, Göyçay çayına irili-xırdalı ondan artıq çay tökülür. Buqur çay, Keqniya çay, Peşnoy çay, Zarat çay, Qala çay və digərlərinin adını çəkmək olar. Onlardan biri də 35 kilometr uzunluqda olan Qaraçaydır ki, ümumi zolağı 115 kilometrə çatan Göyçay çayının 63 kilometrliyində bu yardımçı çay "ana" axına qovuşur (4, 7).

Ərazi haqqında toplanmış məlumatlardan bilmək olur ki, şəhər salınanadək bu yerdən əsasən gediş-gəliş məqsədləri üçün istifadə olunub. Özəlliklə də, tacirlər bu yol ilə öz mallarını Şəki, Gəncə kimi böyük şəhərlərə satmağa aparardılar.

Məsələn, Lahıcda hazırlanmış mis məmulatlar həmin şəhərlərin bazar və dükanlarına bir qayda olaraq bu yolla çatdırılardı. Keçiləcək məsafənin dayanacaq üçün münasib hissəsinə düşdüyündən karvanlar burada lövbər salar, yolçular müvəqqəti də olsa, dinclərini alardılar. Deyilənə görə, çayətrafı ərazilərdə dayanacaq quran yolçular bu yerin səfalı olduğunu gördükdən sonra buranı Göyçay adlandırıblar.

XIX əsrin ortalarında (1867-ci ildə) Göyçaya qəza statusu verilir və bu mərhələ ərazinin inkişafını xeyli sürətləndirir. Gediş-gəliş çoxaldığı üçün artıq ərazidə "şəhərləşmə" prosesi baş alır, alış-veriş yerlərinin fəaliyyət göstərməsinə ehtiyac yaranırdı. Həmin məqsədlə əsas ərazidən iki km aralı cənub hissədə bazar salınır. Bu həm mərkəzləşmiş ərazidəki sıxlığın azalmasını, həm də istifadəsiz qalmış ərazilərin sahmana salınmasını şərtləndirirdi. Həftəbazar kimi tanınan bu "qaynar" məkan indiki Potu[3] kəndinin ərazisində yerləşirdi (Kənd sakinlərinin dediyinə görə, həmin bazarın yerini indi də təyin etmək olur). Tezliklə burada çayxana, çörək bişirmə, dəmirçixana, dəlləkxana kimi sahələr fəaliyyətə başlayır, müxtəlif xırdavatlar satan dükanlar açılır. Ətraf kəndlərdə yaşayan əhali də öz məhsullarını satmaq üçün bu bazara gətirər və buradakı dükanlardan hazır məmulatlar (qab-qacaq, parça, tütün, qənd, çay, ayaqqabı və s.) alıb aparardılar. Bazarın Potu ərazisində salınmasını şərtləndirən digər mühüm amil, bir-birindən təxminən 260-700 metr aralı olan beş su dəyirmanının burada mövcud olması idi. O zaman nəinki ətraf kəndlərdə, hətta qonşu Ucar, Zərdab kimi böyük yaşayış məntəqələrində bu tipli su təchizatları yox idi. Bütün bunlar əsaslandırır ki, Potu kəndi ilk öncə qəza mərkəzi kimi fəaliyyət göstərmiş, genişləndikcə bu mərkəz bütünlüklə Göyçay ərazisini əhatəsinə almışdir.

Ümumiyyətlə, bu kənd təkcə ərazi qismində rayonun dirçəlişində rol oynamamış, həm də messenat sakinlərinin fəaliyyəti sayəsində bu dirçəlişə layiqli töhfələr qazandırmış-dır. Kənd ağsaqqallarının söylədiklərinə əsaslansaq, belə messenatlardan daha fəal fəaliyyəti ilə seçiləni Ömər bəy adlı şəxs olmuşdur. Bunu da sıradan bir xeyriyyəçilik işi kimi qiymətləndirmək olmaz. Belə ki, hələ kənd halına gəlməmiş-dən öncə burada ilk məskunlaşan Ömər bəy və onun geniş tərkibə malik ailəsi olmuşdur. O da maraqlı faktdır ki, Potuda ilk məscidi (1856-cı ildə) Ömər bəyin atası Hacı bəy inşa etdirib. Bütün bunlar da nəticə çıxarmağa əsas verir ki, elə Potunun özülü bu nəslin nümayəndələri tərəfindən qoyulmuş-dur. Bundan başqa, rayonda ilk un üyüdülən dəyirman da bu ailənin təşəbbüsü və vəsaiti hesabına ərsəyə gətirilmişdir. Müasir şəhər massivinə aid dairədə vaxtilə mövcud olmuş bu dəyirmandan hazırda bir nişanə qalmasa da, sakinlər həmin ərazini indi də "Dəyirmanın başı" adlandırmaqdadırlar.

1859-1902-ci illərdə Şamaxı şəhərində baş vermiş zəlzələlər nəticəsində evsiz qalan ailələrin bir hissəsi Göyçaya pənah gətirir. Bu səbəblə ərazidə yeni yaşayış məntəqələri salınır, mərkəzi massiv əvvəlki hüdudlarından bir qədər də kənara çıxır. "Artıq XIX əsrin 60-cı illərində Göyçay şəhəri geniş əraziyə, çoxlu əhaliyə malik mühüm yaşayış məntəqəsi idi. Əhalinin əsas tərkib hissəsini köçkün şamaxılılar təşkil edirdi" (4, 16). Əslində, Göyçayın əlverişli coğrafi mövqeyi və mülayim iqlimi ətraf yerlərdən insanların bura axışıb, burada qərar tutmasına bir növ təminat olmuşdu. Önəmli o idi ki, həmin dövrdə Göyçayda məskunlaşmış əhali, həm də milli tərkibinə görə rəngarəng idi. Belə ki, bu diyarın əzəli sakinləri olan türk mənşəlilərdən başqa burada rus, yəhudi, hətta er-məni millətinə mənsub insanlar da asudə güzəran keçirirdilər. Heç şübhəsiz, bu fakt multikultural dəyərlərin hələ öncədən

xalqımız arasında mövcud olduğunu və səmimiyyətlə qorunduğunu birmənalı şəkildə əsaslandırır.

Şəhərsalmanın zəruri şərtlərindən biri kimi evtikmədə istifadə edilən dam örtüyünün istehsalı ayrıca önəm daşıyan sahə idi. Keramik örtük (yerli ləhcədə qirəmit – A.Ə.) istehsal edən bu sahənin təşkili isə mərkəzdən çox da uzaq olmayan Qarabaqqal kəndində həyata keçirildi. Dağətəyi ərazidə yerləşən bu kəndin adlanması sakinləri tərəfindən müxtəlif səpkidə yozulur. Məsələn, belə nəql olunur ki, qış vaxtı kənddə yolüstü lövbər salan karvan tacirləri havanın əlverişsiz olmasına baxmayaraq, növbəti gün yollarına davam etmək istəyirlər. Bu zaman onları qonaq saxlayan ev yiyəsi karvanbaşıya "getmə, qara bax, qal," deyə, təklifini edir. Bu etimologiyaya görə, kəndin adı elə bu ifadədən qaynaqlanmış, nəhayət, Qarabaqqal şəklinə düşmüşdür. Lakin kəndin şəxs adı ilə ilişkəli olması və Qara adlı nüfuzlu bir baqqalın adını daşıması haqda deyiləni bu versiyaların içərisində ən ağılabatanıdır (5, 158).

Ümumiyyətlə, rayonda önü "qara" ilə başlayan kənd adları çoxdur və Qarabaqqal da daxil olmaqla bunlardan Qaraməryəm, Qarayazlı (və ya Qarayazı), Qaraxıdır, Qaraman, Qarabağlar kimi toponimləri misal gətirmək olar (Qədim türk dillərində "qara" sözü böyük, geniş, əhatəli və bu qəbildən olan mənaları ifadə etmişdir). Hazırda işlək olan, həm də çoxlu sayda rast gəlinən bu səciyyəli etnotoponimlər işarələdir ki, Göyçay əzəli türk torpağıdır. Düzdür, Göyçayda zaman-zaman məskunlaşmış digər xalqların nümayəndələri indi də yerli əhali ilə dost və qardaşcasına yaşamaqda davam edir. Lakin buranın əhalisinin böyük əksəriyyəti Azərbaycan türkləridir və araşdırdıqca burada zəngin türk mənşəli və tipologiyalı xalq mədəniyyəti ilə qarşılaşa bilirik. Heç şübhəsiz, bu sabitləşmiş etno səciyyə Göyçayın folkloruna, etnoqrafiyasına

və eləcə də toponimlərinə asanlıqla yansıya bilmişdir. Deyək ki, ərazidən toplanmış əfsanə və rəvayətlərdə, bayatılarda, ata sözlərində və s. janrlarda bu göstərici daha qabarıq plandadır.

Digər sahələr öz yerində, ayrılıqda toponimlərimiz xalqımızın tarixi, tarixi coğrafiyası, etnik tərkibi, dili, təfəkkür tərzi, məişəti və s. mühüm cəhətləri haqqında qiymətli məlumatlar verən etibarlı faktlar hesab olunur (6, 5).

Bu minvalla bölgədə kənd adları daşıyan çoxlu toponimlərə rast gəlmək olur ki, elə ilk səslənməsində türklüyü bizə yansıtır, nəinki onlara dərindən nüfuz etməyimizə ehtiyac qalmır. Alpoud, Ulaşlı-Şıxlı və Hüngütlü kənd adları bu baxımdan daha cəlbedici görünür. Ruhu şad olsun, vaxtilə professor Əzizə Cəfərzadə Hüngütlü kəndində olarkən burada bir bayatı qeydə alır və bayatıda Hun dağından söz açılması ona olduqca önəmli təsir bağışlayır:

Əzizim Hun dağına,
Gəl gedək Hun dağına.
Oğlu ölən ananın,
Qan damar qundağına.[4]

Əgər ərazidə "alp"larla, "hun"larla ilişkəli yer adlarına rast gələ biliriksə və yaxud bu yerlərdən birinin (Ulaşlının) adlanması "Dədə Qorqud" dastanlarında mövqe almış tayfalardan birinin adlanmasıyla tam üst-üstə düşürsə, deməli, ərazinin aborigen sakinləri haqqında qeyd-şərtsiz fikir yürütmək olar və digər önəmli məsələlərə keçid alınmasında, həm də bu əminlik bizə ip ucu ola bilər. Sözsüz ki, bayatıda izah olunası məqamlar da vardır və bunları təfsir etməmək mümkün də deyildir. Lakin etiraf etməliyik ki, yazımızın çərçivəsi hazırda bu təfsirə meydan vermir və ümid edirik ki, nəşrin növbəti sayında mövzuya qayıtmağa şansımız olacaq (Qeyd edək ki, "Göyçay folklor örnəkləri" kitabının

növbəti sayında bayatı və digər lirik səpkili janrların sərgilənməsi nəzərdə tutulub).

Maraqlıdır ki, yeni yaranan toponimlərdə də öz dövrünün ən səciyyəvi cizgiləri təmərküzləşə bilmişdir. Məsələn, Qarabaqqal kəndində hazırda Qantarma kimi çağırılan yer adı var ki, şahidlərinin dediyinə görə, bu yer bir vaxtlar susuz çöllük imiş. Sonra camaat qan-tər tökə-tökə (əl üsulu ilə) bu yerdən arx qazır və kəndə su gətirir. Bundan sonra həmin yer Qantarma adlanır. Toponimlə bağlı digər bir yanaşma da vardır və bəzi kənd sakinlərinin dediyinə görə, bu yerin ilkin adı "Qaytarma" olmuşdur. Bu da belə izah olunur ki, əvvəllər güclü yağış yağanda dağlardan axan sel suları kəndə dolub böyük tələfata səbəb olurmuş. Həmin axını kənddən yayındırmaq məqsədi ilə bu yer qazılır və axının istiqaməti əks səmtə yönləndirilir. Bizcə, bu versiyanın üzərində dayanmaq lazımdır, çünki bu halda gedişat olduğu kimi ifadədə şəkillənib və bununla da forma ilə məzmun arasında çox təbii bir vəhdət əmələ gəlib (Yəni, axının qaytarılması toponimin meydana gəlməsini şərtləndirib).

İstehsala gəldikdə, daha rahat aparılması üçün kəndin Sarıtorpaq kimi tanınan dağətəyi massivində onun şəraiti də təmin olunmuşdu. Belə ki, xammal birbaşa ərazidə fəaliyyət göstərən kürələrə (sexlərə) ötürülürdü (Əvvəlcə bu istehsal rayondan xeyli aralıda terləşən Qaraməryəm adlı qəsəbədə aparılmış, daşınma əlavə xərc və s. çətinliklər törətdiyindən kürələrin kəndin ərazisinə köçürülməsi məsləhət bilinmişdir). Lazımi temperaturun alınması üçün kürələr odun, yaxud da mazutla qızdırılırdı. Şirəli torpaqdan hazırlanan saxsı məmulatlar o dövrün tikililərində geniş tətbiq olunurdu. Əvvəl tikinti ləvazimatları hazırlanan sexlərdə sonralar nehrə, küp, piti qabları, üzərində buta şəkli olan kasalar və s. məişət

əşyaları istehsal olunmağa başlandı. Əslən şəkili üsta Məmməd Alı bu istehsalın ilk mahir bilicilərindən idi.[5]

Ümumiyyətlə, Qarabaqqal torpağının qiymətli olması haqqında maraqlı fikirlərlə qarşılaşmaq olur. Deyilənə görə, bu torpağı alimlər aparıb xaricdə də yoxladıblar. Tərkibi əsasən gildən ibarət olan bu torpaq keramika istehsalı üçün olduqca yararlıdır. Hətta elm aləmində bu tərkib "Saçakovski gili" adıyla da şöhrət qazanıb (S:7).

Beləliklə, kənddəki istehsal sahələri fəaliyyətini intensivləşdirdikcə artan resurslardan daha geniş həcmdə şəhərsalmada istifadə olunmağa başlandı. Bu da onun göstəricisidir ki, şəhərsalmanın növbəti, yəni ikinci mərhələsində bu kənd çox mühüm rol oynamışdır. Təbii ki, mərkəzə yaxın olduğundan kənd də özlüyündə bu inteqrasiyadan yararlanmışdır. Məsələn, vaxtilə Potuda mövcud olmuş "Həftəbazar"ı hazırda daha geniş və sahmanlı şəkildə Qarabaqqala məxsus ərazidə fəaliyyətə başlamışdır.

Ərazisinin tutumuna və əhalisinin sayına görə Göyçayın ən böyük kəndlərindən biri də Bığırdır.[6] "Buqur", "Bukur" kimi də tələffüz olunan kəndin adı orta əsr uyğur yazılarında "buqra", "boqra", yəni donqabel, qozbel, əyri, dağ çıxıntısı, hətta dəvə mənasını anladan çalarlarında da sərgilənmişdir. Əslində bu ad hazırda kəndin yerləşdiyi coğrafi şəraitlə çox uzlaşır və bu tənasüblüyə əsaslansaq, kənd sanki "dağ ətəyində yatmış dəvə"nin bənzərini təsəvvürə gətirir.

Ərazidə diqqət çəkən digər yer adlarına da təsadüf olunur ki, onlara da hansısa tarixi təfərrüat və ya maraqlı əhvalatların yansıdığını izləmək olur. Belə adlardan biri "Acı dərə"dir  və bu adlanmada ərazinin həddən artıq qeyri-münbit olduğu birmənalı şəkildə substantivləşmişdir.

"Qız meydan" deyilən yer adında daha məzmunlu bir mahiyyət bərqərar olub və bu da ərazinin el arasında "ibrəta-

miz məkan" qismində tanınmasına rəvac verib. Deyilənə görə, Ulu babalarımız ildə iki dəfə – yazda və payızda həmin yerə yığışar, kənd əhalisinin iştirakı ilə yetkin oğlan və qızların adaxlanması səbəbinə oyun qurarlarmış. Dəstələrə ayrılmış qızlara qadınlar, oğlanlara isə kişilər başçılıq edərmişlər. Ön sırada qızlar, arxada isə evlənmək istəyən oğlanlar dayanarmış. Sıralar arasında müəyyən hədd gözlənilməklə, növbəsi çatan oğlan gözaltı etdiyi qızın arxasınca gəlib onun çiyninə toxunar və qızı müəyyən məsafəyə qaçmağa vadar edərmiş. Əgər oğlan qaçan qızı tuta bilirdisə, xoşbəxtlik məclisi qurular, toy edilərdi. Tuta bilmirdisə sıradan çıxıb növbəti mövsümü gözləməli olurdu (Təbii ki, könlü olan qız arxasınca qaçan oğlana tez təslim olacaqdı). Bir dəfə oyun zamanı kəndin bəyinin oğlu çox yoxsul ailədən olan bir qızı seçir və arxayın olur ki, qız heç yavaş da olsa, qaçmaz. Lakin qız çox sürətlə qaçır və oğlana ərə getmək istəmədiyini bununla anladır. Təhqir olunduğunu hesab edən bəy oğlu qəzəblənərək sıradan çıxır və xəncərlə vurub qızı öldürür. Bacısının intiqamını almaq istəyən qardaşını da öldürür. Zavallı ata övladlarını kənd qəbiristanlığında deyil, həmin meydanda, cavan bir palıd ağacının altında dəfn edir. Bir vaxtlar bu faciəyə şahidlik etmiş və artıq yeddi yüz ildən çox yaşı olan palıd ağacı bu hadisəni günümüzədək "yaddaşında yaşatmaqdadır" (Əlavə edək ki, həmən palıd uzun ömürlü ağac kimi qeydə alınıb. Üzərindəki yazıları oxumaq mümkün olmasa da, qəbir daşları da hazırda ərazidə qalmaqdadır. Deyilənə görə, bu həmin gənclərin məzarının daşlarıdır).

Ümumiyyətlə, ərazidəki hansı toponimi səciyyələndirmək istəsək mütləq alt qatında dəyərli bir məlumatın daşındığı ortaya çıxacaq. Bu anlamda kənddə "Türk dağı" adıyla tanınan toponimin də olduqca əhəmiyyətli bir informasiya ilə ilişkəsi vardır. Elə də hündür olmayan bu dağ kəndin mərkəzi

hissəsindəki qədim qəbiristanlığın şimal səmtində yerləşir. 1918-ci ilin iyununda məhz həmin ərazidə erməni-rus qəsbkarlarına qarşı döyüşlər keçirilmiş, şəhidlər verilmişdir. Mənbələr əsaslandırır ki, Türk-İslam ordusunun Gəncədən köməyə gəlmiş dəstələri ilə birgə hərəkət edən kənd əhalisi işğalçılara ciddi müqavimət göstərə bilmiş, hətta onları ərazidən qovmağa müvəffəq olmuşdur. İkinci belə bir döyüş həmin gün (27 iyunda) indi Gour (gavur) yoxuşu kimi adlanan ərazidə baş verir (Hadisəyə qədər bu yer "Malqırılan" adlanıb. Belə söylənilir ki, ərazi zəhərli bitkilərlə zəngin olub. Bu bitkilərlə qidalandıqdan sonra kəndin mal-qarası burada kütləvi şəkildə tələf olmuş, sonra da bu yer belə adlanmışdır). Önəmli faktdır ki, hələ o zaman kəndin bir neçə yerində, əsasən də Türk dağı, Ləzgi dağı və Gour yoxuşu hissəsində dəfn olunmuş və sonradan ictimaiyyətə bəlli olmuş türk məhmətciklərinin məzarlarını sovetin kəsə-kəs dönəmində də qorumaq mümkün olmuşdur (Tarixçilərin yazdığına görə, həmin dövrdə ən qanlı döyüşlərdən biri rayonun Qaraməryəm, Qarayazlı və Bığır kimi tanıdığımız ərazilərinin qovuşuğunda baş verib).

Heç şübhəsiz, bütün bu təfərrüatlar əvvəl "zərrə-zərrə" yaddaşlara yansıyır, sonra "misqal-misqal" yaddaşlarda cilalanır və nəhayət, bitkin bir dastan, rəvayət, əhvalat şəklini alır (Məsələn, bu olay kitaba daxil etdiyimiz "Törə dağı" toponimik rəvayətində fraqmental olsa da əsaslandırılıb).

Göyçay rayonunda folklor ənənəsi güclü olan kəndlərdən biri də İnçədir.[7] Coğrafi mövqeyinə görə kənd Qaraməryəm qəsəbəsi ilə Ucar rayonunu əlaqələndirən Müsüslü (kənd) şosse yolunun sağ və sol səmtlərində, dağlıq hissə ilə aranın qovuşuğunda yerləşir. Kənd qəbiristanlığındakı məzar daşlarının üzərindəki yazılara əsaslansaq burada ilk məskunlaşma təxminən 350-400 il bundan əvvəl olub. Bilici sakinlərinin söylədiyinə görə, kəndin bünövrə yeri əvvəlcə

köçəri əhalinin qışlağı olmuş, sonradan yaşayış yeri kimi məskunlaşmışdır.

XVIII əsrdə Rusiyadan indiki İsmayıllı rayonuna köçürülən İvanovka əhalisinin Qafqaz dəmir yoluna (Ucar rayonunun Müsüslü stansiyasına − A.Ə.) çıxışını təmin etmək üçün XIX əsrin sonu, XX əsrin əvvəllərində çəkilən İsmayıllı − Qaraməryəm – Müsüslü şosse yolunun İnçə kəndinin içərisindən keçməsi buradakı əhalinin həyat səviyyəsinin yüksəlməsinə, əlaqələrinin genişlənməsinə müsbət təsirini göstərmişdir (7, 6).

Göyçayın digər kəndləri ilə müqayisədə bu kəndlə bağlı daha zəngin təssürata malikəm. Belə ki, folklorçu kimi fəaliyyətə ilk dəfə bu kənddən başlamışam. O zaman təyinat üzrə işlədiyim kənd məktəbində fəal şagirdlərdən ibarət "Gənc folklorçular" adlı dərnək də təşkil etmişdim. Şagirdlərim dünyagörmüş həmkəndlilərinin ünvanını mənə təqdim etdikcə onlarla görüşür, lazım olan qeydləri aparırdım. Beləliklə, folklorçu kimi çalışmalarım məni daha ciddi fəaliyyətə köklədi və folklorun mütəxəssisinə çevrilməyimdə mühüm rol oynadı.

Janr göstəricisinə (yayılma tezliyinə) gəlincə, folklorun epik növə aid nümunələri burada daha işlək mövqedədir. Qadın yas məclislərini idarə edən ağıçı − söyləyicilər kənddə hələ də funksionallıqlarını saxlasalar da, dastan, nağıl, qaravəlli, lətifə və bu qəbildən olan nümunələrə maraq bu kənddə sanki gündəlik təlabatdır. Təbii ki, bu da boş yerdən qaynaqlanmayıb və binasından elə bu kənd aşıq sənətinin təsiri altında olub. Coğrafi mövqeyinə görə təxminən Ağsu, Ucar, Kürdəmir rayonlarının qovuşuğunda yerləşən Göyçayın bu kəndi daima Şirvan aşıqlarının get-gəlli məkanı olmuş və bu kənddə nə bir el şənliyi, nə də bir şadyanalıq sazsız-sözsüz keçirilməzmiş. Aşıq Şakirin bacısı İnçədə ərdə olduğundan o da tez-tez

güzarını bu kəndə salar, buradakı şənliklərdə iştirak edərmiş. Dastana, nağıla, qaravəlliyə maraq da məhz bu məclislərdən qaynaqlanmışdır. O vaxtlar bir neçə gün davam edən el şənlikləri yalnız belə folklor örnəkləri ilə müşayiət olunardı.

Şah Abbas mövzusundakı nağıllar da kənddə çox yayğındır. Əsasən, kişi söyləyicilərin repertuarında bu mövzu aparıcı mövqedədir. Bu mövzuda kitaba daxil etdiyimiz nağıllar da vaxilə bu səciyyəli söyləyicilərdən qeydə alınmışdır. Digər halda, Şah Abbas obrazının lətifə mövzularına sirayət etdiyini sərgilədən nümunələrlə də qarşılaşmaq olur. Kəl Niyət mövzusunda kənddən topladığımız lətifələrdə bu hal daha qabarıq plandadır. Ümumiyyətlə, hökmdar-rəiyyət qarşılaşmaları lətifə mövzularında tez-tez təsadüf olunan haldır. Özəlliklə də, həmin qarşılaşmaları təmsil edən obrazların prototiplərinin fəaliyyəfi eyni tarixi kəsimlərlə üst-üstə düşəndə. Harun-ər-Rəşid – Bəhlul Danəndə, Teymurləng – Molla Nəsrəddin və Hüseyn Bayqara – Əlişir Nəvai sərgüzəştlərini buna nümunə gətirə bilərik. Bu anlamda lətifələrdə Şah Abbas – Kəl Niyət qarşılaşması da təbii hesab olunmalıdır. Xalq etimologiyasına görə, bu  şəxsiyyətlər eyni dövrdə yaşamışlar. Hətta Kəl Niyətin Şah Abbasa sərkərdəlik etdiyi haqda bu etimologiyada məlumat verilir. Ancaq elə olur ki, tamam fərqli zamanlarda yaşamış və fəaliyyət göstərmiş şəxsiyyətlərin obrazları lətifələrdə bir araya gətirilir, mövzu və ideya da onların qarşılaşması müstəvisində əsaslandırılır. Məsələn, lətifələrlər vardır ki, onlarda Şah Abbasla Bəhlul Danəndə qarşılaşdırılır. Nəzərə alaq ki, belə hal folklorda qəbul olunandır və fikrimizcə, bunun da əsaslandırılması elə bu müstəvidə aparılmalıdır: Söyləmənin ənənəvi mövzularla müşayiət olunduğu şəraitdə bu hal baş verə bilər; Personajların ənənəvi olması buna münbit zəmin yarada bilər; Söyləmənin eyni məqsədə (gülüş yaratmaq qayəsinə) xidmət

etməsi bunu şərtləndirə bilər; Nəhayət, söyləmənin effektini artırmaq məqsədi ilə bütün bunlar improvizə oluna bilər.

Digər halda, söyləmənin mexaniki (sistemsiz) aparılması şəraitində bu hal törənə bilər və bu da qənaətimizcə, aşağıdakı məsələləri əhatələyir: Söyləyicinin qeyri-peşəkar olması buna rəvac verə bilər; Söyləmənin təsadüfi təmayüllərdən tam sığortalanmaması şəraitində bu hal üzə çıxa bilər.

Daha başqa bir nüans da yaş, yaddaş, dünyagörüş və s. psixoloji faktorlarla bağlı ola bilər ki, bu da əsaslandırmanı təmin edən şərtlərdəndir.

Əlbəttə, rayonun bütün kəndlərinin sosial-mədəni həyatını, etnoqrafik mənzərəsini, folklor gələnəklərini və həmin sferaların hansı qaynaqlardan faydalandığını və bu kimi məsələləri bir kitabda səciyyələndirmək imkan xaricindədir. Biz yalnız daha çox təmasda olduğumuz və müəyyən tarixi dönəmlərdə strateji məntəqə funksiyasını üzərinə götürmüş ərazilərdən bəhs etməyi məqsədəuyğun saydıq. Düzdür, haqqında danışdıqlarımızla məsələ bitmir, araşdırsaq, ümid edirik ki, rayonda bu tipli məntəqələr yenə aşkarlanacaq. Təkcə onu demək yetərlidir ki, rayonda Ərəbcəbirli, Ərəbşahverdi adlı kəndlərimiz var və güman edirəm ki, bu toponimlərin  alt qatında Xilafət dövrünün hansısa mədəni izləri qalıb (Nəzərə alaq ki, rayonda ərəb adı daşıyan qəbiristanlıq da vardır). Qarabağlar kənd adı da bu baxımdan cəlbedici görünür və ola bilsin ki, bu toponimin hansısa şaxəsi Böyük Qarabağımızla ilişkədədir. Daha sonra, Əlvan, Arvan kimi tələffüz olunan hidronim (çay adı), Göyçay çayının rayondan keçən axınının sağ sahili boyunca uzanan dağətəyi ərazidəki hündür qayalığın "Pələng tullanan" adlanması və bu kimi toponimlər araşdırılsa, yəqin ki, nəticədə rayonumuz qazanar.  Bütün bunların əsaslandırılması  isə sadəcə, çətin, həm də xalq üçün dəyəri olan bu missiyanın davam etdirilməsini tələb edir!

Tarixdə və mədəniyyətdə coğrafi amil daima müstəsna rol oynayıb. Göyçayın Şirvanın aran hissəsində yerləşməsi və eləcə də dağlıq landşafta özünəməxsus keçid alması, yəni tarixi miqrasiya marşrutları üzərində yerləşməsi bu ərazinin mədəniyyətinin qədimliyini və tarixi proseslərin burada intensiv cərəyan etməsini bir növ şərtləndirmişdir. Buna görə də Göyçayda qədim dövrlərin, bəzi tarixi abidələrin izləri indi də qalmaqdadır. Ancaq bunlar nə qədər elmi ictimaiyyətə bəllidir, bu başqa bir tədqiqatın mövzusudur.

Rayon yerüstü abidələrlə zəngin olmasa da, tarixçilərin qənaətincə, arxeoloji araşdırmalar aparılarsa, burada önəmli faktlar aşkarlana bilər. Çünki ərazi tarixi "İpək yolu"nun müəyyən bir səmtini təşkil edir və çox güman ki, vaxtilə mövcud olan get-gəllərin hansısa əlamətləri burada izlərini saxlamışdır. Yerüstü abidələrindən, məsələn, "Surxay xan qalası"nın nişanələri hazırda ərazidə qalmaqdadır. Bəzi tarixçilər qalanın IX-X əsrlərdə tikildiyini ehtimal edirlər (8, 82). Müdafiə məqsədi ilə tikilmiş bu qalanın dolayısı ilə də olsa Nadir şahın hakimiyyət dövrü ilə ilişkəsi vardır. Deyilənə görə, Nadir şah Azərbaycanda xanlıqları birləşdirməyə səy göstərdiyi dönəmdən bir qədər öncə Dağıstandan bu yerlərə gəlmiş Surxay adlı xan qalanı özünə sığınacaq seçmişdir. Güman ki, bu dönəm qalada yenidənqurma işləri də aparılmışdır və ola bilsin ki, elə o vaxtdan bu istehkam "Surxay xan qalası" adlanmağa başlayıb. Çünki tikilinin XVIII əsrə qədər əvvəlki görkəm və davamlılığında qala biləcəyi ağılabatan görünmür. Belə səciyyədə olan nümunələr ölkəmizdə çoxdur. Məsələn, Gədəbəydə hazırda mövcud "Koroğlu" qalası bir vaxtlar sərkərdə Cavanşirin adını daşıyıb. Belə fərz olunur ki, həmin qala öncə Cavanşir tərəfindən inşa etdirilib və müharibələrdə dağılmalara məruz qalmış qala Koroğlu dönəmində yenidən

qurulub. Dövrlər arasında böyük fərq olsa da, maraqlıdır ki, qala indi də hər iki adı yaşatmaqda davam edir.

Mənbələr bildirir ki, Nadir şahın təzyiqinə davam gətirməyəcəyini anlayan Surxay xan əvvəlcə qalanı, sonra da bütün əraziləri tərk etməyə məcbur olmuşdur. Oğuz rayonunda da indilikdə bu adı daşıyan qala mövcuddur və belə çıxır ki, həmin dövrün tikilisi kimi bu adda olan qalalar şəbəkə təşkil etmişdir. Təəssüf ki, bu şəbəkəyə daxil olan qala-istehkamlar indiyədək ciddi araşdırılmayıb. Araşdırılarsa, heç şübhəsiz, bu civarda daha yeni və maraqlı məlumatlar aşkarlana bilər.

Əslində Göyçay nəhəng Şirvan arealının kiçik bir yörəsidir və heç şübhəsiz, bu arealda baş verən hər hansı yüksəliş və eniş onun yörəsinə də təsirsiz qala bilməzdi. Odur ki, Göyçay folklorunu Şirvan folklorunun fonunda səciyyələndirmək doğru yanaşma hesab olunmalıdır. Çünki əksər məqamların bu parametrdə üst-üstə düşdüyünü müşahidələr də əsaslandırır. Elə götürək nağılları, bu janr bu parametrdə ən oxşar mövzularda yayğındır və bu cəhət də onların asanlıqla müqayisəsini aparmağa imkan verir. Məsələn, Şah Abbas mövzusu Şirvan nağılçılığında ən geniş yayılmış mövzulardandır. Göyçaydan topladığımız nağılların da əksəriyyətində bu mövzunun aparıcı olduğunu müəyyənləşdirə bilmişik. Ümumiyyətlə, nağıla maraq bölgədə üstün mövqedədir və daha geniş götürsək, bu arealda el şənliklərinə dəvət almış aşığa “aşıq imkan varsa, bir nağıl danış” deyə, müraciət olunur. Bütün bunlarsa ənənədən gəlir və birmənalıdır ki, bu cəhət həmin janrların tarixi inteqrasiyasına əsaslanır. Mövzularının təsnifatına gəlincə, burada da ümumbölgə üçün ortaq olan cəhətləri sistemləşdirib müqayisəyə çəkmək mümkündür. Digər janrlar üzrə paralellər aparılarsa və eynilə təkrarlanmasa da, hər halda, alınmış nəticə öncəkinin oxşarı olacaq.

O ki qaldı özünəməxsusluğa, əlbəttə, Göyçay folklorunu ümumbölgə folklorundan fərqləndirən aspektləri də vardır. Məsələn, ərazidən toplanmış inanc, deyim, alqış-qarğış, məsəl, lətifə və toponimik rəvayətlərdə bu orijinallıq aydın sezilir. Dil və üslub məsələlərinə gəlincə, yetər ki, bu lokalizənin fonunda daha ciddi fərqlər ayırd edilsin. Yəni burada söyləyiciyə məxsus dil, üslub, ləhcə və s. təhkiyədən qaynaqlanan törəmə subyektlər nəzərdə tutulur. Ümumiyyətlə, dil sistematik çalışan mexanizmə bənzəyir və mütəmadi olaraq məfhumlar törədə bilir.

Göyçayda aşıq sənətinə münasibətə gəlincə, bu haqda bir neçə kəlmə söyləməklə kifayətlənmək istərdik. Uşaqlıq illərindən xeyli keçməsinə baxmayaraq, Göyçayda təşkil olunan el şənliklərinin Şamaxıdan, yaxud da Kürdəmirdən gətirilən aşıqların iştirakı ilə keçirildiyini indi də yaxşı xatırlayıram. Ruhu şad olsun, Aşıq Şakirin toyu necə idarə etdiyi dumanlı şəkildə də olsa yaddaşımda qalıb. Bu həm də onun göstəricisidir ki, Göyçay elə gələnəkdən Şirvan aşıq sənətinin təsiri altında olub. Bütün bunlar öz yerində, Göyçay rayonunda da ərsəyə gəlmiş bir neçə aşığın adını çəkə bilərəm: Aşıq Mürsəl, Aşıq Əbülfəz, Aşıq Namət, Aşıq Bədir, Aşıq Əhməd. Çox təəssüf edirəm ki, ustad aşıqların yetişdiyi Göyçayda bu möhtəşəm sənət hazırda tamamilə öləzimişdir.

Maraqlıdır ki, son illər ölkəmizdə Göyçayın adı, həm də burada növbənöv və yüksək keyfiyyətdə yetişdirilən nar meyvəsi ilə assosiasiya olunur. Bu da səbəbsiz deyildir. 2006-cı ildən başlayaraq rayonda narla bağlı ölkə və beynəlxalq səviyyələrdə təşkil olunan festivallar, heç şübhəsiz, bu tanıtımda alternativsiz rol oynamışdır. Hətta 2015-ci ildə Avropa oyunları adı altında dünyada ilk dəfə ölkəmizdə keçirilən idman yarışlarının iki talismanından biri nar rəsmi seçilmişdir. Bu zaman möhtəşəm arenada, nar, dünyanın,

içindəki dənələri isə ölkələrin rəmzi kimi nümayiş etdirilmişdi. Bütün bunların fonunda nara münasibət ildən-ilə dəyişdi, hər il nar haqqında yeni və orijinal fikirlər gündəmə gətirildi.

Əslində Göyçayda məhsul bayramlarının keçirilməsi ənənəsi olub. Amma həqiqət naminə deməliyik ki, bu bir eyforiya idi. Çünki sovet dövründə belə bayramlar şablon səciyyədə həyata keçirilirdi. Müstəqilliyimizin bərpasından sonrakı dönəm isə bu ənənənin dirçəlməsi rayonun iqtisadi yüksəlişinə də güclü təkan verdi. Rayonda mövcud meyvə bağlarının sahəsi xeyli genişləndirildi. Bu isə yeni müəssisə və iş yerlərinin meydana gəlməsi demək idi. Toplanan məhsullar indi nəinki qonşu ölkələrə, hətta uzaq kontinentlərə də ixrac olunur. Bu da rayonumuzun rifahının yaxşılaşması və həyatın gündən-günə artan tələbləri ilə "ayaqlaşmağa" hazır olması deməkdir.

Tarixə nəzər salsaq görərik ki, nar, həm də yaradıcılıq sahələri üçün prioritet mövzulardan olub. Klassik irsimizdən narla bağlı istənilən sayda nümunə gətirmək olar. Rəngkarlıqda, heykəltəraşlıqda, miniatür mozaikalarda və s. tətbiqi sənət sahələrində nara həsr olunmuş çoxlu əsərlər var. Heç şübhəsiz, narın sehri xalqımızın folklor düşüncəsinə də sirayət etmiş, hətta bir çox folklor örnəklərində (nağıl, dastan, bayatı, tapmaca və s.-də) bu meyvə obraz səviyyəsində təqdim olunmuşdur.

Nar, həm də klassik ədəbiyyatımızda məhəbbət mövzusu olub. Üzücü ayrılıqdan sonra sevgililər həmişə bu vasitə ilə vüsala çatıb. Deyim ki, folklorda da nar sözü yar sözü ilə yanaşı çağırılıb. Elə Göyçayda çağırılan bayatıdakı kimi:

Göyçayın şirin narı,
Turş narı, şirin narı,
Sovqatlar sizin olsun,
Göndərin bizim yarı.

Beləliklə, nar burada da öz missiyasına sadiq qalmış olur!

Göyçayda narla bağlı belə bir məsəl var: “Dünyada nar çoxdur, amma Göyçay narına tay yoxdur”. Zənnimcə, dünyada narın ən gözəl obrazı elə Göyçay narı əsasında yaradılıb. Bəlkə də, bu fikir məhəbbətdən qaynaqlanır. Ancaq bu səciyyəli əsərlər artıq sənətdə öz sözünü deyib. Toğrul Nərimanbəyovun “Göyçay bağlarında” rəsmi buna əyani sübutdur.

Kitabın ərsəyə gəlməsində bir çox insanların iştirakı olmuşdur və onların əksəriyyəti haqqında söyləyicilər bölümündə ayrıca məlumat vermişik. Təəssüf doğuracaq haldır ki, söyləyici qismində qeyd etdiyimiz həmin insanlardan bəziləri artıq dünyasını dəyişmişdir. Xeyirxah əməlləri üçün daima yad olunacaqlarına inanır və onlara Uca Tanrıdan rəhmət diləyirik. Bir qisim insanlar da var ki, bu işin başa gəlməsində bizimlə əməkdaşlıq etmişdir və bu xeyirxah mövqeyə də kitabda münasibət bildirməyi zəruri saydıq. Söyləyici statusunda olmasalar da, bir təəssübkeş həmyerli kimi onlardan aldığımız bilgilər kitabın daha dolğun hazırlanmasına öz təsirini göstərmişdir. Dəyərli bilgiləri bizə ərməğan edən belə insanlara dərin təşəkkürümüzü bildirir və onlardan bir neçəsinin kimliyi haqqında oxuculara məlumat veririk:

**Məmmədov Murad Qiyas** oğlu – Göyçay rayonu, Potu kəndi (hazırda Bakıda yaşayır), MOM-un baş direktor müavini, onkoloq, tibb elmləri doktoru, professor

**Zeynalova Zivər Oktay** qızı – Göyçay RİH-nin müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri

**Mehdiyev Məhyəddin Hüseyn** oğlu − Göyçay rayonu, Bığır kəndi, təqaüddə olan müəllim

**Əhmədova Xuraman Kazım** qızı – Göyçay rayonu, təqaüddə olan mühəndis-müəllim

**Əhmədov Yaşar Əhməd** oğlu − Göyçay rayonu, Potu kəndi, həkim-nevroloq

**Süleymanov Vaqif Məhəmməd** oğlu − Göyçay rayonu, Qarabaqqal kəndi, təqaüddə olan müəllim

**Allahverdiyev Sərdar İsa oğlu** − Göyçay rayonu, İnçə kəndi, təqaüddə olan müəllim

**Veysəlov Qorxmaz Həmid** oğlu − Göyçay rayonu, Qarabaqqal kənd tam orta məktəbin müəllimi

**Məmmədov Namiq Hadi** oğlu − Göyçay rayonu (hazırda Bakıda yaşayır), Yazıçılar Birliyinin üzvü, araşdırmaçı

**Əsədov Aslan Məhəmməd** oğlu – Göyçay rayonu, İnçə kəndi (hazırda Bakıda yaşayır), yol mühəndisi

**Qeyd:** Təqdim etdiyimiz nümunələrin mənbələrini oxucuya çatdırmaq məqsədilə kitabda ayrıca kodlaşmadan istifadə olunmuşdur. Hər bir nümunənin sonunda onun mənbəyini göstərən işarələr verilmişdir (Kodlaşma bir neçə mətndən sonra aparılıbsa, o zaman bu mətnlərin də mənbəyini həmin kod əsasında axtarmaq lazımdır). Mötərizə içərisində verilən **"S"** hərfi söyləyici sözünün işarəsi, sonrakı rəqəm isə tərtib olunmuş siyahıda həmin söyləyicinin sıra ardıcıllığının işarəsidir. Digər halda, mötərizədəki **"T"** hərfi toplayıcı sözünün işarəsi, sonrakı rəqəm isə toplayıcılara aid siyahıda həmin toplayıcının sıra ardıcıllığının işarəsidir.

Bəzi mətnlərdə elə söz və leksik tərkiblərə təsadüf olunur ki, onlar ancaq bu mətnlərin qeydə alındığı bölgədə məskunlaşmış əhali üçün anlaşıqlı olur. Başqa bölgələrin sakinləri üçün də anlaşılsın deyə, kitaba əlavə olunmuş sözlükdə bu qisim adlanmalara lazımi şərhlər verilmişdir. Bundan başqa, kitabda rəqəmlərlə işarələnmiş söz və məfhumlar da yer almışdır ki, onların da açılışını təmin etmək məqsədilə sonluğa daha bir bölüm əlavə etməyi zəruri saydıq. "Aydınlatmalar" adı ilə sərgilənmiş bu bölümdə siyahıya alınmış hər hansı anlaşılmazlığa məqamında və ardıcıllıqla

şərh verilmişdir. Ümumilikdə tətbiq etdiyimiz qaydaları bir qədər də sadələşdirilmiş şəkildə təqdim edirik:

1. Folklor mətnindən sonra verilmiş kod (məsələn, S:10; T:1) aşağıdakı mahiyyətin açılışını şərtləndirir: **S:10** – mətn siyahıda on nömrə ilə işarələnmiş söyləyicinin (yəni, Rəhimov Rəhim Həmid oğlunun) dilindən qeydə alınmış, **T:1** – mətn siyahıda bir nömrə ilə işarələnmiş toplayıcıya (yəni fil.ü.f.d X.Kərimovaya) məxsus mənbədən götürülmüşdür.

2. Mətnin içərisində yer almış simvol **(*)** aşağıdakı mahiyyətin açılışını şərtləndirir: Məsələn, mətndə ulduzla işarələnmiş "göy" sözü kitabın arxasında verilmiş sözlükdə "kürəkən" kimi izah olunmuşdur.

3. Mətnin içərisində yer almış rəqəm (**14**) aşağıdakı mahiyyətin açılışını şərtləndirir: Məsələn, mətndə həmin rəqəmlə işarələnmiş "Vəndam" sözü kitabın arxasında verilmiş aydınlatma bölümündə "Qəbələ rayonunda qəsəbə adıdır" kimi izah olunmuşdur.

Son olaraq deyə bilərik ki, hər bir bölgənin folklorunun öyrənilməsi əslində Azərbaycan folklorunun öyrənilməsi və sistemləşdirilməsi kimi qəbul olunmalıdır. Ümid edirik ki, Göyçay folklorunun öyrənilməsi də ayrılıqda götürülmüş bir rayonun probleminə yanaşma qismində deyil, Azərbaycan folklorşünaslığında irəliyə doğru atılmış növbəti bir addım kimi qarşılanacaq.

**Ataş Əhmədli**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

# MİFOLOJİ MƏTN, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## CİN HAQQINDA

Bizim kəndimizdə cin hakqında belə danışıllar ki, deer, bir kişiin atı varmış töləsində bir-iki baş. Hər səhər durup gedəndə görürmüş atın biri qan-tərin içindədi. Hər səər bıın yorulmuş görür. Bir gün gedir. Deer, mən bına nağayrım kı, görüm bını nədi belə eliyən? Gətirir bı atın yəhərin qoyur. Yəhərin üsdünə, qara qır olur eyy, onu əridir, yayır bı yəhərin üsdünə. Səər-səər gedir, baxır. Görür bir dənə bədheybət. Belə kadına oxşayır. Helə bir dənə cin oturup atın üsdündə. Bı nəkqədə yalvarır, məni aç bırax, sən nə desön, eliyərəm, məni aç, bırax, çıxım gedim. Deeb, yox eyy, helə şey yoxdu. Gətirib bının yaxasına qiyıx sancıp. Cinin yaxasına da qiyıx sancanda o, dəbərə bilmir, heş yerə qaça bilmir.

Bı, deer, sahədə odun, ocax qoymayıb. Həəqi, bizim kəndimizdə olmış bir əhvalatdı. Odun-ocax qalmayıbdı. Bəlkə, iki maşınacan odun-ocax gətirip yığıp həyətə bı cin.

Bı uşağlar həyətdə oynayırmış. Bir gün uşağın birinə yalvarır, nə cürəə. Deer ki, noolar, əyğıma tikan batıp, gəl bı qiyığı bırdan çıxart ver mənə, o tikanı çıxardım ordan. Uşağ da allanır da, nə bilsün ki. Gəlir qiyığı götürür. Qiyığı çıxartcağun cin qaçır, yox olur. O qaçannan soora ora nə qədər odun-ocax yığmışdısa, elliyi bir gecədə yox olur. Daşıyıb aparıb hamısın (S:1; T:1).

***

Keşmişdə dağdan kol qırıllarmış. Körpə balası olan cini – ana olup da bı, tutup gətiriplərmiş. Oon da deer nətəər saxlıyasan. Yaxasına, dərisinə bi dənə sancağmı, iynəmi keçirdirsən. O, deer, heç yerə qaça bilmir onda. Bını da elə

marağçün tutub gətirüblər. Deer o, ancağ axşamçağları olan kimi oxuyurmuş:

Yaxam zalım əlində,
Neynim, ay balam, neynim?

Döşüün birin dala atırmış, birin qabağa, helə zarıyırmış. Tüklü, insana oxşayan bir şey olub. Nə isə, üş gün, beş gün qalır. Bına yazığı gəlib də. Deyiblər, körpə balası var da. Deer:

Yaxam zalım əlində,
Neynim, ay bala, neynim?

Sancağı çıxardan kimi, deer, yaxasınnan, o cin qeyb olub, qaçıb (S:3; T:1).

***

Göyçayda zahı anaları hal anasınnan qoruyullar. Hal anası aparar da zahını. Üssünnən müxdəlif şeylər asıllar: məsələn, qara şüə – muncux, sancax. Deer, qulaxları çəkilir. Məəm yadımdadı ki, üzr issirəm, mən özüm ana olanda qulaxlarım başıma doğru gedirdi elə bil, dəmir darvaza səsi çıxırdı carhacar. Halsızzaşırdım, elə bil, yox olurdum. Onda hamı əl-haya düşdü ki, anaan hal aparır. Düzdü, orda tibbi köməy elədilər. Amma məəm yadımdadı ki, nənəm ara maması idi, sancağ asırdı o, şüə bağlıırdı, şilləliir, qorxuzurdu. Səs çıxardıllar ki, özünə gəlsin. Deellər, filankəsi hal aparır. Xəsdəxanada mənə iynə vırdılar. Qulaxlarım elə bil yerinə qayıtdı həmin cırıltılı səsnən. Onda dedilər ki, hal anasıdı, götürür aparır zahını (S:7; T:1).

***

Xalq arasında belə bir deyim var ki, filankəsi hal apardı. Bu mənim öz başıma gələn hadisədi. Yəni doğum evində ilk

uşax dünyaya gələndə mən yatmışdım, amma yarıoyaq, yarıyuxulu. Yanımda da başqa xəsdələr vardı. Birdən mənə elə gəldi ki, məni hər iki çiynimnən tutup aparıllar. Elə hiss eliyirəm ki, hara gedirəmsə, bir də geri qayıtmıyacam da. Sonsuzduğa gedirəm. Həm də səsimi çıxarda bilmirəm. Elə bil boğuluram. Gündüz idi. Yanımdakı xəsdələr də hiss eliyiplər ki, mən çətin nəfəs alıram. Zarıyıram. Məni çağırıp oyatdılar və dedilər ki, səni hal aparırdı. Bəlkə də, məni həmin vaxd çağırıp oyatmaseydılar, mən boğulub ölərdim. Ayılanda qan-tər içində idim. Başımda da qırmızı ləçəh vardı. Ləçəyi aşdılar və dedilər ki, nahax qırmızı ləçəh bağlıyırsan.

Zahı qadın başına qırmızı leçəh bağlamalı deyil. Onda həmin adamı hal aparır. Yaylığına sancax taxsa, daha yaxşı olar. Hal nədisə, o, iynədən, sancaxdan qorxur. Dünyaya təzə uşax gətirən, qırxı çıxmamış ana başıın altına qayçı, bir qırıx çörəh qoysa, yaxşıdı. Anamnan eşitmişəm ki, pıçax da ola bilər. Yaxud da qayçının arasına pıçağı qoymax daha kəsərri olur (S:8; T:1).

***

Bir məllim vardı. O danışırdı ki, bizim kəndimizdə bir xaraba ev vardı. Hamı deerdi ki, orda cin var. Amma mən inanmırdım. Bir gün ordan keçəndə gördüm ki, o xarabalıxdan səs gəlir. Getdim ki, xarabalıx olan evdə toydu, evin də içi bir gözəl bəzənip ki, gəl görəsən. Elə bil şaddığ evidi. Bir cah-cəlal...

Getdim mən də oturdum. Gözzərimə inammıram. Pişiyimiz də orda oturup. Hamı oynıyır, pilo-zad. Bir gəlinin də əynində mən yoldaşıma aldığım təzə donnan. Qəssən əlimi piloun yağına bılaşdırdım. Girdim bılarnan oynamağa. Oynadım, fırrananda qəsdən əlimi gəlinin kürəyinə vırdım. Pişiyimizə də "xanım, dur oyna" dedilər. Pişih indi bir oynamax

oynıyır. “Bissimillah” dedim, gördüm ki, o andaca hər şey yoxa çıxdı. Xarabalıx da yenə oldı əvvəlki kimi. Durdum getdim öyə. Dedim ki, arvad, sənə aldığım o təzə donu gətir bıra. Arvat çamadanı açıp donı götürəndə çığırdı ki, a, bına qurd yağı sürtüplər. Dedim sakit dur, qurt yağı sürtmüyüplər. Pişiyə də dedim ki, “xanım, dur oyna”. Pişih çığırdı, qaşdı getdi öydən. O gedən oldı. Onnan da yoxa çıxdı (S:10; T:1).

***

Nənəm danışanda eşitmişəm ki, bir kişi at belində gedirmiş. Görür ki, toydu. Qızzar, gəlinnər yiyib-içillər, çalıb-oynıyıllar. Bı da mağara yaxınnaşanda bını da dəvət eliyillər. Bı da gəlir oturur toyda. Bına sinidə pilo gətirillər. Döşəməli aş, bəzəhli-düzəhli. Kişi isdiyir ki, yisin. Əlin yiməyə atanda “bissimillah” deer. Deyən kimi də görür ki, sinidəki hamısı mal təzəyidi. Toy-zad da, adamlar da yox olur.

Başa düşür ki, bı cinnərin şənniyi olup. Cinnər bını yeməyə dəvət eliyip. Əyər bı “bissimillah” deməmiş yiməyə başdaseydı, bı da cinnərə qoşulaceydı.

***

Cinnərnən bağlı başqa bir rəvayətdə var ki, bir gəlin axşam vaxdı evin fərşinin altında çimirmiş. Görür ki, bir gəlin bına tərəf gəlir ki, bına kömək eləsin. Bı da gəlini tanımadığına görə yaxasınnan sancağı açır ki, gəlinə batırsın. Gəlin yaxınnaşanda sancağı batırır o gəlinə. Gəlin yoxa çıxır.

***

O vaxda nənəm deerdi ki, gərəh adamın üssündə iynədən, sancaxdan nəsə olsun ki, cin ona yaxın durmasın. Bir də həmişə “bissimillah” desin. Soora da deerdi ki, axşam vaxdı fərş altında çimməzzər. Cin-şeytan oları onda aparır,

qorxuzur. Adam axşam vaxtı çiməndə, gərəh ki, birinci dəfə suyu başınnan tökəndə “bissimillah” desin. Yanında kimsə olmalıdı. Gün dönənnən soora adam başın yumaz, çimməz. Nənəm həmşə deerdi ki, o vaxdar – şər qarışan vaxdı oların gələn vaxdıdı (S:17; T:1).

***

Göyçay rayonunun Bığır kəndində Daşdəmir addı qoca bir kişi yaşıyırmış. Günnərin bir günü kəndə xəbər düşür ki, Daşdəmir kişi cin tutub. Dedilər ki, ay aman, nətəər tutub? Tutub da. Həyətində odun daşıtdırır. Gəlillər baxıllar. Kişi deyir ki, gəlmiyin, baxmıyın, qorxarsuz. Kişi cini tutan kimi iynə sancır onun yaxasına. İynəni sancan kimi cin heç hara gedə bilmir. Həyətin işin gördürənnən soora, odunun-ocağın daşıtdırannan soora öyün arvadı deyir ki, kişi, cini burax getsin. Kişi arvada peşman-peşman baxır. Soora iynəni cinin yaxasınnan çıxardır. Çıxardan kimi cin yox olur, bir də geri qayıtmır (S:29; T:2).

***

Alxasafa kəndində Şıx Süleyman addı ağsakqal kişi yaşıyırmış. Sənəti pinəçi imiş. Özü də şair imiş, yaxşı şeirrər yazırmış. Kənddə də su az idi, milləti idarə eləmirdi. Bu kişi gecənin bir aləmində gedər ki, Xan arxınnan su buraxsın. Bunun da pinəçi olduğuna görə yaxasında qıyığ olar. Gedib görür ki, bir dənə əcayib, insanabənzər bir məxluq arxın qırağında oturub insan çalatı (içalat, qarın-qarta) yuyur. Kişi tez başa düşür ki, bu o gözəgörümməzdərdəndi, cinnərdəndi. Qıyığı çıxardar, tez sancar bunun yaxasına ki, qaçammasın. Sonra Şıx Süleyman “Bismillah” deyər, həmin məxluq yerində donar qalar, heç hara qaçammaz. O zaman buna hal deyirdilər. Hal Şıx Süleymana deyir:

– Səni and verirəm Allaha, məni burax, bu qıyığı çıxart mənim yaxamnan, mən gedim.

Şıx Süleyman deyir ki, çıxartmıyacam. De görüm bu kimin çalatıdı, burda yuyursan? Hal deyir ki, təzəcə uşağı olmuş bir qadının çalatıdı. O vaxtı deyirdilər ki, filankəsi hal apardı. Uşağ üsdə ölən qadınnar olub onda.

Şıx Süleyman hala deyər ki, buraxmaram səni. Hal deyir ki, onda belə eliyək. Ala mənim papağımi apar. Sizin yeddi arxa dönənuuza mən dəymiyəcəm. Hansı arvad azarrıyır, arxayın azarrasın, uşağı olsun, ölmiyəcək o. Görsuz ki, ölür, vəziyyəti ağırdı, onda bax bu papağı qoyarsuz o qadının başına. Hal Şıx Süleymana bir də deyir ki, səni Allah-Taalanın cəlali-izzətinə and verirəm, məni burax, gedim, məni öldürmə.

Kişinin də əlində bel vardı. O, Allahın adını çəkdiyinə, dərinnən Allahın cəlali-izzətinə and verdiyinə görə Şıx Süleyman qıyığı çıxardar halın yaxasınnan, bunu buraxar, amma papağı gətirər. Biz lap uşağ idik, deyəllərdi ki, filankəs azarrıyıb, gedin o Süleyman kişinin papağını gətirin. Deməli, bu papax Süleymannan qalıb oğlu Hacıya, Hacıdan qalıb oğlu Süleymana. O papax da 50-ci illərə qədər məhlədə hərrənirdi. Qadınnardan kim azarraseydi, kimin çətin uşağı olurdu, aparıllardı o papağı qoyullardı onun yanına ki, hal aparmasın.

***

Bədəl addı kişinin Tubu adında gəlini varmış. Tubu özü molla qızı olub. Onun getdiyi yer də dindar olub. Tubu 14 yaşınnan namaz qılıb, oruc tuturmuş. Qadınnarın uşağı olub qırxlı olanda Allah-Taala onun namazını bağışdıyır, deyir, qırxın çıxanacan qılma. Tubu, Allah bağışdiyanın da qəzasını qılırmış.

Bir gecə oruşduğ imiş. Bunun da oğlannarı hacıya gedib. Hacı Ömər, Hacı İsrafil onun oğlannarı idi. Hamısı öylənib ayrılıb. Bu da bir dənə evdə bularnan qonşu olur.

Durub obaşdannığa dəsdamaz alıb. Qapıda da şah tut var idi. Çıxıb çölə görüb ki, şah tut üzü qibliyə yıxılıb. Tubu arvadın da bir inəyi varmış. Gətirib bu inəyi bağlıyıb ağaca ki, inək yarpaxlardan yisin. Sonra arvad obaşdannıx orucunu yisin, namazını qılsın, inəyi sağsın, aparsın qatsın mala. Arvad orucunu yiyib, namazını qılıb çölə çıxmamış görüb ki, inəy anqırdı. Çıxıb çölə görsün ki, inək niyə anqırır. Görüb ki, yıxılan ağac durub ayağa, inək də asılıb. Ay aman, ay Ömər, Ay İsrafil, gəlin inək asılı qalıb. Tez hamı yığışır. İnəyin kəndirini kəsillər, inək gubbadan düşür yerə. Demə, bu gecə qədr gecəsi imiş. Qədr gecəsi hərdən-birdən olur, onu hələm-hələm adam görə bilməz. Arvad elə bilib ki, ağac özü yıxılıb. Sabah açılanda ağac durub ayağa (S:30; T:2).

***

Göyçayın Bığır kəndindən olan bir sütdaşıyan şofer bir gün rəvayət elədi ki, axşam sütdəri təhvil verib qayıdanda gördüm ki, bütün kənt yolun qırağına yığılıb. Çalıb-oynuyullar, yiyib-içillər. Birdən mənim adımı tutub çağırdılar. Gördüm əmim oğlu, dayım oğlu da bırdadı.

Bılara dedim:

– Bı nə işdi? Bırda nağarırsuz?

Olar dedilər:

– Kef eliyirik daa, qardaş. Sən də otur, yiyib-içəh, gedərsən.

Bizim kətdə də bir cavan oğlan var idi, bir həftə idi ölmüşdü. Gördüm ki, bı da bırdadı. Öz-özümə dedim ki, bir həftədi bunun öldüyü. Bı nətəər ola bilər, dirilib yəni? Tez otdum maşına. Mənə dedilər hara gedirsən?

Qapıların düymələrin vırdım. Həmin o ölmüş oğlan başdadı maşının dalınca yüyürməyə. Tez şüşələri də qaldırdım. Başdadım maşını bərk sürməyə. Həmin oğlan elə hey “saxla, saxla, hara gedirsən, yekə kişisən” deyə qışqırırdı.

Maşını nə cür sürdümsə, heş bilmədim. Birbaşa öz qapımıza. Dirədim seyvana. Darvazamız da açıq idi. Birdən gördüm kı, maşınnan kimsə hoppandı, düşdi. Dedim yəqin düşüb kuzıya mindi. Kuzıya baxdım, o görünmürdü. Evə bir-iki siqnal verdim. Gördüm çıxan yoxdu, camaat yatıb. Özümü “ay dədə” deyib nə təhər seyvana tulladımsa, səsə ayıldılar. Dedilər noolub, nə baş verib? Dedim, bəs bir həftə qabağ ölmüş cavan oğlan kuzadadı. Çıxıb baxıllar, görüllər ki, kuzada adam yoxdu. Demə, bu gözümə görünən cin imiş.

***

Günnərin bir günü, uşağam, anam dedi:

– A bala, get əmingildən çörəy al gətir, qonağımız gəlib.

Əmimgil də qonşuluğumuzda olurdu. Bacımnan getdim. Bacım da mənnən beş-altı yaş böyüg idi.

Ay işığıdı. Kitabı götür oxu, aydınnıxdı. Qayıdanda gördüm ki, küçənin yuxarısınnan bir qadın gəlir. Dedim bizim kətdə bir Zeynəb var idi, yuxarı ərə getmişdi. Elə bildim odu. Amma bu ləhliyir, dili yarım metrə çıxmışdı. Qurşaxdan yuxarı qıpqırmızı, saş-maş qarışıx. Qurşaxdan aşağı qapqara kösöy kimi.

Durdux yolun ortasında. Mən, bacım, it də yanımızdadı. Bu gəlib çatanda baxdım, bacım yoxdu. Dedim yəqin evə gedib. Uşağam, hiss eləmirəm axı burda nəsə var. Bu gəldi, yolun tən ortasında dayanmışam. Amma ləhliyir gəlir, dil çıxıb yarım metrə. Bu gəldi mənə çaldı, gördüm yerində addımlıyır. Soruşmağ istiyirəm ki, Zeynəb, qardaşın xəsdə idi, necə oldu? Dilim gəlmədi, dilim tutuldu. İt də baxır bına. Dedim qoy yoldan çəkilim. Yoldan çəkilən kimi bı mənə sürtündü getdi. İt bını aparıb yola saldı oynuya-oynuya. Deməli, həmən gecə nə varmış? Bir qadının uşağı olurmuş. Hal düz gedib ora, gəlini incitməyə. Gəlinin də üç-dörd qardaşı vardı, qaynı vardı. Həmən gecə bir qız uşağı olub, adı da

Tərlan. O Tərlan hal-hazırda yaşıyır. Bir adət varmış, ağsakqallar bilirmiş. Uşağı çıxardıblar bana, xalbırın altına. Elə edəndə hal əl çəkib gedir, qadına dəymir. Uşax qalıb orda soyuxda. Uşağın gözdəri həmin gün çəpləşib.

***

Günnərin bir günü Telli arvad Göyçayın Çərəkə kəndinə toya getməli olur. Bir arvad yolda bını alır dalına, çaydan keçirdir. Toyda oturur bının yanında, doyunca yiyir. Görüllər ki, bı arvad çatan kimi boşqab boşaldı, yenə gətirillər. Deyillər ki, bı arıq arvaddı, nə qədər yidi.

Yenə qayıdanda alır bını dalına, keçirdir bu üzə. Telli arvad gəlib yatır. Axşam əri gəlir öyə. Görür ki, bı yatıb.

Kişi diyir:

– Arvad, dur mənə çörək bişir.

Arvad diyir:

– Ölürəm, yorulmuşam.

Kişi diyir:

– Nağarmısan ki, yorulmusan?

Arvad diyir:

– Çərəkiyə toya getmişdim.

Kişi diyir:

– Kimnən getmisən? Çaydan nətəər keçdin?

Arvad diyir:

– Günü bacım məni aparmışdı, çaydan da keçirtdi.

Arvad günü bacım deyən kimi cavan, kukla kimi gəlin görsənir. Kişi bına çəp-çəp baxır. Soora həmin gəlin arvada diyir ki, heyif, mən sənə çox şey verəceydim. Diyib yoxa çıxır.

***

Bir Telli arvad var idi. Bının da əri savadsız adam idi, çoban idi, kolxozun qoyunun güdürdü. Bı arvad iş görür. Bir

də görüllər ki, bı arvad işi qutardı. Bı nətəər oldu? Bılar dən gətirillər. O vaxtı quraxlığ olmuyub, dəni bana çıxardırdılar. Arvad diyir, siz çuvalın ağzın bağlıyın, bir az qaldırın, mən özüm yuxarıdan dartacam. Bir az belə eliyillər, görüllər ki, 50 kilolux dən getdi. On dəqiqə çəhmədi, dən qutardı. Sən demə, bir nəfər qadın bına kömək eliyirmiş. Bını ancax Telli arvad görüb. Arvad hara gedirsə, bı da gedir. Arvad yer süpürəndə çoxsun bı süpürür. Sora odun gətirəndə çoxsun bı gətirir.

***

Günnərin bir günü yeddi nəfərnən Baba dağına ziyarətə getmişdim. Altı dənə də atımız var idi, ikimiz birinə minmişdik. Atdarnan düz çıxdıx Baba dağına. Qayıdanda da soyux, qar. Qara qurd düşüb, dozanqurdu boyda. Qayanın içində adi nəlbəki boyda bir bulax var. Stəkanı vırırsan, elə bil ki, iyirmi qram su çıxır. Stəkan dolmur. Hamımız susamışıx. Hər yer qayadı, torpax qismi yoxdu. İçirih, işməh də mümkün döyül. Bir qurtum alırsan, dişdər getdi oxalandı. Yeddi nəfərik, içirik, atdar da var axı. Ağzımızdan düşən damcılar da qalır orda. Heş yerə getmir. Bax elə vırıb çıxardırıx. Biz doydux. Su o qədər soyuğ idi ki, atdar da içə bilmirdi. Həmən su nə azalır, nə üstünə gəlir. Atdar işdi, doydu, gərnəşdi, o damcılar da orda qaldı. Bını mən demirəm. Bını ora gələn zəvvarrarın hamısı diyir. Hamısı o işin şahidiydi (S:32; T:2).

***

Rəhmətdik yoldaşımın dayısı o vaxdı suçu idi. Pambığ əkirdilər. Gəldi didi ki, gecə idi, məni cinnər apardı. Didi məni apardı cinnər ki, gedək, yaxşı orda toy var. Züy-balaman çalınır. Keçmişin qara zuma-balamannarı çalınır. Getdim, gətdilər qənşərimə bir nimçə ploy qoydular. Didilər bu ployu yi. Əl atanda gördüm, heş nə yoxdu. Durdum ordan qaşdım

gəldim öyə. Arvadıma didim ki, mənim başıma belə bir oyun gəlib. Bacım da bizdeydi. Bacım didi ki, atam, adam hər diyilənə qaçar? Sən bəs niyə "bismillah" eləməmisən? Didim bacı, "bismillah", nə qədər elədim, yadıma düşmədi.

***

Şəhadət kəndində Yeddibulaxda yoldaşım qarolçu idi. Sağına gedirdih. Kişinin at arabası vardı. Bir də gördüm dedi ki, nəsə mənim başıma yığıldı. Kişilər, arvatdar çala-çala. Dedilər, dur ayağa. Arabaan üş dəfə qalxızdılar, qoydular yerə. Dedim ki, dəymiyin mənim arabama. Dedilər ki, malları da qıracıyıx, səni də öldürəciyih. Birdən "bismillah" yadıma gəldi. Ayıldım gördüm nə tas var, nə hamam.

***

Çoxdanın əhvalatıdı. Həqiqi bir dənə ağ ayı gəldi otdu pilləkanda. Dedi, ya baluu aparacam, ya səni öldürəcəm. Dedim, nə balamı verəcəm, nə məni öldürəəsən. Ayının məmələri də yerə dəyir. Ayı didi ki, nə səbəbə öldürəmmiyəcəm? Didim mənim ağır öliya Sofı Əbil babam var. Bı çıxdı getdi. Dilim batdi. Durdum qaşdım qooşiya. Ağzım-bırnım, həqiqi, nə günnərə düşdi (S:33; T:2).

***

Həşdat altı yaşında dünyasını dəyişib Mirəddin kişi. Oğlu Sədrəddingildə oturmuşduq. Dedi, bir gün taxıl suliyırdım axşamtərəfi. Lapatkaan vurdum yerə, dedim ki, bir tikə gedim çörəh yeyim. Bir az sahədən aralanmışdım ki, gördüm səs gəlir. Ay Mirəddin, ay Mirəddin hara gedirsən? Deeb, çörəh yeməyə gedirəm. Deeb, elə toydu, gəl bırda çörəyuu yi (toy qapısında). Gəldik gördük çal-çağırdı, kənd camaatı da bırdadı. Hətta on-on beş gün bından əvvəl

dünyasın dəyişmiş adamlar da bırdadı. Məətəl qaldım, dedim bəlkə mən səhf eliyirəm. Gətirib qabağıma yemək qoydular. Yarpaq dolmasına oxşiyır, amma iridi. Mən də çörəh yiyəndə bismillahnan başdiyıram. Elə əlimi çörəyə uzadıb bismillah dedim, gördüm nə toy, heş-zad yoxdu, elə otumuşam quru yerdə. Qabağımda da yarpağdı, üssündə də mal təzəyi. Bismillah eliyə-eliyə getdim evə. Arvad gördü ki, evə çatanda, rəngim-ruhum ağarıb. Deeb, səə nolub belə? Kişi də başına gələni danışıb arvada. Arvad da der ki, ə kişi, sən o dolmanı yaxşı ki yeməmisən, cinnər sənə dolma yedirtseydi dəli olacağdın. Yaxşı qutarmısan. Onnan soora hər bir iş görəndə, hətta yerdən daş götürəndə də bismillah deyirdim.

***

Zərdabın Bıçaqçı kəndinnən uzax qohumumuz Əliqulu kişi bir günnəri bizə qonaq gəlir. Olardı doqquz-on yaşım. Əvvəl rəhmətdik Tapdıq babamnan danışdı. Uşaqları qalmazdı. Babamın yaana gəlib ki, övladımız qalmır. Anama danışırdı ki, sənin rəhməttik atan Həmzət duası yazannan sora övladımız qaldı (ölmədi). Söhbət əsnasında anam soruşdu ki, o sənin atuu qaçırırdılar, o nə məsələdi? O da başdadı danışmağa (Yaxşı tolası var idi, on metr). Səhər tezdən atı sua çıxardanda gördüm ki, atın yalından su axır. At da qan-tər içindədi. Kəndin savaddı mollası var idi. Əhvalatı ona danışdım. O da məsləhət bildi ki, (deeb ki, cindi) bir topa iy-nə götür, at o baş-bu baş gedəndə, sən, bəri qayıdanda topa iynəən atın üstünə at. Onda cin görünəcək. Mən də gəldim, mollanın dediyini eynilə etdim. Əlimdə bir topa iynə qapının ağzında dayandım. Fanarı da çöldə qoydum. At irəli gedib mənə sarı qayıdanda topa iynəni atdım atın üstünə. Bu vaxtı fənəri götürüb saldım atın üstünə. Gördüm bir qadın oturub atın üstündə. Bı başdadı mənə yalvarmağa ki, üstümdəki

iynəni çıxart, sənə heş nə etmərəm. Amma mən o deyəni etmədim. At da qan-tər içində idi. Getdim mollanın yanına və dedim ki, necə demişdin, elə də etdim. Atın üstündə cini tutmuşam, indi neyniyim? Molla da deeb ki, get nə işin var, ona gördür. Gəldim evə. Dedim mənim otumu yığarsan (ot vaxtı idi). Dedi niyə yığmıram. on dört metr uzunnuğu, yeddi metr eninə tayaan yığdı. İki illik odunumu da bına yığdırdım. Gördüm ki, bı hamilədi. Getdim ki, molla, bı hamilədi. Molla deeb ki, and içdir bizi yaradana, sora bırax. Deeb and içirəm ki, nəsil-bə-nəsilua, uruğ-ba-turuğua bizdən sənə xətər yetmiyəcək. Soora əl atdım bının yaxasına, iynəni çıxartdım. Və bı elə oninan da yoxa çıxdı. İndi təsdiq olunur ki, bizdən kənarda da aləm var və oranın da sakinləri var (S.35; T.3).

## KƏBLƏ SEYİD BABANIN KƏRAMƏTLƏRİ

### I

Kalba Seyit babagilin əsilləri Lahıjdandı, İsmayıllıın Böyüg Lahıcınnan gəlib atasıgil bizim kəndə. Özü də, oğlu-qızı da rəhmətə gedip. Nəvələri var. Bir nəvəsiin adı Dilşaddu. Kəndin yuxarısında olur, kanaldan yuxarıdadu evi. Kimin nə dərdi varsa, gedir. Ziyili olan, nə bilim mən, dəmro kimi, gecəyanığı* deellər, adıyox* deellər – helə xəsdəliyi olannar gedir ona. Həmin yerin qırağın Quran hərfiynən yazıya alır – bədənin harasındadısa, oranı. Üş dəfə yazannan soora təmiz o gedir. Bədəndə qızartı olur, qaşınma olur, dəri xəssəlihləri da. Dərdi olan kim olsa, onun ocağına gedir, şəfa tapır (S:2; T:1).

### II

Özüm bir dəfə məhdəpdən gəlirdim. Mənim əlli beş yaşım var. O vax beşdə oxuyurdum. Gördüm ki, rəhmətdih Kalba Seyit baba gedir mənnən bir əlli metr qabaxda. Yol

tozduğ idi, kənt yoludu da. Gəldim ləpirinnən götürdüm, əllərimdə ziyil variydi, sürtdüm əllərimə. Dedim ki, ay Kalba Seyit babanın cəddi, bı ziyil nədüsə, mənnən getsün. Nə bilim üş gün keşdi, dört gün keşdi, yadımnan çıxdı. Bir də gördüm əllərim tərtəmizdi.

**III**

Həməşə də aparıb, Kalba Seyit babaan üsdündə nar kolu var, gül kolu var, niyət eləyürüg, yaylığımızın ucunnan bağlayırux. Nəzir eləyürüg. Qurbannar gəlür kəsilür oun üsdündə. Başqa rayonnardan, qooşu kətdərdən, Bakıdan, Mingəçevirdən gəlillər. Çox ağır seyitdü. Həm də ki, şəfası bizə düşür. Azarrayuruğ, nəzir eyləyürüg, xorəy bişürüb aparurux, onun ehsanınnan halva bişirüb paylayuruğ, qurban kəsüb paylayuruğ (S:3; T:1).

**IV**

Bını yaşdı adamlar danışanda eşitmişüg. Kəndimiz yanırmış. Əvvəllər bırda taxıl sahəsi olub böyük. Nədənsə od düşüb yanıb. Gediplər Kalba Seyit babanın üssünə ki, bəs yanır, amandı, dada çat. Deer, getdi dağa, bax bı Əsgərbeli tərəfə. Qalxıb dağa, əlin götürüb Allaha, iki rükət namaz qıldı. Əsgərbeli bızdə bizim qəbrəsdannığın yanındadı. Əlin götürüb Allaha ki, ya Allah, kəndə dömmərəm, sözümü eşit, kəndə dömmərəm.

And içillər, o dağdan – o dağ da elə bizim ərazidi – ordan düşüb gəlincən suyun içində olub, kəndi day sel götürüb, az qala. O formada yağış yağıb (S:4; T:1).

**V**

Bizim kəndimiz dinə çox etiqat eliyəndı, çox. Lap savet döründə o təzziq olan vaxdı, bizi qoymurdular, ateizm idi. O vaxdan da bizdə həmişə adət-ənnənə sürüb. İmamların

təziyəsin həmişə saxlamışıx, xəlvət də olsa. Kəndin meçidi olub. Meçidə qoymayıblar. Dağda, dərədə həmişə o aşura günnərin qeyd eləmişüh. Ağköynəy də olublar, başun da yardurublar xəlvətcə. Hökümət qoymurdu. Özümüz də məhzəbimiz – altıncı imam həzrəti əleyhissalam Cəfəri Sadiq məhzəbinnənük. Həmmişə də etiqadımız var, lap güjdü. Kəndimizdə seyitdər də var. Deellər həmən imam Cəfəri Sadiq törəmələrinnən, peyğəmbər törəməsidi da seyitdər. Olardan bizim kətdə xeylax var. Həməşə olara hörmət eyləyirük. Ocağlaruna gedirük, nəzir qoyuruğ. Ən böyüyü – kəndimizdə Kəlbəlayi Seyid Rza var. Kalba Seyid ağa deyürüh. İndi rəhmətə gedib o. Oğlu-uşağı da var. Nəzir aparurux qəbrini ziyarətə. Qəbrin ziyarət eləyirük. Güjdü seyitdi, inamımız var. Həmişə də onnan şəfa tapırux. Onun törəmələri var. Çox idi onun möcüzələri. Gözü zəif görənə o kişi tüpürürdü. Oun tüpürcəyi dərman kimiydi, şəfa verirdi. Əldə ziyil əmələ gəlirdi, yara olurdu. O tüpürürdü, gedirdi. Hətda onun ləpirinin yerinnən toz götürürdülər, həmin yerə sürtürdün – xəssə yerə, o, onu aparırdı. İndi də helədi. Oun qəbriin torpağınnan gətirib lazım olan yerə vırırsan. Başın ağrıyır, oxalayırsan, boynuuzaduu, soora yara-xora yerinə kimyə eləyib sürtürsən. Helə möcüzələri var.

## VI

Anamgillər danışardı ki, bı müharibə illərinnən soora hər tərəfdə ajdığ olub. Seyidin arvadı danışıb (söyləyici seyidin adını demədi – top. X.K.). Bilməyib, danışıb. Hər səhər gələrmiş, açırmış o seyidin arvadı, görürmüş bının təhnəsi bişmiş isdi çörəynən doludu. Özü eləməyib. Üssünnən bir xeylağ keçüb bı ajdığın, bı arvad dözməyib. Arvadı seyit döördü. Qooşusuna deyib ki, bəs bizim öymüzdə belə bir möcüzəmiz var: hər səhər göörrəm ki, teşdimiz, təhnəmiz isdi çörəhnən doludu.

O günün səhəri arvad yenə də səhər durub baxıb, danışannan bir gün soora. Görüp ki, nə çörəh var, nə də heş nə.

## ARPANI DİVARA YERİDƏN MOLLA

Kəndimizdə molla Bayraməli olup. Duadan, faldan, cadudan da başı çıxırmış. Kəndin cavannarı ona inanmayıblar. Deeyiplər ki, səən bı əməllərüün kəraməti varsa, bı arpaan dıvara yerit. Öz tay-tuşdarı topalaşıp, deyip bını.

Bılar bir ouc arpanı töküplər yerə. Bı da başdayıb oxuyub. Kişi oxuduğcan arpalar başdayıb dəvərişməyə. Yanındakı addamlar vahimələniplər, qorxuplar. Görüblər ki, yavaş-yavaş arpalar başdadı divara dırmaşmağa. Bılar başdıyıp qışqırışmağa ki, molla, eləmə, bəsdi, qorxurux. Həqiqi, kəraməti vardı oun elədihləriin.

## ƏLƏDDİN BABANIN KƏRAMƏTİ

Qoşu kətdə Ələtdin baba var – şıx Ələtdin. Yayın lap isdi vaxdında – cırcıramasında* bılar topalaşıplar. Camaat topalaşdığı yerdə bına şəkk eləyiblər, gülüblər ki, səən nə cətdün var, nə kəramətün var. Deep ki, bı saat isdəsön, mən Baba dağınnan qar gətürərəm. Deyüblər ki, hə, gətür. Deyib, Allah sizə nəhlət eləsün. Üzün, deer, çöörüb oana, görüp əakqabısının burnunda bir topa yumurta boyda qar. Gösdərip bını yanındakılara. İndi də yaşayır o adam. İnçədə – qooşu kətdə yaşayır[8] (S:1; T:1).

## HAQLIQ MUNCUĞU

Kəlbəlada bir muncuğ var hakqıx deyillər adına. Bınnan qa-bağ ölülərimiz rəhmətə gedəndə tez onun ağzına qourdular – dilinin altına. O, diliin altında o dünyaya onu aparırdı.

Deellər ki, o dünyada onu durğuzub sorğu-saval eliyəndə hakqıx çox köməy eyləyir ona. Hər şeyin düzün deyir, tez deyir – əzapsız, əziyətsiz.

O hakqıx kimdə varsa, qaranquşun yuvasına qoanda qaranquş onu saxlayır yuvada. Köç olanda, sentyabır ayında quşdar köçüb gedəndə həmən quş onu yuvadan götürüb dimdiyində aparır düz Kəlbəlaya (S:2; T:1).

## MÜSƏLMANLARIN ƏLİSİ

Bı ermənilərnən ara qarışdı. Qooşu rayonda – İsmayıllının Kəlbənd kəndində ermənilər yaşayırdı. Bizim kəndnən də əlaqələri vardı. Gəlirdilər, gedirdilər. Olar köç eliyəndə, uje veşdərin yığıb hamısı yığışıb gedillər də yurtdarına, maşınnarı batıp palçığa. Deellər ki, nə qədər eliyillər maşın çıxmır palçıxdan. Vəziyyət də çox gərgin idi. Bıın erməni danışıb o vaxdı. O batağlığdan bizi heş nə çıxardammırdı. Deep ki, əlimi götürdüm Allaha ki, ya müsəlmannarın Əlisi, köməyimə gəl. Deer, maşını, elə bil, kimsə əlinən götürdü, qoydu qırağa (S:4; T:1).

## DURNAYA DUR DEYƏN BABALAR

### I

Ana babam Mırtı şıxlarınnandı. Durnıya dur deyən babaların nəslinnəndi. Həmin nəsildən olan Hacalı baba mənim babam olup. Onun həyətində hələ də kümbəzi var, ocağı var. İndi onun evində gəlini yaşıyır, nəvəsi yaşıyır. Hacalı babaan öz oğlu tez rəhmətə gedip. Kişi oğlunnan çox yaşıyıp. Gəlini deer ki, indi də bir vaxd var, təxminən bax bı may ayında. O vaxdı bı kümbəzə nə qədər ilan gəlir. Hamısı ziyarətə gəlir. Deer, səhər durup görürüh ki, həyətin hər yeri

ilandı. Bircəciyi bizə toxummur. Hamısı gəlir o kümbəzin yanında onu ziyarət eliyip gedillər.

Hə, anam belə danışırdı ki, Hacalı babanın nəslinnən olan baba – onun adın bilmirəm, adın demirdilər, ona durnıya dur deyən baba deyiplər həməşə. Həmən o baba bir gün namaz qılanda – namazın həməşə həyətdə qılarmış. Yanında körpə bir uşağ olup. Evdə heş kim olmıyıb, uşax başdiib ağlamağa. Düşüp bı namaza tərəf, bı kişiyə tərəf gəlip. Kişi də namaz qılanda görüp ki, göydən durnaların səsi gəlir. Həmin durnalar göydən enip bı uşaxnan oynıyıp. Kişi namazın qutarannan soora durnalar uçup gedip. O vax-dan qalıp ki, durnıya dur deyən babadı o.

Mırtı şıxları hamısı durnıya dur deyən babaan nəslidi. Olar əldə ziyil olur ha, o ziyilə tüpürəndə ziyil gedir. O baba indi özü yoxdusa da, kəraməti oğlunnan nəvəsinə keçip. İndi hal-hazırda onun nəvəsi yenə o həyətə – o ocağa gələnin ziyilinə tüpürəndə ziyil gedir. Yəni udumdu da, udumu keçip. Bıın udumu var (S:6; T:1).

## II

Mırtıda, deyillər, lap keçmiş zamannarda Durnatutan babalar olub, indi də oların nəsilləri durur. Yəni oların ocaqları durur. Deyilənə görə, o ocağın lap əvvəl şəcərədən olan ən əvvəlki bir adamın arvadı ölür, lap körpə uşağı qalır. Bütün gün uşağ ağlıyır. O, uşağı saxlıya bilmir, uşağın əlində aciz qalır. Yəni uşağ anasının kürrüyün eliyir əslində. Bu zaman da durnalar köç eliyib gedillərmiş. Uşax durnaları görür, deyir ki, mən o durnanı is-diirəm. Deer, o durnanın birin məmçün tut, ver. Ata uşağın qabağında aciz qalır və durnaları haraylıyır. Deer ki, bu uşağın ağlamağına dözə bilmirəm, sizdərdən biriniz ayrılın gəlin, bu uşax sizi oynatsın, soora yenə uçun gedin.

Ataan səsin eşidir durnalardan biri, qatarından ayrılır, gəlir uşağın qarşısında qonur yerə. Uşax da onu əzizdiyir, oynadır. Həmin müddətdə də yuxarıda qatarraşıb gedən durnalar getmir, oların başının üsdündə – həndəvərində fırranır. Uşağ oynadannan soora ata deir ki, bax görürsən, olar necə fırranır, getməy isdəmillər, öz yoldaşdarın gözdüyüllər. Burax ki, o birilər də uçup getsinnər. Uşax bu durnaan buraxır, durnalar  uçup gedir. Ona görə də o nəsil adlanır Durnatutan babalar. Yəni durnalar ataan səsin eşidib, yerə endiyinə görə. İndi də həmin ocax qalır, adamlar ora  ziyarətə gedillər. Bı kətdə olara şıx deyillər.

Həmin Durnatutan babanın uşaxlarınnan biri kəndin yuxarı başında olur – İsrəfil baba deyillər. Hal-hazırda yaşıyır. İndi də ora ziyarətə gedillər. Biri isə kəndin aşağı başında olur – Mecid baba diyərdilər. O, mənim nənəmin qardaşı olub, Mecid şıx deyillər. Soora onun oğlu Abdulmecid dayı olub, o da rəhmətə gedib. İndi onun yerində oğlanları qalıb. Həmin ocax da durur. Ziyarətgahdı (S:8; T:1).

### III

Keşmişdə Göyçayın Mırtı kəndində bir kişi yaşıyıb. Bu kişinin nəsli ocax nəsli idi. Kişi bir gün namaz qılırmış. İsdi vaxdı olur, namazı eyvanda qılmalı olur. Bu kişi namaz qılanda onun nəvəsi ağlıyır. Kişi deyir:

– Allahu əkbər! Allahu əkbər! Bu uşağın səsini kəsin də, namaz qılıram mən!

Gəlin, arvad buna qulax asmıllar, uşağı götürmüllər. Kişi namazı saxlıyır, görür ki, havada durnalar uçur. Deyir:

– Ay durnalar, gəlin mənim bu balamın yanına düşün, balam ağlamasın.

Durnalardan bir dənəsi ayrılır, gəlir düşür uşağın yanına, başdıyır gəzişməyə. Uşax baxır ona, səsin kəsir, kişi

namazın qılır, başa vurur. Soora kişi uşağı qucağına götürüb durnıya deyir ki, uçub gedə bilərsən, azadsan. Durna uçur gedir, yoldaşdarına çatır. Ona görə də onnarın ocaxlarına Durnatutan ocaxlar deyilir. Hələ də Mırtı kəndində onnarın günbəzdəri var, camaat onnarı ziyarətə gedir. Onnarın nəvə-nəticələri, kötücələrinin hamısı şıxdılar, ocaxdılar. Onları acılasan, onnarın haqqında bir söz danışsan, onda zərər çəkərsən. Onun nəvələri bir şeyə gələndə, vermiyəndə biz artıx pis bir hadisə ilə rasdaşırıx ki, gərəh onnarın xətrinə dəymiyəsən (S:29; T:2).

## ATALIĞIN AQİBƏTİ

*Bını bir əza məclisində eşitmişəm. Bir yaşdı kişidi, yaşı həşdat beşdən də çox olardı. Öz uşaxlığınnan danışdı.*

Deer ki, mənim bir on beş-on altı yaşım olardı, anam başqa kişiyə ərə getdi. Bı kişi də mənə çox əziyət verirdi, təhqir eliyirdi, heş nədən dannıyırdı. Yanında diyana bilmirdim.

Bir gün qərara gəldim ki, öydən çıxım gedim. Özümə balaca bir bağlama düzəltdim. Öydən getdim. Xeyli uzaxlaşmışdım ki, o vaxdı zəmilərdə çardaxlar qurullardı günnən daldalanmaxcün, getdim bının birinin yanında oturdum.

Gördüm bir atdı kişi gəlir. Kişi dedi ki, a bala, sən hara belə. Mən də danışdım ki, atalığım məə zülm eliyir, dözə bilmirəm. O kişi dedi ki, sən qayıt evə, o day səni incitmiyəcəh. Kişi mən dilə tutdu. Mən də dedim ki, a dayı, sən kimsən? Dedi ki, məni kəndin mollasınnan soruşsan, o diyəcəh.

Çardağa girdim ki, bağlamamı götrüm. Çıxdım ki, kişi yoxdu. Atın ayax səssərin də esitmədim. Yüürdüm dərədən boylandım, kişiin görmədim. Qayıtdım kəndə gəldim, öyə çatmamış eşiddim ki, atalığım ölüp (S:17; T:1).

## NAXIŞIN YATDI, SƏN DƏ YAT

*Birinə deellər ki, naxışun yatdı, sən də yat, bəxdün yatdı, sən də yat. Bıın açıxlaması var.*

Deer bir tacir olur. Tüccarlığ eləyir. Bir gün parça ölşdüyü yerdə əlində, qabax taxdadan idi axı bı şeylər, görür ki, arşın əlində şıkqatan qırıldı. Elə helə qoyur, çıxır çölə.

Gəlir evə. Deer, mənə pal-paltar hazırroun, mən başqa vilayətə gedirəm. Arvad-uşağ deer, niyə? Deer ki, gedirəm da. Gedir başqa vilayətdə özünə iş axdarır. Bını bir nəfər özünə bağban götürür. Bu bırda bir-iki il bağmannığ eləyir, əkir, sulayır. Ya azar vurır, ya dolu vurır, bar gətirmir. Deer, yoox, deməh, hələ mənə çörəh yoxdu.

Bir ili görür ki, bının almaları necə gətdi, bı bağ-bağat. Bağ bəhər gətirir. Sulayır bağı. Deer ki, ay kişi, sən sağ, mən salamat. Bu bağın, bu baxcon, bı da barın, mən gedəsi oldum. Deer ki, niyə gedirsən? Deer ki, indi mənim naxışım qalxdı, arşınım qalxdı.

Gəlir elinə. Görür, deer ki, həmən o çatdıyan yer düpbədüz düzəlip. Deer ki, arşınım qalxdı, deməк, mənə indi çörəh var (S:21; T:1).

## QARAÇUXANIN OYANMASI

Bir gün qızım zəng vırdı ki, mama, bəs filankəsin oğlun tutuplar. Hərbi tirbunala veriplər. Deellər, qara çuxası yatıp, anan onun qaraçuxasına dua oxusun. Dedim, mən eşitməmişəm Göyçayda helə şey. Məni başa salsın. Nə isə...

Mən də oxudum. Yasin surəsi oxudum adi. Tapşırdım qaraçuxasına. O qədər də ağladım ki, onu oxuyannan soora. Bəkə, Allahın işinə əl apaarram. Allahdan üzürxahlığ elədim. Dedim, bı məən məcbur eliir, mən də bıın eliirəm.

Bir az keşdi. Qızım gələndə dedi ki, dəhşət oldu. Oğlanı keçirtdilər, əsgərriyə göndərdilər. Türməsin ləğv elədilər.

## DUANIN GÜCÜ

Bını qızım gedib evlərində danışıb, ügey qaynanası var. Oların da oxumuş bir qız var imiş evlərində. Yaxşı da qızdı, deer. Gəldi yalvardı ki, mama, sən Allah, o da eşidip mənnən, ona da dua oxu, baxdı açılsın. Dedim, sən nahax deersən da, mən utanıram. Elə cindarrıx kimi şey oldı ki bı. Onnan soora oxudum, bala.

Bir ay keşmədi. Allahın adı hakqı, o qızı ali savatdı oğlan aldı. Yatıpbış qaraçuxası da yəni. Heş kəs bəxdi bağlammax demədi ona. Mən qaraçuxasına ancax bir yasin oxudum. Sitq ürəhnən, Allaha yalvara-yalvara. Ay Allah, sənə qurban olum. Öz də göz yaşıynan oxumuşam ki, birdən məə günah olar, işua əl aparmıram (S:23; T:1).

## MİRFAZİL AĞANIN KƏRAMƏTLƏRİ

Böyük Vətən müharibəsi illərində Göyçayın meçidini bağlıyıllar.[9] Camaatı meçidə namaz qılmağa getməyə qoymullar. Meçidi anbar eliyillər. Kolxozdan yığılan taxılları bura yığıllar. Bura qarolçular qoyullar. Qarolda diyanan milisdər gecələr görüllər ki, burda ağgeyimli mollalar namaz qılıllar. Neçə gecə bular baxıllar. Görüllər ki, qapı bağlıdı, amma mollalar taxılın üsdündə namaz qılıllar. Bular bura necə keçiblər? Bir həftə milis buları izdiyir. Soora gedir məhkəmiyə xəbər verir. Xəbər verir ki, məni siz orda qarolda qoymusuz, bəs gecələr burda taxılın üsdündə namaz qılıllar. Meçidi bağlamusuz, anbar eləmusuz, burda camaat gecələr namaz qılır. Bular inanmıllar. Milis deyir ki, mən gecələr orda diyanacam, siz gələrsuz, özuuz gözuuznan görərsuz ki, burda

namaz qılınır. Gecə beş-altı nəfər dölət adamı durub gəlillər nöbətçi milisin yanına. Gəlillər, gecənin bir vaxdı görüllər ki, həqiqətən, burda ağgeyimli adamlar taxılın üsdündə namaz qılıllar. Baxıllar, inanıllar. Gedillər məsləhətdəşillər ki, Göyçayın meçidin biz bağlamışıx, onnar Allah tərəfinnən uçullar, gəlillər, burda namaz qılıb gedillər. Mirfazil ağa da həmin vaxt orda olur. Bu hadisədən sonra Mirfazil ağanı həbs edillər. Allah-Taalanın qüdrətiynən Mirfazil ağa həbsxanadan qeyb olur. İndiyədək onun nə dirisi tapılıb, nə də ölüsü. Qəbrinin yeri də bilinmir. Amma öyü hələ də durur. Bunnan soora Göyçayın meçidin açıllar, taxılı yığışdırıllar ordan. Qapıda da adam qoyullar. Deyillər ki, kim isdiyirsə, xalça-palaz gətirib qoysun, namazın qılsın (S:29; T:2).

***

Çox hissiyatdı şəxs olub Mirfazıl ağa. Nə baş verəcəyini qabaqcadan hiss edə bilirmiş. Rəhmətlik anam söhbət eliyirdi ki, Otuz yeddinin represiyası idi. Atam molla Tapdığı NKVD həbs eliyir. O vaxtı din xadimlərini də tuturdular. Atam da Potu meçidinin axundu idi. Bı minvalınan, atamı Mirfazil ağaynan bir yerdə kəl arabaya mindirillər ki, Ucara aparsınnar. Ordan da oları Bakıya türməyə aparasi idilər. Bı vaxtı nə illah elillərsə, kəl yerinnən tərpəmmir. NKVD-nin rəisi ağiya deyir ki, nə dua oxudun, kəl yerinnən tərpənmədi. Ağa sakitcə düşür yerə, əlin çəkir kəlin belinə “ey Allahın heyvanı get” deyib, gəlib oturur arabaya. Bınnan sora kəl hərəkətə gəlir. Otuz, qırx metir aralanmış, bir də gördük vaşiyən qopdu. Qayıtdım dala gördüm ki, rəisin ağzı geri çörüküb. Mən də anamnan arabanın dalısican gedirdik ki, Ucarda vaqona minənətək bıları yola salax. Neysə, yardım üçün tez rəisi bırdan apardılar. Ucara çatannan sora bıları da

taxta vaqona mindirdilər, saldılar Bakıya yola.[10] Onnan sora anamnan bir yerdə qayıtdıx kəndə (S:35; T:3).

***

Mirfazil ağanı tutullar. Səhər durup görüllər ki, həyətdə namaz qılır. Türmənin qarolçusun danıyıllar. Bı dəfələrnən təkrar olur. Axırda bıra qarolçu erməni qoyullar. Yenə səhərisi görüllər ki, Mirfazil ağa həyətdə namaz qılır. Təzədən aparıp salırlar türmiyə. Bir müddətdən sora gedip, açıp, baxıllar ki, Mirfazil ağa içəridə yoxdu. O günnən də Mirfazil ağa qeyb olup. İndi Göyçay camaatı onun evinə ziyarətə gedillər. O erməni Gəncədə yuxuda görür ki, Mirfazil ağa deer ki, sən mənə görə işinnən oldun, amma sənün işdərün yaxşı olacax. Erməni Gəncədən faytonnan Mirfazil ağanın evinə ziyarətə gəlir.

Mirfazil ağa Göyçayda çox adama şəfa verip. Həkimlərin sağalda bilmədiyi adamı ağa sağaldıp (S:10; T:1).

# ƏFSANƏLƏR

## ŞANAPİPİK

### I

Deyilənə görə, şanapipig addı gəlin olur. Onun zalım qaynanası olur. Qaynanaan hamam boxcasın gəlin düzəltməliydi. Gəlin nə qədə axdarur, darağı tapbır. Qaynana gəlini çox incidir. Gəlin deer, Allah, məni ya daş elə, ya quş elə. Qaynanaan zalımlığın görən Allah onu quş eləyir. Bı qonur yaxındakı ağaca. Birdən yadına düşür ki, darax taxcada buxcanın içindədi, başqa buxcada. Oturur orda, başdayır oxumağa: taxcada*- buxcada, taxcada-buxcada. Qaynananı başa salmağ üçün (S:2; T:1).

### II

Deyilənə görə, şanapipig cavan gəlin olur. O, saçın yuyub daramağ isdiyəndə, başına darağı taxanda qaynatası girir evə. Gəlin hayalı olur. Deer ki, ay Allah, sən məni quş elə, uçurt göyə. Məni qaynatam belənçiynə gördü. Onnan da o gəlin quşa dönür (S:3; T:1).

### III

Belə rəvayət eliyillər ki, əslində şanapipih gözəl bir gəlin imiş. Bip gün başın yuyub saçın daradığı yerdə qəfildən qaynata içəri girir. O, yaş saçnan başıaçıx qaynataan qabağında gözünə görünür. O vaxd çox ayıb bir şey sayılardı kı, qaynata qabağında çimib çıxmış gəlin görünə. Ya da ki, başı açıx, saçı açıx görünməyi çox pis, ayıb iş sayılırdı. Gəlin xəcil olur. Allaha yalvarır ki, ya rəbbim, sən məni quşa çevir, bir də qaynatamın gözünə görünmüyüm. Allah-taala da onun bu sözünü eşidir, onu quşa döndərir.

Ona görə də indi şanapipiyin başında darağa oxşar bir şey görünür. Şanapipik həmin o gözəl gəlindi, quşa çevrilib.

### IV

Deillər ki, qədim zamannarda bir qız uşağı olur, çaya çimməyə gedir. Çimən vaxdı bı qız görür ki, kəndin bir dəssə kişisi çaya tərəf gəlir. Ay aman, ay dad, nağayrım. Baxır ki, paltarrarı da çox uzaxdadı. Ölür xəcalətinnən. Əllərin qaldırır göyə, Allaha yalvarır ki,  ay Allah, məni bu biyabırçılıxdan qutar. Ya məni quş elə, ya daş elə. Qızın da əlində darağı olur. Darağı götürür sancır saçına.

Allah tala bın səsin eşidir, bı qızı quşa döndərir. Qız darağı da başında gözəl bir quşa çörükür. O günnən o quşa şanapipih də deellər, daraxlı da deellər el arasında (S:24; T:1).

## İSAX-MİSAX QUŞLARI

### I

Deeyilənnərə görə, iki qardaş olur. Bıların bir danaları olur. Dana itir. Dananı iki qardaş nə qədər axdarıllar, tapbıllar. Olar da qorxur atasınnan. Deer danaan tapbamış bəs biz evə nə üznən gedək. Allah, bizi quş elə. Bıların da olur birinin adı İsa, birinin adı Musa. Bılar quş olullar. İndi, deellər, qiyamət gününəcən olar o dananı axdarıllar. Biri deer, İsa. O biri deer, Musa. Deer, tapdun? Deer, yoox (S:3; T:1).

### II

Qədim zamannarda iki qardaş var imış. Bılar iş axdara-axdara gəlip bir ağaan məmləkətinə çıxıllar. Gəlip qapısın döyüllər ki, bəs bizi özua köməhci götür. Deer ki, nə başarırsuz? Deer ki, nə desən, oon eliyəceyk. Deer ki, məəm naxırıma getməyə adam yoxdu. Naxıra gedərsuz, malları güdməyə. Deellər, yaxşı.

Hər gün bı iki qardaş, bıların da biriin adı İsa iymış, biri Musa, bı ağaan malların aparıp güdəllərmiş, axşam da qaytarıp gətirəllərmiş.

Günnərin bir günü bı ağaan naxırdan danasıın biri itir. Bılar axşam malları gətirir. Gəlip qorxa-qorxa ağıya deellər ki, ağa, bəs danaan bir dənəsi itip. Bı ağa da çox əzazil, zülümkar imiş, bılara rəhm eləmirmiş. Bılara hirssənir. Deer ki, gedin nə təər var, danaan tapın gətirin. Tapbasoz, ikuuzun da boynın vırdıracam.

Bı iki qardaş yola düzəlillər. Gedillər, o dağ, bı daş, hər yeri, meşəlihləri axdarıllar. Danaan tapa bilmillər. Nəhayət, bılar Allaha əl götürüp yalvarıllar ki, ay Allah, bizi bir quş elə. Bı ağaan zülmünnən canımız qutarsın. Allah-taala da bıların səsin eşidir. Bı məzlumlara yazığı gəlir. Bıları quş eliir. Bıların da addarı qalır İsa və Musa quşdarı. Biri gedir bir dağın başında oturur, biri o biri dağın başında oturur. Başdiillar oxumağa.

Biri deer ki, İsa. Deer, na var, Musa? Deer, tapdın? Deer, yoox. Deer, yoğun ox, sən gəl otur, mən gedim.

Bı minvalnan taa bı vaxda qədər ağaan danasın axdarıllar. Hələ də axdarıllar, gənə də axdarıllar (S:5; T:1)

## III

Belə bir əfsanə var ki, İsax-Misax quşdarı əslində iki qardaş oluplar. Olar kasıb ayləən uşaxlarıymış. Deyilənə görə, bir varrı ailənin qoyunnarın otarıllarmış. Olar qoyunnarı otaranda uzanıllar bir qayanın kölgəsində, yuxu aparır oları. Bir də ayılıb görüllər ki, ətraf qarannıxdı, qoyunnar da yoxdu.

Qoyunnarı axdarmağa başdıyıllar. Uşaxlar sözzəşir ki, gə birimiz təpəən o tayın axdarax, sən də bu tərəfi axdar.

Biri təpənin o tərəfinə keçir, biri bu tərəfi axdarmağa baş-dıyır. Axdardıxca bir-birin səssiillər: İsax, tapdın, o biri deyir: yoox. Bu səfər o biri deyir: Musax, tapdın? Deyir: yoox.

O qədər qorxullar, hər ikisi yalvarıllar ki, Allah-taala oları quşa çevirsin. Olar gəlib deyə bilməzdilər ki, qoyunnar itib. Allah da oları quşa çevirir. Beləcə də İsax-Musax quşdarı yaranır. İndi də oların səssəri eşidilir. Elə bil, olar deir: İsax tapdın? O biri deir: yoox. Bu səfər o biri der: Musax, tapdın? Deir: yoox (S:8; T:1).

## QARĞA İLƏ QIZILQUŞUN SÖHBƏTİ

Bir günnərim qızılquşnan ala qarğa rasssaşıllar. Qızılquş ala qarğadan soruşur ki, nə təər olur, sən üç yüz il yaşiirsan? Qarğa da deer ki, bəs sən də məən kimi üç yüz il yaşamağ issirsən? Deer ki, hə. Deer, onda üş dalımcan.

Qarğa qanat çalır qalxır göyə. Qızılquş da bıın dalıycan. Bir xeylax havada fırranannan soora qarğa görür ki, çayın qırağında bir leş var. Qarğa süzüp şığıyıp düşür leşin üssünə. Başdiyır bı murdar leşdən yavaş-yavaş söhməyə. Qızılquşa deer ki, nə baxırsan, başda da sən də yiməyə. Qızıl quş deer ki, sən bıın yiib üç yüz il yaşiirsan? Deer ki, hə. Deer ki, elə leş yiib üç yüz il yaşiincan, ceyran, turac yiib igirmi-otuz il yaşasam, məə bəssi.

Hindisdanda mən görmüşəm filləri,
Gül bağıdı bülbülün mənzilləri.
Qarğalar da eşir zir-zibilləri,
Üç yüz il ömür verib xuda qarğıya,
Hardan gəlip çatıp səda qarğıya.

## BÜLBÜL HAQQINDA ƏFSANƏ

Bir günnərim, şahın öz bağında bülbül olmadığına görə, əyannarına tapşırır ki, bir dənə bülbül tapın gətirin. Hardansa bir bülbül tapıb gətirillər, qəfəsə salıllar. Şah bını qəfəsdə assırır öz baxcasınnan. Gündə gedib oturup bıın yanında

baxarmış bülbülə. Amma bülbül günü-günnən saralıp solurmış, oxumurmış. Şah bın-nan çox məyus olur. Görür ki, bı bülbül öləcək. Deer ki, bı bülbülü açın buraxın.

Bülbülü açıp bıraxıllar. Vəzir atına minir. Bülbül uşduxcan düşür dalıycan. Vəzir atıynan gedir, gedir bülbülün dalıycan. Görür ki, bülbül düşdü bir gülün üssünə, başdadı cəh-cəh vurmağa, öz nəğməsin oxumağa. Bı dəmdə də gülün tikanı batır bülbülün sinəsinə. Bülbül deer ki, oxxay, vətən.

## QUŞLARIN ÖZLƏRİNƏ ŞAH SEÇMƏSİ

Bir gün quşdar özzərinə şah seşməy issiillər. Deellər ki, bəs nə təər şah seçəy özümüzə? Deellər, gəlin qalxax göylərə. Kim lap yuxarı uçup qalxa bilsə, onu özümüzə şah seçəceyih ki, bınnan yuxarı uçan quş yoxdu.

Bı da məlum məsələdi ki, qartal hamısınnan yühsəhdə uçur da. Bı balaca kolbitdiyanı deyilən quşdar girir qartalın qənətdəriin arasına. O da kiçiy olduğuna görə heş qartal oon hiss eləmir da. Qartal qalxır göydə fırranır, fırranır. Görür ki, bütün quşdar bınnan aşağıdadı. Yorulup quşdar hamısı qayıdıp düşüllər.

Ən axırda qartal qayıdıp düşəndə birdən baxıllar ki, görəh heş kim qalmiyıp. Görüllər ki, kolbitdiyanı hələ də yuxarıda fırrana-fırrana gəlir. Düşür bıların yaana. Deer ki, görduuz, hamuuzdan yühsəhliyə qalxan mənəm da.

Hə, onnan sora özzərinə kolbitdiyanı şah seçillər (S:5; T:1).

## TOVUZQUŞU HAQQINDA ƏFSANƏ

Süleyman peyğəmbər Tovuz adında bir qız sevir. Qız bınnan quş dimdiyinnən bir imarət tikdirməyi isdiyir. Süleyman pey-ğəmbər bı imarəti tihdirir. Qırx gün, qırx gecə toy eliyir, Tovuzu gətirir evinə.

Tovuz da dünya gözəli bir qız olur, amma əyaxları eybəcər olur. Bı, Süleyman peyğəmbərin yanında ayaxların gizzədərmiş. Peyəmbər də bir dəfə deer ki, sən niyə ayaxlaruu gizzədirsən? Tovuz Allaha yalvarır ki, Allah-taala, məni quş elə, Süleyman peyğəmbər məəm ayaxlarımın çirkinniyin görməsin.

Allah qızın səsin eşidir, bın gözəl bir quş eliir.

## AY VƏ GÜNƏŞ

Nənəmdən eşitmişəm ki, Aynan Günəş bacı-qardaş oluplar. Buların anaları xəmir yoğuranda Aynan Günəş nadişdiy eliyillərmiş. Anaların xəmir yoğurmağa qoymullarmış. Arvad hirssənir, amma uşaxlara kar eləmir. Anaların o qədər hirssəndirillər ki, anaları ayın üzünə şillə vurur və başdıyır oları qarğımağa. Olara qarğış eliyir ki, görüm sizi bir-birüzün üzünə həsrət qalasuz. Siz bir-birüzün yanında olanda mənə Allahın günün vermirsüz.

Allah da bunun səsini eşidir, buları bir-birinə həsrət qoyur. Onan soora Ay gecələr çıxır, Günəş gündüzzər. Ayın da üzündə olan ləkə xəmirin ləkəsidi. Onun anasının vurduğu şillənin ləkəsidi (S:12; T:1).

## DÜNYADA ƏN GÖZƏL BALA

Bir gün quşdarın padşahı qarğanı çağırır ki, get dünyada ən gözəl quş balasın gətir. Ala qarğa gedir dünyanı gəzir, fırranır. Gedir axırda özüün balasın alıb əlinə gətirir ki, bütün dünyanı gəzdim, bınnan yaxşı bala tapammadım.

## BARMAQLARIN BƏHSİ

Baş barmax deer ki, gəlin gedəh oğurruğa.
Şahadət barmax deer ki, nərdivanuuz var?

Orta barmax deer ki, mənnən uzun nərdivan.

Onnan soorakı barmax deer ki, Allahdan qorxmursuz?

Çeçələ barmax deer ki, Allahın nəyinnən qorxajeyx?

Ona görə də Allah-taala onun təpəsinə-təpəsinə döydü, oldu balaca (S:13; T:1).

## QIZ VƏ İLAN

Bir dənə qız olub. İlan dolanıp bıın boynuna, bütün bədəninə, əl çəhmiip. Aşiq olup qıza. Bilmiiplər ki, nağayırsınnar. Qız da nə çörəh yiir, nə çay içir, gün-günnən saralır. Hə, bir osunçu gətirillər ki, bəs bına nəsə elə da. Deep ki, mən oon əlacın biilləm.

Bir iri güzgü gətirip qoyur bılarnan üsbəüz. Bı ilan görüp ki, başqa bir ilan bıın aşıq olduğu qıza dolanıp da. Bilmiip ki, öz əksidi. Tez qızdan açılıp cumup güzgüün üssünə ki, o ilanı məhv eləsin. O açılan kimi tez ilanı məhv eliillər.

## QOVAQ AĞACI

Rəvayətə görə, kişilər keşmişdə çox arvad alırmış da. Kişi yoldaşıın üssünə birin də gətirir, günü gətirir. Daa yoldaşı ona heş nə deyə bilmir. O vaxdı kişilər zəhimli olupdu. Ürəyi partdıyır da bı birinci arvadın. Söykənip qovağ ağacına, başdiyıb ağlamağa. İçin-için ağlıyır, tir-tir əsir. Arvadın titrətməsi keçib ağaca.

O vaxdan bəri, qovaq ağacına nə vaxd baxsan, küləy oldu-olmadı, oun yarpaxları həməşə titriyir, əsir (S:15; T:1).

## KOR BAĞIRSAQ

Allah insanı yaradanda şeytan insana əl uzadır. Əlin uzadanda insanın bağırsağı keçib əlinə, çəkib özünə sarı.

Ordan da kor bağırsax yaranıp. O mərdimazarrıxdan da şeytanın əli toxunur, kor bağırsax yaranır. Artıx bir şey kimi, şeytan əməli kimi. Görürsən, içinnən şişir, partdıyır. Oun axarı yoxdu. Qabağı bağlıdı, kordu (S:19; T:1).

## QARPIZ HAQQINDA ƏFSANƏ

Deyilənə görə, bir oğlan dərin bir məhəbbətlə bir qızı issirmiş. Qız oğlana getmirdi. Mına deermiş bəs sən Göyçay suyinan bırda – Kürdəmir ərazisində bir bostan əkərsən (bağ salmalısan). Həmən bağda qarpız əkməlisən, onnan sora səə gedərəm. Oğlan camaatı yığıb bu işi gördürməyə başdir. Camaat qan-tər təkə-təkə, əziyyət çəkə-çəkə bostan salıllar. Bəli, məhsul vaxtı çatır. Oğlan qarpızı dərib, gətirib qıza verir. Qız qarpızı kəsir, görür ki, içi qan kimi qırmızıdı. Qız oğlana deer ki, bı işi camaatın qan-təri bahasına başa gətirdiyin üçün qarpızın içi qandı (zülümnən başa gətirdiyin üçün). Qız oğlana deer ki, heç vaxt mən səə getmiyəcəm. Oğlan kor-peşman çıxıb gedir (S:39; T:3).

# RƏVAYƏTLƏR

## BUĞDA HAQQINDA RƏVAYƏT

Deyilənnərə görə, buğda hər yarpağıın dibinnən bir sümbül gətirərmiş. Adamlar bı məhsulu yığıp-yığışdırmağa çətinnih çəkirmiş – arpanı, buğdanı. Day bı qədə bolluğ olmaz. Yuxanı bişirüllərmiş, o qədə bolluğ olup ki, yuxıya əllərin silillərmiş çörəy yiyənnən soora sırfada. Allaha ən ağır gedən bı olub. Onnan soora Allah deeb ki, heş bı insan tayfasına – bılara yerri-dibli lazım döör ruzqı. Bılar ki çörəyə əlin silir, bılara lazım döör.

Görüb acınnan itdər ulayır. Deer, bı itdərin nə günahı var? İnsan həddin aşdı, əlin sildi yuxıya. Mən oları qoydum yaman günə. Bə bı itin günahı nədi? Yaxşı, hər sümbülün başında bircə dənə, deep, sümbül yetirəcəm, o da itin payı. Kim nə payın götürər, onu da yiyər.

O vax-bı vax, taxılın başında bircə dənə sümbül yetişdi. Bizim indi ruzqumuz itin ruzqısınnandı. Allah itə də bir can verip, bizə də bir can verib (S:2; T:1).

## QATIRIN LƏNƏTLƏNMƏSİ

Nənəmnən eşitdiyimə görə, peyğəmbərrərdən hasısa olup, təəssüf ki, peyğəmbərin adı yadımda qalmıyıp. Bir gün heyvannar gəlip bir çay kimi yerdən keşməy issiyəndə keçə bilmillər. Bı uzanır üzü aşağı, özün o yerə körpü eliyir. Heyvannar gəlip bıın üssünnən keçillər bir-bir.

Qatır gəlip keçəndə qatırın dırnaxları batır bıın belinə. Deer ki, bı hansı heyvandı? Cavap verillər ki, bı qatırdı. Deer ki, səni görüm heç ürüyüb-artmıyasan. Peyğəmbərin lənətinnən soora qatır o biri heyvannar kimi ürüyüb-artmır.

## YONCAYA BƏRƏKƏT VERİLMƏSİ

Bir gün də həmən peyğəmbər küçeynən gedəndə burnuna iy gəlir: kimsə qoorğa qoorurmuş buğdadan. Bıın da lənəti də, qarğışı da qəbula keçərmiş. Soruşur ki, bı nə iyidi belənçiynə gələn? Qorxullar buğda deməyə. Fikirrəşillər ki, birdən xoşuna gəlməz, lənət eliyər da. Deellər ki, yonca qoorullar. Deer ki, nə yaxşı iyi gəlir. Səni görüm, bir il əkiləsən, yeddi il biçiləsən.

Camaat da təəssüf eliir. Deellər ki, elə bilseydik, buğda deyərdik.

## ƏCƏL MIXI

Bir nəfər nəsə bir xəssəliyə tutulup. Bına deellər ki, bəs gedip qəbirsannıxda köhnə bir qəbir taparsan. Axşam vaxdı bı qəbirin baş daşına bir mıx çalıp gələrsən.

Bı kişi də gedir axşam vaxdı. Mıx götürür özüynən, çəkiş götürür. Gedir o tərəf-bu tərəfə baxır, çömbəlir. Keşmişdə də kişilər əba geyinəllərmiş axı. Çömbələndə də bı əbası yerə sərilir. Qarannığ olduğunnan bı kişi də görmür. Mıxı əbanın üssünə qoyup çalır baş daşına. Baş daşı da əvvəllər taxdadan olarmış. Durup getməy issiyəndə dartınır. Görür ki, kimsə yapışıp əbasınnan, dartır da. Elə bilir ki, ölüdü, bıın tutup dartır. Bir dartınır, iki dartınır, qorxusunnan ürəyi partdıyır ölür (S:5; T:1).

## LOĞMANIN MƏSLƏHƏTİ

Loğman bütün xəssəlihlərə əlac edən, əli şəfalı biri olup. Bir gün eyni xəssəlihdən bının yanına üç nəfər gəlir. Bı şəyirdi ilə birlihdə bıları qarşılıyır. Görür ki, biri çox varrıdı, bına deer ki, sən get çoxlu bal ye, ət ye. İkinci xəssə gəlir,

görür ki, bı o qədər də varrı döör, bına deer ki, sən get göy-göyərti ye. Üçüncü xəssə gəlir, görür ki, bı çox kasıpdı. Deer ki, sənə ancax təmiz havada çoxlu gəzməh lazımdı.

Olar gedənnən soora şəyirdi ona deer ki, ay Loğman peyğəmbər, bılar üçü də eyni xəssəlihdı. Olara niyə ayrı-ayrı yol gössərdin. Cavap verir ki, olar eyni xəssəlihdi, amma vəziyyətdəri ayrı-ayrıdı. Mən o birilərə də ət, bal deseydim, o iki nəfər onu tapıb ala bilmiyəceydi. Dərd çəkərək ölümlərin daha da yaxınnaşdıracaxdılar. Amma mən dedihlərimə ürəhdən inansalar, olar sağalallar. Amma o xəssəliyin əsl dərmanı birinciyə dediyimdi (S:7; T:1).

## KİMDİR GÜCLÜ

Bir gün bir məclisdə şah gəlir əlin qoyur oğluun çiyninə. Deer, sən güjdüsən, yoxsa mən? Oğlu qayıdır ki, ata, mən. Şah bınnan pərt olur. Bir az keçir. Yenə gəlir, oğluun çiyninə əlin qoyur. Deer ki, oğul, de görüm, sən güjdüsən, yoxsa mən? Oğlu yenə deer ki, mən güjdüyəm, ata.

Şah çox qəzəblənir. Deer bir də soruşacam. Yenə helə desə, onu öldürtdürəcəm. Sdolun bı başınnan durub o başına, day yanına getmir oğluun, deer, oğlum, sən güjdüsən, yoxsa mən? Oğlu bu səfər qayıdır ki, ata, sən güjdüsən. Deer, a bala, bəs mən iki dəfə sənnən soruşdum. Niyə dedin, mən güjdüyəm? Deer, bayax çiynimdə ata əli vardı, ona görə mən güjdüydüm.

## HƏRƏNİN DƏRDİ ÖZÜNƏ DƏVƏ BOYDADI

*Biz tərəflərdə belə bir məsəl var ki, hərənin dərdi özünə dağ boydadı, yaxud hərənin dərdi özünə dəvə boydadı. Bu məsəl də bir əhvalatdan yaranıb və günümüzə qədər işlənir.*

Belə söylüyüllər ki, bir gün bir kişi yerə çüy vurur. Dəvəsin bağlıyır bura ki, ağacın kölgəsində bir az isdirahət eləsin. Kişiin yuxu aparır. Ayılanda görür ki, dəvə yoxdu. Başdıyır dəvəsin axtarmağa. Görür ki, bulaq başında bir qiz paltar yuyur və öz-özünə nəsə oxuyur. Gəlir qıza yaxınnaşır və soruşur ki, ay bala, mənim dəvəmi görməmisən? Qız da yaşı ötmüş – bizdə deyillər ki, evdə qalmış qız olur. Qayıdıp kişiyə deir ki, mən ərə getməmişəm. Kişi bir də soruşur, qız yenə qayıdıp deir ki, mən ərə getməmişəm. Bir deir, üş deir, kişi bu qızdan başqa cavab ala bilmir. Axırda hirssənir, deir ki, sənnən soruşmuram ee, ərə getmisən, ya yox. Mən sənnən soruşuram ki, dəvəmi görmüsən, ya yox. Qız da deir ki, dayı, sənin dəvən itip, mənim də dərdim özümə dəvə boydadı (S:12; T:1).

## HAQQI-NAHAQQI BİLİNMƏYƏN ÖLKƏ

Loğman bir ölkiyə gedir şəyirdiynən. Bırda şəyirdin bazara göndərir. Şəyirt gedir bazara. Sevinə-sevinə gəlir ki, bəs Loğman, bırda yağnan şora fərq yoxdu: eyni qiymətədi. Loğman deer ki, gə bı ölkədən qaçax gedəh. O yerdə ki, yağnan şora fərq yoxdu, orda yaşamağa dəyməz. Şəyirt deer, yoox, çox yaxşıdı: şor da, yağ da eyni qiymətədi. Loğman da arifdi da. Qalır bırda.

Bir gün bir nəfəri asmağ issillər. Padşah bir nəfəri assırmağ issir. Cinayət eliyip da. Bıın da başı balaca olur, bı asılası adamın. Bıın kəndirə salıllar, baş şütüyüp çıxır kəndirdən. Padşah deer ki, gedin başı yekə bir adam tapın gətirin, elə bıın yerinə asax. Gedillər, arıyıb-axdarıllar. Loğmanın şəyirdin tutup gətirillər asmağa. Loğman irəliyə gəlir, padşaha özün tanıdır, şəyirdin alır aparır evə. Deer, səə dedim ki, o yerdə ki, yağnan şora fərq yoxdu, ordan qaşmax lazımdı.

## AÇILMAYAN SİRR

Qədimlərdə hamilə qadın uşağı doğurmuş, ağrını əri çəkirmiş. Bir qadının da qonşuun kişisinnən olur uşağı, ayliyə xəyanət eliyir. Arvat doğanda baxıp görüllər ki, qonşudakı kişi qışqırır – ağrı çəkir. Arvat görür biyabırçılıxdı, hamı işi başa düşəcək. Ona görə Allaha yalvarır ki, ay Allah, ağrını da elə özümə qismət elə, bı sirri heş kəs bilməsin. Onnan soora Allah-taala ağrını da qadınnara verir (S:13; T:1).

## YARIM FINDIQ QABIĞI RUZİ

Keşmişdə bir kasıp varmış. Bir gün peyğəmbərimiz gedirmiş Allah-taalanın yanına. Yolda bu kasıb onnan xahiş eliyir ki, ged o qurbanolduğuma de ki, mən cox ağır vəziyətdə yaşıyıram. Deyir, yaxşı, deyərəm.

Gedir, Allah-taalıya deyir ki, yolda bir fağırı gördüm, o dedi ki, mən çox ağır vəzyətdə yaşıyıram. Uşaxlarım acınnan ölür. Bunu Allah-taalıya çatdırginən. Allah-taala peyğəmbərə deyir ki, ged ona de ki, para fındıx qabığın götürsün. Cənnət bağının almasınnan onun içinə yığıb satsın. Getsin uşağına çörəh də alsın, özünə necə issiyir, şərayit də qursun. Firavan yaşasın.

Gəlir peyğəmbərimiz bunu deyir. Kişi də deyir ki, yaxşı. Allah sənnən razı olsun.

Para fındıx qabığın götürüb gedir cənnət bağına, almadan yığır, satır. Hər bir şərayitin qurur. Yenə yolda görür ki, peyğəmbər Allahın hüzuruna gedir. Deyir ki, sənə qurban olum, ged Allah-taalaya de ki, mən cənnət bağının yarısın yığıb qutarmışam, amma bu para fındıx qabığı dolmır. Yaxşı, deyib gedir.

Gedir Allah-taalaya deyir ki, genə o fağır kişi məni gördü, dedi ki, hər şərayitim, dolanışığım yaxşıdı, ancaq o para fındıx qabığı dolmır. Cənnət bağın yarıdan çoxun

satmışam. Allah-taala deyir ki, get ona de ki, o fındıx qabığı onun gözüdü. Gözü doymur (S:14; T:1).

## BORCU DANANIN AQİBƏTİ

*Bir qırx-qırx beş il əvvəl eşitdiyim sözdü.* Bir kişi o biri kişidən borc alır. Ay keçir, il ötür. Deer, mənim borcumu niyə qaytarmırsan? Deer, mən sənə boşdu döyüləm ki. Deer, a kişi, Allaha bax, Tarıya bax, sən mənnən borc pul almısan. Nəyə görə onu qaytarmırsan? Deer, yoox, mən sənnən pul almamışam. Deer ki, onda gə gedəg qazının yanına. Görəy bı nə deyəcəg bına. Gedillər qazının yanına. Deer ki, mən fılan vaxdı bına bı qədər pul vermişəm. İndi isdəyirəm, deer ki, yoox, məə sən pul verməmisən.

Qazı deer, sən pulu almamısan bunnan? Deer, yox, almamışam. Deer, hə, onda dalımca gəl, bəzi şeylər gösdərəcəm. Əgər oları qabul eləsən, onda sən onnan pul almamısan.

Düşür bıın dalıycan, gəlir. Qazı açır bir dənə otağı. Birda, üzzərdən irağ, bir dənə it yatıb. Bının qarnındakı balalar başdayır çığırışmağa orda – hürür. Qazı deer, gördün bını? Deer, gördüm. Deer, gəl.

Gəlir ikinci otağı açır. Görür üş dənə qazandı. Üçüün da altı eyni tərzdə yanır. Ortadakı boşdu, qıpqırmızı qızarıp, yanır. Sağdakı da, soldakı da qazannar doludu suynan, qaynayır. Su qaynaduğcan tullanır düşür bı dolu qazana. Bı biri dolu qazannan da su qaynaducan boş qazanın üsdünnən tullanır o birsi dolu qazana. Bı ortadakı qazan cızhacız yanır, bına bir damcı su düşmür. Deer, bıın da gördün? Deer, gördüm. Deer, indi gəl üçüncüyə.

Üçüncünü keçəndə qapını açır görür, bir dənə ağajdu. Ağacın başında qarğa oturup qarıldayır. Amma ağacın dibində bir dənə leş var. Düşür qonur o leşin üsdünə. Onnan dimdigləyir, təzədən çıxıb oturur ağajda, başdayır qarılda-

mağa. Deer bını da gördün? Deer, hə. Deer, hə, indi gəl gedək o kişinin yanına.

Gəlillər kişiin yanına. Deer ki, mən indi oların açmasın sənə deyəcəm. Əgərrəi olara razısansa, onda sən düzgünnüyi seçəcəsən. Gəlir, deer, o birinci gördün ey – itin qarnında balaları çığırışırdı – bir zamanə gələcək kiçiglər danışacağ, böyügə danışmağa macal vermiyəcəhlər. Yanı böyügə hörmət qoyulmıyacax.

Soora deer, ikinci, o qazannarı gördün? Deer, bax o qooşu da varrı olcax, bı qooşu da çörəyli olacax. O kasıb ortada qalacax. O varrı qooşular bir-biriynən ünsiyət eliyəcəg. O ortadakı acınnan ölsə, ona əl uzadıp bir tikə çörəy verən olmuyacağ, qapısın açan olmuyacağ.

Bı üçüncü də, leşdü, haram alacağlar mollalar, qazılar. Haram yiyəcəglər, soora da hakk-ədalətdən dəm vuracaxlar. Deer, bax belə bir zamanə gələcəg.

İndi sən denən ki, həmin o zəmanənin adamınnan olum, mən bı adama pul borşdu döörəm. Deer, yoox, qazı, mən ona pul borşduyam, verəcəm.

## ŞEYTANA LƏNƏT

Deer ki, bir kişi ulağnan gedirmiş yolda. Ulağ diyandı, başdadı soncuğlamağa. Şeytan da balasıynan oturup dağın başında. Kişi qayıdır deer ki, Allah sənə nəhlət eləsin, a şeytan. Şeytanın balası deer ki, ay ata, biz oturmuşux burda. O sənə niyə nəhlət oxuyur? Biznən onun nə işi? Deer, ay bala, mənim burda oturmağıma baxma, barmağım onun eşşəyinin yanındadı. Onu qurçcalayıram ki, onun yükü dağılsun.

Ona görə, Allah qəlbimizdən uzağ eləsün, bala, harda olsax, o şeytan insanın yanında dolanır. Qiyamətə qədər də Allahdan vaxd isdəyir. Ona görə də şeytan həməşə nəhlətdəm-məlidi. Allah onu nəhlətdəyib. Şeytana nəhlət oxuyursan ki,

qəlbinnən uzağ olsun. O nəhləti eşitməsə, sənin bütün vücuduu sarıyar o (S:21; T:1).

## İSGƏNDƏR ZÜLQƏRNEYN HAQQINDA

Mənim eşitdiyimə görə, bı İsgəndər Zülqərneyin böyüh sərkərdə olup, fateh olup. Həm də çox güjdü, qüvvətdi adam olup.

İsgəndər Zülqərneyin dünyanı fəth eliyə-eliyə gedirmiş. Bir dəfə də gedip bir əyalətə çatır. Görür bı əyalətin adamları heç bir mal-qara ilə məşğul olmurlar. Heyvan kəsmillər. Hərəsi özünə bir məzar qazıp, hər gün məzarı təmizziyillər, süpürüllər, səliqiyə salıllar. Bılar ancax tağ-tərəvəz əkillər. Onu da yiyillər, ət yimillər. Bı İsgəndərə çox maraxlı gəlir.

Bı əyalətin padşahın yanına çağırır, padşah gəlmir. Axırda bı özü gedir padşahın yanına. Deer ki, sən bı əyalətin padşahısan, niyə çağırışa gəlmədin? Cavap verir ki, sənin işin var, sən gəl, mənim sənnən heş bir işim yoxdu. İsgəndər soruşur ki, sizin əyalətdə niyə heş kəs mal-qara saxlamır, daha çox var-dövlət əldə eləmirlər. Əyalətin padşahı cavab verir ki, heyvannarı da Allah yaradıb. Mən mədəmdə olara niyə məzar qazıram ki, olara verilən canı niyə alaq ki? İsgəndər deer ki, bəs niyə qəbrinizi indidən qazıp qoyursunuz və hər gün təmizziyirsiniz? Padşah cavap verir ki, həmişə gözümüzün qabağında olsun, əvvəl-axır getdiyimiz yer oradı. Dünya malı ön plana keşməsin. Deer sizdə qızıl-gümüş niyə yoxdu? Deer ki, qızıl, gümüş insannar arasında nifaq salır. Ona görə də mehribannığımız üçün qızıl-gümüşü ölkəmizə qoymurux. Məzarımız da həmişə gözümüzün qarşısında olur. Biz bir-birimiznən dava eləmirih. Bilirih ki, axırımız oradı.

Rəvayətə görə, İsgəndər Zülqərneyn onnan soora işğal eləməhləri, müharibələri saxlıyır. Daha heş bir ölkəni yağmalamır. Bütün var-dövlətin kasıp-füqaraya paylıyır.

Öləndə də vəsiyyət eliir ki, məni tabuta qoyanda əllərimi çölə qoyun, hər kəs görsün ki, bı qədər var-dölətin içində əli boş gedirəm. Heş nə apara bilmirəm. Bir də deer ki, bı dünyada insan üş şey qazanır. Birincisi var-dövlət, oğul-uşax, ikinci hakimiyyət, üçüncü əməl. İnsan hər şeyi bı dünyada qoyup gedir, bircə özi ilə apardığı əməldi ki, o dünyada da əməllərinə görə qarşılanır və qiymətdəndirilir.

## DİRİLİK SUYU

Dirilik suyunu böyük Fateh İsgəndər Zülqərneynnən bağlayıllar. Deellər ki, dirilih suyu hardasa çox dərin quyunun içindədi. Neçə kilometir yol gedirsən, orda su var. O sudan içən ölməz. Həmişə yaşıyır, cavan qalır.

Bı, qoşunun aparır ki, o suyu tapacam. Qocaların heş birin almır qoşuna. Dört qardaşdan biri atasıın saçın, üzün qırxıp qoşur öz qoşununa, aparır öziynən. Bılar gedillər, gedillər, gəlip çıxıllar bir qarannıx yerə, getməyə yol olmur. İsgəndər təəssüf eliyir ki, naxax o qocanı götürmədim. Oğlannarı üzə çıxarır ki, götürmüşük atamızı. İsgəndər sevinir. Deer ki, madyan atın gözü çox iti görür, madyan atı irəli salın. Bir də bütün xurcunnarı qumnan doldurun. Hamısı xurcunnarın doldurur. Çoxusu yolda yorulur, boşaldır qumu.

Gedip çatıllar bir suya. İsgəndər qoşununa deer ki, dincəlin. Onnara isdirahət verir. Aşbazın çağırır. Aşbaz torbadan quru balıx çıxardır ki, yiməh hazırrasın. Balığı suya salan kimi balıx dirilir, gedir. Amma heş kimə demir. Özü sudan doyunca içir. İsgəndər, nəhayət, yorulur, qayıdır. Qayıdanda yenə qoca deer ki, o qumlardan doldurun torbalara. Yenə bəzisi bezir, yorulur, qumları boşaldıllar. Gəlip işıxlığa çıxanda görüllər ki, qum dönüp qızıl olup. Boşaldannar peşman olur. Aşbaz da o sudan işdiyin heş kəsə demir. Qumu götürənnər peşman olup ki, az götürüp.

Götürmüyən də peşman olup ki, niyə götürmədi, hamısın atdı. Xalq arasında bınnan bağlı belə məsəl var ki, götürən də peşman olur, qoyan da.

## İSGƏNDƏRİN BUYNUZU

Bizdə el arasında belə bir məsəl var ki, İsgəndərin buynuzu var, buynuzu. Rəvayətə görə, İsgəndərin buynuzu varmış. Hər dəfə də bir dəlləh çağırıp başın qırtdırır, soora da dəlləyin boynun vurdururmuş ki, gedip heş kəsə heş nə deməsin. Elə olur ki, ölkədə dəlləh qalmır.

Bir dəlləyə başın qırxdırır. Ona söz verir ki, onu öldürmüyəcəh. Dəlləh də and içir ki, heş kəsə demiyəcəh. Söz də dəlləyin bağrın çartdadır. Sirr onun ürəyin deşir. Gedir bir quyu tapır kimsəsiz bir yerdə. Başın salır quyuya, deer ki, İsgəndərin buynuzu var.

Vax keçir, quyudan bir qamış çıxır. Çoban da qoyun otaranda həmin qamışı qırır, onnan tütəh düzəldir. Tütəyi çalmağa başdıyanda tütəhdən səs çıxır ki, İsgəndərin buynuzu var, buynuzu; İsgəndərin buynuzu var, buynuzu.

Beləlihnən, bütün xalq bilir İsgəndərin buynuzu var. İsgəndər həmin dəlləyin də boynun vurdurur. Amma başa düşür ki, cidanı çuvalda gizzətməy olmaz (S:7; T:1).

# DİNİ RƏVAYƏTLƏR

## PEYĞƏMBƏRLƏR HAQQINDA

Deer ki, yüz iyirmi dört min peyğəmbər olub, ayilə peyğəmbəri, olup məhəllə peyğəmbərrəri. Beleynən gəlip sifdəsi iptidayi dövrdən. Allahın seşdiyi üç yüz on üş peyğəmbər var, üç yüz on üş. Hansı ki olar Allah tərəfinnən göndərilib. Onun səkgizi Allaha ən yaxın olan peyğəmbər-

rərdi. Onun beşi müxlis peyğəmbərrərdi, müxlis. Yəni Allah olara ad da verib. Deer ki, onun birincisi Nuxdu – Nəciullah. İkincisi, İbrahim Xəlilullah, eşitmisən yəqin ki (toplayıcıya müraciətlə – top. X.K.). Üçüncisi, Musa Kəlimullax. Dördüncüsü, eşitmisən bunı, İsa Ruhullax. Beşincisi, Məhəmməd Hətəmullax Xətimullax.

İndi izah eliir ki, onda tenika yox idi. Nuhu gəmisiynən hər heyvannan cüt-cüt – dişi, erkəy olmaxnan, – batırdı bütün aləmi, amma oları gəmidə qorudu, küləh vasitəsinən gəmi işdədi. Gəmiin qayırmax Allahdan gəldi Nuha. Nicat verdi ki, o xilas oldu.

İkincisi İbrahim Xəlilullah – Allahın dosdu deməhdi Xəlilullah.

Üçüncüsü Musa Kəlimullahdı. Yeganə peyğəmbərdi ki, o, Tuba vadisində, indi deyirih ki, Tur dağına dönəsən səni, Tur dağında Allahnan səsin eşidip bir-biriin, üzün görməməh şərtinən kəlmələşən yeganə peyğəmbər olup.

Dördüncüsü, İsa Ruhullahdı ki, Allah öz ruhunnan Cəbrayıl vasitəsinən ona üfürüb, bakirə qızdan doğulup bı. Ona görə Ruhullahdı.

Beşincisi Məhəmməd Xətəmullahdı ki, Allah-taala deer ki, sizə olan nemətdərimi tamamladım, din olarax islamı seşdim. Yəni bınnan soora nə din gəlmiyəcəh dünyiya, nə də ki, peyğəmbər gəlmiyəcəh dünyiya. Bunnan xətm verildi bı işə (S:23; T:1).

## ADƏM PEYĞƏMBƏR

### I

Rəvayətə görə, Allah-taala issiyip ki, yer kürəsinə yaşayış versin. Ona görə əvvəl dörd mələyi yaradıp: Cəbrayıl, Mikayıl, İsrayil, Əzrayıl mələhlər. Allah-taala mələhləri

göndərir yer üzünə ki, hərəniz yer üzündən bir sıxma torpax gətirin, onnan insan yaradacam. Oların da bir hissəsin cənnətə, bir hissəsin cəhənnəmə göndərəcəm. Mələhlər gəlillər Allah-taalanın hüzuruna. Biri torpax gətirir, üçü əliboş gəlir. Deellər ki, yer kürəsi cənnətə göndərilənnər üçün torpax verdi, cəhənnəmə göndərəcəhlərünçün torpax vermədi. Dedi ki, mən torpağımın cəhənnəmdə qoorulmağın issəmirəm. Biz qayıtdıx, Əzrayıl qayıtmadı. O bir az qırmızı, bir az ağ, bir az da qara torpax götürdü gəldi. Oları yoğurup-yoğurup bir yerə, insan yaratdı.

Allah-talanın yaratdığı ilk insan da Həzrəti Adəm olup. Qocalar da deerdilər ki, guya Adəmı qırx gün yoğurup, onun üzərinə sevinc yağışı, hüzün yağışı yağdırıp. Guya otuz doqquz gün hüzün yağışı, bir gün sevinc yağışı yağıp. Ona görə də insanın sevincdi annarı azdı (S:7; T:1).

## II

Deer, Allah-taala Adəm peyğəmbəri buğda yidiyinə görə cənnətdən qovur, göndərir yer üzünə. Adəm peyğəmbər o qədər Allah-taaladan utanır ki, onnan danışmağa cəsarət eləmir.

İllər keçir. Vijdanın sakitdəşdirə bilmir, üz tutur Allah-taalıya, deer, ey ulu Tanrım, sən məni Məhəmməd əleyhissəlamın üzünün nuru xətrinə bağışda, bir səfdi, eləmişəm.

Allah-taala deer ki, sən dünyada ilk adamsan, sən nə bilirsən ki, sənnən soora Məhəmməd peyğəmbər adlı bir peyğəmbər dünyaya gələcək. Deer ki, ey Allah-taala, sən məni cənnətdən qovanda mən cənnətin qapısıın üssündə oxudum ki, lə iləhə illəllah, Mühəmmədən rəsul Allah. Bıın da mənası odur ki, Allah təkdir, Məhəmməd onun rəsuludur (S:12; T:1).

# HABİL VƏ QABİL

Habil və Qabil qardaşdarı ilk insan evlatdarınnan oluplar. Adəm peyğəmbərin oğlannarıdı. Habil əkin əkərmiş. Qabil də qoyunçuluxnan məşğul imiş. Bir günnərim bıların arasında ixdilaf düşür. Habil deer ki, mən haxlıyam. Qabil deer ki, mən haxlıyam. Gəlillər ataları Adəm əleyhissalamın yanına. Atası da deer ki, hərööz öz əməyuuzdan bir qurbannıx götürün.

Habil bir əz taxıl götürür, Qabil də bir dənə qoyun. Bılar bını qurban deyiplər. O vaxdın deyiminə görə də, qurbannıx qəbul eliyəndə göydən bir od gəlip onu öz cinsinə çevirib apararmış. Gəlir Habil də haxlı olduğuna görə Habilin qurbanı qəbul olunur. Amma Qabil gənə öz məkirri niyətinnən əl çəhmir. Fürsət axdarır ki, öz qardaşın öldürsün, bınnan qisas almax məksədiynən.

Günnərin bir günü gənə Habil yatdığı yerdeydi, səhrada işdiip yorulup yatıpbış. Qabil fürsət tapıp, daşnan vırıp qardaşın öldürür. Bı vaxda qədər də Adəm övladı arasında nifak düşməmişdi. Bı iki gün-üş gün qardaşın ora sürühlüür, bıra sürühlüür, bilmir ki, neynəsin.

Bir gün görür ki, iki dənə qarğa dalaşdı. Qarğaan biri o birsin öldürdü. Soora başdadı dimdiyinən yeri eşip qarğanı bassırdı. Bı da bınnan örgənip öz qardaşın qazıp dəfn eliyir. Soora öz avamlığınnan pis olur ki, məəm qarğa qədər də ağlım olmuyup. Mıın qazıp bassırmax məəm ağlıma gəlmiyip.

Soora atası bir gün mınnan soruşur ki, bəs qardaşın hardadı. Bı da atasına küntöy cavap verir, deer ki, mən Habilin qaroolçusu döörəm ki, biləm hardadı, bilmirəm. Bına da atası çox qəzəplənir, lənət oxuyur. Bı da bınnan əsəpləşip öz yurdun tərk eliyip başqa bir ölkiyə çıxıp gedir. Orda oda sitayiş eləməyə başdıyır (S:5; T:1).

## NUH PEYĞƏMBƏR

Nuh peyğəmbərə Allah-taaladan xəbər gəlir ki, gəmi düzəlt. Dünyanı su aparajax. Hə, adamlara de, kim sənnən getməy issiyir, gəmiyə minsin. Hər heyvannan da bir cüt qoy. Nuh peyğəmbər də qapı-qapı gəzir, hamıya məlumat verir.

Bir həyətə girir. Görür bir qoja arvat təndirə çörəh yapır. Hə, arvada da deer ki, bəs vəziyət belədi da, dünyanı su basajax, getməy issirsənsə, sən də gəl. Arvat deer ki, hə, məən də apararsan. Su gələndə məə xəbər elə. Nuh peyğəmbər deer, yaxşı.

Soora dünyanı su basanda arvat Nuh peyğəmbərin fikrinnən çıxır. Neçə vaxdan – su çəkilip gedənnən soora peyğəmbər gəmidən düşür. Yadına düşür ki, bı arvat demişdi bına ki, məni də apar. Gedir həmin həyətə. Qapını açır, görür ki, arvad hələ də çörək yapır. Arvat peyğəmbəri görən kimi deer ki, hə, nooldu, gedirik?

Arvadın subasmadan xəbəri olmıyıp. Çünki o, iman gətirip da peyğəmbərin sözünə (S:13; T:1).

## DAVUD PEYĞƏMBƏR

### I

Rəvayətə görə, Allah-taala Davud peyğəmbərə dokquz oğul verir. Bı namaza duranda baxıp belə oğlannarına, fəxr eləyib. Bı Allah-talıya ağır gedip. Onun on günün içində oğlannarıın hamısıın canın alıp. Peyğəmbər deep, ey böyüh yaradanım, mən sənin hüzurunda çox böyük günah elədim. Oları sən vermişdin, ona sən fəxr eləməli idin. Məni bağışda. Allahın ona rəhmi gəlir, yenə ona bir oğul əta eyləyir (S:3; T:1).

### II

Deyilənnərə görə, Davut peyğəmbər o qədər boylu-buxunnu, cannı-cüssəliymiş ki, hətda öz komasına, evinə çətin-

nihnən sığışarmış. Bir günnərim bı xəssələnip yatağa düşür. Bının yanına dəyməyə gələnnər olur. Oturullar bıın devrəsində. Bı o qədər uzun olur ki, uzanıp yerdə, əyaxları, az qalır ki, qapıdan çölə çıxsın. Bı gələnnərdən biri deer ki, ya peyğəmbər, səni aparım evimizə, bizim evdə yat, dincəl, rahatdan. Bıra səənüçün çox darısqaldı. Peyğəmbər də deer ki, bilseydim ki, bı vəziyətə düşəcəm, heş bıraan da tihməzdim.

Ey dil, bu cahan cümləsi əfsanə deyilmi?
Dünyaya uyannar dəli-divanə deyilmi?
Zəhmət çəkibən xanə bina etmə əzəldən,
Bu xanələrin axırı viranə deyilmi?[11] (S:5; T:1).

III

Eşitdiyimə görə musiqinin yaranışı Davut peyğəmbərlə bağlıdı. Allah-taaladan ona vəh gəlip, musiqi ordan yaranıp (S:11; T:1).

## SÜLEYMAN PEYĞƏMBƏR HAQQINDA RƏVAYƏTLƏR

Rəvayətə görə, Süleyman peyğəmbər bir gün xəbər eyləyib ki, bütün heyvannara, hər kəs öz balasın götürüp hüzuruma gəlsin. Hamı balasın götürüp gəlir. Bı kirpi gəlməyib. Gözdəyir, gözdəyir. Deyir, görəsən, bı kirpi niyə gəlib çıxmayır?

Hava qaralır. Hannan-hana bı kirpi balasın da götürüp gəlir. Peyğəmbər soruşur ki, bəs sən hardaydın? Niyə gəlmirdin məəm çağrışıma? Deer ki, ya peyğəmbər, gözdəyirdim ki, hava qaralsın, balamı gətirəndə heş kəs görməsin, ona göz dəyər (S:3; T:1).

## SÜLEYMAN PEYĞƏMBƏR VƏ BAYQUŞ

*Bunu məə nənəm danışıp. Nənəm deyirdi ki, mən özüm gözümün şahidiyəm. Görmüşəm ki, çəpərin üssündə bayquş oturmuşdu. Sərçə gəldi, üş dəfə firrandı başına, diyandı bayquşun qabağında. Bayquş götürdü, başdadı sərçəni yiməyə.*

Süleyman peyğəmbər quşdarın, heyvannarın dilin bilən olup. Bına da səbəb oun barmağındakı üzüy olup. Həmən üzüh vasitəsiynən o heyvannarın, quşdarın dilin bilərmiş. Yəni, eşitdiyimə görə, o üzüy oun barmağında olmıyanda oları bilməzmiş.

Bir günnərim Süleyman peyğəmbərin həyat yoldaşı bınnan xayiş eliir ki, quş sümüyünnən bina, bir qəsr tihdirsin.

Süleyman peyğəmbər əmr eliir, bütün quşdarı toplıyır. Amma mıın çağırışına bayquş gəlmir. İkinci dəfə xəbər göndərtdirir, bayquşu çağırtdırır. Bayquş gəlir. Deer ki, bəs məəm çağırışıma niyə gəlmirdin? Deer, məəm xəbərim var. Mən bilirəm, bütün quşdar da bilir ki, sən bizim sümüyümüzdən qəsr tihdirməy issirsən.

Peyğəmbər bayquşa deer ki, yaxşı, mən səə üş dənə sual verəcəm. Əgər tapsan, səni də, bütün quşdarı da azad eliyəcəm. Bayquş deer ki, buyur, eşidirəm.

Deer, bu dünyada gələcəh çoxdu, yoxsa gedəcəh? Deer ki, gedəcəh çoxdu. Deer, nəyə görə? Deer ki, gələnnər az-az gəlir, amma gedəcəh müharibələrin, sellərin, fəlakətdərin sayəsində daha çox olur.

Deer, bu düyada abadannıx çoxdu, yoxsa xarabalıx? Deer ki, xarabalıx. Deer, nəyə görə? Deer ki, abadannıxlar hissə-hissə, az-az salınır, amma xarabalıxlar birdən-birə düşür, çox olur.

Deer, yaxşı, bu dünyada arvat çoxdu, yoxsa kişi? Deer ki, arvat. Deer, nəyə görə? Deer ki, arvad elə arvatdı, arvat sözünə baxan kişilər də arvatdı. Ona görə də arvatdarın sayı çoxdu.

Süleyman peyğəmbər də bilir ki, bı sözün bir ucu bına çatır. Axı bı öz arvadıın xayişiynən quşdarın sümüyünnən qəsr tihdirməy issiirdi. Ona görə bütün quşdarı azad eliir. Bayquşa da gündə üş dənə sərçə yem buyurur. O vaxdan da məsəl qalıp ki, kor bayquşun yemin Allah-taala yuvasında yetirir.

## ATLA DAYÇANIN SÖHBƏTİ

Bir gün Süleyman peyğəmbər atın üssündə, həyat yoldaşı da başqa atın üssündə yol gedillərmiş. Bı həyat yoldaşı minən atın da dayçası var imış. Düşüb anasıın dalıycan gəlirmiş. Birdən dayça kişniyir, ana da kişniyir. Peyğəmbər gülür. Axı o, heyvannarın, quşdarın dilin bilir. Başa düşür ki, bı dayçeynan atın arasında nə sööpət gedir. Arvadı deer ki, nəyə gülürsən, ya peyğəmbər? Deer ki, bala dayça daldan kişnədi, anasına deer ki, day gör neçə saatdı yol gedirih, gəl diyanax, yorulmuşam. Anası da kişnədi, ona cavaf verdi ki, bəs mən nağayrım, üssümdə iki nəfər apaarram.

At da iki nəfər deyəndə ona işarə eliyir ki, peyğəmbərin yoldaşı hamileymiş da (S:5; T:1).

## HƏRƏNİN MALI ÖZÜNƏ QAYITDI

Deer, Həzrət Süleyman o vaxdı peyğəmbərrih taxdına əyləşəndə, orda bir nəfər şikayət eliyir yerri kəndlilərdən ki, mənim bəs bosdanımı, tərəvəzimi girip bı birsi kəndliin qoyunu, heyvannarı korruyup, məə ziyan vırıp da. Bı il ac qalacam. Elə o əkinin qiyməti qədər də bı qoyunun qiymətiymiş.

Süleyman peyğəmbərin atası Davud peyğəmbər şikayətdərə baxırdı axı. Bı alır, verir qoyunnarı o ziyan çəkən kişiyə – kəntliyə. Baxır Süleyman peyğəmbər qıraxdan. Deer, ata, icazə versən, oon mən həll eliyərəm. Deer, buyur görüm,

oğlum. Deer ki, qoyunnarın dəyəri qədərdi ona dəyən əkinin ziyanı. Elə verəh qoyunnarı, bı yununnan, ətinnən, sütünnən isdifadə eləsin o əkinin pulu çıxana qədər – gələn yaza qədər. Əkinin pulu çıxannan soora hərəən malın özünə qaytarax. Bıın da hakqına girmiyəh. Bı həm əkin sahibi olacağ onda, həm də qoyun sahibi. Bə bı kişi ac qalır axı.

Baxır, Davud peyğəmbər deer ki, bı lap ədalətdi oldu, ziyan çıxannan soora kişiin heyvannarın özünə verəh.

## SÜLEYMAN PEYĞƏMBƏR VƏ QARIŞQA

Rəvayətə görə heyvannarın dilin bilən Süleyman peyğəmbər bir qabın içinə bir bığda dənəsi, bir dənə də qarışqa qoyur. Qarışqanın israfçılığın yoxlamaxçün. Qarışqıya deer ki, sən bı bığdanı dörd ilə yiməlisən. Səni dörd ildən soora bıraxacam.

İllər keçir, altı ildən soora qarışqa peyğəmbərin yadına düşür. Gedir baxır ki, qarışqa hələ bığdanın parasını saxlıyıp. Çox təəccüb eliyir.

Qarışqadan soruşur ki, niyə bının hamısın yiməmisən? Qarışqada deer ki, ya Süleyman peyğəmbər, fikirrəşdim ki, sən o qədər heyvannarnan, quşdarnan, insannarnan məşğulsan, birdən yadınnan çıxaram. O yadınnan çıxdığım müddətdə acınnan ölmiyim.

## ƏDALƏTLİ BÖLGÜ

Süleyman peyğəmbər Davut peyğəmbərin oğlu olup. Bir gün iki qadın gəlir Davut peyğəmbərin yanına. Bılar uşağ üssündə dalaşıllar. Böyüh qadın deer mənimdi, kiçih qadın da deer ki, mənim uşağımdı. Davut peyğəmbər uşağı böyüyə verir. Kiçih ağlıyıp özün öldürür ki, uşax mənimdi.

Süleyman peyğəmbər də qıraxdan atasına baxırmış. Gəlir deer ki, ata icazə ver bölgünü mən eliyim. Atası razılaşır. Süleyman peğəmbər deer ki, uşağı tən bölək, hərənizə parasın verək. Böyük razılaşır. Kiçih ağlıyıp yenə özün öldürür ki, uşağı bölmiyin. Süleyman peğəmbər uşağı alır, verir kiçih qadına.

Davut peyğəmbər deer ki, oğul nə bildin, uşax kiçih qadınındı. Deer ki, ana razı olmaz uşağı bölünsün, öldürülsün. Ona görə də kiçih qadın uşaxdan imtina etdi ki, təki uşax sağ qalsın. Amma böyüh razılaşdı. Çünki uşax onun döyül, ona canı yammır. Atası çox məmnun qalır (S:7; T:1).

## XIZIR PEYĞƏMBƏR

### I

Xızır peyğəmbər bir gün dənizin kənarıynan gedirmiş. Görür, dalğalar bir kəlləni oynadır, ora-bıra çırpır. Kəllə deer ki, Allah, bınnan betərinnən saxla, bınnan betərinnən saxla. Diyammadan deer. Xızır peyğəmbər də fikirrəşir ki, day bınnan da betəri olasıymış?

Bir də görür ki, dalğalar kəlləni çırpdı qayıya. Kəllə parça-parça oldu. Peyğəmbər, deer, barmağın dişdiir ki, yəni bınnan da betəri bıyımış.

### II

Başqa bir rəvayətdə də deyilir ki, ardı belədi ki, peyğəmbər gedir-gedir. Görür ki, çayın qırağında bir qoca qarı su qoyup paltar yuur. Baxır görür ki, arvat qurduğu ocağın bir tərəfi daşdı, bir tərəfinə də daş tapbıyıp, həmin kəlləən qoyup. Peyğəmbər deep ki, hə, “Allah, bınnan betərinnən saxla” bı imiş. Yəni suyun içində oynamax bınnan yaxşıymış da (S:13; T:1).

## XIZIR KİMİ YETİŞDİN

*Eldə belə bir deyim var ki, nə Xızır kimi yetişdin dadıma.*

Xızır İlyas adında peyğəmbər olup. Çox himayədar olup. Onun möcüzələrinnən biri də o olup ki, ona vəh gəlirmiş ki, hardasa, kimsə dardadı. O da ona sürətnən yetişip, çatıp köməy eliyirmiş, dadına çatırmış, yardım eliyirmiş, vəziyətdən çıxardırmış. Bu deyim də ordan qalıp ki, kimsə çətinə düşəndə, biri ona köməy eliyəndə çətinə düşən adam deyir ki, nə Xızır kimi dadıma yetişdin. El arasında İlyas sözü o qədər də işdəmmir. Deyillər ki, Xızır kimi dadıma yetişdin, Allah sənnən razı olsun (S:7; T:1).

## MUSA PEYĞƏMBƏR

### I

Musa peyğəmbər haxda eşitmişəm ki, necə ki, Məhəmmət peyğəmbərə Qurani-Kərim nazil olup, ona da Tövrat nazil olup. Su üssündə dura bilirmiş. Kor gözü aça bilirmiş. Bütün peğəmbərlər nəfs toxluğuynan dünyaya gəliplər. Musa peyğəmbərin ən böyüh möcüzələrinnən biri – əlindəyi əsanı atırmış, o, cannıya çevrilirmiş, sooradan yenə onu tutanda, o əsa olurmuş. Bir də o Allah-taalaynan danışmağı bacarıp.

Bir dəfə o qoyunnarın otaranda Allah-taaleynan görüşür. Allah ona deer ki, əlindəki əsanı at, o da deer ki, mən bınnan qoyunnarıma xəzəl çırpıram. Allah-taala deer, atsın əsanı. O da əsanı atır, əsa ilan olup gedir. Musa peyğəmbər ilanı öldürməh issiyəndə ilan yenidən əsa olup (S:11; T:1).

### II

Musa peyğəmbər Allahnan kəlmələşən yeganə peyğəmbər olup. Bir gün bu, Allahnan danışıp Tur dağınnan qayıdanda bir dəyirmanın yanınnan düşür yolu. Aralıdan diyanıp

dəərmandakı adamların sööpətinə qulağ asır. Görür ki, biri o birisinə deer ki, səən yükün çoxdu. Ancax məəm nööbəm sənnən sooradı. Mən tələsirəm, işim var. Öz dənüü üyüdənnən soora məəm dənimi tökərsən ora, üyüdərsən. Gəlip çatıp götürəcəm.

Bı bir kisə dəni bına verip gedənnən soora bı çox dəni olan bir kisə dəni olanın dəninnən götürür bir əz oğurruyur, tökür öz dəniin üsdünə. Musa peyğəmbər bını görüb əsəbiləşir. Gəlir bı adamın yanına. Deer, sənin bı qədər yükün ola-ola, niyə oğurruğ eliirsən? Hirssənip bına bir yumrux vurır.

Musa peyğəmbər də qolu qüvvətdi adam olup. Bir yumruğa bını öldürür. Allahdan mına vəyh gəlir ki, ey Musa, sən neynədin? Mənim bəndəmi öldürdün. Bı da qayıdır ki, ay Allah, qurban olun sənə, bəs neyniyim, bının bı qədər dəni var, bir araba dəni var, bir kisədən oğurruğ eliir.

Allah-taala qayıdır ki, ey Musa, biz sənə nemətdər vermişik. Sən də bı gətirdiyi bir araba dənin bərəkətinnən kəs, bir kisə dənə ver. Bı on günə yiip qutarsın, ancağ o biri bir kisəni bir aya yiip qutara bilməsin.

## III

Bir günnərim Musa peyğəmbər öz ümmətin başına yığıp, təbliğ eliir təkallahlığı ki, Allah birdi, hər şeyə qadirdi. Camaatın içinnən bir nəfər qayıdır ki, ya Musa, dünyada ən ağıllı peyğəmbər – ən ağıllı insan kimdi? Musa peyğəmbər qayıdır ki, mən.

Mıın bı sözü Allah-taalan xoşuna gəlmir. Mına vəyh gəlir ki, Allahdan – sən özünçün bir əz azuqə topla, bir dənə də ölü balıx qoy sumkua, sahilnən get. Balıx nə vaxd səən çantannan tullanıp suya düşsə, orda gözzə, səən yanua bir adam gələcəh, onnan səyahət elə.

Musa peyğəmbər də veş-mişoğun yığır özüyçün, balığı da qoyur, yanında da bir nəfərnən gedir. Gedillər bir xeylax. Bir qayıya söykənir, bir əz diyanır. Bını yuxu tutur. Balıx da sumkadan tullanır düşür suya. Yanındakı adamın da yadınnan çıxır, Musa peyğəmbərə ayılanda o sözü demir ki, balıx bırda düşdü suya.

Bir xeylax gedillər. Deer ki, aç, azuqəmizdən bir əz yiyək. Sumkanı açıllar. Yiməyə başdıyanda Musa peyğəmbər qayıdır ki, bəs balıx hanı? Deer ki, biyax yatdığuuz yerdə düşdü. Deməh yadımnan çıxdı.

Musa peyğəmbər əyağ izdəriynən qayıdır həmənki yerinə. Yaxınnaşanda ora, görür bir nəfər. Bına deer ki, salam, ay Musa, necəsən? Peyğəmbəri salamlıyır. Bı fikirrəşir ki, görəsən, bı kimdi, məni tanıyır? Yəqin həmin adamdı da. Deer, ay Musa, gəl mənnən səyahətə gedəh, gəzəh. Amma bir şərtim var. Gəl əhdi-peyman bağlıyax, amma onu pozma. Mənnən yolda elədiyim hərəkətdərə görə heş nə soruşma. Razılaşıllar.

Bılar bir əz gedip bir gəmiyə minillər. O adam gəmidə deer ki, ay Musa, o sərçələri görürsən, olar hamsı dəryadan bir damcı su aparır. Bizim də Allahın elm dəryasınnan götürə bildiyimiz yaliz o damcı qədərdi.

Gəmi bıları aparır. Mənzil başına çatanda bı adam vırıp gəmiin taxdasın sındırır. Musa peyğəmbər qayıdır ki, sən neynədin? Bılar bizə yaxşılıq eliip, gətirip bıra çıxardıp. Sən də bıların gəmisin xarab elədin. Deer ki, ya Musa, biz əhdi-peyman bağlamışığ axı.

Bılar gəzməyə davam eliillər. Bir kəndə çatanda görüllər ki, yeddi-səkkiz dənə uşax oynıyır. Bı adam yaxınnaşıp bıların içindəki hündür boylu, ən gözəgəlimli uşağı tutub öldürür. Musa peyğəmbər deer ki, sən neynədin? Allahın yaratdığı bəndəsin öldürdün? O adam da deer ki, sən əhdi-

peymanımızı pozursan, bı sənə yaraşan iş döyül. Məəm işimə qarışma. Allah-taaladan Musa peyğəmbərə vəh gəlir ki, onnan səyahət elə, öyrəmməli oldığın çox şey var sənin.

Bılar yollarına davam eliyillər. Axşam düşür, hava qaralır. Bılar gəlip bir kəndə çıxıllar. Kətdə hansı qapıın döyüllər, heş kəs bılara qapı açmır, qonax kimi saxlıyan olmır. Çörəh, su verən tapılmır.

Nəsə, bılar bir az gedir. Görüllər ki, kətdə bir uçux hasar var, içində də bir uçux koma. O adam deer ki, ay Musa, gəl bir az kərpiş kəsəh, bı komanın uçan yerrərin hörəh. Musa peyğəmbər də cavabında deer ki, bizə yaxşılıx eliyənin gəmisin deşdin, günahsız bir uşağı öldürdün, bizi qəbul eləmiyən, su belə vermiyən bir kəndin adamlarına yaxşılıx eləməh isdiyirsən. Bıranı hörməy isdiyirsən. O da deer ki, ya Musa, sən mən diyəni elə.

Nəsə, bılar palçıxdan kərpiş kəsillər, başdıyıllar bıranı hörməyə. O adam görür ki, Mısa peyğəmbərin artıx səbri tükənip. Binnan oyza bılar gedə bilməzzər.

Deer ki, ya Musa, görürəm artıx sənin səbrün tükənip. İndi mən sənə elədiyim hərəkətdərin səbəbin açıxlıyım. Gəmini ona görə deşdim ki, o gəmiynən o ayilə öz ruzisin çıxardır. Onan dolanıllar. O gəmiyə quldurrar hücum eliyəcəh. Görəndə ki, o gəmi sınıxdı, day o gəmiyə dəymiyəcəhlər. O ayilə də o gəminin deşiyin tutub, onnan öz çörəhlərin qazanacaxlar, dolanacaxlar. Gəldi ki, qarşıda uşağı öldürdüm, onu niyə öldürdüyümə gələndə, o uşağın anası, atası imannı şəxsdərdi. O uşax isə düşdüyü mühitdə pozulacax və ata-anasına üz qarası olaceydi. Amma indi Allah olara yenə bir uşax verəcəh, o imannı uşağ olacax, atasıın, anasıın üzün ağardacax. Bı hördiyimiz yerə gələndəsə, bırda kimsəsiz uşaxlar yaşıyır. O uşaxlar indi bırda yoxdılar. Gələndə görəcəhlər ki, öylərinin girişi də, çıxışı da hörülüp, oranı

uçurdup öylərinə girəcəhlər. Onda da bırdan bir küp qızıl tapacaxlar və bırda xoşbəxt, rahat yaşıyacaxlar (S:17; T:1).

## IV

Keşmiş zamannarda Musa peyğəmbər Allahnan kəlmələşməyə gedirmiş. Yolda bir nəfər ras düşür, möhumatcı, çox səxavətdi, xeyirxax adam olur. Deer gedirsən, xayış elirəm, Allahdan soruş görüm, məəm yerim-yurdum o dünyada harda olacax, nə olacağ işimin adı. Deep, baş üssə, soruşaram.

Bir qədər gedənnən soora bir mərdimazar adama ras gəlir. O da deep ki, məəm bı dünyada heç bir xoşagələn, xoş əməlim, işim olmayıp da. Marağlan, soruş gör, mənim yerim-yurdum hara olacağ o dünyada.

Gedir soruşur, birinci bı xeyirxah adamınkin. Deer, cənnətin üçüncü mərtəbəsində, üçüncü qatında. Nə işə baxacağ o? Bi işin sahibi olacağ.

Soora o bədəməl insanı soruşur. Deer ki, cəhənnəmin lap isdi yerində yanacağ. Qayıdıb gələndə sifdə o mərdimazara ras düşür. Bınnan görüşənnən soora soruşur ki, kəlmələşdin? Deer kəlmələşdim. Bəs nə dedi Allah-taala mənim hakqımda? Dedi ki, cəhənnəmin hansı bucağında olacağ, harasında olacağ. Bı əl götürür Allaha, deer, çox şükür. Allah, sənnən mən çox razıyam. Axır mən də nəyəsə yarıyarammış.

Elə orda Allahdan nida gəlir ki, həmin adama – Cəbrayıla ki, o adamın yerin dəyişdim, cənnətin üçüncü mərtəbəsində nə işə baxacağ.

Gəlir biyankına deer, bəs belə-belə. Deer üçüncü mərtəbədə olassan cənnətdə. Deer, bəs mən uxarını gözdiirdim da, uxarı qatdarı. Deer, yoox, sən də orda olassan, filankəs də orda olacax – o ziyankarı deer. Bına acığ gəlir, Allahın bı işinə narazılığ eləyir. Deer heç düz eləmir, onıynan məni eyni yerə rəva görür.

Təzədən yenə Cəbrayıla Allah tərəfinnən nida gəlir ki, o adamın yeri cənnətdən ləğv olundu. Keşdi cəhənnəmə – isdi bıcağına.

Gərəg həmişə Allaha şükür eliyəsən (S:22; T:1).

## İSA PEYĞƏMBƏR

İsa peyğəmbər, deerlər ki, bakirə Məryəmnən doğulup. Ona görə ona bəzən Allahın oğlu da deellər. O vax Məryəmi, həzrəti-Zəkəriyyə adında peyğəmbər olup, onıynan zina etməhdə günahlandırıllar. Onu daş-qalax eləməh issiyillər. Bıları da aparıp Misirdə gizziyillər. On iki yaşında onun peyğəmbərriyi üzə çıxır.

Bir gün olar yaşadığı öydə oğurrux olur. Bir varrı adamın qızılın, pulun oğurruyullar. Bına görə də orda yaşıyan bütün kasıp-kusuba əziyət verillər. İsa peyğəmbər irəli çıxır. Orda bir kor və bir şikəst iki nəfər var imiş, üzün tutur olara, deer ki, qızılları gətirin qoyun yerinə.

İsa peyğəmbər itənnəri tapmaxda çox bacarıxlı olup. Sooralar yəhudi xalqı qalxıp ki, onu öldürsünnər, Allah-taala onu qeybə çəkip. Qaldırıp göylərə (S:7; T:1).

## MƏHƏMMƏD PEYĞƏMBƏR

### I

Bildiyimiz kimi, bütün peyğəmbərrər hərəsi bir möcüzeynən gəlip. Məhəmməd peyğəmbərin də möcüzəsi gətirdiyi Qurani-Kərim olup. Bir gün bir qadın bir adamnan peyğəmbərə bir qab yağ göndərir. Peyğəmbər də ayrı bir qabda həmin adamnan ona bal göndərir. Bı ayilə bı bir qab baldan nə qədərə yiyir, bı bal qutarmır.

Xeyli vax soora arvat götrüb balı başqa qaba boşaldıp qabı yuyur. Balı bir-iki dəfə yidihdən soora bal qutarır.

Bir müddət soora peyğəmbər həmən qadını görür. Soruşur ki, sizə pay göndərmişdim, çatdımı. Arvat deer ki, çatdı, amma nə qədər yeyirdiksə, qutarmırdı. Balı başqa qaba boşaldan kimi bal qutardı.

Peyğəmbər həmən qabla həmən evə ruzi-bərəkət göndərmişdi (S:17; T:1).

## II

Deyilənə görə, Məhəmməd peyğəmbər əleyhissalam merac eliyəndə onu Cəbrayıl əleyhissalam göydə gəzdirir. Bütün mələklər hamısı bına baş əyir ki, Allahın ən gözəl elçisi gəlib. Hər yeri gəzdirənnən soora bını gətirir Ayın yanına. Ay da necə bərq vırırmış. Deer, məni bıra niyə gətirdün? Deer, gözdə. Mən sənə nə desəm, sən heç bir cavab vermə. Oların hamısı sənə baş əyməlidi. Görür Ayın içinnən bir dənə tüklü əl çıxdı. Deer Cəbrayıla ki, bu nədi? Deer, biləssən. Yerə enənnən soora bı başına gələn əhvalatı danışır. Onda bının qırx yaşı tamam olmuşdu. Bına peyğəmbərriy verilmişdi. Bir gün bı Həzrət Əlinin anasıın da adı Fatimə olub, deyilənə görə, o da müqəddəs yerdə doğulub. Deer, girdi bir müqəddəs örtülü yerə. Divar yarıldı və ordan qucağında uşağ çıxdı. Bının girməyinən, çıxmağı bir olup. Onnan irəli bının köməyçiləri çıxıb dellər ki, uşağ doğulub, ancağ uşağın əli üzündədi. Qəti uşağ əlin üzünnən götürmür. Peyğəmbəri çağırdılar ki, ya peyğəmbər, bəs sənin əmün oğlı dünyaya gəlip, amma əli üzündədi. Nə qədər eləyirüg, əlin üzünnən götürmür. Peyğəmbərimizin qarşısına gətirillər o uşağı – Həzrət Əlini. O sahat, o deyir, Allahın məsəlli əla Muhamməden və ali Muhəmməd. Onnan, deer salavat peyğəmbərə gəldi. Və Məhəmməd peyğəmbər deer ki, mən bunı göydə merac eliyəndə görmüşdüm. Soora Cəbrayıl deyir ki, mən bını gösdərmişdim sənə. O görür ki, bı tükdü elə helə,

bının iki dənə əlləri. Deyillər, Həzrət Əli çox tüklü adam olub. Gözəl olub, amma tüklü olub. Deer, mən onda bını göydə görmüşdüm. Mənim gösdərəcəyim bı idı.

**III**

Peyğəmbərimizin evinə yeziddər od vırıb yandıranda sərçə də gətirib ona od tökürmüş ki, qoy alışsun. Amma göyərçin dimdiyində su gətirib tökürmüş. Peyğəmbərimiz bını görüb, sərçiyə deyib, səni görüm elə həmişə helə çolağ qalasan. O vaxdan sərçə tullana-tullana gedir. Göyərçinin də ayağları imamların qanına batıb. Onu müqəddəs sayıllar (S:4; T:1).

**IV**

Deyillər ki, bir dəfə Məhəmməd pyğəmbər əbasın çıxardıp qoyur, gedir dəssamaz almağa. Qayıdıp gələndə görür ki, əbasıın üssündə pişih yatıp. O, pişiyi narahat eləməsin deyə əbanın pışih yatan hissəsin kəsip götürüp (S:6; T:1).

**V**

Qurbanolduğum peyğəmbərimizin bir qız evladı olur. Uşax böyüyənnən soora bir nəfər yaxşı bir adam bılara gəlir, peyğəmbərə deyir ki, sizin qızuuzu öz oğluma issirəm. Peyğəmbər öz razılığın verir.

Bir neçə günnən soora başqa bir nəfər peyğəmbərin qızın görür. Bı da peyğəmbərdən həmən qızı issir. Peyğəmbər bına da yox deyə bilmir, bına da "hə" verir.

Bir neçə günnən soora üçüncü bir nəfər gəlir. Bı da həmən qızı görür. Bı da öz oğluna həmən qızı issir. Peyğəmbər bınnan da keçə bilmir, razılıx verir.

Bı da gedənnən soora peyğəmbər oturur, əl açır ki, ay Allah, mən neyniyim? Bir qız, üç nəfərə də "hə" vermişəm, məni xəcil eləmə. Peyğəmbərin də bir eşşəyi, bir iti olur

qapıda. Olar da çörükür qurbanolduğum tərəfinnən qız olur. Üçü də bir-birinə oxşuyur. Peyğəmbər bıları dəyişik salır: bilmir özüünkü hansıdı, o birsilər hansıdı. Köçürdür bıların hamısın eyni səviyyədə.

Bir müddət keçənnən soora deer, gedim görüm hansı hara düşüp da. Amma bilmir hansı qızı hansı evdədi. Gedir bir gün bir qızıın qapısına. Görür ki, elə başın salıb işin görür. Bı qız heç əhəmiyət vermir da, ata gəlip. Peyğəmbər baxır, fikirrəşir. Deer, hə, bı eşşəhdi.

Gedir ikinci qızıın qapısına. Görür ki, qız ona bir ağız atır, bını acılıyır, o biriynən tutaşır, çox sərt hərəkətdər eliyir. Deer, hə, bı da itdən dönmədi.

Gedir üçüncüün görməyə. Görür ki, hə, bı sakit, əsil insan balasıdı. Deer, hə, bı məəm doğmaca qızımdı. O vaxdan misal qalıpdı ki, insannar üş cür olur: eşşək, it, insan (S:11; T:1).

## HƏZRƏT ƏLİ

### I

Zülfüqar adında Həzrəti Əlinin qılıncı olup. O qılınc iki haçalı olup. Qılıncın iki ucu olup. Bı qılıncın tarixi haqda çox rəvayət var. Mən keşmişdə yaşdılardan eşitmişdim ki, onu peyğəmbər əleyhissalam hədiyyə verip.

Başqa bir rəvayətə görə, o qılıncı göylərdən Cəbrayıl mələyi endirip. Qılınc rəbbim tərəfinnən hədiyyə edilip Süleyman peyğəmbərə. Süleyman peyğəmbərdə hədiyyələr içində qılıncdarın ən yaxşısı Zülfüqardı. İgitdərin ən yaxşısı Həzrəti Əli olduğuna görə Həzrət Əliyə layiqdi bu qılınc. Zülfüqar sözünün hərfi mənası da onurğa deməhdi. Başqa rəvayətdə qılıncın iki başı olmasını imamlar Həsənlə Hüseynlə bağlıyıllar.

## II

Həzrəti Əli çox güjdü, mülayim, alicənab adam olup. Məhəmmət peyğəmbərin də əmsi oğludu – əmisi Əbutalibin oğludu, həm də kürəkəni. Əbutalibin çox övladı oluduğuna görə peyğəmbərin qohum-əqrəbələri, yəni əhli-beyt nəsli onun uşaxlarınnan götürüp saxlıyır. Həzrəti Əlini də Məhəmmət peyğəmbər əleyhissalam oğulluğa götürüp əmsinə köməh məqsədiynən. Özü yetişdirip. Ən sevdiyi insan olup və nəhayətdə qızı Həzərti Fatiməni oniynan evləndirip.

## III

Bir dəfə Məhəmmət peyğəmbər əleyhissalamnan soruşullar ki, Əlini niyə bu qədər çox issiyirsən. Suala cavap olaraq çağırır Həzrəti Əlini. Soruşur ki, Əli, kimsə səni acılasa, təhqir etsə, ağır söz desə, ona neyniyərsən? Deer ki, heş nə. Ona sakitcə mülayim cavap verərdim. Deer, bir də eləsə? Deer ki, mülayim cavap verərəm. Deer, bir də eləsə? Deer, yenə mülayim cavap verərəm. Üş dəfə soruşur, eyni cavabı alır. Axırıncıda Həzrəti Əli deer ki, özünü yorma, peyğəmbərim, yüz dəfə eləsə, yüz dəfə də mülayim cavap verərəm.

Deer ki, bildiniz indi mən Həzrəti Əlini niyə çox issiyirəm. Yəni ki, çox qüdrətdi adam olup. Peyğəmbərin ürəyinə yol tapan, peyğəmbərin ürəyin oxuyan adam olup. İnsannar onu ürəhlərində yaşadıplar. İndi də adı hörmətnən, ehdiramnan çəkilir (S:7; T:1).

## IV

Bir gün İmam Əli meçidə gedir namaz qılmağa. Bir nəfər Əliyə yaxınnaşır ki, atuu ver, saxlıyım da mən. Əli də razılaşır, bı atı saxlıyır. İmam Əli girir meçidə namazın qılmağa. Çölə çıxanda gəlir atın yanına. Görür nə adam var, nə də atın üssündə yəhəri. Yanındakı bir nəfər adama deer ki,

sənə dört dinar pul verəcəm, get məə bazardan bir dənə yəhər al gətir.

Həmin adam da gedir bazara, görür ki, bir uşax yəhər satır. Uşağa dört dinar verir, yəhəri alıp gətirir. Gətirir, imam Əli yəhəri görən kimi tanıyır. Yəhəri qoyur atın üssünə, deer ki, mən o adama bı atı saxladığına görə zəhməthakqı olarax iki dinar pul verəceydim. O belə bir oğurruğ elədi, dört dinara satıldı da bı yəhər. O kişi halallıxnan qəbul eləmədi bu iki dinarı (S:24; T:1).

## XANIM FATİMEYİ-ZƏHRA

Xanım Fatimeyi-Zəhra ana bətnində ikən anasiynan sööpət eliyimiş, anasına səbir verirmiş. Dünyadan köçənə qədər mələklər onun hüzuruna gəlib, mələklərnən sööpət edirmiş.

Məhəmməd peyğəmbərnən həyat qurarkən onu çox qınıyıllar ki, yəni sən imkannı qadınsan da. Sənə lazım deyildi, sən kasıp bəndiyə ərə gedəsən. O da heç kimin sözünə əhəmiyət vermir. Məhəmməd peyğəmbərə ərə gedir, onunla həyat qurur. Ona görə də çoxları Xanım Xədicəni danışdırmırmış. Fatimeyi-Zəhra da anasına səbir verirmiş o barədə ki, hər şey yaxşı olacaq – hələ anasıın bətnində olarkən (S:25; T:1).

## XANIM ZEYNƏB

Xanım Zeynəbin qurbağa hakqında deyimi var. Yeddi qardaşı ölür. Bilmir neynəsin. Qətl sınan günü daa. Oun qardaşdarı hamısı şəhid olur. Ağlayır, ağlayır. Bi də görür qurbağa başına bi dənə bağayarpağın tutub gəlir. Deer, bə mən bi yaylığ tapbadım, bağayarpağın tutdum başıma, yasa belə gəldim. Bında xanım Zeynəb gülür. Onnan qalıb ki, hüzürdə də güləllər (S:2; T:1).

## MƏLƏYİN İMAM HÜSEYNİ ZİYARƏT ETMƏSİ

Kərbəla çölündəki döyüşdə mücahiddərin çoxsu qırılır. Təkcə İmam Hüseyn qalır. İman Hüseyn təkbaşına düşmən qoşununun qənşərinə çıxır. İmamın atı da hürkmüşdü. Birdən qoşunnan bir nəfər çıxıb İmamı məsxəriyə qoyur. Xudabəndi-aləmnən belə bir şey olur ki, at həmin adamı vırıb yıxır yerə. O, yerə yıxılanda yerdə bir əqrəb hazır olub çalır bunu. Əqrəb bunu çalan kimi o, qoşun əhlinə bağırmağa başdıyır:

– Mənə su, mənə su.

Buna hardan su gətirillərsə, su içə bilmir. Bu İmamın möcüzəsi idi. Su içə bilən partdıyıb ölürdü. Qoşun əhli bu hadisəni görən kimi İmama qılınc çəhməhdən imtina eliyir. İmam deyir ki, mən qoca kişiyəm, qoyun çıxım gedim. Hindisdana gedim, Firəngə gedim.

İmamın Əli Əsxər addı qundaxda balaca körpəsi vardı. O, qoşun əhlinnən rica etdi ki, balaca uşağa bir qurtum su versinnər.

Düşmən qoşunun içərisində Hərmələ addı yaxşı bir oxatan var idi. O, üçbaşdı oxnan uşağı gennən vırır, qan tökülür. İmam əlini qana tutub dedi ki, vallahi, qan üzəngiyə çıxıncan sizdən qıracam. Sora Zülfüqarı çəkdi, atı cövlana gətirdi, vırdı, çapdı. Orda da, əlbətdə, İmama çoxlu yaralar dəydi, başınnan yaralandı. Qayıtdı Xeyməgaha ki, başın sarıtdırsın. Oturdu xanım Zeynəbin qənşərində. Xanım Zeynəb bunun yarasını sarıyırdı.

O vaxtı İmam Hüseyn anadan olanda butün məlakələr onu görməyə gəldilər, ziyarətə gəldilər. Bir mələk orda olmamışdı. O, narazı halda bildirdi ki, bəs mən ziyarət edə bilmədim. Ona dedilər ki, elə bir şərait yaranacax ki, sən onu ziyarət edəəsən. Həmin mələk ceyran sifətində Hindistanda gəzib dolaşırdı. Hindistan şahı onu qovurdu. İmam da xanım Zeynəbin yanında idi, başın sarıtdırırdı. Şah əmr elədi ki,

ceyran kimin yanınnan qaşsa, onun boynu vırılacax. Ceyran da məlakə idi axı, eşidirdi. Tullandı qaşdı vəzirin yanınnan, şahın yanınnan. Qaçanda vəzirnən şah bunun dalıycan düşdülər. Qovhaqov, qovhaqov, meşiyə gəlib çıxdılar. Meşədə həmin mələh ceyran cildinnən çıxıb oldi şir. Şah dedi ki, vəzir, bu şir imiş ki, bizi yiyəcəh bu. Yiyəcəh, da nağayrax? Çarə yoxdi. Bizə heş yerdən köməyə gələn yoxdi. Əgər qonşu tayfalardan köməy oldusa, oldi, olmadısa, yox. Sən özgə vaxdı deyirdin ki, filandı, bəsməkandı.

Burda vəzir şaha namazın formalarını öyrədir. Şah başdıyır yalvarmağa. Deyir:

– Ya Hüseyn, şir əlində xəcil olmuşam, mənə köməyə gəl.

İmam Hüseyn də xanım Zeynəbin yanında idi, başın sarıtdırırdi. Birdən İmamın qulağına qeybdən şahın yalvarış səsdəri gəldi. İmam Allahın qüdrətiynən qeyb oldi. Xanım Zeynəb dedi ki, bıy, qardaşım bayax burda idi, başın sarıtdırırdi, necoldu bu?

İmam qeyb olub şaha köməyə getmişdi. Bir yannan da Şümürün qoşunu dedi ki, ay sən öləsən, ölümcül vaxdında yaağın bu göyə qalxdi. Biri dedi, yaağın belə getdi. Hərə bir bəhaneynən Xeyməgaha hücum elədi. Şahnan vəzir də şirin qənşərində aciz qalmışdılar. Birdən gördülər ki, tozanax qopur, bir atdı gəlir. Görüllər ki, bunun atına da, özünə də o qədər ox vırıblar ki... Şair deyir ki, vəzir, bu adam kimdisə, döyüşdən yaxşı çıxıb, amma ölümcül haldadı. Elə bu ölən vaxdında şirə rast oldu, şir bunu yiyəcək. Bu atdı İmam Hüseyn idi. O gəlib yaxınnaşanda şir durur, gedib yıxılır bının atının ayağının altında. Görüllər ki, təslim oldu şir buna. Bu noolan şeydi? Həmin şir məlaykə idi, İmamı o orda ziyarət elədi. İmam dedi:

– Ey heyvan, get.

Onnan sora şir yavaş-yavaş durdu getdi. Şahın adı Sultaniqeys idi. Şah dedi:

– Ey süvari, sən kimsən, nəçisən? Sən bizi şirin əlinnən qutardın. Sənə nağayrax? Qoşunum var mənim, Hindistan şahıyam. Çəkim, düşmənuu qırım.

İmam dedi:

– Yox.

Şah dedi:

– Yaxşı loğmannarım var. Səni aparım yaralaruu sarıtdırım, malicə elətdirim.

İmam dedi:

– Yox, mənim dərdim başqa cürdü.

Şah dedi:

– Bəs mən nə eliyim?

İmam dedi:

– Mənim bu atımın ayağının altınnan bır az torpax götür, bir yerə tök. Nə vaxt o, qırmızı rəngə boyansa, bilginən mən ölmüşəm. Onda əhaluu yığarsan, mənə yas saxlıyarsan, matəm saxlıyarsan. O əhaluun gözünün yaşı mənim bu yaralarımın dərmanıdı.

Şah axırda dedi:

– Axı sən kimsən?

İmam dedi:

– Mən Hüseyn İbn Əli

Bir yarəm, ey Sultaniqeys.
Bir ələmdari ölən
Sərdarəm, ey Sultaniqeys.
Gör nə əhvalə salıblar
Peykəri, sədparəmi.
Bir tərəfdə ləşkəri
Əşar üzübdü çarəmi.
Səsləyəndə sən məni

Bağlardı Zeynəb yarəmi.
İstəsə hər kim, ona
Qəmxarə ver, Sultaniqeys.
Əhli-beyti qoymuşam
Əşar içində, gəlmişəm.
Xarə çox gül tapşırıb
Gülzar içində gəlmişəm.
Qoymuşam bimarimi
Humbar içində gəlmişəm.
Gərdişi-çərxi ilə mən
Koxarəm, ey Sultaniqeys.
Qorxma, gəldim mən səni
Şirin əlindən qurtaram.
Taqəti yoxdu atın da
Durmağa, çoxdu yaram.
Yeddi qardaşdan sora
İnsafdımı mən sağ qalam?
Dərdə düşmüş peykərin
Humbaram, ey Sultaniqeys.
Parə-parə cismilə
Gəlib yetişdim dadinə.
Ağla çün əhvalimə
Hər gün düşəndə yadinə.
Oğlu ölmüş Həzrəti
Didadəm, ey Sultaniqeys.
Mən Hüseyn ibn Əli
Bir yarəm, ey Sultaniqeys.
Bir ələmdar ölən
Sərdarəm, ey Sultaniqeys (S:31; T:2).

## UVEYS BABA

Bir seyid olup. Onun çox ağır cəddi olup. Biz tərəflərdə el arasında ona Uveys baba deyillər adına. Uveys baba, deyilənə görə, Ağdaşda yaşıyıpdı. Əli çox səbəpli, böyük-kiçih bilən adam olupdu.

Rəvayətə görə, onun ən böyük arzusu peyğəmbərimizi görmək, onu tanımağ olupdu. Bir gün bu eşidir ki, peyğəmbərimiz ziyarətə gedir. Bu çox isdiyir ki, peyğəmbərimiz ziyarətə getməmiş onu görsün. Gəlir anasının yanına, deir ki, mən peyğəmbərimizi görməyə getmək isdiirəm. Anası deyir ki, sən onun görüşünə gedip, gəlib mənim ölümə çatmasan, sütümü sənə halal eləmərəm.

Uveys baba bunnan çox pis olur, fikirri gəzir. Anası görür ki, bu çox pis olub. Uveys babanı çağırır yanına, deyir ki, sənə demirəm getmə. Ged, amma yenə deyirəm, gəlip mənim ölümə çatmasan, mən öləndə yanımda olmasan, sözüm sözdü, südümü sənə halal eləmərəm.

Uveys baba tez çıxır gedir peyğəmbərimizin görüşünə. Dayanmadan, durmadan, yolda isdirahət eləmədən gedir, çatır peyğəmbərin qaldığı yerə. O vaxdı onun qaldığı yer mağara tipli bir yer olupdu. Girir evə, peyğəmbərimizi soruşur. Peyğəmbərin qızı onun gəldiyini görüp yaşmaxlanıp deir ki, peyğəmbər evdə yoxdu, azana gedip. Gözdə, indi gələr. Veys baba da deir ki, yox, gözdüyə bilmərəm. Gələndə deyərsən, onun görüşünə Uveys gəlmişdi. Bunu deir, gəldiyi kimi də dala qayıdır ki, gəlib anasına çatsın.

Veys baba ordan bir az aralanannan soora peyğəmbər gəlir. Görür ki, evinnən müşk iyi gəlir. Bizdə el arasında deyillər ki, cənnət iyi gəlir. Qızın çağırır, soruşur ki, bizə Uveys gəlmişdi? Qızı onun gəldiyin deir. Peyğəmbərimiz deir ki, bəs hanı? Qızı da cavab verir ki, dedi ki, anam xəssədi. Gözzəməyə vaxdı yoxudu.

Peyğəmbər çıxır, Uveysin qaraltısını görür, yanında olanlar Uveysi çağırıllar. Uveys baba çöörükür baxır, peyğəmbərin qaraltısın görür, amma anasına çatmaq üçün qayıtmır. Gəlir görür anası sağdı, bınnan çox sevinir.

Peyğəmbər gedir ziyarətə. Peyğəmbərimiz ziyarət eliyəndə onun yanında olan bütün əsabələri Uveys babanı görüllər. Ziyarətdən soora peyğəmərimiz əbasını çıxarır verir əsabələrinə ki, bunu Uveysə çatdırın. Deyin ki, Allahın issəyi ilə bu dünyasıın da, o dünyasıın da cənnətini qazanıp.

Əsabələri də onu çox axtarıllar. Veys babanı tapanda peyğəmbərin əbasını ona verillər. Deillər ki, peyğəmbərimiz dedi ki, o bu dünyasıın da, o dünyasıın da cənnətini qazanıp. Uveys baba da Allahına şükür eliyir. Deir ki, şükür, ay Allah sənə, mən peyğəmbərimizi görə bilməsəm də, əbası mənə qismət oldu. Bunu eşidən əsabələri deellər ki, necə olur ki, sən peyğəmbəri görməmisən? Biz hamımız səni peyğəmbərimizlə çiyin-çiyinə ziyarət edən görmüşük.

Uveys baba bunu dərk eliyir ki, oun anasına qoyduğu hörmət, onun anasının sütünə verdiyi qiymət Allahın da, peyğəmbərin də yanında bəyənilən əməllərdən olup. Anasına verdiyi qiymətə görə sağlığında o dünyasını qazanıp və ruhən də olsa, peyğəmbərnən görüşüp, ziyarət eliyip.

İndi də deellər ki, hal-hazırda onun qəbri üş yerdə var. Amma  hansı olduğu dəqiq bilimmir. O qəbirrərdən biri də Ağdaş ərazisindədi (S:12; T:1).

## ƏZRAİLİN NARAZILIĞI

### I

Eşitdiyimə görə, qurbanolduğum mələhləri arasında vəzifələrin bölüşdürəndə Əzrayıla da ölüm hökmün yerinə yetirməyi tapşırır.

Allah-taala Əzrayılı bir qapıya yeddi dəfə göndərir. Bir arvadın səkkiz oğlu olur. Əzrail gedir, bunun yeddisiin canın alır. Axırda arvad Allaha da, Əzrayılada asi düşür. Əzrayil da gəlir Allah-taalanın hüzuruna ki, mənə bu işi vermə. Mən camaatın yanğısına, ağlamasına baxa bilmirəm. Hamı məni günahlandırır.

Allah-taala bina deer ki, get, bınnan soora kimin canın almağa getsən, heç kim səni günahlandırmıyacax. Heç kimin yadına belə düşmiyeesən. Bunu səkkizinci dəfə həmin evə göndərəndə Allah-taala Əzrayıla deir ki, get, gözzə. Mən sənə deyəcəm, həmin an onun canın al, onda sənnən görmiyəcəhlər.

Əzrayil gedir həmin evə. Arvad da həmin vaxdı təndirdə çörəh bişirirmiş. Uşax da gəlip bu arvadın yanında oynuyur. Təndirin altında deşik olur, o deşiyi açır, çörəyə əl vırır, yumurtalı boşqabı dağıdır. Arvad da çox hirssənir, götürür oxleynən uşağı vırır. Uşağın vıranda uşağ ölür. Arvad bunun ölmündə özün günahlandırır. Bınnan soora da ölənnərin böyük əksəryəti hansısa hadisənin qurbanı olur. Day heş kəs Əzrayılı günahlandırmır (S:12; T:1).

**II**

Deer ki, Əzrayıl can alandı, Cəbrayıl peyğəbərin elçisidi. Gedir o peyğəmbərnən kəlmələşir, soora gedir Allaha deyir. Allahdan nida gəlir, Cəbrayıl da xəbər gətirir. Cəbrayıldı, Əzrayıldı – bılar Allahın elçiləridi, mələhləridi. Allaha şikayət eliir ki, hamı məə nifrət eliyəcəh da, canalan qoymusan məni. Camaatın canın alacam, məə pis baxacaxlar. Deer, sən narahat olma. Elə tərzdə oların canın alacam ki, heş sənnən görmiyəcəhlər (S:15; T:1).

## ÖMRÜN MÜDDƏTİ

Bir gün bir kişi Allah-taaladan soruşur ki, ay Allah, məə nə qədər ömür yazmısan? Allah-taala da deyir ki, qaşunan gözüün arasındakı məsafə qədər. Bınnan kişi narazı olur. Deyir, nə az ömür yazmısan. Bu, Allah-taalanın acığına gəlir.

Bı səfər, bir əyğısürüşgən qadın olur, soruşur, ay Allah, məə nə qədər ömür yazmısan? Allah-taala deyir ki, qaşuunan gözüün arasındakı məsafə qədər. Qadın deir, çox şükür, xudaya, məslatua şükür.

Allah-taala arvadın bu şükrünə görə kişiin ömrünnən kəsir, arvadın ömrün uzadır (S:24; T:1).

## SAVAB OV

Deyiillər, kəklig quşun ovlamağ savabdu. Çünki bı imamların müsibətində imamlardan biri qaçıb canın qutarmağ üçün dağda girib kaha – oyuğa. Döyüş gedirmiş. Yeziddər də bı adamı axdarır da, bı necoldu. Bını öldürməlüyüg. Hörümçəg tez bı kahın ağzın torrayır. Guya ki bıra adam girməyib. Amma kəklig başdıyır oxumağa ki, qakqıdı-qakqıdı, kahdadu ha, kahdadu, qakqıdı-qakqıdı, kahdadu ha, kahdadu. Həmin o yeziddər genə fırranır. Dırnağıynan cırmağlayur, açır. Tez hörümçəy yenə də onu torrayır ki, bırıya girib bı adamı tapbasınnar. Üş dəfə helənçiynə eliyənnən soora başa düşür yezid, girib öldürür o adamı (S:3; T:1).

## TOPONİMİK RƏVAYƏTLƏR

## BƏD DƏRƏ

Kəndin rayona girən hissəsində dərə var. Orıya Bərk də-rə – Bərt dərə deyirüg. Savet hökumətinnən qabağa bırda qul-durrar, qaçağlar çox olub, tacirrəri, gedib-gələnnəri çox soyub-

lar. O dərə o qədər qorxuluymuş ki, ordan keçənnən soora deellərmiş ki, daa mənə ölüm yoxdu. Oraan keçməy çox zülm imiş. Mütlağ orda soyğunçulara ras gəlillərmiş. Deyillər ki, ona görə də o dərəən adı qalıb Bəd dərə, deyilənnərə görə ha. Bəddü da. Ordan keçdünsə, day o tərəflərdə sənə zaval yoxdu. İndi biz Bərt dərə deyirüg, amma Bəd dərədü (S:1; T:1).

## QARAYAZI KƏNDİNDƏ OLAN TOPONİMLƏR

Üç əsrə qədər tarixi var bı kəndin. Bı kəndın əksəriyəti Bakıdan gəlmədi. Bakıdan gəlmə olub, Qəbələdən gəlmə olub, İrannan gəlmə olub. Əvvəllər bıraan adı olub Türk kənd (Kür  də dellər). Bir yaz kətdə yanğın olur. Ot sahələri yanıb. Onnan kəndin adı Qarayazı qalıb. Yazı qara gəlib da, irağ olsun, onnan da adı Qarayazı qalıb. Kəndin adı ordan qalıb.

Kətdə yer addarı çoxdu. Böyük Qafqaz sıra dağlarıdı bizim dağlarımız. Kəndimiz dağın ətəyində yerrəşir. O dağların da yerrəriin addarı var hamısının. Məsələn, əsgərrər olub, ora **Əsgərbeli təpəsi** deyirüh. **Ak qaya** deyirüh. **Ac dərə** deyirük ki, orda böyüh tələfat olub qabax, o xüsusi kalkoz vaxdınnan da qabağa. Qoyunnar orda qırılıb batıb elə, udup da dərə oları, onnan da adı qalıb Ac dərə. Soora **Narrı dərə** də var. Orda nar çoxdu – dağ uzunu. Ona görə də Narrı dərə deyillər.

**Hacıbaba dağı** var – böyüg Hacıbaba dağı. Deellər ki, orda – qabax mülkədarın çoxlu mal-qarası olub, orda saxlayıb. O kişinin adı Hacıbaba olub. Belə də deellər ki, mal-qarası orda otdayırmış. Bıın da arvadı həmşə sözə baxmayırmış, təmbəl imiş. Biz uşağ vaxdı deyirdük:

Hacıbaba hacdan gedir,
Qoynı yamacdan gedir.
A köpəh qızı, aş bişir,
Zəhləm umacdan gedir.

Belə də deyim vardı ki, oun çoxlu ilxısı olub, mal-qarası olub, orda yerrəşib.

## TÖRƏ DAĞI

Dağ kəndimizin aşağı hissəsindədi. Geniş sahədi oralar. Oranın adı bilmirəm, bəlkə də, yasdı olduğuna görə törə – kiçiy, alçağ mənasın götürür, orıya Törə dağı deellər. Bı biri dağlar kimi hündür döör. Orda da üsdə səngərrər qazılıb, on səkgizinci ildə bı erməni-müsəlman davasında bizim kəndimizin hamısı gedib orda gizdənib. Bizim camaat – bı kəndin camaatı, türk saldatdarı gəlib o vaxdı, həqiqətən, bizim kəndi, vafşe Azarbaycanı türk xilas eləyüb. Eyni zamanda bı kəndin bütün evlərin yandırıblar ermənilər. Kətdə tək-tük, bir-iki dənə ev saxlayıblar, özzərinə qərərgah kimi. Orda yığışıb müşavirə eləyillərmiş. Yaxşı bir evi də özdərinin iqamətgahı kimi, özdərinin isdinadgahı kimi saxlayırdılar.[12] Kəndin hamısun yandırublar. Təzədən camaat gedib orda məsgunnaşıb – o Törə dağında. Bir az orda qalıblar. Türk haraya çatıb. Olar gəlib – türk saldatdarı uşağlı-qocalı hamını xilas eləyüb. Erməniləri kətdən çıxardublar, qırıb-çapıblar, kətdən qovıblar. Təzədən qayıdıb gəlib bizim camaat kəndə yerrəşib. Törə dağıın adı da o vaxdan yaranıb (S:1; T:1).

## XANIM BAĞI

Qarayazı kəndinin yuxarı hissəsində Xanım bağı deyilən yer var. O Xanım bağı belə yaranıp: o vaxdı Bakı xannığının bırda torpağı olub. Çar Rusiyasınnan əvvəl o torpağları zəbt eləyib ki, bıra mənim torpağımdı. O vaxdı qızı ərə gedəndə qızına hədiyyə verir bı Qarayazı torpağlarının bir hissəsin. Deer, qızım, səə bı torpağları cehiz verirəm.

Orda çoxlu gər əhdirür bı kişi. Vaxdilə yaşamışdardan eşidmişüh da biz də, soora üzüm ağajdarı... Xanım bağı, Xanım

bağı deyiplər bıra. Kətdə heş yerdə meyvə olmıyanda oranın meyvəsi aşıp-daşarmış. Məim dədəm deyərdi ki, Xanım bağınnan gər gətdim, əhdim, Xanım bağınnan təhəng gətdim, əkdim. Dədəm 1906-cı ildə anadan olub. O vax, deerdi ki, biz yeniyetmə uşağ olanda ordan gər-zad gətirib əkirdih qapıya. Kənt, helə daa, qurağlığ olub. Ora aşıb-daşır. Üzümünnən camaat bəkməz düzəldirmiş, qurudub kişmiş eləyirmiş. Sooralar hökumət oranı pambuğ əkdi. İndi o torpağlar camahata paylanıb. Amma yenə söz düşəndə o yerə Xanım bağı deyillər.

## ƏSGƏRBELİ

Rəhmətdih atam deerdi ki, 1941-45-də – Böyüh vətən müharibəsində orda saldatdara səngərrər qazıblar – kəndin yuxarısında, hündür dağda müharibiyə hazırraşırdılar ki, hitlerçılər bıra gələ bilər. Orda böyüg səngərrər qazıblar, təlimər keçiblər. İzi də qalıb indi orda. Ona görə də o dağa Əsgərbeli deyillər (S:2; T:1).

## QARAXIDIR

Deyillər ki, keşmişdə Şamaxıdan ora Xıdır adında bir kişi köçüp gəlip Şamaxı zəlzələsi vaxdı. O, qara bir adam olup. Elə o kişi gəlib orda köh salıp, törüyib, artıp. O yerin də adı onun adıynan qalıp Qaraxıdır. Onu da deyim ki, elə kənd addarı var ki, bir neçə rayonda o addan var. Amma Qaraxıdır adında heç bir rayonda kənd adı yoxdu.

## GÖZƏLCƏ BULAĞI

Göyçayın Qaraməryam kəndi Böyük Qafqaz sıra dağların ətəyindədi. Bı kətdə bir bulax var. Bıın adı Gözəlcədi. Bı kətdə Gözəl adında gözəl bir qız olup. Görən bı qızı sevir-

miş. Qız bı sevənnərin içində bir kasıb oğlanı sevip-seçmişdi. Qızın sevdiyi oğlanın adı Qorxmaz olub. Oğlan elə adı kimiydi. Gözəl də, Qorxmaz da zəmətkeş, kasıp aylədən idilər.

Bir gün bir varrı oğlan Gözəli götürüp qaçır. Bı atdıya deer ki, saxla bı bulağın başında bir əz diyanax, yorulmuşam. Qızın niyəti başqeydı. Fikirrəşirdi ki, Qorxmaz hər gün bı bulağın başına gəlir. Bı bulax da düz dağın ətəyindədi. Qız güman eliir ki, Qorxmaz gələcəh, məni xilas eliyəcəh. O yana baxır, bı yana baxır, gözə dəyən olmur. Bı dağlarda da həməşə zəhərri ilannar olur. Amma bılar həməşə bırda görüşüllərmiş. Həm də Qorxmaz ofçu idi. O bırda tez-tez kəhliy ovuna çıxarmış.

Qız birdən hiss eliir ki, nəsə bını özünə tərəf çəkir. Görür ki, çox böyüg ilandı. Qorxusunnan dili tutulur. Danışa bilmir, çabaliyır ki, özün xilas eləsin. Nə qədər eliir, əyaxların ilanın ağzınnan çıxarda bilmir. İlan yavaş-yavaş bını udmağa başdiyır. Bını görən varrı oğlan – bı qızı qaçırdan qıza yaxın düşmür. Qorxur. Qız hərəkətdəriynən başa salır ki, Qorxmazı issir. Bı qaçırdan oğlan deer ki, Qorxmaz yoxdu, oun öldürmüşük. Qızın ümüdü qırılır. Fikirrəşir ki, sənin kimi adama yar olmaxdansa, ilannara yem olmax yaxşıdı. Bı ilan da əjdaha boydadı da, bın boğazına qədər udur. Elə bı vaxd Qorxmaz gəlip çıxır bıra. Qız axır nəfəsində Qorxmaz deyip qışqırır. Qorxmaz da atılır ilanı öldürür. Amma gec olur. İlan qızı öldürmüşdü. Bı varrı namərd oğlan da cəzasız qalmır. Allah onu cəzalandırır. Qayadan yıxılıb ölür. El yığılıp bı qızı elə bulağın başında dəfn eliyir. Ona görə də bulağın adı Gözəl qalır. İndi Gözəlcə deyillər. Deellər ki, Qorxmaz həmişə əlində gül bı bulağın başına gəlir, bı bayatın deyirmiş:

A dağlar, qoşa dağlar,
Verip baş-başa dağlar.
Gözəli neynədiniz?
Dönəsiz daşa, dağlar (S:6; T:1).

## BABA DAĞI

### I

Baba dağı İsmayıllı ərazisində yerrəşən bir dağdı. Dağın başı həmişə qar olur. Belə bir məsəl də var ki, Baba dağına yeddi dəfə çıxıp düşmüsənsə, Həccə getməyə bərabərdi. Niyyət eliyillərmiş. On dörd kilometr dağın zirvəsinə qalxıllar. Ziyarət eliyillər. Ora ancax avqusdun birinnən on beşinə kimi gedip ziyarət eləməy olur. Onnan əvvəl də, soora da orda qar-çooğun olur. Bir də deellər ki, niyyəti, ürəyi təmiz olmıyan adam o dağın zirvəsinə qədər çıxa bilmir (S:7; T:1).

### II

Baba dağı – Həzrət Baba Böyüh Qafqaz sıra dağlarında yerrəşir. Ora hər il yay sezonunda gedilir. Soyuxda ora münkün döör. Hə, ora belə möcüzatdarı var ki, əzəli səər-səər deer, ora ki çıxırsan gecəni qışqıra-qışqıra, hamı helə da, səs eliyə-eliyə, "Baba, köməy elə, Nənə, köməy elə". Bax belə, çırpışa-çırpışa çıxır camaat. Bir tərəfdən də ora çatanda ora-bura baxanda görürsən ki, sabah açıldı elə bil. Belə hər şey aralanır, gün üssüa şığıyır elə bil. Bax helənçiynə böyüh təsirnən, möcüzəli açılır orda sabah. Atın nalında orda su qaynıyır. Aləm-xatəm hamısı içir, o nalda olan – atın izində olan su qutarmax bilmir. Geep ziyarat eliyip gəlillər. Dağın ətəyində çay var – Nənədə. Nənə aşağıda dəfn olunup, Baba yuxarıda – dağın başında. Gəlib o Nənədə əsə-əsə, titriyə-titriyə dəssamaz alırsan, namazuu orda – Nənədə qılırsan. Qayıdıp gəlirsən (S:16; T:1).

## QARABAQQAL

Qarabakqal kəndimizin adıdı. Bı kənt rayon mərkəzinə yaxın olduğu üçün əllərinə nə düşdü, gətirip satıplar. Kənd indi də helədi. Onların çoxu qara bakqal, yanı sırf bakqallıxnan məşğul oluplar da. Ona görə qara bakqal deyiplər.

Bir də deellər ki, çoxlu qar yağırmış. Qonax gəlip. Qonaxpərvər camaatdı. Deeplər ki, bəs qara bax, qal. Bı qarda hara gedəcəhsən. Onnan qalıp. Deeplər ki, hansı kətdə idin? Deer, vallah, çıxdılar, məə dedilər ki, qara bax, qal.

## ULAŞLI ŞIXLI

Bizdə kənt var çayın qırağında, orda çaqqallar çox olurmuş əvvəllər, axşam düşdü – ancax caqqalların ulaması eşidilirmiş. Ona görə də hənim kəndin adına Ulaşlı Şıxlı deellər. Şıx da müqəddəs insannara deellərmiş (S:7; T:1).

## YEKƏXANA

Göyçayın Yekəxana deyilən kəndi var. O kənd çox kiçih kəntdi. Qabaxlar orda bir xan yaşıyıp. Özünü əsil xan sayırmış. Yerli camaat da ona tək xan, yek xan deermiş. Əslində həmin kəntdə o zamannar bir tək onun evi böyüh olup. Ona da yek xanə, yekə xanə deyiplər. Zaman keşdihçə söz təhrif olunarax Yek xanə sözü olub. Yekəxana kəndiin də adı o sözdən qalıp (S:9; T:1).

## HÜNGÜTLÜ

Bizdə (söyləyici Çərəkə kəndini nəzərdə tutur – top. X.K.) qonşu Hüngütdü kəndi hakqında belə deyillər ki, hun tayfalarıın adınnan götürülüb hun. Qut sözü də dilimizdə kişi mənasında olup. Yəni hun kişi – hunqutlu.

## ÇƏRƏKƏ KƏNDİNDƏ OLAN TOPONİMLƏR

Çərəkə kəndi iki hissiyə ayrılır: yuxarı baş, aşağı baş. Yuxarı başın adamlarıynan aşağı başın adamlarının danışığında da bir əz fərq var, məsələn, biz gedeysən deyirig, olar gedəjən

deyillər. Xarakterində, xasiyətində, dünyagörüşündə də fərq var. Yuxarı başdılar daha müasirdi, həm də məlumatdıdılar.

Çərəkədə aşaabaşın tamam qutaracağı **Qasımölən düzü** deyilir. Deellər, Qasım adında adam ölüp da orda.

Kəndimizdə məhlə çoxdu: Haşşirinni, yəni **Hacışirinni**, Hayusuflu, yəni **Hacıusuflu**. Görürsən bırda Hacı sözü Hay olupdu, soora **İsmayıllı** məhləsi, **Dootdı** məhləsi – Dootdı Davud sözünnəndi, Davud sözün bizdə Davud demillər, Doot deyillər, soora **Eyvazzı** məhləsi – bizim məhlə, Qaranəbilli məhləsi – **Qaranəbilli** deyillər, amma Qaranəbilidi əslində, **Adgözəlli** məhləsi, **Kərimli** məhləsi (S:13; T:1).

## DƏYİRMANIN BAŞI

Göyçayda bir məşhur yer var – "Dəyirmanın başı" deyillər ora. Savetin dööründə 1 May küçəsiydi, indi Heydər Əliyev prasbektidi. Orda vaxdilə dəyirman olup. O dəərman su dəərmanı olup. Camaat az-çox, nə dəni vardısa, aparıb orda üyüdüb gətirip, balasın saxlıyıp. İndi orda dəərman yoxdu, amma gənə ora "Dəərmanın başı" deyillər. O dəyirman da, Göyçayın bəyi olup – Ömər bəy, oun adıynan Ömər bəyin dəərmanı addanıp.

## KARVANSARA

Karvansara helə həmən küçəən üsdündədi – o əvvəlki 1 May küçəsiin üssündədi. Başqa yerdən gələn, gecələməy issiyən gəlip karvansarada qalırmış. Nə bilim, Qəbələdən qozfındıx gətirən, başqa rayonnardan bazara mal gətirənnər, ununnan, kömürünnən – kimin nəyi vardısa, gətirib orda saxlıyırdı. Səər durub aparıp bazarda satıp gəlillərmiş. O karvansara ikimərtəbə qədim bina idi. İri həyəti də var idi. Ora karvannar gəlirmiş atdar, dəvələrnən. Həm heyvannarın

rahatdıyıllarmış o karvansarada, həm də özzəri mehmanxana kimi isdifadə eliyip dincəlillərmiş.

## RAYONDA OLAN DİGƏR TOPONİMLƏR

Göyçayın **Ləkçıplax** kəndiin adına ona görə belə deeplər ki, vaxdilə düzənniy olup, çılpağ olup.

***

Bizim əslimiz Göyçayın **Alpout** kəndinnəndi. Mən böyühlərimizdən eşitmişəm ki, Türkiyədə Alp dağlarıın ətəhlərinnən bir dəsdə alp igitdəri özzərinə atnan otlax yerrəri – mal-qara üçün otlax sahələri axdara-axdara gəlip çıxıplar bı kəndin düzənniyinə. Görüplər ki, yaxşı otlax yeridi. Orda məsgunnaşıplar, olup Alpout. Yəni ki, Alp igitdəriin cəmləşdiyi yer (S:15; T:1).

***

Eşitmişəm ki, Bığır – dəvələrin yatdığı yer deməhdi. Dəvə karvannarı gəlir. O, dağlar ətəyindədi da – **Bığır** kəndi. Dəvə karvannarı orda rahatdanırdı. Yəni dəvə karvannarıın bir dayanacax yeri olup. Uşaxlığım orda keçib, amma orda dəvə görməmişəm.

***

**Qaraman** kəndi – qara – böyük deməhdi, an da cəm şəkilçisidi. Yəni böyühlər yaşıyan yer – böyük türk tayfası (S:20; T:1).

# ZİYARƏTGAHLAR

## MÜZƏFFƏR MIXI

Bir adətimiz var ki, gec yeriyən uşağları üş dəfə Müzəffər mıxu deyirüg, ona bağlıyıllar. O adda kişi olub, onun nəsə udumu olub. Onu üş dəfə aparırdux onun həyətinə. Orda indi onun oğlu, nəvələri, nəticələri – ötürülüb da bir-birinə. Həmin o ağacın dibində uşağın bir qıçına ipi bağlayıllar, bir qıçınnan da, həmin o mıx ki var, o mıx olan ağaca bağlayıllar. Uşağın yavaş-yavaş, yavaş-yavaş əlinnən tutur o evin yiəsi yeridir. Üş dəfə aparuruğ. Bir üçüncü günü, bir altıncı günü. Oun günnəri bıdu. Çilədən çıxma günnəri də bı günnərdi. Bı yüngül günnər sayılur bizdə. İnamlı günnərdi bizdə.

Az bir müddət keçir, uşağ başdayur yeriməyə (S:2; T:1).

## YARA PİRİ

Bı kətdə bir pir də var. Bəlkə də, bı kətdən qabağa olub onun tarixi. Əsas da yara piridi. Çoxlu nar topasıdu, nar koludu. Ora daş tökülüb. Deyillər ki, hansı öyliyadusa, ərəb xilafəti vaxdı, bırda rəhmətə gedüb, dəfn olunub. Ona görə də ora ziyaratgahdı, əsas da yaraya, səpgiyə görə, bir xəsdəliy olanda, uşağda qızdırma olanda ora nəzir eyləyürüg. Onun da şəfası düşür. Çoxlu kol var üssündə. Ziyarətə gedəndə də o koldan bururuğ, üsdünə də daş qoyuruğ ki, dərdimi-sərimi bırda qoyub gedirəm, yaranın kökün-kömənсin bırda budum, bağladım. Ən əsas da bı qaşunma, dəri xəsdəlihlərinin dərmanıdı o pir. Həmin o kolun tikannarınnan qopardurux, onu cızırux, həmin o yaraların üsdün oynan sətdərin cızırux. Bı nə bəladusa, bı kolnan, bı tikannarnan da getsün. Onnan da şəfa tapurux. Nəzir qoyurux (S:3; T:1).

## MUSTAFA BABANIN OCAĞI

Göyçayın Müsgürrü kəndində bir ziyarətgah var – Mıssafa babaan ocağı deellər. Bı Mıssafa babaan da üssünə gedənnərdən eşitdiyimə görə, bının nəziri ancax həsirdi. Ora gedən həsir nəzir eliip aparmalıdı. Mıssafa babaan da möcüzələrinnən biri odu kı, uşağı olmıyannar niyət eliyib orda yüyrüh düzəldib asallar. Əgər o yüyrüh Haqq-taala tərəfinnən yellənərsə, deməli, bı ayliyə xoşbəxlig üz verəcəh, Allah-taala uşax bəxş eliyəcəh.

## ZİYİL PİRİ

Göyçay rayonuun Qızılağaş kəndində ziyil piri var. Uşax vaxdı məəm əllərimdə ziyil olduğuna görə nənəm məən niyətdi eliyip, ora apardı. Getdim. İndiki kimi xatırriyıram, inab ağaciydı, bı inabın ağacınnan bir tikan qopardıp nənəm ziyillərimin üssün bir balaca qanadan kimi elədi. O ziyillər də onnan yoxa çıxıp getdi. Nəzir qoydux (S:5; T:1).

## HACALI BABANIN OCAĞI

Böyüh qardaşımın qəfildən dizinnən ağrı tutdu. Həkimə apardıx, malicə olundu, iynə-dərman, xeyri olmadı. Axsiirdı. Onu mamam həmin o Hacalı babaan ocağına niyətdi elədi. Qardaşım axşam yatdı. Səhər durup dedi ki, yuxu görmüşəm. Yuxumda gördüm ki, Hacalı baba gəldi, ağ sakqallı, nurani bir kişiydi, gəldi, əlində də hasası. Mən o babaan görməmişəm. Gəldi oturdu, məəm əyağıma sığal çəhdi, dizimi oxaladı, getdi. Onnan da diziin ağrısı getdi.

Mamam uşağ olanda üzünnən yara çıxıp. Deerdi ki, babam məni apardı öz ocağına. Üzümü oxaladı, üzümnən öpdü, həmən yara olan yerdən. Dedi, üş gün üzün ağrıyacax.

O deyən kimi də oldu. Üş gün üzüm ağrıdı. Soora elə bil, üzümdə heş nə olmıyıp (S:6; T:1).

## GÖYTƏPƏ QƏBİRİSTANLIĞI

Göyçayın Mırtı kəndində şıxlar olup – addı-sannı şıxlardı. Məsələn, Cəbi baba olup, Sədi baba olup. Soora Hacalı şıx olup. İndi də İsrəfil baba var. O kət şorannıxdı. Qarabakqalın çox qədim bir qəbirsannığı var – Göytəpə. O qəbirsannığın 400-500 yaşı var. Ora təpəlihdi, həmişə göyərir, həmişə yaşıllığ olur. Orda da gətirip oları bassırıplar. Bütün Mırtı şıxların, möminnəri, hacıları orda bassırıplar.

## ÇİNARLI PİR

Qarabaqqalda bir pir var. Adına çinarrı pir deerdilər. Onun ağacınnan qopan, quruyan bıdağı da heş kim götürüp evinə aparmırmış. Hamsın ağacın dibinə qoyullarmış. Xalqın ona inamı, inancı olup.

Bir dəfə nənəm öz qardaşın göndərir ki, ged odun yığ gətir meşədən yiməh bişirməyə, su qızzırmağa. Bı da gedir, tənbəlliy eliyip, pirin dibndəki budaxları yığır gətirir. Nənəm deer ki, həmin ağaşdarı nə qədər elədih yammadı. Soora deer, qardaşımın gözü tutuldu. Soruşdum ki, bı ağaşdarı hardan gətirmisən. Ağlıya-ağlıya dedi ki, piriin altınnan. Götürdüm odunnarı apardım qoydum yerinə. Nəzir asdım ordan. Soora qardaşımın gözü açıldı.

Bir də, o pirə daha çox uşağı olmiyannar gəlip nəzir qoyurdular, yüürüh asırdılar.

## PİR USUB BABA

Soora Pir Usup baba var ki, ziyillər, yaralar üçündü. Bir haşiyyə çıxım. Mənim ata babamın o vaxdı mənfur

qooşularımızdan erməni qonaxları var idi. Gəlirdilər. O bir sarı yareynan gəlip. Elə-belə, babamın dili dinc durmiyıp. Deep ki, bıın pir Usup babaan üssünə aparsan, sağalar. Erməni yapışıp bınnan, qopbiyıp da. Babam qorxup. Qorxup ki, bıın öyliyaan üssünə nə təər aparsın. Bı axı bizim dinnən döör. Aparıp bir nar koluna. Ona sitqi tutup. Orda nəzirin qoyup. Soora gələn həfdə qoyun gətirip ki, yara hamısı gedip. Ona biz yara piri deerik. Qarabakqalda yolun qırağında qəbirsannıxdadı. Orda gedip tikannan qırıp ziilüə batırırsan. Nəzir qoyursan, çıxırsan. Onnan şəfa tapır adamlar.

## HACI İSA ƏFƏNDİ

Kətdə bir Hayis əfəndi baba var. Xalq arasında Hayisə baba deellər. Onun adının açıxlaması Hacı İsa əfəndi babadı. Deməli, onu məscidin həyətində bassırıplar. Məscidin də yanınnan qobu var iymiş. Qobu bizdə arxa deellər. O qobu torpağı yuya-yuya, uçurda-uçurda gəlip məscidin həyətinə – Hayisə babanın qəbirinə qədər. Amma necə illərdi o qobu o qəbirin yanınnan axır, amma qəbiri yuyup aparmır. Camaat ona çox inanır. Kim qorxursa, sümüh xəssəliyi olursa, onu ziyarətə gedir. Babam danışırdı ki, o heş vax məsciddə namaz qılmazmış. Namaz vaxdı yoxa çıxarmış. Bir dəfə yayın issisində evə qayıdanda arvadı görür ki, onun patavasında qar var. Patava – çarığı geyinməmişdən əvvəl ayağa parça dolıyıllar, ona deellər. Arvad onnan soruşanda ki, bı qar nədi, arvada hirssənir.

Ona belə deellər ki, o, Baba dağında namaz qılırmış. O, Baba dağına necə gedirmiş, Allah ona necə yol verirmiş, bı indiyə qədər də sirdi (S:7; T:1).

## MIRTI KƏNDİNDƏ PİR

Kəndimizdə bir pir var. Bağımızın aşağı tərəfində. Pirin ətrafına toxunmur heş kəs. Onun ətrafında çıxan kol-kosa, ağaca dəymir heş kəs. Yəni onu qırmağ olmaz. Atam da həmişə deyirdi, ona toxunmağ, qırmağ olmaz. Keşmişdə, biz uşağ olanda da bu pirə gələnnəri nənəm yola salırdı. Pirə kimlər gəlirdi? Ağzı qızdırmadan bişən, səpən, dişiynən dodağının arasında səpgilər yaranan, qızdırması olan böyühlər, kiçihlər gəlirdi, nənəm də oları aparırdı pirə –bağımızın aşağısına. Ora stəkanda su da aparırdı, orda pir ağacdı, palıd ağacıdı. Onun dibinnən bir çimdik torpax götürüb atırdı stəkandakı suya, ordan da bir çubux qırıb onu qarışdırırdı. Soora onu verirdi gələn adama, o da “bismillah” deyib, o sudan bir qurtum içirdi. Onnan da onun ağzı təmizzənirdi, qızdırması keçirdi. Nəzirin də verirdilər. İndi də həmin o pir ordadı. Yenə də ora gələnnər var. Bu, dəfələrlə, illərlə sınaxdan çıxarılıb (S:8; T:1).

## HACI ƏFƏNDİ BABANIN OCAĞI

Çərəkə kəndində Hajı Əfəndi babaan ojağı var. Çərəjə[13] tərəfdə də Şıxlar məhləsi var. Çərəjə bizim kətnən bir kalxoz olup. Bir savetdiy olup. Hajı Əfəndi babaan ojağı elə bizim qooşumuzdadı. Məə uşax vaxdı mamamgil danışmışdı ki, o kişi – Hajı Əfəndi baba, harasa gedirmiş da gejələr. Elə bil ki, Allah-taala aparırmış da qarrı dağa, eyy – qar olan yerə. Yayın günüdü, səər-səər arvat görüp ki, kişiin əkqabısında qar var (S:13; T:1).

## ŞİL QIZIN QƏBRİ

Bizim Alpout kəndində bir pir var, ona həməşə nəzir aparıllar. Şil* qızın qəbri deellər ona. Şikəsd bir qız olup.

Kimsəsiz olup. Hardansa gəlip çıxıb o kəndə. Onu saxlıplar, qulluğ eliiplər. Rəhmətə gedib, elə kətdə də dəfn eliiplər.

Bizim kətdə bir məllim var, Ursiyətə gedip-gələndi. Bir dəfə gedəndə deep ki, ay Allah, bı işim yaxşı alınsın, gəlip şil qızın qəbrin düzəltdirərəm. Gedip, yaxşı pul gəlib əlinə. Gəlib oun üsdün məqbərə düzəltdirip.

## BABA DAYININ OCAĞI

Bizim bı Göyçayın Şıxlı kəndində bir bulax görmüşəm. Öz nəvəsi sööpət eliyip. “Baba dayıın ocağı hakqı” – o kətdə hamı ona belə and içir. Quraxlığ olup. Hamı gəlip Baba dayıın üssünə ki, sən müqəddəs adamsan da, elə elə ki, bı su olsun.

Allahı çağırıp, çomağın vırıp yerə. Başdiib orda su qayniip çıxmağa. O bulağı mən gözümnən görmüşəm. Bax belə qabarcıxlar kimi yerin altınnan qayniir çıxır. Baba dayıın ocağı deellər ora. İki metr kimi diyametri var. Dibi görsəm-mir, bus kimi dupduru sudu. Nə qədər onnan işdədillər, o su nə artmır, nə azalmır, gənə o qədər qalır.

Kişiin oğlu durur, nəziri ona verillər. Ora ziyarətə xəs-sələri aparıllar, olara şəfa verir o ocax. O ocağın torpağınnan götürüp sürtür oun ağrıyan yerinə, şəfa tapıllar onnan (S:15; T:1).

## SARI MOLLA

Ulu babamız Sarı Molla olub. Bığır kəndində pirdi. Böyük öliya olub. Rəvayətə görə o, Yəmənnən gəlib. Orda şumerrər yaşıyıb axı. Ola bilsin şumerrər türklərin kökūdü, onlar türksoyludurlar. Gəliblər Qarabağa. Qarabağda bax Sarı dağ var indi, hal-hazırda. Bəlkə də, o addan götürüb o adı. Sarı Molla gəlib düşüb bizim ata mülkümüzə. İndi o ziyarətgahdı. Rəvayətə görə, ceyran gəlirmiş, üstündə ceyran

sağılırmış. Heç kimə demirmiş. Oğlu İsmayıla deyib. Hətta qarrı dağa gedirmiş, dağdan başmağında qar gətirirmiş. Oğlu İsmayıl da bunu bilib, o vaxtdan da ceyran ordan qaçıb. Beş nəsildən sonra olub Əhməd, Əhmədalı, Hacı Məmməd, Alı kişi, Soltan müəllim, sonra Xanlar məllim – mən.

## QARA PİR

Qara pir var o tərəfdə. O da deyirlər Ərəbistandan gəlib.

## SOFU MƏMMƏD BABA

İlan piridi. O, Şamaxıdan gəlib. İlan vırannar onun üstünə gedəndə şəfa tapır.

## HƏSƏN BABA

Gəliblər yurd yerinə düşüblər. Yurd yeri Bığırın o başındadı. Ordan Həsən baba düşüb bıra. Bırda evlənib. Onun kötücəsi Bığırın imamıdı. Üstündə də böyük minarə tikdirib. Hal-hazırda ziyarətgahdı.

## PİR PALID

Rəvayətə görə, Şeyx Ami olub. Gəlib bıra, Bığır kəndinə. Bırda bir qız sevib. Bı qızı vermiyiblər. O qədər sevib ki, bı od tutub yanıb. İlahi sevgi olub. İkisi də od tutub yanıb. Palıdın yerində basdırıblar oları. Hardansa bir durna dimdiyində palıd qozası gətirib, düşüb ora. Orda palıd bitib. Hal-hazırda palıd durur orda. Bu olub hardasa beş yüz neçənci ildə... Üstündə dövlətin plakatı var. Qorunur.

## SƏDRƏDDİN BABA

Mırtı kəndində yaşıyıb. Tanrı şahidiyəm. Nənəmgilə gəlmişdi, tutun altında xalça salıb oturmuşdux. Üstü açıq idi. Gur yağış yağdı. Ay baba, keç bu tərəfə, keç bu tərəfə. Dedi babanın üstünə yağmır. Onun üstünə yağmadı.

Oğlu var. Xeyirxah işdərnən məşğuldu. Küsənnəri barışdırır (S:34; T:2).

## QARA ŞIX BABA

Kətdə Palıd piri kimi də tanınır. Ən azı iki yüz il yaşı var. Əhvalat Sovet dövrü olub. Qışda odun çatışmırdı sinif otaqların qızdırmağa. Məktəbin təsərüfat müdürü şagirddərə deyir ki, hardan tapırsınızsa, gedin odun gətirin. Olmasa, palıd ağacınnan qırıb gətirin. Şagirddər də palıdın bir budağın qırıb, gətirib, saxliyıllar ki, səhərisi gün yandırsınnar. Səhər məlum olur ki, bu göstərişi verən təsərüfat müdürü gecə ölüb. Camaat da inanıb ki, Palıd piri bu adama qənim olub.

## ÇİLƏXANA PİRİ

Qarşısınnan Xan arxı axır (Kətdə İnçə arxı kimi də tanınır). Kəraməti, övladı olmiyannar üçün dilək yeridir. Qırxa düşən uşaqların da çillədən çıxardılması yeridir. Uşaqla bağlı olduğuna görə ölən körpə uşaqları da vaxtilə orada basdırıblar.

## HACI MƏMMƏD ƏFƏNDİ

Əsəb xəstəlikləri olan insannar oradan şəfa tapa bilir. Deyilənə görə, yay vaxtı Hacı Məmməd əfəndinin çarığında qar tapılıb. Səhər durub görüblər ki, çarığında qar var. Arvadı soruşub ki, hara getmişdin? Deyib soruşma. Arvad üş dəfə

soruşub, axırda dözməyib sirrin açıb. Oninan da baş götürüb, evdən gedib. Qəbri kəndin məktəbə yaxın ərazisindədir. Həmən yerdəki küçə onun adın daşiyır. Əvvəllər də orda mədrəsə yerləşib. İndi ora xeyr-şərdən ötrü  kirayə yeri kimi faliyət göstərir.

## TİKAN PİRİ

Köhnə bağ ərazisində yerləşir. Həmən yer ata mülkümüzdən 400 metr cənuba tərəfdir. Kəraməti, yara, məsələn, ala, ziyil və s. dəri xəstəliklərinə tutulan adamlara şəfa verməsidir. Xəstə üş dəfə oranı ziyarət etməlidir bu mənada. Ora ikinci və altıncı günlər gedilir. Yara olan yerə tikanı ehmallıca batırıllar və həmən yerdən mütləq qan çıxmalıdır. Nəziri çörək və duzdur. Ora parça da bağliyıllar.

## QARABAQQAL KƏNDİNDƏ OLAN DİGƏR PİRLƏR

**Pir Usub** da eynən tikan piri hesab olunur. Kəndin dağa yaxın ərazisində yerləşir. Tikanı qaratikan kolunnandır. Yara-xora xəstəlikləri üçün dilək yeridir.

Kətdə başqa bir neçə pir də var ki, olar hazırda faliyət göstərmir. Məsələn, **İtik Soxa** piri (Bına Məmməd baba da deyilir), **Göz** piri. Hər iki pir həyətyanı sahədə yerləşdiyi üçün faliyəti diyandırılıb. Bılardan başqa, kətdə get-gəli diyanan bir neçə **Çinar** adinan tanınan pir də vardır. Daha nifuzlusu təzə məçidin ətrafına düşənidir. Qaşınma və səpkisi olannar üçün dilək yeri idi (S:37; T:3).

# İNANCLAR

Adətən bir-birimizə gül veerihsə, və yaxut da ki, ağajdu, innab ağacımı, əncilmi... Vafşe əncıl ağacı elə müqəddəs sayılur, onun dibinə yumurta qoyurux, bir sıxma qənd qoyurux, ya kanfet qoyurux ki, o bı qapıdan köçməsın başqa qapıya. Elə gül var ki, həqiqətən də, köçür. İsdəmir verilməy, qapıdan çıxmağ isdəmir.

***

Gecə pul çıxartmıruğ evdən, çörəy çıxartmıruğ, tərəzi çıxartmıruğ. Adətən yas yerinə gecə tərəzi aparmağ, deyillər, çox pis şeydü. Vermisənsə də, gərəy tez hüzür yerinnən qaytarıb aparmalısan evüə ki, orıya tərəzi verməg hər adama düşmür. Tərəzi verən adamda yas düşür, vaxsız yas düşür.

***

Qırxlı, körpə, yaşı olmamış uşağ olan evə gül qoymuruğ, açılmış gülü. O evdə gül solduxcan o körpə də solur.

***

O adamnan şüpələnirsən ki, oun mənə nəfsi keçər, sol tərəfə də, sağ tərəfə də çiynin üsdünnən dala üş dəfə tüpürürüg.

***

Adamın dilində ağsulağ* deürüg, dili yara kimi açılur. Dilin böründə yaralar çıxur. Pak qız uşağı, yəni ərə getməmiş – deyir ki, dilimə dilbar çıxıb. Dersən ki, biri də yanınnan çıssun. Bını iki dəfə deyür. Üçünçü dəfə deyəndə onda həmin qız uşağı deyür ki, üş dəfə tüpür, gessün. Onnan bir saat çəkir, iki saat çəkir, həmin o yara yoxa çıxır. Da o göynültünü, ağrını hiss eləmürsən.

***

Xəmir acıdanda indi drojnan eləyirüg, amma kəndimizün adamları əvvəllər analarımız, nənələrimiz droj işdətmirdilər. İndi də elə adamlar var ki, işdətmillər. Məsələn, bız özümüz tuturuğ ki, təmiz olsun. İsdəmirüg bı hökümət drojun. Oun da tutmağ üçün çürümüy suyu – şorun suyunnan və yaxut da ayran. Onun içinə bir az un töküb, bir az da unun kəpəyinnən töküb qarışdırıb qoyurduğ qıjqırırdı. Onnan acıtma* götürürdüh. Səər onu una qatırduğ, yoğururduğ. Soora acıyır, qalxır, şişir. O xəmiri də gələn səfərə valata* qourdux. Eyni zamanda xəmiri kündələyib bişirəndə onnan bir kündə acıtmalığ saxlayurduğ. Day o həmişəliy davam eləyürdü. Həmin o acıtmanı gələn səfər bişürəndə gənə onnan valata qourduğ. Valata o dediyim şeylərdi.

Valatanı – acıtmanı una qatırsan. İssi suynan qarışdırırsan, ılığ. Axşamnan qarışdırıb qoyursan. O da qıjqırır qalxır belə yaxşı. O olurdu qıcqırmış duru xəmir. Onu qaturuğ səər una, yoğururuğ. Eyni zamanda onu heç kimə vermirüg. Bizdə düşər-düşməz deellər. Sən, məsələn, məəm nəslimnən dörsənsə, ona acıtmamız, çalasımız düşmür. Qatığ çalası* da vermirüg, acıtma da vermirüg ki, malı ölər, ziyannığ olar, bərəkəti qaçar. Verəndə, elə bil, satın alan kimi, day əlacım yoxdusa, sənə gəlirəmsə, düşmürsə, deerəm ki, elə bil ki, satırsan. Bir iyirmi qəpihmi, nə bilim, nə qədəsə veerəm ki, mənə çalası ver.

***

Soora xəmir deyürüg, güllərir, xəmir şişmir. Xəmirin üzü qızarır topa-topa, elə bilirsən yanır. Deməli, yoğuran qüsul almayıb. O da adətimizdə var ki, təmiz adam yoğursun xəmiri (S:1; T:1).

***

Sağalmayan dərdi olannar, evladı olmıyannar, arzusuna çatmağ isdiyənnər mismara bağlayır sapı. Deyir dərdimin hamısın bağladım. Allah, məni arzuma çatdur. Həmən o iri mismarı çəkicnən vırırsan incil ağacına. İncil ağacına yeridirsən o mismarı. Deersən, haçan niyətim qəbul olacax, gətirib incil ağacıın dibinə nəzirin qoacam. İsdər öz həyətündə olsun, harda olur-olsun incil ağacı. Arzua çatırsan, gətirib həmən ağacın dibinə nəzirüü qoyursan, kimsə götürür.

***

Nehrə çalxıyanda, bizdə nehrəgülü var sarı rəngdə, onu gətirmirdilər nehrəən üsdünə ki, o gül gələndə nehrə çatdıya bilər.

İncil ağaccın kəsən ziyana düşür. Ona görə ki, incilin yarpağu qurbanolduğlarımın əlinin şəklindədi, beş barmağdu. O müqəddəs ağajdu. Onu kəsən adam gərəy əvvəlcədən oun dibinə tasatdığ* qoa. İsdiir pul qoysun, isdiir dən qoysun, sərçələr yesün. Gərəh tasatdığın qoyıb, soora kəsə.

***

Qaranquş müqəddəs quşdu. Ona toxunmazdar. Qaranquşa toxunan: yuvasın dağıdan, yumurtasın sındıran, balasın götürən ziyana düşər. Qaranquşun oxumağının yozumu var:

Qaranquşam, qaranquş,
Qənədim ayrıc-ayrıc.
Mənə dəysə bəy oğlu,
Qan qusar ovuc-ovuc.

Alabaxdayam, alabaxda,
Çardağım qara taxda.
Hər kəs mənə sataşsa,
Qan qussun laxda-laxda.

***

İlannı yerə gedəndə, deellər, xalasına nəhlət. Onda ilan yaxun gəlmir, adamı vurmır (S:2; T:1).

***

Gec yeriyən uşağlaru, adət buydu ki, qəlbirdə qoyub başında gəzdirərdülər. Onnan soora uşağ əyağ açıb yeriyərdi.

***

Yazda qaranquş gəlir də. Qaranquş hansı evə, həyətə gəlmirsə, onda hamı şüpələnir. Deellər ki, bırda nəsə bir qanqaraçılığ olacax. Biil bizə qaranquş gəlmədi. Hamı mütəəsir olur, pis əlamətdü.

***

Bi də qonağ az gələndə. Evdən qonağ azalırsa, deellər ki, nəsə bı evin ruzi-bərəkəti qaçıb. Bədbinniy gətirir evə.

***

Əgər bir adamnan şüpələnirsənsə ki, bı adamın nəfsində var, mənə nəfsi keçər, o adamı görüb keçəndə sağ çiynüün üsdünnən üş dəfə tüpürürsən.

Xəmir yoğuranda əgər xəmirdən bir topa bilmədən çıldırrıyarsa, deyəllər, qonax gələcək.

Süzülmüş çayın üzündə xəkə* fırranırsa, deyillər, onda qonağ gələcəy.

Şər vaxdı* evin zibilin atsan, deellər ki, evin bərəkəti çəkilər.

Gecə evdən pul verməzdər, çörəh verməzdər, ağartı verməzdər.

Yelmar ilan yeddi qardaş olur. Oun birin öldürsən, o altı qardaş harıya getsə, sənnən hayıfın alacax.

***

Deellər ki, şanapipiy gəzəndə – o, təsadüfən həyətdərə qonur, hər deyəndə olmur. Onun qonduğu torpağdan götürüb, subay qızın darvazadan çıxanda dalıycan atırsan. Amma özü bilmir. Onnan da o qızın bəxdi açılır.

***

Elə olur ki, malın sütünnən iy gəlir. Və yaxud da sütü qoyursan qazın üsdünə bişməyə, çürüyür. Onda bizdə belə bir nəzər qaytarma var. Çıxırsan yeddi yol ayrıcınnan çöp götürürsən. Soora duz qoyursan. Onu yandırırsan, deersən, olan nəfsi bı duz, bı yanannar kəssün. Onu heyvanın altında yandırub tüsdüsün verirsən.

***

Bir də ki, pıçağı qoyursan, qızır. Soora o çiy sütə deersən, pis nəfsi kəsirəm. İks şəklində dağlayırsan o sütü. Ona sütün dağlamması deyilir. Onnan soora o heyvanın sütündəki iy, çürümə qutarır.

Qəflətən görürsən ki, toyuğ bannayur. Tez onu məhv eləyürüg, kəsürüg. Kəsürüg ki, öz başuu yiyəsən. O qapıda əgər toyuğ bannayırsa, hüzür əlamətidi (S:3; T:1).

***

Ataan qarğışı keçir. Anaan sütü qoymur qarğışı keçməyə.

Axşam çağı qarğış eləməzdər. Axşam çağı – vax çağı elənən qarğış keçir. Ələlxüsus ata-ana öz doğma övladına.

Qarğışın ən acısı, ən ağırı odu ki, Allah ləyağuu versin. Qarğışın iki başı var. Ola bilsin ki, Allaha acığ gedir, elənən qarğış adamın öz üsdünə tökülür.

Ən yaxşı dua odu ki, Allah köməyin olsun (S:4; T:1).

***

Axşam vaxdı qəbirsannığa getməzdər, adamı ölü çəkər.

Ana bətnindəki uşağın oğlan, yoxsa qız olduğunu bilməy üçün el arasında belə sınaşıx var. Hamilə qadınnan özüün xəbəri olmadan soruşullar ki, əlua noolup? Əliin içinə baxarsa, qızı olacax. Əliin üssünə baxarsa, oğlu olacax.

Nənəm deyərdi ki, gej dil açan uşaxlara göyərçin yumurtası, kəhlih dili, sərçə əti yidizzirəllərmiş ki, tez dil aşsın.

Qurdu öldürüp, sümüyün əzip qoyunun yatağı ətrafına sürtsən, o yerrərə qurt yaxın düşməz (S:5; T:1).

***

Nənəm deyərdi ki, bala, hər gün mələhlər göydən yerə enər. Biri sağ çiynimizdə oturar, biri sol çiynimizdə. Sağ çiynimizdə oturannar bizim yaxşı əməllərimizi yazar. Sol çiynimizdə oturannar pis əməllərimizi yazar.

Nənəm deerdi ki, cümə günü nar yiməh çox yaxşıdı. Narı cümə günü acqarına yiməh lazımdı. Onda gələn cümiyə qədər adamın qəlbi təmiz olar. Öz də bı narı yiəndə yerə bir süfrə salallar ki, o narın bir dənəsi də olsa, yerə düşməsin. Çünki o narın bütün gilələrin yisin, bir gilə də hədər olmasın. Onun savabı çoxdu. O narın içində bir gilə var ki, onu yimək lazımdı. Yidiyin o dənə səni savaba çatdırar həmən cümə günü. Ümümiyətnən, narı yiəndə kəsip heş kəsə verməy olmaz. Hətda, deellər ki, Məhəmməd peyğəmbər də başqa meyvə yiəndə kəsip yanındakılara verərmiş. Amma nar yiəndə heş kimə verməzmiş, özü tək yiərmiş.

Cümə günü insan yuyunmalı, paltarın dəyişməlidi. Hətda dırnaxların da cümə günü kəsməlidi. Sol əlin kiçih barmağınnan basdıyıp, sağ əlin kiçih barmağında qutarmalıdı.

Cümə günü sədəqə verəllər.

İnsan gərəh sədəqə kimi verdiyi şeyi danışmasın. Elədiyi yaxşılığı dilinə gətirsə, savab yiyəsi olmaz.

Ağ hörümçəh deellər, şad xəbər gətirir, qara hörümçəh qara xəbər.

Uşax gecə yatanda qorxmasın deyə balışıın altına çörəh qoyullar, pıçax qoyullar.

Uşax qorxanda, bilirsənsə nədən qorxup, o qorxduğu yerə aparırsan. Qorxuluğun götürməhçün orda əlüü torpağa qoyursan, uşağın başına qoyursan, bisimillah deersən üş dəfə. Deellər, əgər helə eləməsən, qorxu uşağın canınnan getmir.

Uşağın qorxuluğun götürməhçün çiy yumurtaan qoyullar, uşağı oon üssünnən addadıllar. Soora o yumurtaan bişirillər, uşağa yidizzirillər.

Mamamnan eşitmişəm. Mamam uşağ olanda qorxup. Nənəsi gətirip başına zəy hərriyip atarmış ocağa. O zəy orda əriyirmiş. O nədən qorxupsa, zəy əriyip həmən şəkli göstərirmiş. Bilillərmiş ki, bı uşax nədən qorxup (S:6; T:1).

***

Nənəm təndiri sübh tezdən qalıyırdı. Aparıp təndirin qıraana qoyurdı, teşdə kündələr yayıb. Külçəbasan var iydi o vaxdı. Xüsusi naxışdı saxsı bir şey idi. Çörəyi yayannan soora nənəm onnan üssünnən vırırdı, gözəl naxışdar alınırdı. Yumurta vırırdı, deşdəhliirdi, yapırdı.

Nənəm çörəh yapılan vaxdı nə bir adamı ora gəlməyə qoymazdı, nə də yanındasansa, ordan getməyə qoymazdı. Deerdi, yoxsa çörəh küt gedər. Kimsə lap qonax da gəlsə, deerdi dur orda, gəlmə. Qoy çörəyi yapım çıxardım.

Təndirdən çörəyi çıxardan kimi birinci kəsib itə atardı. Bir də dört qooşuya – sağ, sol, şimal, cənup qonşulara, mütlək o dörd öyə para-para verərdi.

Qadın hamilə olan zaman övladıın oğlan, ya qız olmağın müəyənnəşdirməy üçün məəm yadımdadı ki, baş-əax bişirərdilər, yəni xaş. Onu atırdılar qaynamağa. Soora o başı ağız hissəsinnən yaranda bı əng sümüyüün üssündə saçaxlı ətdər olurdusa, deerdilər, o, qızdı. Təmiz şüşə kimi sümüh çıxırdısa, deerdilər, oğlandı.

Bir də hamilə qadın içəri girəndə nəsə gözzüyürdülər, əlin birinci başına atırdısa, deerdilər, oğlan olacax. Əlin qarnına atırdısa birinci, deerdilər qızı olacax.

Qarnıın quruluşunnan nənəm deerdi, ara həkimi kimi, çox dik qarnı varsa, qızdı. Qarnı yassıdısa, oğlandı.

Süpürgə üssümə dəyməsin, şərə düşərəm.

Səhər çörəh yiməmiş evdən heş nə vermə, evin bərəkəti qaçar.

Sağ gözün səyrirsə, sevineysən, sol gözün səyrirsə, kədərrəneysən, ikisi də birdən səyrirsə davıya düşeysən.

Duz dağılanda öydə dava olar. Mütləq üssünə bir qənt qoy.

Sağ qulağın cingildiyirsə, xeyrinnən danışıllar, sol qulağın cingildiyirsə, pissiyinnən danışıllar. Onda dellər ki, xeyrimnən danışan xeyir tapsın, pisimi danışan şərə düşsün.

Ayağının baş barmağı uzun olan adamın, dellər, bəxdi açığ olur.

At nalın evin qapsına asanda uğurru olur, öy bərəkətdi olur.

At nalı, üzərriy, çırıx qaloş, it başın öyün kandarınnan asanda o öyü bəd nəzərdən, gözdəymədən qoruyur.

Axşamın dar vaxtı, yəni qaş qaralan vaxdı* yerə qaynar su atmazdar. Ümmiyətnən, yerə qaynar su tökəndə bissimillah de. Cinin balaların yandırma. Cin həmin öyə, adama pissiy eliyər.

Deellər ki, barmağında xal olan qadın daddı yiməh bişirir.

Qab-qaşığı, boşqabları axşamnan bılaşıx qoysan, həmin öydə söz-söbət olar.

Burın qaşınanda kiminsə xiffətin çəkirsən, kimin üçünsə darıxırsan.

Gözün yol çəkəndə kimsə qonax gələcəh.

Əlinnən qaşıx, bıçax düşdü, kimsə qonax gələcəh.

Ağzınnan tikə düşdü, sevinəcəhsən.

Burnu uzun olanın ömrü uzun olar, deellər.

Qulax  bərk qaşınanda yağış yağar.

Ulduz axırsa, kimsə ölür.

Ulduz axan vaxdı nə arzu tutsan, yerinə yetir.

Qorxana, uşax qorxubsa, ona yeddi dənə düyü sanıyıp verirsən. Həmin düyüləri ona uddurullar. Cəfdə yaxalıyıp verillər. Soora qorxanda üş dəfə əli yerə qoyup qorxanın başına qoyup, bissimillah, qorxuluğun yerdə qalsın, deellər.

Ərə gedən qızı ləmpə başına fırrıyıllar ki, od-ocax aparsın, issiliy aparsın. Yurdu-yuvası olsun.

Göygöz adamın nəfsi güjdü olar. Özünnən asılı olmadan baxdığı şeydə gözü qalar.

***

Saxsağan xeyir xəbər gətirən quşdu. O oxuyanda gərəh deyəsən ki, saxsağan, oğluun oğlu olup, qızuun da oğlu olacax. Xeyir xəbər gətirmisənsə, denən. Deer, əgər quyruğu evə tərəfdisə, xəbəri çin çıxmır. Amma üzü evə tərəfdisə, onda çin çıxır. Xeyir xəbər gətirmisənsə, uç yerüü dəyiş, – də deyillər.

Sərçə yeganə quşdu ki, qəfəsə salmağ olmur, dözmür.

Qızıl balığı diri tutmax heş kəsə nəsib olmıyıp, o, tora düşən kimi partdıyıb ölür.

İlanbalığına peyğəmbərin tütəyi deyillər. Deellər ki, peyğəmbər tütəh çalırmış. Götürüb atıp suya. Dirilip, balığ olup. Müsəlmana haram buyuruplar onu.

Nənəm deerdi, uşax birinci kimin üzünə tərpənipsə, ana həmin anda kimin üzünə baxıpsa, ona da oxşuyacax.

Hamilə qadın kələm yiəndə uşax ağ olur.

Hamilə qadın balığa yerihliirsə, balıx sifətində olur.

Doşana yerihliirsə, doşandodağ olur.

Ən çox aya baxmax lazımdı, aya çox baxsa, uşağ ay parçası kimi gözəl olur.

Dan yeri söküləndə günə baxanda uşax gözəl olur.

Hamilə qadın göy-göyərtini çox yiəndə uşağın saçı gur olur.

Yumurta sarısın çox yiəndə uşax yumurta kimi olur.

Hamilə qadın dalax yisə, uşaxda ləkə olar.

Hamilə qadın ziyarətə getməməlidi. Əgər getsə, əlini harasına çəksə, uşağın o yeri ləkəli, zədəli olar.

Hamilə qadın qəbirsannığa girməz, yas olan yerə getməz. Qəmli-qüssəli yerrərə getməy uşağa pis təsir edər.

Hamilə qadın gərəh saçın kəsməsin.

Uşax doğulan kimi qadının üzünə gələn təri öz saçıynan silsən, hamiləlihdən üzünə düşən ləkə gedər.

Qarışqa yuvasınnan götürülmüş yumurtaları təzə doğulmuş uşağın bədəninə sürtəndə onun bədəninnən arzu olunmuyan tüklər çıxmır.

Qadın azad olduğu anda nə diləsə, Allah o diləyini hasil edər.

Kiminləsə ilan hakqında söpət eliyəndə ürəyində nə arzu tutsan, yerinə yetər.

İki adaşın arasında diyanıp nəsə arzulasan, yerinə yetər.

Təzə balalamış inəyin sütünnən qooşu issəsə, gərəy içinə kömür atıp verəsən.

***

Nənəmin dediyinə görə, ay tutulanda cinnər, ifritələr, şeytannar işığın, nurun qarşısın kəsillərmiş. Ay el arasında

müqəddəs bir şeydi. Nənəm həmişə ayı görəndə üzünə salavat çəkərdi. Deyərdi ki, ayı salavatsız qarşılamazzar. Eldə onu nur, işix kimi müqəddəs sayırdılar. Cin, şeytan da səs-küydən qorxduğu üçün ay tutulanda qazan çalırdılar, səs-küy salırdılar, cinnəri qorxudub qaçırtmax məqsədiynən.

***

İlin axır çərşənbəsində pis, nəs danışmazzar, ilin elə gələr.

***

Bını da sınamışam ki, yağış yağanda yeddi dənə daşı üs-üssə qoyanda yağış kəsir. Bunu el arasında həmişə eliyillər, həmişə də düz çıxır (S:7; T:1).

***

Əyər bir adamın başına dalbadal bədbəxtlik gəlirsə, onda deillər ki, onun qara çuxası yatıp, yəni bəxdi yatıp.

Deer, ilan görəndə deyıllər, ilan, Süleyman peyğəmbərin qılıncı səən belünnən vırsın, əgər bırda diyansan. Çıx get dağlara, daşdara.

Biri ah çəkəndə deyəllər, ahın dağlara.

Göz səyriyəndə balaca qırmızı sap qoyallar gözün üssünə. Deyəllər, mən səni sevindirdim, sən də məni sevindir.

Təzə ay çıxanda baxıllar. Əgər ayın ağzı yuxarıdısa, deyəllər hava quraxlıx keçəcəh. Yox, əgər ağzı aşağıdısa, onda deellər, yağmurru olacax.

Kişiin arvadı ölərsə, ikinci dəfə həmin kişi evlənəndə evlənən günü əvvəlki arvadın qəbriin üssünə su səpəllər.

Deer, Allah-taala kimi yetim eləməy issirsə, onu alıp başına üş dəfə yerə çırpır. Görür canı çıxmadı, onda onu yetim eliir.

***

Uşağı olmayan gəlinnər hakqında eşitmişəm ki, belə eliyəllərmiş. İlk dəfə hamilə olan gəlinin evinə uşağı olmuyan gəlini gətirəllərmiş. Gələn gəlin hamilə gəlinin otağının ağzında dayanır. Sağ əlini qapının kandarında acıq şəkildə yerə qoyur, hamilə gəlin də əyağıynan onun biləyini basırmış. Bunu üç dəfə eliyillərmiş. Həfdənin duz günü* deyillər ona, bir də ocax günü* – ziyarət günü. Uşağı olmuyan gəlini həfdənin birinci günü, ya da adna günü – həfdənin dördüncü günü gətirillərmiş. Üçüncü dəfə gələndə uşağı olmayan gəlin hamilə gəlin üçün nəzir gətirirmiş. Deyilənə görə, bunnan soora həmin gəlin də hamilə olarmış.

Nənəmnən eşitmişəm ki, zahı qadın qorxanda ona cəfdə suyu verəllər. Cəfdə indiki evlərdəki kimi yox, keçmişdə evi qıfıllamağ üçün qapının bir tərəfində kiçik zəncir, ucunda da halqa – bu olurdu sonuncu örtülən qapının üstündə, o yuxarıda qapının çərçivəsinə bərkidilmiş halqıya keçirdilirdi, soora da qıfılı keçirdib bağlıyırdılar. Zahı qadın qorxanda, lap adi – elə belə adam qorxanda da cəfdə suyu verillər. Onda o xırda zənciri çıxardıb üsdünnən su axıdırdılar, o suyu töküb istəkana verirdilər, həmin insan içirdi, onnan da qorxuluğu gedirdi.

Bir də eşitmişəm ki, körpə uşağa soyutma yumurta verməzzərmiş ki, uşax lal olar. Yaxud da gec dil açar (S:8; T:1).

***

Çörəyi tək əlnən kəsməh günahdı.

Biriin gözüün altına kipriyi düşüpsə, qarşısında olan adam ürəyində arzu tutur. Deer, kiprih hansı gözündədi? Kipriyi düşən adam düz tapsa, həmin adamın arzusu yerinə yetər.

Bir adamın evində birinci dəfə qalırsansa, həmin gecə yuxuda nə görsən, çin olar. Yatanda ürəyində nə arzu tutsan, yerinə yetər.

Pıçağın ağzı yuxarı duranda, deellər qurban isdiir.

Hamilə qadın yeriyəndə əvvəlcə sağ ayağın atarsa, deellər, oğlu olar.

Evin damında bayquş ulasa, o evdə bədbəxliy olar.

Həyətdəki ağaca qarğa qonarsa, ev sahibi desə ki, qarğa, şad xəbər gətirmisənsə, uç get – qarğa da qarıldıyıb uçip gedərsə, deməli, şad xəbər gətirip.

Çörəyi dizin üssündə kəsəndə ajdıx düşər.

Aşura günündə doğulan uşağın böyüyəndə öz uşağı olmur.

İki adam eyni vaxdda həyət süpürərsə, həmən həyətdə bədbəxliy olar.

Bir adamın loxmasın – tikə çörəyin başqası götürüp yiyərsə, onların arasında dava olar.

Qulax cingildiyəndə kimsə o adamın qiybətin eliir.

Qayçı ağzı açıx qalanda, deellər, sözüü danışıllar.

İt, pişik adama arxasın çöörüb oturanda, deellər ki, kimsə qiybətimi eliir.

Pişihlərin ağlaması pis əlamət sayılır.

Ağzınnan tikəsi düşən adam sevinəcəh.

Yatan adam qorxmasın deyə başıın altına pıçax, çörəh qoyar.

Uzax yerə gedənin arxasıycan su atallar ki, su aydınnıxdı.

***

Uşağın çiləyə düşməsi haqında eşitmişəm ki, uşağın qırxa düşməsi, çiliyə düşəməsi deyilən bir şey var ki, onda uşax gec yeriyir. Uşax bir yaşına, iki yaşına çatır, amma yerimir. Uşax yerimirsə, onun çiləsin kəsillər. Onda uşağı bir aşsüzənə otuzzurullar, ayağıın baş barmaxlarını bir-birinə sapnan, ipnən bərkidillər, bağlıyıllar və onun qucağına nəzir qoyullar, çıxardıllar yola. Uşax qucaxlarında gedillər, qarşılarına ilk çıxan adama onun ipin qayçıynan kəssirillər.

Başınnan uşağın su tökdürüllər və bunnan inşallah sənin ayağın açılar, yeriyərsən deyib, həmin adam nəzirin də götürüb gedir. Uşağın da əlinnən tutullar, harda kı, uşağın çiləsini kəsiplər, həmin yerdən evlərinə qədər onu yeridə-yeridə gətirəllər. Bunnan soora çox keçmir ki, uşax yeriyir.

***

Bir də uşaxlarda çox görünən haldı ki, qaş qaralanda, axşam vaxtı ağlıyıllar. Kim neyniyirsə, onun səsin kəsə bilmir. Belə olanda da həmin uşağın atasıın köhnə bir ayaqqabısının sol tayıynan axşam vaxdı onun ağzınnan üş dəfə yavaş vırallar. Onnan da uşax o vaxdar ağlamağı tərgizər.

***

Bir adət də Qurban bayramında çillə çıxartmaxdı ki, yəni Qurban bayramınnan bir gün əvvəl qohum-qonşuun qızzarı, gəlinnəri hansı evdə ki nişannı qız var, həmin evə yığılallar. Hərə qulpunnan çıxan,* nə issəsə, gətirər. Orda yiyəllər, içəllər, oxuyallar, güləllər, ləyən çalallar, vedrə çalallar, şənnənəllər. Səmimi bir məclis olardı. Həmin gecə oyax qala bilmiyip yatan adamı da yatdığı palazamı, yorğanamı tikəllərdi və soora oyadallardı ki, dursun. Həmin adam duranda onun yatdığı yorğan, palaz onnan qalxardı. Onu da məsğərəyə qoyup güləllərdi. Amma bir şey də var ki, həmin gecə boyu kimsə bir dəfə yatıpdısa, artıq onun səhərə qədər oyax olması lazımsız bir şey olardı, yəni çillə çıxartmax sayılmazdı. Yəni yiyərdilər, içərdilər, səhərə qədər oyax qalardılar. Soora səhər də qurban kəsilərdi, qurbannıx qoyunun ətinnən yiyərdilər və arzuların tutup yatardılar. Belə deillər ki, kim həmin gün oyax qalsa, çillə çıxartsa, gəlinnərin evləri ruzi bərəkətdi olar, arzuları yerinə yetər. Subay qızzarın bəxdi açılar. İndi də kənd yerrərində həmin adət davam eliyir (S:12; T:1).

***

Gejə ev süpürməzzər. Süpürəndə də tərsinə süpürəllər, yəni qapının ağzınnan orta hissiyə tərəf. Zibil də götürüləndə atılmır ki, evin xeyir-bərəkəti gedir onda.

Süpürgə əyağa dəyəndə üş dəfə süpürgəən üssünə tüpürməlisən. Yoxsa şərə düşərsən.

Süfrənin qırın-qırtığın gejə vaxdı, bərəkətdi da, çölə töhməzzər.

İlkindidən soora dırnax kəsməzzər, saş kəsməzzər, insanın ömrü gödəlir.

Bayquş ulıyanda, deellər ki, evdən ölü çıxajax.

Hamilə qadın bətnində uşağ ölərsə, onun meyidi çürüməz. O şəhit məqamında olur.

Ziyili yox eləməy üçün axşamlar ay çıxanda toparax süpürgeynən – siz yumşax süpürgə deersüz (toplayıcıya müraciətlə – top. X.K.), biz ona toparax süpürgə deyirik, ziyilin üssün süpürürsən. Üş dəfə deersən, Ay, səni xoş gördüh, ziyilin yerin boş gördük.

Qulağın cingildiyir. Onda deellər ki, kimsə səən hakqında danışır. Səni tanıyan adamların bir-bir addarın çəkirsən. Kimin adın çəkəndə qulağuun cingiltisi kəsilirsə, deməli, o adam səən söhpətüü eliyir.

Qulax cıngildiyəndə qulağı silkəliyip belə də deyillər: ölüsə, rəhmət, şeytansa, nəhlət. Bını üş dəfə deellər, cingilti kəsilir (S:13; T:1).

***

Qoz ağacıın altında yatmazzar.

İncil ağacıın altında yatmazzar. Deyilənnərə görə, bu ağaşdarın altında şeytan oynıyır, cin oynıyır.

Suyun üssünnən keçəndə gərəh “bissimillah” deyəsən.

Süpürgə qaramatdı.

Axşam ev süpürməzzər.

Süpürgə adamın ayğına dəyəndə şərə düşər, gərəy üş dəfə tüpürə süpürgiyə.

Pıçağ ağzı yuxarı duranda qurban issiyər.

Qaşıx yerə düşəndə qonax gələr.

Qonşu gecə çörəy issəsə, çörəyi kəsib verəllər ki, bərəkəti evdə qalsın.

Qonşu gecə süt issəsə, içinə iki dənə kömür atıb verəllər.

Uşax yerimiyəndə iki başı bitili kolun altınnan keçirdəllər, üçüncü dəfədə "səən çiləni kəsdim" deyib kolu kəsəllər.

Uşax dil açmırsa, vaxdında danışmırsa, aşı dəmliyillər, dəm suyun töküllər qaşığa, bir-iki qaşıx verillər uşağa, soora uşax dil açır.

Oturan uşax – altı-yeddi aylıx uşax ikiəlli başına döyürsə, o, Allahdan dil issiyir (S:14; T:1).

***

El arasında deellər ki, ev tikənnən toy eliyənə Allah yol verər.

Məhərrəmlihdə ev tihməzdər.

Boş ayda (oruşduxdan soora olur) xeyir iş görməzdər.

Təzə paltar alanda, nə qədər ki, geyməmisən, oun yaxasına sancax bağlıyıp qoyullar şifanerə. Deerdilər ki, guya geyilmiyən təzə paltarı cin gəlir geyinir gedir. Sancağ olan yerə cin gəlmir.

Axar suya zibil töhmək böyük günahlardandı.

***

Göyün də yeddi qatı var, yerin də. Göyün yeddi qatında cənnət yerrəşir. Hər qatı cənnətin bir qapısıdı. Ən yaxşı yer yeddinci təbəqədədi. Mötəbər insannar orda olur. Cəhənnəm isə yerin altındadı. O da yeddi qatdı, əzaplardan ibarətdi.

Birinnən razı qalanda deer ki, məni göyün yeddinci qatına qaldırdın, yəni cənnətin ən yüksək zirvəsinə.

Deellər ki, ölü o dünyaya çatan kimi sorğu-sual eliyillər inkir-minkirrər. Birinci soruşullar ki, hansı dinə qulluğ eliyirsən. Allahın kimdi, peyğəmbərin kimdi. Yaxşı adamsansa, din yolu tutansansa, o səən yadua düşür, deersən. Yadua düşmiyən şeylər olsa da, orda səən köməhcin olur, yadua salır, deersən. Yoox, pis adamsansa, bildihlərin də yadınnan çıxır qorxunnan. Çünki günahların çoxdu axı. Soora nə soruşullar? Anaan hakqın, ataan hakqın. On dəfə ana hakqında deellər, bir dəfə ata hakqında. Anaan əzap-ları çox olur. Ataan da yolun saxlamax lazımdı. Nənəən, babaan – əvvəlcə ən yaxın qohum-əqrəbənin, soora qıraxların. Qonşu hakqı var hamıın boynunda. Qonşu ac yatıp, sən tox qarına yatmısansa, o səə böyük günahdı. Öz yidiyinnən ona da verməlisən. Əgər bilirsənsə ki, o tapıp yimir da yimək.

Deellər ki, zülm ərşə dirəy olanda dünyanın sonudu. Bəzən oun da deellər ki, biri yiip, o biri baxanda qiyamət qopur.

***

Qadın hamilə olanda oun oğlan-qızzığın bilməy üçün qara ciyər bişirillər – qoorma, yiir. Əgər əlin bığ yerinə çəkirsə yiip qutarannan soora hamilə qadın, onda bilillər ki, oun oğlu olacax. Əlin saçına çəkirsə, deməli, qızı olacax.

Şər vaxdı – axşamtərəfi şilvər altında, deellər, oturmağ olmaz, qapıın ağzında – kandarda oturmağ olmaz. Uşağı çölə çıxartma. Şər vaxdı cinnərin, şeytannarın toplaşan vaxdı olur həmin yerə. Ona görə deellər, olmaz.

Gecə vaxdı uşağı qucağında bir yerə aparanda, deellər, ona cin toxunar. Ona görə uşağın bələyinə çörəh qoyullar ki, uşağa bir sədəmə* toxummasın. Yasdığıın altına pıçax, qayçı qoyullar ki, cinnən, şeytannan uzağ olsun. Ona görə deellər

da, hava qaralar-qaralmaz çinnərin, şeytannarın aktiv vaxdı olur. Şər işdərnən məşğul olmağ isdiyən vaxddı deyə ona "şər vaxdı" deyillər.

Şər vaxdı qarğış eləməy olmaz, pis söz danışmağ olmaz. Keçərri olur.

Anaan qarğışı tutmur. Deellər, sütü qoymur. Ataan qarğışı tutur amma. Ata qarğış eliyəndə üzündəki tühlər hamısı, deellər, "amin" deyir.

Göydən dolu düşəndə, ya göy gurulduyanda "İxlas" surəsin, "Fələq" surəsin oxuyuram, Allaha yalvarıram ki, bəlalardan uzağ olax, bizə sədəmə toxummasın.

Bir səfərə yollananda "Ayət-əl kürsi"ni oxuyub üfliirsən ki, səfəri sağ-salamat başa vırasan.

***

Uşağ anadan olanda birinci dəfə oun qulağına azan oxuyullar ki, uşağ Allahın, peyğəmbərin tanısın.

Göz dəyməsin deyə uşağın qoluna dağdağan ağacınnan balaca bir hissə kəsip bağiillar.

Uşax çox ağlıyanda kirisin deyə atasıın əkqaabısıın tayıınan ağzına vırıllar ki, səsin kəssin. Onnan da səsin kəsir uşax.

***

Bizim tərəfdə adət belədi: təzə ev tikilir. Oun üssün çardaxliyanda qohumlar gətirib üssıya xələt verir. Pul verən olur, parça verən olur. Qırmızı parça verillər, bağliyır o taxdasına. Uzun müddət qalır orda: həm göz dəyməsin, həm də şaddığ əlaməti olarax ki, yanı ev qutardı da, baş oldu, üssü örtüldü.

Təzə məhliyə köçən olanda, təzə yurda köçəndə qohumlar ki gəlir oun evin görməyə, onda kanfet, ya şirni-noğul alıllar. O kanfeti, noğulu həyətə səpə-səpə girillər qapıya.

Uşağ anadan olannan altı ay soora diş çıxartmağa başdıyır. Görüllər, incidir uşağı, yeri qaşınır da. Onda evdə hədih bişirillər. Yeddi evə pay verillər onnan. Onda uşax rahatdaşır. Hədiyə yeddi cürə dənni bitgi tulluyullar: iri lobya, xırda lobya, noxut, buğda, qarğıdalı, mərci atıllar. Həll bişirip payliyıllar. Hədiyin qabın qaytaranda içinə duz qoyullar, ya da kanfet qoyullar.

İnəh balalıyanda kətəməz,* ya bılama* verillər qooşulara. Onda oun qabın yumullar, içinə nəsə bir pay qoyup verillər ki, bərəkətdi olsun.

Aşurada da hədih bişirillər. Oun aparıp meçitdə payliirsan, qooşulara payliirsan. O vaxdı imamlarımız yiməh tapbıyıplar yiməyə. Onda əllərinə düşən dənni bitgilərdən qidalanıplar. Görürsən, Aşurada su payliillar ehsannıx: adi su ki, olar susuz ölüplər.

Uşax gec yeriyəndə, yanı gec əyağ açanda onda uşağı qoyullar xəlbirin içinə, yeddi həyətdən pay yığıllar. Gətirənnən soora iki gün keşmir, görürsən, uşax yeridi.

Gecə pis yuxu görəndə səhər durup soğanı dişdiirsən, atırsan başuun üssünnən o tərəfə. Onda, elə bil ki, qada-bala sənnən uzaxlaşır, acılıx gedir.

Pis yuxu görəndə səhər durub evdən sədəqə çıxardırsan ki, qada-bala getsin.

Böyühlərdən eşitmişəm ki, həyətdə toyux-cücə, mal-qara saxlamax yaxşı şeydi. Evə gələn qada-balanı, xəsdəliyi o hey-vannar götürür öz üsdünə, külfətə heş nə olmur. Birdən gorürsən ki, toox-cücə öldü qəfildən. Deer, cana gələn mala gəlir onda (S:15; T:1).

***

Deyilənə görə, ilk dəfə qurbağa səsin eşidəndə yazda niyət eliyib yaylığı bağlıyıllar. Deersən ki, xeyirriyə, yaxşılığa olacax-

sa, ağ tük olsun, pis olacaxsa, qara tük olsun. Bir-iki günnən soora açırsan. Görürsən ki, ya ağ, ya da qara tük var yayluğda.

Deyillər, göyərçini tüəngnən atanda hansı hissəsinnən dəyməyinə baxmiyarağ, yarasınnan başqa, mütlax ağzınnan qan gəlir (S:22; T:1).

***

Deyillər, uşağın beşıyin boş tərpətsən, uşağa xətər yetər.

Tərəziin üssünnən addamağ olmaz, deellər ki, onda pərsəngi pozular, düz çəhməz.

İnəyin yanında od yandırmazzar, yandırsan, sütü çəkilər.

Şər qarışannan soora öy süpürməzzər. Süpürsən də gərəh deyəsən ki, toy evi süpürürəm.

Pıçax yerə düşəndə deyirih, kişi qonağı gələcəh.

Qaşıx yerə düşəndə deyirih, arvat qonağı gələcəh.

Atın nalın zıbilliyə atmazdar, atsan, evinin bərəkəti çəkilər.

Ova gedəndə gərəh qüsullanıp gedəsən ki, ovun uğurru olsun.

Ova gedənə gərəh dua eliyəsən ki, ovun qannı olsun.

İt ova gedəndə söyünər, gələndə ağlıyar (S:24; T:1).

## TƏBİƏT HADİSƏLƏRİ İLƏ BAĞLI İNANCLAR

Quraağlığ olanda qurban deellər. Seyid öyladına, əl götürüb, Allaha. Meçitdə namaz qılınır. Əl götürülür Allaha ki, ay Allah, sən bı camatın məhsulun zay olmağa qoyma. Yer, göy yanır. Dağ-daş, mal-qara hamısı quraağlığdan əziyət çəkir. Onda Allah yolunda qurban deyilir. Meçidin həyətində kəsilir.

***

Güjdü küləy əsir, məsələn toyqabağıdu. Evin ilk uşağı qəlbiri götürür əlinə, evi çöldən-çölə üş dəfə fırranır. Deer:

Mən anamın ilkiyəm,
Küləh kəs, kəs, kəs.
Ağzı qara tülkiyəm,
Küləh kəs, kəs, kəs.

Üş dəfə onu deyə-deyə fırranır, həqiqətən də, küləh səngiyir (S:3; T:1).

***

Yağış çox yağanda neyniyəllər. Bu indi də bir adət kimi, sınama kimi davam eliyir:

Yağış yağanda yağış düşən torpağa üç daş bassırallarmış.

Yeddi dənə xırda daşı yenə də yağış düşən yerdə üst-üstə qoyallarmış.

İki dənə çəngəl götürüb onnarı ağız-ağıza keçirip üzü yuxarı qoyallarmış.

Xəlbətcə qonşuun həyatinə üş dənə daş atallarmış.

Güclü yağışnan bir yerdə dolu da yağanda həmin doludan bir dənəsin evin ilk uşağı götürüb dişdiyərmişsə, dolu kəsərmiş.

Güclü qar yağanda, ya da uzun müddət qar yağır, əgər kəsmirsə, onda qardan bir az götürəllərmiş. Qaynar peçin üstündə onu əridəllərmiş. Deyəllərmiş ki, əri, yox ol. Nənəmnən eşitdiyimə görə, bunnan soora qar kəsərmiş, çöldə gün çıxarmış, qar əriyərmiş (S:12; T:1).

***

Yağış kəsməy üçün çöpləri qoyurdux üs-üssə xaç kimi (S:13; T:1).

***

Keşmişdə nənələr deyərdi, nənəm özü tapşırırdı bizə, bala, göy guruldamamış, ildırım çaxmamış yemlih üzüp

yimiin ha, zəhərrənərsuz. O, göy gurulduyanda diksinir da yəqin bitgi, o pis şeylər çıxır onnan.

Yazda, payızda toy eliyənnər qorxurdu ki, yağış yağar-eliyər. İndiki kimi onda sinoptik olmiyıpdı ki, xəbər verə. Bir kilo, ya iki kilo qoz nəzir eliirsən ki, ay Allah, sabah toy eliyəcəm, toyumda yağış yağmasın, bı qozu payliyaram qonşulara. Onda yağış yağmır.

Ay tutulanda, günəş tutulanda, görmüşəm Zeynəp xala-gil – qonşumuz eliyəndə, mis qabları, qazannarı danqıldadıl-lar, döyüllər. Mis qabları ona görə döyüllər ki, şər qüvvələri – cinnəri, şeytannarı qovmağ üçün. Surələr oxuyullar. Adətən Ər-rəhman surəsi oxunur. Çünkü ay, ulduz hakqında Ər-rəh-man surəsində geniş izahat verilir. Çox möhdəşəm surədi o.

O vaxdı, göyə uçan vardı ey Ərəbisdannan. Nəsə olmuş-du, düşə bilmirdi ordan. Bala göydə olub, ana yerdə. Ordan xəbər eliyiplər. Eyni zamanda ikisi də əzbərdən Ər-rəhman surəsin oxuyuplar. Allah yol açıp o oğlana. Hamı məhətdəl qalıp. Ər-rəhman surəsiin hökmüynən o yerə gələ bilip.

***

Mamam danışırdı ki, Tovuza toya getmişdih. Deer, yağış da nə təəri, day şıdırğı yağır da, tut ucunnan, çıx göyə. Onda gördüm, deer, arvatdar – bı evin içində belə ocaxlar olurdu ey buxorı kimi, ovuçnan deer, elə hey unu götürüp atıllar ocağa, unu götürüp atıllar oçağa. Deer, dedim, az, siz nağayrırsuz? Bərəkətdi, niyə yandırursuz? Deer, oun helə eliirik ki, Allaha acıx getsin ki, biz bərəkəti – unu yandırırıx. Onda yağışın – nurun çəhsin da göyə. Yağış onda kəsilir (S:15; T:1).

## YASLA BAĞLI İNANCLAR

Deyilənnərə görə, qəbrəsdannığa gedip bir ölüü ziyarat eliyəndə, yaxın adamuun ziyaratınnan gəlip həyətə girəndə üş dəfə başuun üsdünnən su atırsan (S:3; T:1).

***

Qəbir üssə cümə günü getməh yaxşıdı. Həmin gün gedəndə qəbrin əyax tərəfində duranda o, onu ziyarət eliyəni görür (S:6; T:1).

***

Hər bir müsəlman yeddi ölü yumalıdı. Allah taala böyüh savap yazır oun əyğına.

Bala anaycün ağlıyar, ananın bala üçün ağlamağı günahdı (S:7; T:1).

***

Qəbir qazanda qadınnarın qəbrin kişilərə nisbətən bir təpkeş* dərin qazıllar. El arasında deellər ki, bı da qadınnarın çoxbilmişdiyinnən irəli gələn şeylərdi. Ara qarışdırıllar, yalan danışıllar, o mənada dərin qazıllar ki, yanı səni dərin gedəsən.

Danışıllar ki, Məhəmmət peyğəmbərin qızı Fatimə xanım vəsiyyət eliyip ki, mənim tabutumu o qədər dərin eliyərsüz ki, örtüyün üssünnən mənim əzalarım bilimməsin. Qəbirsannığa kişilər aparır da bütün insannarı. Yəni kişilər örtüyün üssünnən də hiss eləməsinnər mənim əzalarımı.

Deer, peyğəmbər buyurup ki, cümə namazına gedərkən hamı qüsul alıp gəlməlidi. Bı mənada ki, namaza duranda hamı pak olsun. Namaz vaxdı pis qoxu gəlməsin.

Cümə günü müsəlmannarın isdirahət günüdü, gözəl gündü. O günü rəhmətə gedən olanda, deellər ki, o dünyada ona sorğu-sual olmur.

Cümə günü qəbir ziyarətinə gedəndə sağ əluu qoyursan qəbrin üsdünə, uş dəfə qədr surəsin oxuyursan. Amma bı şərtnən ki, ağlamıyasan. Hə, üş dəfə qədr surəsin oxuyursan. Onda qəbirdə yatan adam səni görür.

İndi qəbir daşdarı, məzar daşdarı düzəldillər. Olar hamısı günahdı. Keşmişdə, mən eşitmişəm ki, gər ağacınnan elə rəhmətə gedən günü kəsip hamarrıyıp baş ağacı qoyurdular. O da bir uzun müddətdən soora məhv olup gedirdi.

Qəbirsannıx çox yer tutmasın deyə bir qəbirdə yeddi ölü dəfn olunmalıdı. Qiyamət günü bir qəbirdən yeddi ölü dirilip durmalıdı. Allah çağıranda bir qəbirdən yeddi ölü gəlməlidi Allahın hüzuruna (S:15; T:1).

## TOYLA BAĞLI İNANCLAR

Elimizin adətdəri var. Adətdərə görə öyüt-nəsiyət verirdilər gəlin köçən qıza: getdiyin yerdə lal-kar ol. Ora gəlinnihnən girmisən, kəfənnən çıxeysan. Pis də olsa, yaxşı da olsa, dözməlisən (S:7; T:1).

***

Bir evdə qız nişannandı, toyudusa, qoumda-qonşuda olan subay qızdar da bəxdərinin açılması üçün bəzi inancları, sınamaları yerinə yetirəllərmiş ki, qalan qızzarın da bəxdi açılsın. Xına günü qızın xınasınnan heç kəs bilmədən oğurruyallarmış.

Gəlinə gələn xonçadan lent kəsip aparallarmış ki, bu qırmızı – şad günnən bizə də olsun.

Gəlinin ayağqabısıın altına öz addarın yazallarmış, gəlin də toydan soora baxarmış ki, kimin adı silinipsə, deyərmiş ki, yolda odu. Yəni il tamamına qalmaz, həmin qız da ərə gedərmiş.

Qız gəlinnik paltarın geyinənnən soora ilk oturduğu yerdən duran kimi subay qızzardan kimsə gəlib onun yerində oturarmış. Həmin qızın da bəxti açılarmış.

Gəlinnər əvvəllər ata evinnən çıxıp birbaşa oğlan evinə, ər evinə gedəllərmiş. Ona görə də gəlinin bir ovucuna pul bağlıyallarmış ki, ata evindəki ruzisini, payını aparsın, ya da

hər iki ovcuna düyü tökəllərmiş. Gəlinin sağ ovcundakı düyü qalırmış. Oğlan evinə gedənə qədər gəlin o düyünü atmırmış. Bu da onun ata evindəki ruzisini aparması sayılarmış. Sol ovcundakı düyünü isə qoum-qonşuda olan subay qızdarın, rəfiqələrinin adın çəkə-çəkə atarmış. Ən son atdığı düyü hansı qızın adına rast gələrmişsə, o qız da həmin il ərə gedərmiş.

Gəlinin oğlan evinə gələndə sındırdığı boşqabın bir qırığını hansı qız götürüb başının altına qoyarmışsa, həmin gecə yuxuda ərə gedəcəyi oğlanı görərdi.

Bəzi adətdər də var ki, onnarı toydan soora yerinə yetirillər. Toydan soora iki-üç gün qız mütləq qırmızı geyinməli imiş. Qırmızı geyinməsinin də məqsədi o olup ki, qırmızı həm yenilik, təzəlik kimi qəbul olunur, həm də göz qaytaran rəng hesab olunur. Qırzımı geyinəndə gəlinə göz dəymir, gözdəymədən qoruyur.

Soora gəlin uzun müddət paltarıın görünmüyən yerində sancax gəzdirir. Gəlin toydan soora qırx gün evdən çölə çıxmazmış, yəni heş yerə qonax getməzmiş.

Yaxud da evə qonax gələndə birbaşa gəlinin üstünə gəlməzmiş. Gəlin başqa otağa keçərmiş, qonax gələnnən soora gəlin qonağın üssünə gələrmiş, olarnan görüşərmiş. Bunun da məksədi o olup ki, gəlin qırxa düşməsin.

Gəlinin qırxa düşməməsi üçün onun otağıın cəfdəsinə qırmızı lent bağlanmış qıfıl vurularmış. Yəni qırx gün o qıfıl orda qalarmış ki, gəlin çiliyə, qırxa düşməsin. Qırx günnən soora qıfılı açallarmış. Aparıp axar suya – çayamı, arxamı atallarmış (S:12; T:1).

***

Gəlin evin kandarınnan içəri girəndə evin iç tərəfinnən mıx vırıllar. Yəni ki, bı gəlin də evində-eşiyində möhgəm olsun.

Təzə gəlin gələndə onun otağıın üssünnən qırmızı lentnən qıfıl, üzərriy asıllar qırx gün. Çünki olar bədnəzəri öz üzərinə götürür, gəlinə nəzər dəymir (S:15; T:1).

## GƏLİNİN QIRXA DÜŞMƏSİ

Bəzən görürsən övlad olmur gəlində, gecikir. Onda deellər çiliyə düşüp. Bını çilədən çıxartmax lazımdı. Oun özüün xüsusi qabı var. Mis qabdı, o mis kasaan üsdü ərəb həriflərinən yazılıb. Deillər, Quran ayələridi. Adına qırxaçar camı deyillər. Bizim kətdə iki adamda var. Həmin kasanı gətirüllər, qırx qaşıx sanayub o kasaya su tökürsən, sözdəri var, üş dəfə deirsən, səni çilədən çıxardıram. Gəlini fırradırsan o kasaan başına, soora həmin suyu götürüp tökürsən gəlinin başınnan.

***

Kəndimizdə qız gəlin köçənnən soora həmin günü çox adam qıfıl vurur, haçarrayur ki, məəm gəlinimə heç bir xətər, çilə olmasın. Qıfılı bağlayır, qapının başınnanmı, əltutulanınnanmı, gəlinin otağının çöl tərəfinnən asır. Həmin gün, ya bir həfdə soora, yəni qırxı çıxmamış, təzə gəlin köçmüş iki gəlini bir-birinin üssünə gəlməyə qoymullar ki, çiləsi bir-birinə tökülməsin.

Ola bilər ki, gəlinin qırxı çıxmamış qəbrəsdannığa ölü yola salınsın. Onda o gəlinə çilə düşə bilər. Onda gedib o ölünün yiyəsinnən xəlbət, ölü yiəsi bilməsün, torpağınnan götürüb gətirirsən, asırsan qapının başınnan ki, yanı bı ölünün çiləsi tökülməsin də gəlinin üssünə – öyladı olmaz deyə. Gəlinin qırxı çıxannan soora o şeyləri axar suya atırsan, ya təmiz bir yerə tökürsən, qapıdan çıxardırsan ölü torpağın. Qıfılı da açırsan.

***

İki zahı bir-biriin üssünə gələndə uşağa xətər yetir: Ayaxları qırc olur, bir-birinə dolaşır, ağlayır, arıxlayur. Onda, böyürtkan kolu müqəddəsdi bizüm kəndimüzdə. Çəpər dibində iki başı da bitili böyütkan kolunun altınnan keçirdirsən. Bir adam bı tərəfdə durur, biri o tərəfdə. Deersən ki, səni çilədən çıxardıram, uşağı kolun altınnan verirsən o biri adama. Fırrayır, yenə verir sənin qucağua. Üş dəfə səni çilədən çıxardıram, deyip, kolun altınnan keçirdənnən soora uşax rahatdaşır. Bının günü ancax üçüncü, altıncı günnəridi.

***

Uşax da olanda – doğulanda helə. İki yaxın adamın uşağı olupdusa, olar bir-birinin üssünə gəlməməlidilər, görüşməməlidilər ki, çiliyə düşəllər, bir də uşağın olmaz, və yaxud da uşax xəsdə olar. Uşağın qıçdarı qıc olur, bir-birinə dolaşır, ancağ ağlayur, zəifləyür, uşağ irəlləmir, əmələ gəlmir. Evdə uşax doğulupsa, qırxı çıxmayıbsa, qırx gün onun çiləsini gözdəyürüh (S:1; T:1).

***

Adətən qırxlı uşağı bələdüyün şeylərin – pal-paltarın, əsgilərin çöldə saxlamıruğ. Axşamçağı olan kimi paltarın, əsgisin yığışdırub gətirüb evə saluruğ. Səbəp budu ki, onda dellər ki, o uşağ çiliyə düşür. Şeytan qonur o paltarrara. O uşağda pis əlamətdər əmələ gəlir, ağlında, kamalında nəsə zəyifliyi olur.

Təzə doğulmuş uşağın əlinin içində kir kimi yığılmış çözə oxşıyan şeylər olur. Onu addətən qırxına qədər təmizdəmillər ki, uşağın yuxusu dağılır, yuxusu qaçır.

***

Zahı gəlinnər çox gözdənilir. Adətən deyillər ki, bı zahi gəlinin qırx gün qəbrinin ağzı açuğdu. Bax onu tək çölə qoymuruğ, həmişə bissimillah deyir dilində. Şüyələr* var, keçmişdən, qara şüə. O qadının qırxı çıxıncan üsdündə saxlanılır ki, üşəmməsün, hal aparmasun. Deyillər, nə bilim, cin, şeytan alladur. Tək bıraxmırıx çölə, qarannığa qoymuruğ, əsas da su başına. Su başına heş cürə getməy olmaz (S:3; T:1).

***

Soora zahı qadınnarı, uşaxları, təzə gəlinnəri qoymazzarmış ki, axşam vaxdı, şər qarışan vaxdı – kənd yerrərində mal ayağı vaxdı deyillər, qapının kandarında, pilləkəndə, tir altında dayansın, otursun. Qocalar deyir ki, o vaxdı orda duranda adamın üssünnən cin atdanır. Adam həmin vaxt qorxa bilər, diskinə bilər. Onnan da həmin adamlar xəstəliyə tutula bilələr (S:12; T:1).

## GÖZ-NƏZƏR İNANCLARI

Dağdağan ağacı var. O da kətdə bir nəfər adamın qapısındadu. Hamı o qapıdan aparur. Keşmişdən qalmadu – indi onun nəvələri yaşayır o evdə. Onu hər vaxd qırmağ olmaz. Bir onu qurbannığ günü xoruz banı vaxdı, səhərin alatorannığında qırırsan. O dağdağannan həmişə pencağın varatniqinin daluna taxıruğ, ya da paltarımızın altınnan taxıruğ.

***

Dağlarımızda bitir, üzərriyimiz var. Üzərriynən duz hərrəyirüg uşağın başına. Pis gözdən, pis nəfsdən. Ya oda atıruğ, ya da ki, həmin üzərriynən bir yerdə yandıruruğ, o uşağa onun tüsdüsün verirüg, boynun oxalayuruğ, alnına

çəkirüg, oxalayuruğ. Yanı kimnənsə şüpələnsön... Adətən bı körpə uşağ lap tez nəzərə gəlir.

***

Gözmuncuğu da – indi keçmiş gözmuncuğu yoxdu. Az tapulur indi onnan. Onda əgərrəri onun ağ xalı düşürsə, deməli, həqiqətən də, bı uşağda, bı insanda bı adamın nəzəri olub (S:1, T:1).

***

Nəzər qaytarmaxdan ötrü evlərdən dağdağan, üzərrih, it kəlləsi, dağlarda bitən göz tikanı asallar.

Nənəm bizim üssümüzdən gözmuncuğu, dağdağan asmaxnan yanaşı, başımıza duz hərriyib ocağa atardı. Deyirdi, gözü dəyənin gözü çıxsın, nəfsi keçənin nəfsi yansın (S:5; T:1).

***

Uşağın üzünə ocaq hisi sürtüllərmiş ki, göz dəyməsin. Göz dəyərmişsə, üzərrih, soğan qabığı yandırallarmış. Başına duz çevirəllərmiş. Başındakı papağına, əynindəki paltarın çiyninə gözmuncuğu, dağdağan çubuğu vurallarmış. Yaxud biləyinə bağlıyıllarmış ki, göz dəyməsin. Göz qaytarsın.

***

Dağdağan çubuğu da, heyva çubuğu da göz qaytarır. Eşitmişəm ki, heyvannarın vəlin, qoşqusun, arabasın dağdağan, heyva ağacınnan eliyirdilər ki, bəd nəzərə ras gələndə, göz dəyməsin.

***

Nənəm danışıb bını. Bir kişinin sooradan sonbeşik bir qızı olur. Uşax çox gözəl imiş. Başqa qız öylatdarı da var. Amma

sonuncu öyladı çox gözəl olur. Bir gün bına qırmızı parça alıp gətirir. Arvadına deeir ki, tik bını usaxçün. Uşağa anası gözəl bir don tikir. Uşax oyniyir atasının qabağında. Ata da deyir ki, zalımın qızı ay parçasıdı da. Soora da qorxur ki, uşağa nəsə olacax. Öz gözünə özü bələtdi. Arvada deyir ki, gözün uşaxda olsun ha. Elə bil bu söypət olubsa günorta, ilkindi vaxtı, nənəm deyir ki, bir də gördük ki, qoyma-qışqırıx düşdü. Səs-küy oldu. Yüyürdüm getdim, gördüm, uşax hooza düşüp, ölüp. Ata da arvadına deir ki, səə dedim axı, uşaxda gözün olsun.

Yəni göz dəyməh, özünə, özgüyə baxmır. Göz dirəndisə, ona baxdısa, bəs eliyir (S:8; T:1).

***

Adam var ki, nəfisdidi da, gözü dəyir adamlara. Oun, deer, kiməsə gözü dəyəndə, həmin o gözü dəyən adamın paltarınnan oğurrıyıp bir kusok kəsillər. Oun yandırıp göz dəyən adama iynədillər. Onda nəzər onnan yox olur (S:13; T:1).

***

Keşmişdə uşağ öydə doğulurdu. O vaxdı xəsdəxana yox idi. Hamıın altı, bəzən səkgiz uşağı evdə doğulardı. Ara maması gəlirdi. Uşax doğulannan soora xəssən yeriin yanınnan şişnən cızıx  çəkirdilər. Bir baş soğanı soyub şişin başına taxırdılar, zahının yerinin ayaq tərəfinnən yerə bassırırdılar. Soğan acılıxdı, göz dəyməsin deyə belə eliyirdilər.

Bir də zahının yassığının baş tərəfində kasıya üş yumurta qoyub su tökürlürdü, yanına gələnin xəsdiyə gözü dəyirdisə, yumurta çartdıyırdı. Onda o xəsdə nəzərə gəlmirdi.

Belə də deyillər ki, yeni doğmuş ananın da, uşağın da alnına ocağın hisinnən vurallar ki, göz dəyməsin.

***

Bizim kəndimizdə bir kişi var idi. Onun gözündə varıydı, yəni nəfsi itiydi. Hər şeyə gözü dəyərdi. Bir gün səhər-səhər heyvannarın, malların aparır örüşə. Naxır deyirik biz. Naxıra ötürüp qayıdanda görür ki, bir nəfər öküzüynən yer şumlamağa gedir. Baxır ki, öküz nə öküz, çox yaxşı. Gözü öküzdə qalır.

Qayıdır gəlir evə. Öz gözünə özü bələddi də. Gəlir, oğluna deyir ki, bala, indi orda öküz kəsəcəhlər. Zənbilü götür, ged ora. İndi alışma eliyəcəhlər. Alışma da o deməhdi ki, yəni öküzü kəsəcəhlər, öz aralarında bölüşdürəcəhlər. Ged onun ətinnən al, gətir. Oğlu da məhətdəl qalır. Gedir, bir qədərdən soora görür ki, öküzü kəsillər.

Öküzü də necə olur, kəsillər? O kişi bu öküznən həmişə yer sürərdi. Deməli, vəli boynuna keçirdip. Öküz birdən çökəyə düşür, büdriyip yıxılır. Boynu da vəldən asılı qalır. Öküz sahibi nə qədər çalışır, öküzü xilas eliyə bilmir. Görür ki, day öküz ölür, ona görə də kəsir. Oğlan da həmin ətdən alır, gəlir. Yəni kişi gözündə nə olduğun bilir (S:8; T:1).

***

Gözündə olan bir başqa kişi də öküzü görür, hiss eliyir ki, onda nəfisi qaldı. Evə gəlir. Oğlun göndərir ki, indi oküzü kəsəcəhlər, ət al gətir. Oğlu gedir, bir qədər soora qayıdıp gəlir ki, dədə, oküzü kəsmiyiplər, öküz də qapıdadı. Kişi də deer ki, yəqin öküzün buynuzunda dağdağan çubuğu olup. Mənim gözüm onu tutmuyup (S:14; T:1).

## YUXUYOZMALAR

Deyilənə görə pis yuxu görəndə səhər tezdən durub bir diş-dəm qənd, bir daş götürüb axar sua atallar. Usup peyğəmbər yuxu yozan olup. Olara salavat çəkip, fatəhə surəsin oxuyub, deərsən, suya atıram bı qəndi, bı daşı. Yaxşı

yuxudusa, bı qənd əriyincən çıssun, pis yuxudusa, daş əriincən çıssun (S:2; T:1).

***

Bəzi ölü uğursuz olur, deellər. Adam yaxınına heç vaxd qıyıb soğan dişdəməz. Təsadüfən yad ölü yuxuya girəndə, xeyirsiz olanda baş soğanı dişdəyib tullayırsan ki, ged, özüünkilərdən yapış. Onıynan da o ölü bir də o adamın yuxusuna girmir.

***

Qorxulu yuxu görəndə tasatdığ çıxardallar. Qapıdan çölə ya pul atallar, ya səhər yuxudan duran kimi ev quşdarına yoox, serçiyə-zada dən atarsan bir qab ki, tasatdığ atıram (S:1; T:1).

***

Qardaşım əsgərrihdeydi, əsgər getmişdi. O vaxd da müharibeydi. 1994-cü il idi. Anam çox nigaran idi qardaşımnan. Səhər durdu dedi ki, pis yuxu görmüşəm. Deellər ki, yuxuda kəsdiyin qarpız pis çıxırsa, pis əlamətdi. Əvvəl yuxuun danışmadı. Dedi ki, pis yuxuun danışmazdar, qoyallar bağrı çartdasın, soora danışallar. Soora danışdı. Dedi, qarpız kəsdim, pis çıxdı, qorxuram. Yaxşı xəbər olmıyacax.

Onun səhəri qardaşımnan pis xəbər gəldi ki, itgin düşüp, çastdan da xəbər gəldi ki, Məmmədov Elnur Həmid oğlu şəhid olup (S:6; T:1).

***

Biz tərəflərdə belə bir deyim də var ki, olacağa çarə yoxdu, yaxud da qismətdən qaçmax olmaz. Bu da belə bir rəvayətdən yaranıbdı ki, bir arvad bir gün yuxuda görür ki,

oğlu bir bilet alır, harasa gedir. Oğlu gedən təyyarə partdıyır, bunun oğlu ölür. Yuxudan durur görür ki, oğlu əlində bir təyyarə bileti gəlir ki, mən Masqıvıya uçuram. Bu olmuş bir hadisədi. Arvadın yadına yuxu düşür və oğluna deir ki, bala mənə ayan olup, sən o təyyareynən getsən, o təyyarə partdıyacax və sən öləəsən. Qoymaram gedəsən, mən bilə-bilə səni getməyə qoya bilmərəm. Oğlan çox and-aman eliyir, anası bını qoymur. Oğlan da anasıın sözünnən çıxa bilmir. Deir yaxşı, bu səfər olmasın, gələn səfər gedərəm. Gedir yükün üstündə yatır. O vaxtdar da divarda rəflər düzəldib ora kasalar, səhəng, zad yığallarmış. O vaxtdar şkaf olmuyup. Oğlan gedip rəfin altında yatar. Arvad da radioda eşidər ki, Masqıvıya uçan təyyarə qəzıya uğruyıp, hamı ölüp. Sevincəh gəlir oğluna desin ki, bala həmin təyyarə qəzıya uğrıyıp. Gəlip görür ki, rəfə pişik çıxıp, rəfdəki səhəngi salıp oğlanın başına. Oğlu da ordaca ölüp qalıp. İnsan harda olursa-olsun, öz bəxtinnən qaça bilməz (S:12; T:1).

# NOVRUZAQƏDƏRKİ MƏRASİMLƏR

Xalq bayramları, mərasimlər haqqında onu diyə bilərəm ki, Xıdır Nəbi, Xıdır İlyas hakqında bizim rayonun əhalisinin, bəlkə də, çox hissəsiin məlumatı yoxdu. Amma bildiyim qədəri ilə o, böyük çileynən kiçik çilə arasında olur. Üş günə böyük çilə başdıyır – dekabr ayının irmi ikisinnən yanvar aynın axrına kimi. Yanvar aynın iyirmi yeddisinnən fevral aynın birinə kimi keçirdillər Xıdır Nəbi, Xıdır İlyas mərasimlərin. Bir ucu da gəlir oun çatir Xızır peyğəmbər əlehissalama. Kiçih çilə fevral ayıın birinnən iirmisinə qədər olur. Bəzi yerrərdə bu mərasimi fevral ayıın on yeddisinnən iirmisinə qədər keçirdillər. Amma alaçalpo deellər, bir də fevral ayıın iyirmisinnən mart aynın axrına kimidi. Nənəmnən eşitmişəm ki, ən sərt iqlim alaçalpo vaxdı olur. Alaçalpoda deerdi qırx çual saman, qırx kötüh, qırx çual bığda, bir də Allah amanı. Ya çıxarsan, ya çıxmarsan. Böyüh çilə adətən sakit keçir. Nənəm bir deyim də deerdi ki, kiçih çilə deer ki, mən böyüh çilə qədər uzun ömürrü olseydım, beşihdəyin beşihdə, deşihdəyin deşihdə dondurardım. Hayıf ömrüm az, dalım yaz. Kiçih çilədə qar, çoğun, boran çox olur. Alaçalpo ən çətinidi.

Göyçayda Nooruz bayramın iyirmi biri günü bayram eliyillər, il təhvil olanda. Bir də möösümnən əlaqədar deyim var ki, nənəm həmişə deərdi, Nooruz bayramı günü, yəni iirmi biri günü yazdandı. O gün necə olsa, yaz o cür olacax, iirmi ikisi günü yaydandı, iirmi üçü payızdandı, iirmi dördü qışdandı. Həmin günnər nə cür keşsə, fəsillər də o cür keçəcəh. Bını illərdi sınıyıram, həmişə də düz çıxır. İyrim biri günü yağış yağırsa, yaz yağıntılı olur, günəşdi olursa, yaz quraxlıx keçir (S:7; T:1).

# ÇİLLƏ

Deillər ki, qış girəndə qırx gün böyük çilə, iyirmi gün kiçik çilə, bir ay da boz ay olur. Böyük çilədə hava o qədər də sərt keçməz, mülayim olar. Amma kiçik çilə çox sərt keçər.

Belə rəvayət edilir ki böyük çileynən kiçik çilənin söhbəti olup. Kiçik çilə böyük çiləyə üzün tutup deir ki, neyniyim ki, ömrüm azdı, dalım yazdı. Mənim ömrüm az olmasaydı, qızdarın əlin su səhəngində, arvatdarın əlin un çuvalında, hamilə gəlinnərin bətnində körpələrin dondurardım.

Kiçik çilədən soora boz ay gəlir. Boz ayda çox adətdər yerinə yetrilir. Boz ay girəndən çərşəmbələr başdıyır. Həmin dörd çərşənbə ərzində bağları olan adamlar mütləq meyvə ağacdarın, bağların suliyallar. Buna da bənöşə suyu* deyəllər. Bunun da mənası odu ki, əgər həmin müddətdə bənöşə suyu verməzzərmişsə, həmin ağacdarın açdığı çiçəhlər tutmazmış. Həmin il o ağacdar bol məhsul gətirməzmiş. Ağacın çiçəy aşdığı vaxda diyəllər ki, ağac başından su içməlidi. Ağac başınnan su içər diyəndə həmin vaxt onun meyvəsinin tutmağını deillər. Onda, deyilənə görə, ağacın meyvəsi çox daddı olur. O ağaç xırda gətirmir, meyvəsi yaxşı olur (S:12; T:1).

***

Göyçayda **Çiləxana** deyilən yer vardı. İndiki afdavağzaldan bir az yuxarı – şəhər tərəfə. Boş düzən iydi. Yamyaşıl çəmənniy iydi. Orda həməşə Nooruz bayramıın çərşəmbələrində çavannar gedib turnadöydü, ənzəli oynıyırdı. Axır çərşəmbədə gedib orda çilə çıxardıllardı. Orda çilə çıxartdıxlarına görə oraan adı qalmışdı çiləxana. Nooruz bayramı axşamı da cavan oğlannar lopax qayırıb aparıb orda atallardı.

Niyət eliirdilər ki, filan arzum yerinə yetsin, çilə çıxardaram. O adamın diləyi hasil olanda o, öz öyündə cavannarı çağırıp, bir gecə səhərəcən yaxşı yiməy-işməh verirdi, səhərəcən yatmıyıb, şənnənirdilər (S:14; T:1).

***

Noruz bayramına bir ay qalmış başdıyırduğ yumurta döyüşməyə. Gətirirdilər vedrə-vedrə. Qətər qoyurduğ. Cərgə qoyursan on-on, iyirmi-iyirmi. Biri bı başdan götürür, biri o başdan. Axırıncını kim udsa, o, udmuş olur, o birsi uduzur. Və yaxud, papağaltı* deerdilər. Hərə bir yumurta qoyurdu, papağın altında qarışdırırdı. Həriyə biri verilirdi. Hamı cüt-cüt döyüşürdü. Ən axıra qalan o dəsdədən, biri qalmalıdı, o udur (S:22; T:1).

***

Beleydi ki, mütlək, bı kasıba, varrıya baxmırdı, öz də elə vaxd olurdu ki, qar da yağırdı o vaxdı. Bir dənə nazik çit don – mütlək o ucuz çitdən hamının uşağı qırmızı güllü paltar geyməliydi – qız uşaxları. Mütlək təzə olmalıydı. O uşax xar olardı ki, təzə paltar geymiyip. Çit deyəndə ki, qüvvəsi çatan indi o iydi ha. O bizə mütlək tikilməliydi. Hərə öz uşağına öz əlində tikirdi, geyindirirdi.

Bı papağatdı kasıba-varrıya baxmırdı. Heş nəyi olmasa da, yumurta da olsa, boyammış, qoyurdun.

Cavannar yığışardı bir öyə – oğlannar. Qızzar ayrı otaxda olardılar. Biların kəndində (əli ilə ərini göstərir – top. X.K.) ayrı cürə olup. Zərdabın Yarməmədbağı kəndindəndi. Olarda oğlannar Kürə gedip gejə daş atallarmış.

Hə, cavan yetişmiş oğlannar sabaha qədər orda Allah verənnən yiərdilər, şənnənərdilər. Yuxluyanı palaza tikərdilər. O yuxuluyan uduzdu, biyabır olardı.

Bayramın səəri, adət idi, mütləq kiçihlər hamısı, kim yaşdıdısa, gedirdi onnan bayramlaşırdı. Böyühlər sayılırdı.

Bayramda yeddi löyünü hamı alırdı – kasıplar da. Cərco yemişi olurdu bazarda. Dəli Adil vardı Göyçayda. Özbəh paltarı geyərdi. Mən uşağ olanda görmüşəm onu. Dəli Adil gətirip satardı o yemişi. O vaxdı yemiş olan vaxdı döör idi da.

Minih yox idi. Gücü çatan o yemişdən alardı, inab alırdılar, iydə alırdılar (S:23; T:1).

## NOVRUZ ADƏT VƏ İNANCLARI

Kəndimizin bayramları – Qurban bayramı da var, Orujdux bayramı da deürüh – Ramazan bayramı. Oları da yaxşı keçirdirüh. Amma ən geniş biz Nooruz bayramın... Bı bayramı bı rayonumızda bizim kənt kimi keçirdən olmur. Lap qədimnən ha... Biz gözümüzü açannan bəri bütün camahat – kənd əhli... Adətən də iyirmi bir – iyirmi ikisi dağa çıxıruğ. Mütlağ o günü hərə nə isə, bir şeyi də olsa, təzə geyinməlidü – uşağ-böyüg. Hamı çıxır dağa, orda yaxşı şənliylər eləyürüg. Muzıkantlar gətirürlər, kəndirbaz gəlür, aşuğlar gəlür, çalır, oynayur, halay vurullar. Kəndimizin oğlannarı **durnadöydü** deyillər, oyunu keçirdüllər. Özümüz tonqalın başında **hə-kilməni** deirüg, cavan qız-gəlin, halay vurub oynayuruğ. Həkilməni oyununda iki dəsdiyə ayrıluruğ. Qızdardan biri solo deyir, qalannarı da: altı qız – altısı bı tərəfdədi, altısı o tərəfdə, durub üz-üzə, belə əl-ələ vırıb (əllərinin bir-birinə vurur – top. X.K.) oynayıllar. Biri deyir:

Həkili məni.
*O biri deyir:* Cucə məni.
Əlimi pıçax kəsdicə.
Zop da ha,
Zər də ha,
Dəsdə pıçax kəsdicə.
Yağ gətirün, yağlayağ,
Dəsmal gətir bağlayağ.
*O biri deyir:* Dəsmal dəvə boynunda,
Dəvə Şirvan yolunda.
Şirvan yolu buz bağlar,
Hər tərəfi gül bağlar.

O gülün birin üzəydim,
Saçlarıma düzəydim.
Qardaşımın toyunda
Kəklik kimi süzəydim.

Ay sarı qovun dilimi, dilimi,
Oğlan aparmaz gülümü, gülümi.
Sandığ üsdə gəzərəm,
Sandığa gül bəzərəm.
Ağır elin qızıyam,
Qəribliydə gəzərəm.

Çərşöyümi yel atdı,
Sancağ başıma batdı.
Simavərim dih durub,
At üsdə göyçəh durub.

Biri solosun deyir, o birilər hamısı deyir: hakışqa. Çox maraxlı oyundu.

Həyətimiz böyühdü, hakışqa
İçi dolu söyütdü, hakışqa.
Qardaşa qurban olum, hakışqa
Naçannihdən böyühdü, hakışqa.

Süt üzü qaymağ olar, hakışqa
Boşqaba yaymağ olar, hakışqa
Qoşulub qaçan qızın, hakışqa
Gözdərin oymağ olar, hakışqa.

*Deyir:*

Dəsmal gətir, mən gəldim,
Aranı açın, mən gəldim.
Qızdar, qaçın, mən gəldim

– *axırı da belə qutarır.*

***

Yeniyetmə qızdar iki dəsdə olur, biri o üzdə, biri bu üzdə. Bı dəsdə o birinə deer ki:

Bəhri baba, huu...

*Orda indi hansısa biri başçıdu o qızdarın, deer:*

Huu.

*Deer:*

O qara qazan doldumu?

*Deer:*

Doldu da, boşaldı da.
Qız saçını yudumu?
Yudu da, daradı da.
Çobana çörəy getdimi?
Getdi də, qayıtdı da.
Qabalnan gələy, zurnaynan?

İndi dəsdə hansına razıdısa, ya zurna deyir, ya qabal, bıynan da oyun bitir. O qızın birin alıb çala-çala gətirillər.

***

Bir də "Bənöşə" oyunu  çox oynanılırdı.

*Deer:*

Bənöşə,
Bəndə düşə.
Bizdən sizə kim düşə?
Adı gözəl, özü gözəl filankəs.

Hansı qızı isdəyirsənsə, adını çəkirsənsə, o qaça-qaça gəlir. Gəlir, hamı belə (yanındkı qızın əlindən tutur – top. X.K.) əl-ələşə tutur. Gəlib o qız əlin vırıb əlü qırıb keçə bildisə, onda sənnən götürüb bırdan – bı dəsdədən birin aparır. Keçəmmiyəndə ilişib özü qalır. Da o yerdə qalannar da onu qınayıllar. Olar – çağıran tərəf hansı qız əfəldisə, zəyifdisə, onu

deyillər. Amma ordan isdiyüllər ki, güjdü qız getsin da, əllərin yarıb keçə bilsin. Bunu Noruz bayramında oynayıllardı.

***

Oğlannar dağa qız bəyəmməyə çıxırdılar. Tonqallar qalayur-dular dağda. Tonqalın başında da cavan oğlan, qız bir-birin görüb bəyənənnər olur, sevənnər olur. Dağda heyvannar kəsilir, kabab bişür. Qara zurna gətirirdülər, kəndirbaz, keçəl, kosa. Evdə bir nəfər də qalmırdı, hamı gedirdi – yaşdı adamlar da. Hətta kəndə gələn qonağlar da. Noruzda qonax gəlirdilər ki, dağa çıxacoox. Dağda bayram keçirtməy indi də var. İndi qocalar helə də getmir. Dağda tonqal qalayıllar. Kim isdəyirdi, qalayırdı: üş dənə, bir dənə. İri bir tonqal qalayırdılar, topalaşırdılar. Birin də uşağlar qalayırdı helə. Ya isdiir, qadınnar qalayırlar. Olar da tullanıllar tonqalın üsdünnən, şənlig eləyillər.

***

Bir nəfər də küsülü qalmır. Lap isdiir qan əvəzi işi, sözü varsa, mütlax bayramda barışır. Evdə də məslaat eliyillər ki, mütlax barış ha. Böyüglər deer ki, küsülü qalmoon, heş kəs küsülü qalmasın, günahdu. Gedib bayramın mübarəh deyib bayramlaşırsan.

Birinci addımı kiçihlər atmalıdı ki, sən kiçihsən də. İndi böüh səni danışdırsa, kiçiyi, deellər ki, günahın töhdü səən üsdüə. Sən kiçihsən, sən gedib oun danışdır.

Əsas da xına isdadıb aparırdılar dağa ki, xınama əlüü batur. Onda küsülü də barışırdı.

***

Adətən axır çərşənbədə, ona biz qurşağatdı da deürüh, ilaxır, yaxşu şadduğ olur. Yaxşı şeylər alınır yeməli – şirniyat.

Yeddilöyün axşamı. O süfriyə yeddi cürə naz-nemət yığılmalıdı.

Birincisi də o günü səhər-səhər mütlax qoorğa – buğda qorulmalıdı. Həmin o qorulmuş buğdanı evin neçə küncü varsa, o künşdərə atırsan, heş kəs yiməmişdən. Deersən, gələn il bi vaxdatan, Allah, evim bərəkətdi olsun. Sağ-salamat çıxaq, ev bərəkətdi olsun. Soora da onu kim issəsə, yiər. Təzədən xorəy bişirürüg. Adətən sütdi yiməy bişirürüg. Yanı sütdü aş bişirirüg. Başqa yiməhlər də olur, amma sütdü aş mütlax olmalıdı. Soora qurşağ atıllar. Biz o axşam aturuğ – axır çərşənbədə. Qoum-qardaş, qoum-qonşu, uşağlar qurşağ atıllar, torba atıllar. Ona da pay qoyursan, göndərirsən.

Meyvə qoyuruğ, kanfet, süfrədə nə varsa, onnan, bir xörəhdən başqa hamısınnan. Yığıb uşağın o atılan qurşağ torbasına qoyuruğ. O atan adam da gəlib götürür.

Soora qulax falına çıxırsan. Qoşuun qapısına gedillər. Niyət tutullar ürəyində. Gedillər ki, görüm əinnərim bı niyətim yaxşı olacaxsa, yaxşı, şad söz danışıllar. Pis söz eşidirsə, deeməli, niyəti pis olacağ. Qoşuun, qoum-əğrabaan qapısında durub qulağ asıllr. Adətən bını cavvannar eləyür.

***

Axır çərşəmbə günü mütlax qapıda şamal* düzəldürüh. Hündür şamallar düzəldib ağajdan eləyib, əsgidən dolayıb, nöyütdəyirüg. O gur-gur yanır. Onu basdururuğ həyətimizdə torpağa. Xeylağ yanır. Təzədən tonqal qalayıruğ. Bı tonqalın da üsdünnən, hətda evdə xəsdə də varsa, o xəsdəən də aparub keçirdürüg. Ordan keçəndə deürüh ki, ağırruğum-uğurruğum bırda qalsun, azarım-bezarım bırda qalsun, köhnə ildə qalsun.

Təzə ilə tullanıb keçirsən o tonqalın üsdünnən. Soora kəndin cavannarı o şamalları götürüb Əsgərbelinə çıxırdılar, orda atmağa.

***

Axır çərşənbədə təndirin yanına, təndir olmuyanda da bir təmiz yerə yumurtanı qoyullar. Niyət eliyillər. Yanına da ya qırmızı, qara sap, ya da karandaş qoyullar. Allah, bı niyətim olacaxsa, yumurtaya çəkilən qırmızı olsun, yox, qəbul olunmıyacaxsa niyətim, qara olsun. Baxanda naziy cızığ – oun mən özüm şahidi olmuşam, görmüşəm – çəkilir, ya qırmızı, ya qara.

O axşamı səərə qədər otururuğ, çilə çıxartmağ deellər. Adətən cavan qızdar eləyillər. Topalaşıllar, deellər ki, bütün ağajdar – əsas da söyüd ağacı il təəfil olanda əyilir torpağa, soora da qalxır yuxarı. Onda da əyən* onu dayanıb gözdüyə bilsön, o vaxd elədüyün niyət lap taraz olur, çin olur.

***

Öydə subay qız varsa, ana, ya bacısı – qız özü bilmədən onun ayaqqabısın atır, deer ki, əgər biiləri bı qapıdan çıxacaxsa bı qız, onda ayakqabıın üzü qapıya düşsün, dalı evə tərəf. Əgərrəri köçmiyəcəysə, onda ayakqabının üzü evə tərəf düşür, dalı qapıya düşür.

***

İlaxır günü tonqal qalıyanda göy guruldayır. Yerdən torpağ götürürsən, elə bil ki, məhsul da. Atırsan göyə ki, ay Allah, bı torpağın sayı qədər məhsulum olsun, mənə ruzi gəlsün Allah tərəfinnən.

Deyillər, göy gurulduyanda əllərüü torpağa dirəyirsən, həmin anda Allahdan nə isdəsən, sənə onu verir.

***

Bayramda da başda pilo olmaxnan, ürəyin nə isdəyürsə, bişir. Pilo mütlağ olmalıdı.

Soora da bişintilər: şəkərbura, paxlava, şorqoqalı, rulet – çoxlu şirniyat bişirürüg. Ata-babadan təndirin içində mərciməyidə şorçörəyi bişərdi.

Nooruzda biz yaxın qohumlarımıza həmin bişirdiyimiz aşdan çəkürüg. Həmin bişintilərdən, şirniyatdan bir-birimizə pay verirüg. Yumurta boyayuruğ, sarı da, qırmızı da, narıncı da boyayuruğ. Adətən kişniş yarpağı qoyullar, çələmbir yarpağı qoyullar.

Soğan qabuğuynan da boyayullar. Əsas soğan qabuğu qəşəng rəng alur. Öz həyətimizdə boyağ bitir. Hər deyən yerdə bitmir. Çəpər dibində, böürtgan yanında, xəndəhlərdə bitir. Çəpər diblərində əsas çox olur. O boyağnan boyayuruğ. Payımızı da ki, kəsmirüg. Kəssəg, onda elə bil ki, bir-birimizə hörmətsizzig olur. Qohumlara pay aparuruğ, əziz gün olur. Elə olur ki, bı axşam birimiz keçirdürüh – bacımı, qardaşmı. Bir axşam birinin evində yığılıb keçirdüllər. O birsi axşamı – on dokquzu, iyirmisi, iyirmi biri, iyirmi ikisi, hətta iyirmi üçünə qədər biz bayram eləyürüg, pay verürüg, pay aalluğ. Hər gecə yığıulluğ qonağlığa. Biri bir gün eləyir, biri bir gün eləyir. Hərə gücü çatannan, kimi qoyun kəsir, kimi çolpa, hinduşqa, nəyimiz varsa.

***

Bı kətdə bayram qutarannan soora səməniin atmıllar. O göy səmənini aparub həyətində basdurursan bir yerə. Niyət eləyirsən. Hansı niyətin varsa, o niyətüə də çatırsan (S:3; T:1).

***

İlaxır çərşəmbəsində qoorğa qooranda saj qızannan soora, elə bil ki, hər qız öz adına bir buğda seçir. Hərə öz buğdasın tanıyır. Atırsan həmin buğdaları qızmış saca. Kimin buğdası tez çırtdayırsa, birinci o qızın bəxdi açılır, ərə gedir (S:2; T:1).

# XALQ TƏBABƏTİ

**Bal** özü antiseptik maddədir. Necə ağır yara olsa, bal çəksən, sağalar. Bal həm də revmatizmin dərmanıdı. Bədəndə duzdamma gedən yerə – oynaxlara bal çəkip masaj eləyirsən, təmiz hopur ətə. Ət, elə bil ki, bərkiyir. Üsdünə selofan qoyup isdi şeynən bağlayırsan. İki saada o ağrı tamam yox olur.

***

**Üzərrih** dərman bitgisidi. Onun yumru toxumu olur. Onnan təziqi yuxarı olan adamlar gündə bir dənə atanda təziqi normallaşır.

***

Dağlarımızda **yooşan** bitir. Qəşəng ətri olur. Onu əvvəllər süpürgə kimi işdədiplər. İşdəmmiyən mitilin arasına, yun paltarın arasına ehdiyatnan qoyanda sus dəymir.

Onu qaynadıb qurt dərmanı kimi cücələrə verillər. Cücəən qurdun tökür. Bağırsağ infeksiyaların məhv edir. İrinni səpgilərdə, yaralarda da qaynadılmış yoşan suyunnan antiseptik maddə kimi isdifadə eləyillər.

***

**Qaratikan** kolunun çiçəyinnən arılar bal yığır. Qaratikan balı ən yaxşı bal hesab olunur, çox dərdə dərmandı. Kolun budaxların, yarpaxların qaynadıp dəri xəssəlihlərində: dəmro, adıyox deyirüh, gecəyanğısı kimi xəssəlihlərdə məlhəm kimi isdifadə edillər (S:2; T:1).

***

**Vərəmumu*** yarım litr təmiz spirtə atıllar. Bir om beş gün qalır. Həll eliirsən çay qaşığıynan. Bronxlara, qadın

xəssəlihlərinə, ağ ciyər xəssəlihlərinə xeyirdi. Noxut kimi yumruluyub, suynan həb kimi atmax da olar.

***

**Qoz** meyvəsi hələ yaşıl olanda, təzə əmələ gələndə ona kibrit çöpün batırırsan. Ona batırsa, onu zobu olan adam udur. Fındığdan azca böyüg olur. Bir ilə bir qoz udmax bəs eliyir (S:3, T:1).

***

*Ana nənəm Ağarəşidova Zərif Göyçayın Qarayazı kəndində yaşıyıp. Ara maması olup, kətdə sınığı, çıxığı malicə eliyirdi, təndir qoyurdu. Söylədihlərimin əksəriyyəti nənəmnən gördühlərim, eşitdihlərimdi.*

Əlimiz kəsiləndə nənəm adi üşyarpax yoncanı mis camda əzirdi. Şit kərə yağıynan onu qatışdırıp bir məhlul hazırrıyırdı. Həmin məhlulu kəsilən yerə vırıp sarıyırdı. Axşama o bitişirdi.

Çətənəni – qanqalın başıın toxumunu küncüt kimi bir şeydi, qadın xəssəlihlərində – disfunksiyalarda isdifadə edirdilər. Əzip pesoğa qatıp qaşıx-qaşıx verirdi.

Kirpiin ətin dəmrov xəssəliinin dərmanı kimi issifadə eliirdi. Dəri xəssəliinə, diatezi olan uşaxlara kirpi əti yidizzirirdi.

Fındığın qabığın əzirdi, toz halına salırdı. Onu tüh çıxmiyan yerrərə vırırdı. Məsələn, kiminsə qaşı nazihdi, deerdi ki, ona çoxköməy eliir o. Sürtürsən, tük əmələ gətirir orda.

Bel çəkirdi. Kəlağayıdan issifadə eliirdi mütlək. Deerdi, kəlağayı həm də ağrıgötürücü şeydi. Övladı olmiyan gəlinnərin belin çəkirdi. Üç gün gəlip-gedirdilər, onu çəkirdi.

Tikə götürürdü. Nasılkada qadın gətirmişdilər. O nə elədisə, ağzıaşağı qoyanda onun ağzınnan tüklü tikə çıxmışdı. Nənəm yatızdırdı onu üş gün evində. O gəlini bığdanın

həlimiynən sağaltdı. Cır bığdanı qaynatdı, üzüün həlimin yığdı, verdi ona, üzüün həlimin yığdı, verdi ona. Üçüncü gün o gəlin durdu yeriyə-yeriyə özü getdi.

Mənim uşağım körpə olanda əti açılmışdı. Nə qədər dərman vırıramsa, uşağa əlac eliyə bilmirəm. Nənəm dedi ki, onun dərmanı kəpəkdı, qaynat, yu. Bircə dəfə elədim. Adi kəpəyi tökdü suya, qaynatdı, süzdü. Onnan yudum uşağı. İkinci dəfiyə qızartı-zad qalmadı.

Mədəsində qasdiriti olannara da adi kəpəhnən qatığı qarışdırıp işməyi məsləhət görürdü. Bu həm çəkisi artığ olannarı arıxladır, həm də ki, qızartını götürür.

Nənəm qan alardı. Komada xəssələr gətirirdilər. Küp qalğalar vardı saxsıdan. O çərtirdi o yeri, küpəni qoyurdu. Davleni o qədər yüksəy olurdu ki, o küpəni çıxardanda qan fışqırırdı, o laxda atırdı pataloka. Nənəm deerdi, day heş nə olmaz. O qan atmasa, nənəm deerdi, gecihmisuz. Ona qannı qalğa deerdilər. Özünün xüsusi neşdəri var idi.

Açıx sınıxlar üçün işdəmməmiş bitdi ağa yumurtanın ağıynan işdəmməmiş paltar sabının qarışdırıp – zamat deerdi, oun hazırrirdı, yayırdı o ağa, bağliyırdı. Bağliyırdı kip. Bir azdan taxdıya dönürdü o. O vaxdı onu açmağa icazə verirdi ki, çat, sınıx bitişəndə o özü buraxırdı zamatı.

Çatın, sınığın sağalma müddəti yaşın qədər gedir. Məsələn qırx yaşın varsa, qırx gün gedir, atmış yaşın varsa, atmış gün, ağrının müddəti yaşadığın ömrün müddətinnən asılıdı.

Qanqalı yığırdı köşdü-köməşdi. Suyun qaynadırdı, süzürdü. O suynan bizi çimizzirirdi. Qaşımma, alergiya onnan keçip gedirdi. Qanqalın yarpaxları qaşımmaan dərmanıdı.

Ayağında yel olan qadınnarı çəngə-çəngə gicitgannan döyürdü.

Əməkköməci burun qanın kəsir. Bir kilo əməkköməciyə iki litir su tökürdü. Qoyurdu vam xodda qayniyırdı. Qayniırdı,

qayniırdı, yarım litir qalırdı o su. Soora süzürdü. O çirişgən kimi bir şey olurdu. Onu sabah, günorta, axşam bir qaşığ işsin burnu qanıyan adamlar. Amma qırx yaşına qədər. Qırx yaşınnan soora, deerdi, qanı qatılaşdırır.

Bənöşə çayı öskürəyi kəsir.

Deerdi ki, gicitkan qanı qatılaşdırır. Yaşdı adamlara məslət görmürdü.

Bir də bı qoyunnara yapışan pıtırğan yoxdu, pıtrax da deyillər, o pıtrağı o, həməşə qaynadırdı, ayağ ağrılarına. Hansı növ ayağ ağrılana, onu bilmirəm. Həməşə əyaxların vanna eliirdi o suynan.

Qırx dənə təzə əmələ gəlmiş qozu yüz qram spirtdə qarannıx yerdə saxliirsan. Soora pipetqeynan bir damcıdan başdiirsan, qırx damcıda qutarırsan. Soora həmin qaydeynan dala qayıdırsan. Onu zoba dərman eliyirdi. Zobu əridir.

Qantəpər xüsusi sarı çiçəhlərdi. Onu yığırdı. Ən ağır sətəlcəmi oynan malicə eliyirdi. Dəmliirdi. İçəndə qan-tər aparırdı xəssəən.

Soora quşəpbəyi qəbizziyə dərmandı.

Əməköməci də qəbizziyin dərmanıdı. Onnan xüsusi şorba bişirirdi. Qəbizziyi götürürdü.

Kəhliyotun təyziq üçün isdifadə eliirdi. Soora mədəən faliyətin də düzənniir.

Tut bəhməzi ösgürəy üçün dərmandı, həm də qan artırır.

Alça turşusu qəbizziyi götürür.

Şişmiş əllərə, təzə sərilmiş alça günün altında şişir, oları deşip, havasın vırıdı, soora sürtürdü. Onnan o şiş yatırdı.

Yoşanı çox yığırdı. Evə qoyurdu. Deerdi yooşan olan evdə sus olmaz.

Qoz ağacıın yarpaxların yükün apasına qoyurdu ki, güvə olmur onda.

Adamın dırnağının qıraxları qabıxlar qoyur. Onu ilanın qarnıın altına sürtsən, o qabıxlar yox olur.

İlan qabığıynan saçı yuyanda çox uzun, həm də möhkəm olur.

Çaytikanıın çubuxlarıynan saçı yuyanda çox parlax, bərraq olur.

***

Nənəm deerdi ki, hamilə qadınnarda bəzən **beçəxor** olur. Küldə bassırılmış kartof yiyən, dəyirman çörəyi – kömbə deyillər, dəyirmanda oçura durullarmış. Orda külbasdı çörəhlər bişirillərmiş. Onu yiən qadınnarın bətnində hərəkətdi bir şey olup. Küllühnən bağlı yaranan şeydi. Hətda qadın doğan kimi düşüp qaçırmış. Oun başın əzməseymiş, o qaddının heş vax uşağı olmurmuş. Nənəm deerdi ki, gərəh yerə düşən kimi başın əzəsən. Xırda həşarat kimi şeymiş. O, bətndə uşağı da yiir. Nənəm deer, doğulmamışdan biz onu bilirdih. Çünki anaan qarnı fasiləsiz tərpənir, elə bil, anaan qarnın silkəliyir. Onda bilirdik ki, bı beçəxordu.

***

Üzərriyi çox yığıp gətirirdik. Onun toxumlarınnan boyunbağı düzəldirdik. Onu qurudurduğ, öydən asırdıx. Xalqın dilinnən bı mahnını eşitmişəm üzərrih haxda:

Üzərrihsən, havasan,
Həzar dərdə davasan.
Hər yerdə sən olasan,
Qada-bala sovasan.

Üzərrih göz dəyməyə qoymur. Üzərryin tüsüsü gözdəyməni qaytarır, baş ağrısın sağaldır.

Üzərrih danə-danə,
Tökülsün hərzə canə.
Qohum ola, yad ola,
Gözü bı odda yana.

Bını oxuya-oxuya bəynən gəlinin başına fırrıyıllar. Evdə uşağın başına fırrıyıllar. Bı bizdə el adətidi. Nənəm həmişə deerdi ki, üzərriyi götürəndə mütləq dibinə nəzir qoymalısan. Bir kanfet də olsa, noğul da olsa, nəsə nəzir mütləq qoymalısan.

Soora qaratikan kolıynan bağlı bilirdim ki, onun yumru, qə.ribə bir qəpiyə oxşiyan çiçəhləri var. Çox yaxşı dərman bitgisidi. Qızılı sarı çiçəhləri olur, yumru-yumru ortasında toxumları var, çox yumşağ olur. Onun çiçəhlərinin, toxumunun dəmləməsinnən nənəm ginikaloji xəsdəlihlərdə isdifadə eliyirdi. Xalq arasında sidih yanması deyilən xəssəlih var. Onun malicəsində çox köməy eliyir. Üzərriyin toxumunun, ya da yarpağının dəmləməsinin içilməsi çox effektlidi. Nənəm həmişə üzərriyin toxumun, bitgisin, şüyüdün toxumun, çobanyasdığıın – üçün bir yerdə dəmliyirdi. İçinə darçın da səpirdi. Onu içirdin, o dəyqə sidih yangısın götürürdü. Bir də ki, üzərriyin toxumun həvəhdəssədə döyürdü. İçinə toxum qədər pəsox qatırdı. Yiməhdən əvvəl bir çay qaşığı onnan yiyirdi. O çox acı olur. Ona görə şəkər tozu olmasa, içməy olmur. Nənəm onnan sidihqovucu kimi issifadə eliyirdi. Börəh daşını ovup tökür. Onun çox böyüh dərman effekti var. Güclü miqren ağrılarına xeyirdi.

**Bağayarpağı** möcüzəli bitgidi. Mədə xəssəliyinə xeirdi. Onu nənəm yığırdı, balona bir kilo bağayarpağı, bir kilo da şəkər tozu töküp qırx gün qarannıx yerdə saxlıyırdı. Qırx günnən soora açırdın, yaşıl məhlul olurdu o. Hər yiməhdən əvvəl onnan bir qaşıx yiseydin, mədənin bütün qızartısın, göynəməsin, mədə qıcqırmasın götürürdü. Bağayarpağın nənəm çibanın üssünə qoyurdu, o çibanı deşirdi, infeksiyanı təmizziyirdı, tez sağalmağına köməh olurdu. Bağayarpağın qaynar suya salırdı, soora qoyup çibanın üssünə bağlıyırdı. Onu bir gün soora açırdın. Görürdün ki, çiban deşilip, çirki çıxıp.

Həmişə nənəm deerdi ki, **rəzyanə** gündə on qıram, mösümünə görə, yaşıl oldu – yaşılın, qurumuş oldu – qurumuşun, yiyəndə adam cavan qalar, tez qocalmaz. Yazda yayda bitkisin, qıda, payızda toxumunu. Nənəm rəzyənədən aş dəmliyirdi, ona boyana aşı da deellər. Çox gözəl ətirri aşı olur. Onun bitgisinin zog yeri də çox dadı olur. Biz uşax vaxdı həmişə onun zoğun yığıp yiyərdih. Rəzyənə öz də çoxillih bitgidi, onu hər il səpbirsən. Öz-özunə hər il yazda çıxır. Amma onu da kimsə öy yiyəsindən gizzin yığıp aparsa, kötüyünnən çıxardıp apasa, o həmin qapıdan itir. Nə qədər olur-olsun, quruyup gedir. Rəzyənə öskürəyə, soyuxlamıya xeirdi. Soora gözə, dellər, xeyri var. Bir xalq deyiminə görə, ilan gedip rəzyənə kötüyünə gözün sürtər, soora onun gözü açılar. Bilirəm ki, həzmi qüvvətdəndirir, mədə ağrısın götürür, köpü götürür, bədənə issilih verir. Boyana bitgisinə çox oxşıyır. Boyana dərələrdə, kol diblərində bitir. Rəzyənəni ədviyat kimi də issifadə edirih. Şorqağalı bişiririh – ona, çörəh bişiririh – ona vururux.

**Kəhliyotu** Göyçayda daha çox Qaraməryəm, Qarayazı, Yekəxana kətdərində bitir. Onu bizdə çox sevillər, çox da issifadə eliyillər. Kəhliyotu çox yerdə bitir. Kəlbəcər kəhliyotu var, Lənkəran kəhliyotu var, Gədəbəy kəhliyotu var. Amma Göyçayın o kətdərində bitən kəhliyotu hamısınnan fərqənir. Bəzisindən yoşan iyi gəlir, bizzərdə o iy gələnnərə ətotu deellər, onnan bizzərdə əti bassırma eliyəndə issifadə eliyillər – kabab bişirəndə. Hacıkənd tərəfdə bitənnərdən nanə, yarpız iyinə oxşar qarışıx iy gəlir. Göyçayda bitən kəhliyotunun gözəl ətri var, fərqli bir ətridi –çiçəy ətrinə oxşuyur. Çox gözəl dəmləməsi var. Biz onun çiçəhlərin yığırdıx, bitkinin yarpaxların, gövdəsin yığıp qurudup, çay kimi dəmliyip içirdih. Nənəm onun dəmləməsinnən təzih salmax üçün issifadə eliyirdi. Həzim sissemini normallaşdırır, bağırsaxda olan narahatçılıxları götürür.

Bizzə çöl bitgilərinnən çox issifadə olunur. Quşəppəyi, əməhköməci, cincilim, yemlik, şomu. Bılardan həm də göy qutabında issifadə eliyirih.

**Boyax**dan yumırta boyamada, iplih boyamada issifadə eliyirih. Xalça toxumax üçün iplih boyıyırdı. Gözəl sumağı rəng alınırdı. Mən boyax bitgisinnən börəh daşının malicəsində isdifadə edirəm. Onu üş günnən çox işmək olmaz. Aşılayıcı xassəyə malihdi. Çox yühsəh qan təziqin aşağı salır. Börəhçün içəndə ona qənd qatıp, kampot kimi eliyip işmək lazımdı. Onun dəmləməsi çox qırmızı rəngdə olur. Dadı da acı olur.

**Dazıotu** bitgisinin dəmləməsində də börəh daşı xəssəliyində issifadə edillər.

***

**Kəvər**dən bel ağrılarında issifadə eliyirdilər. Onun kötüyünü yığıllar. Onun kötüyü çox bərk olur. Onu dəyirmanda üyüdürdülər, məhlul halına salıp belin ağrıyan yerinə qoyurdular. O çox issilih verir və çox yandırıcıdı (S:7; T:1).

***

**Tut ağacı**nı – şah tut da deyillər, adətən yol qırağında əkiplər ki, ehsannıxdı. Kim yisə, əkənə savabı çatır. Həm möhkəm, həm də uzunömürlü ağaşdı. Onnan beşik, saz düzəldiplər. Tutun çox növləri var: şah tut, qara tut, qonur tut, tehranı. Şah tutdan bəhməz hazırrıyıllar, mürəbbə bişirillər. Tut bəhməzi min bir dərdin dərmanıdı: qan azlığında, qara ciyər ağrıyanda, soyuxdəymədə, sinə ağrılarında, bəlğəmnən yaxa qutarmaxda misli yoxdu. Yarpağı da ipəhqurdunun yemidi.

***

Deellər ki, zob xəssəliinə tutulan adamın boğazındakı zobu əritməy üçün diri qurbağaan tutup oun boğazına

bağliyıllar. Bıın bir neçə dəfə, bir neçə gün eliillər. Onda oun zobu əriyir.

Zob xəssəliyi olan adama qozu sındırıllar, içiin o pərdəsi ki var, onu spirtdə saxliillar, qarannıx yerdə bir həfdə. Onnan soora onu damcı-damcı suya qatıp qəbul eliillər. Soora get-gedə o damcıın miqdarın artırıllar.

Deellər ki, çibanı sağaltmağ üçün üssünə bağayarpağı qoyallar.

Kələm yarpağını da pörtdədip çibanın üssünə qoyullar. Onda yara tez deşilir.

Soğan bişirip qoyullar çibanın üssünə. Soğanı necə bişirillər? Dəmirin üssündə. O üz-bu üzə çevirə-çevirə kabap kimi bişirillər. Soyup, içiin özək hissəsin qoyullar yaraan üssünə.

Angina olanda cır narı dəmirin üssündə o üz-bu üzə çöörüb bişirillər. Onnan soora oon için açıp parçaan arasına yayıp issi-issi boğaza bağlillar.

Mədəsi xəssə olan adamlara bağayarpağı çiynəməh, ya da ki, dəmliib içməh xeyirdi.

Göz ağrıyanda çayın xəkəsin tökup cunaan arasına, gözün üssünə qoyullar.

Təyziqi olan xəssələrə heyva çubuğu dəmliib içirdillər.

Məxmərəh səpən adamı miras qızılın suyunda çimizzirəllər (S:8; T:1).

***

**Nan**əni elə-belə əkirsən, bitmir. Gərəy oğurruyıb əkəsən, onda bitir. Kimnən ki oğurramısan, onun əkininnən nanə itir, köçüp gedir. Yerində qalmağ üçün onda gərəh yerinə nəsə nəzir qoyasan. Nanənin yaşı da, qurusu da çox işdənir. Malicəvi bitgidi. Dəmləməsi soyuxdəyməni götürür, əsəbi sakitləşdirir. Çiçəy açmamışdan əvvəl biçirih,

təmizziyip kölgə yerdə qurudurux, gündə olmaz. Rəngi, ətri üssündə qalır (S:14; T:1).

***

Uşağın qızdırması olanda **itburnu** dəmliyip çay kimi verirsən, o salır. Soora üzüm sirkəsiynən əyaxların, qolun, əlləriin için, alnın oxalıyırsan. O saat düşür qızdırması.

Uşağın soyuxdəyməsi olanda, ösgürəndə **keçi piyi**ynən oxaliyırsan, əyaxların vanna eliirsən isdi suynan, keçip gedir. Keçi piyinnən bir qırığ atırsan qaynar sütün içinə, qatışdırıp verirsən, içir, sinəsi yumşalır.

Keçi piyin belə hazırriyıllar: keçi kəsiləndə iç piyin götürüb əridirsən. Tökürsən bir qaba, donur. İçinə qalın sap da qoyursan asmağ üçün. Soyuducuda da saxlamağ olur.

Qarğıdalı saçağın böyrəy ağrıyanda dəmliib içillər.

Kəhliyotu qanı duruldur.

Nanəcöhəri çox yaxşı təyziq salır, nəfəsi genişləndirir.

Vəndamnan[14] yığıp gətirmişəm qatırquyruğu, dazıotu, dağ nanəsi. Üçün bir yerdə dəmliyib içirsən, soyuxdəymiyə, mədə-bağırsağa, sinir sisteminə çox yaxşı təsir edir (S:15; T:1).

***

**Nar** qanı duruldur, təzələyir.

Şirin nar zehni arturur. Şirin narın qabığın qaynadub içizdürüllər. Qarınağrısı, sancı, qurtlar – bıların hamısına bının xeyiri var.

Nardan nar şarab eləyürüg. Balığnan, kababnan yeyilir. Ərişdəni narşərabnan yeyirüg. Nardan şirə hazırrayuruğ.

Nardança bişirirüg, onu sütdü aşnan yeyillər.

Narın qabığınnan boyax kimi isdifadə olunur. Sapları boyamağçün gözəl rəng alınır.

Cır narı döyürüg, az pörtürüg. Qabuğlu əzilir. Parçanın üsdünə sərib angina olanda boğazı kompres eliyəndə çox gözəl effekt verir.

Nar həm də qızdırmanı salmağ üçün çox əlverişlidi. Bir kasa nar suyu sıxırsan. Üsdünə az – yarım isgan isdi qaynanmış su, bir çay qaşığı da pəsox... Qarışdurub qızdırmalı uşağa, böyüyə verirsən, qızdırmanı kəsir.

Qripin qarşısın almağ üçün narın suyuna xırda soğanı soyub tökürüg. Üsdünə də duz atıruğ. Bir müddət qalır, dəyir. Qripi qaytarır, bədənin immunitetin artırır (S:22; T:1).

***

Bizdə **kəvər** deellər o, bitir arx döşündə, kanal qırağında. Onun düyməsi də olur. Çiçəy aşmamış onu tutma eliirsən. Körpə zoğların da tutma eliirsən. Amma yerdə qalıp qalınnaşır. Kötüyü qalınnaşır. Dört-beş santı olanda qazıp çıxardırsan. Təmiz yuursan. Soora o kötüyün üssüün qabığın çıxardırsan. O qabığı xırdalıyırsan, tökürsən ət maşınına. Çəkip qutarannan soorasına tökürsən cunaan arasına, bağlama kimi düzəldirsən, qoyursan o ağrıyan yerə, xəssə yerə. Onnan soora üssünnən ağ salırsan. Kilyonka salırsan üssünnən ki, havası çıxmasın. Beş dəyqadan on dəyqiya qədər saxliirsan. Yandırır, açırsan. Oynağ ağrısına, padaqrıya, yelə, duza dərmandı.

***

**Qoz** yetişdi, onun arasındakı arakəsmə pərdəsin yığırsan, bir əz xırdaliirsan ki, putulkıya girsin. Yığırsan putulkıya, üssünə spirt tökürsən, bir on gün – igirmi gün qalır. Onnan soora gördün ki, uje çay irəhdədi, deməli, dərman hazırdı. Soyuxdəymədə issifadə eliirsən. Ağrıyan yerə sürtürsən. Bırnın tutulanda pambığa töküb iyniirsən, burnua çəkirsən. Əməlli xeyir eliir (S:26; T:1).

## TÜRKƏÇARƏLƏR

El arası türkaçərəçilər olurdu. Malicə eləyirdü. Zamat* deyirdüg ona. Zamat düzəldirdü. Xüsüsi sınığçülar vardı. Kəndimizdə üç-dört nəfər sınığçı var idi. İndi də var sınığçı. Təmiz, işdənməmiş parçanın üzərinə – ağ olsa, daha yaxşı olar – oun üzərinə paltar sabının qaşıyıp tökürdülər, oun üsdünə yumurta varırdılar – yumurtaan ağın. Qabda çalırdılar, çalırdılar onu. Təmiz köpüklənirdi. Azca un atırdılar. Bi damcı da duz atırdılar mökəm tutmağ üçün. Çalıb, çalıb onu elə vəziyətə gətirirdilər ki, horra kimi olurdu. Oun yaxırdılar təmiz o parçaan üssünə. Soora o sınan yerə yapışdırurdular. O tuturdu. Həqiqi də təsiri vardı, effekt verirdi. Sümiy birrəşəndə zamat öz-özünə qopurdu.

***

Onnan soora əzilən, burxulan yerə, sınığ, çıxığ döör, əzələ əzilib, ya burxulub, ona təpitmə* eləyillər. Unu tökürüg, soora xəmir yoğururuğ, yumurta da vuuruğ ona. Əl qalınnığında belə. Tavaya yağ atıb azca, isdilədib, o üzün, bu üzün belə issilədib təzədən o yerə qoyuruğ onu isdi-isdi. Üsdünnən möhkəm bağlayuruğ. O da yaxşı effekt verir. Təpitmə qızarmır, isinir, yağını-zadı götürür.

***

Adətən göz ağrıyanda, görürsən uşağın gözü bulaşır-eləyir, ağrıyır, onda ona çayın xəkəsin tökürüg cunanın üsdünə. Onu süzüb bağlayuruğ gözünə, kimin gözü narahatdısa, ona. Uzanıb yatırsan, onu gözün üsdə bağlayırsan. Səhər, həqiqətən də, onun köməyi olur, gözə işıx gəlir, göz təmizdənir.

***

Körpə uşağın qulağı ağrıyır, ağlayır, çığırır. Anası öz sütünən üş damcı, dört damcı sığayır onun qulağına, damızdurur. Uşağ sakitdəşir.

***

Uşağ qəbiz olanda da qulağ kirinnən uşağın yanına çəkirsən. Qəbizdigdən uşağ azad olur (S:1; T:1).

***

Uşax qızzıranda hələ qızılca olduğun bilməy olmur. Görəndə ki, qulağının yanı, çənəsinin altı, əlinin içi səpib, o saat məlum olurdu ki, bu uşax qızılcadı. Qızılca qızzırmeynan gəlir. Hər qızzırma da qızılca olmur ki. Onnan soora gətirip o uşağın alnına qırmızı bağlıyırdılar. Onun yatdığı yerin yanına kasada üş yumurta qoyurdular suyun içində ki, bu uşağa göz dəyməsin. Yanaxlar qıpqırmızı, dərisi dartılıp qalıp. Qonumda-qonşuda olan uşaxları bunun yanına gəlməyə qoymullardı ki, yoluxar. Amma belə deyirdilər ki, gəlməsə də, qızılca sütə-sümüyədi, çıxardacax. Əmoğludu, xaloğludu, biboğludu, olar çıxardacaq. Hər kəs qızılca çıxartmalıdı. Əyər evdə iki uşax qızılca çıxardıpsa, ikisinin də yanına kasada yumurta qoyullardı ki, göz dəyməsin, ikisinin də alnına qızmızı bağlıyıllardı. Əgər uşaxlar yaxşı səpiplərsə, kişnişi döyüllərdi soxulcannan bir yerdə. Onu üşqat, dörtqat marladan süzüb, suyun verillərdi uşağa. Ona görə ki, uşağın içində səpgi qalsa, onu öldürə bilər. Uşağın səpgisi çıxsın üzə. O saat taxdı-rəvan səpirdi uşax, o verilən sudan soora bir qaşıx, iki qaşıx adi su verəllərdi. Qızılca hamısı çıxırdı üzə, üş gün səpbə gedirdi, üş gün də taxd üssə qalırdı. Üş günnən soora da başdıyırdı solmağa. Qızılca başdan gələndə hasand olurdu, qorxusu olmurdu. Başdan gəlmiyəndə çətin olurdu.

Ayaxdan başdıyıb üzü yuxarı səpəndə hamı qorxurdu ki, uşax tələf ola da bilər. Onda uşağa ət, yumurta, balıx, süt verməzzər. Ançax düyünün həlimin kişnişnən verillərdi. Gülü gətirməzzərmiş qızılca olan uşağın yanına. Pəhrizanalarnan dokquz günə uşax normal hala düşərmiş.

İlin yaz, payız aylarında qızılca tutardı. Qızılcanı uşax vaxdı çıxartmıyan böyüyənnən soora da olsa, çıxardır. Hamı qızılcanı mütlax çıxartmalıdı. Amma adam bı xəssəliyə ömründə bir dəfə tutulur. Olub elə neçə qız ki, ərə gedənnən soora qızılca çıxardıp. Onda da uşaxlar kimi üş gün səpib, çətinliyi olup. Eləsi olup ki, uşax tələf eliyip. Lap insan çıxartmıyıp ölürsə, deyillər qəbirdə də olsa, o, qızılcanı çıxartmalıdı. Çünki qızılca sümühdən çıxır. Bir də deyillər ki, qızılcanı qızılgül açan vaxtı, heyva çiçəhliyəndə daha çox çıxardıllar. Ən çox Nooruzdan soora – apreldə, mayda çıxardıllar. Qızılca solan vaxdı, sönən vaxtı səpgilərin yeri qaşınır. Əgər uşax həmin sızaxları qaşısa, qopartsa, yeri çopur qalar. Gərəh qaşımağa qoymıyasan, nəzarət eliyəsən, yavaşca sürtəliyəsən, sakitləşə (S:14; T:1).

## RUH TUTMAQ

### I

Ruh tutmax deyilən bir hal da var ki, bir adam iki-üç gün şər qarışan vaxdı, axşam oldu, üşüdüb qızdırar. Onda diyəllər ki, yəqin bunu kiminsə ruhu tutub. Onda da ruh ölçən adam olub kətdərdə, gedib onu çağırıllar. O da gəlip ölçərmiş, bu adamı kimin ruhu tutduğuna baxarmış. Bunu da bir neçə yollarnan ölçüllər.

Mən anamnan, nənəmnən eşitmişəm ki, bir dənə yaylıq – ləçəh götürüllər. Onun bir küncünə soğan qabığı, kömür, üzərrik qoyup düyünnüyəllərmiş. Düyün olmuyan tərəfini də verir, kimi ki ruh tutup-tutmadığını ölçəcəklər, həmin adamın

əlinə. Ruhu ölçən adam yaylığın düyün tərəfin qoyarmış dirsəyinə. Əlini açarmış yaylığın üstündə. Onun əlinin uzunnuğunnan bir barmax o tərəfdən xəssə adam tutarmış. Ruh tutduğunu ölçən adam da həmin adamın ölülərinin adını çəkərək ölçərmiş. Hər ölünü adını iki dəfə çəkərək ölünün qazan, yoxsa Quran isdədiyini bilərmiş. Ruhu ölçən adam, məsələn, deir: Babası qazan issiyir. Babası yasin issiyir. Bunlardan hansın diyəndə ruhu ölçənin barmağı ruh tutanın əlinin üssünə düşsə deməli o adamı o ölünün ruhu tutup. Həmin o ruh tutduğun ölçən adama da nəzir verillər. Ölü əgər yasin issiyirsə, həmin adamın adından bir yasin oxudullar ölünün ruhuna. Ya da qazan issiyirsə, onda bir cümə axşamı, bizdə adna günü deyillər, onda həmin ölüün adına bir qazan asıllar. Axşamüstü, axşam azanı oxunan vaxdı həmin qazana duz atallar və ölünün adın çağırıp deəllər ki, gəl payıvı apar. Bınnan soora həmin adamın üşütmə-qızzırması keçip gedər. O yaylıxda da olannarı aparıb axar suya atallar (S:12; T:1).

**II**

Adam bir gün ötüb, bir gün qızdıranda deyillərdi ki, onu uruf tutub. Urufa baxmağı biləni çağırıllardı. Deyillərdi ki, filankəs günortadan soora üşüdüp, qızdırır, gəl onun urufuna bax. O da baxır. Baxanda kasıya su tökür, bir adam o yannan iki barmağıynan tutur o kasanı, bu da iki baş barmağıynan. Uruf tutan adamın ölülərinin adın çağırır. Yasinmi, ehsan xörəhlərinnənmi issədiyin deyir. Hansı ölünün urufu tutupsa, onun adı gələndə kasa başdıyır fırranmağa. Hansı ölü yasin issiyirsə, döşəməli aş issiyirsə, o ölünün adı gələndə kasa başdıyır fırranmağa. Tərpənmirsən. Kasanı möhkəm basırsan kı, kasadakı su dağılmasın. Uruf tutan adam da, urufa baxan da iki baş barmağıynan basır kasanı və bu sözdəri deyir: addarı deyir, filankəsin urufu yasin, aş issiyirsə, tərpənsin bu

kasa. Onda hansınınsa adı çəkiləndə kasa fırranır. Xəssənin yiyəsi də, ölü yasin issiyipsə, oxutdurur, hansı yiməyi issiyipsə, onu bişirir. Urufa baxana da nəzir verillər.

***

Gəlin ağrı çəkəndə, azad ola bilmiyəndə gəlib ara maması qaynənənin əlin yaxaladıb həmin suyu içirdirdi gəlinə. Onu da ona görə eliyillərdi ki, bəlkə, o, günaha batıb – nə vaxtsa qaynənəni incidib, xətrinə dəyib. O suyu içməhnən gəlin üzr diliyir. Qaynənə də onun günahınnan keçir, gəlin azad olur.

***

Doğuş vaxdı gəlini qan aparanda tez kişi xeylağı çağırıllardı ki, gəlib tüfəng atısın. Eyvanda tüfəng atılanda gəlin diksinir, qanaxmadan azad olurdu. Əgər ehtiyac olsaydı, ikincisin də atardılar (S:14; T:1).

## QORXULUQ GÖTÜRMƏ

Məəm qaynanam götürüpdü qorxuluğu. Hə, soora qaynanam udumun veripdi mənə. İndi mən götüürrəm. O deep ki, məəm ana tərəfim ağır seyitdi, səən əlin məəm əlimnən səbəplidi. O arvat lap uşaxlıxdan götürüp qorxuluğu. O rəhmətə gedənnən soora, dokquz ildi, mən götürrəm.

Bırda Allah, peyğəmbər sözzərin deersən da. Suyu tökürəm bı mis cama. Orda əlhəmi oxuyuram. Təzədənnən onu innidən-cinnidən, nədən olursa, o qorxudan çaardıram. Onnan soora suyu dağliram arının şaninan. Bilirəm ki, nədən qorxup.

Onu özüm əritmişəm, şanını. Bazarda satıllar, alınır. Onnan qəti şəkil düşmür. Bilmirəm, mındar qabda eliillərmi, nəsə, şəkil düşmür (S:27; T:1).

## ÇÖPÇÜLÜK

Mən sifdədən bilirdim ki, çöp qalır. Çünki mənim atam çöp qalmağın bilirdi. Atamın anası yaxşı çöpçü olupdu. Nənəmin adı Mələhnisə idi. Əlimnən vırırdım, görürdüm var, çıxartmırdım. Qorxurdum çıxartmağa, sözün düzü. Göndərirdim, gedirdilər çöpçiyə. Gəlirdilər, görürdüm həmin şey durup da yerində, çıxmıyıp. Qaynım dedi ki, məəm uşaamın çöpün çıxardeysan sən. Nə təəri bilirsən, helə də pülə, çıxart. Həmən yeri əlimnən tutdum. Bircə nəfəs borusuna qayıdıp düşməsin. Tutdum əlimnən. Püliyən* kimi o şey gəldi çıxdı. Soora yavaş-yavaş öz uşaxlarımıza. Aparmadıx çöpciyə. Pilədim, gəldi çıxdı.

Soora səs yayıldı. Onnan ötrü məə Bakıdan fəxri diplom gəldi. Bakı, Şamaxı, Ağsu, Yevlax zonası – deməy olar, hamı axınnaşır bıra. Deellər ki, gözümüznən görürüh ki, dəqik çıxardırsan da.

Bı vergi sööpəti döör ey, bı qabliyətdi. Liboy adam oon çıxarda bilər. Nətərii? Əlinnən baxırsan, var. Bir dənə gözzirsən nəfəs yoluna qayıtmır. Nəfəs yolun əlmnən tuturam, püliyən kimi gəlip çölə çıxmalıdı da, hara gedəcəhdi daay (S:28; T:1).

# ETNOQRAFİK BİLGİLƏR

Böyürtgannan həm də pendirə maya hazırrayurux. Mal, ya qoyun qursağın yuyub, duzdayıb, qurudannan soora onu təzədənnən bir balona, küpəyə – iri qaba qoyub, üsdünə şor suyu tökürüh. Onun da üsdünə əlavə eləyürüg həmən böyürtganın qənətdərinnən, bir dənə yumurta qoyuruğ içinə – təmiz yuyulmuş çiy yumurta. Düyü atırux, arpa atırux, xeylağ duz aturuğ, bi də söyüd çubuğu. Xeylağ keçir, o tutur, olur pendirin mayası. Ona süt də əlavə eləyəndə o pendir olur.

***

Xəmir yoğuranda adətən **acıtma** eləyürüg. Bı acıtmaan da bilirsuz da nədən tuturuğ: incil çöpünnən, böyürtğan çöpünnən xəmirə qatırsan, soora horra kimi eləyirsən, çürümüy suyu, bir də kəpəg.

***

**Çalası** götürməy üçün böyürtgan kolunnan isdifadə eləyürük. Böyürtganın qənətdərinnən qırıb, gətirip atırux ilıx sütə. Üsdün basdururux. Onnan qatuğ əmələ gəlür (S:1; T:1).

***

Mal balalıyanda ilk gün sütü sağuruğ, olur kətəməz, yəni süt pendir halın alır. Kətəməz pendir kimi olur, bərk. pəsox səpip yiyərdilər. İkinci gün bulama, üçüncü gün süt. Əyər üçüncü gün də bulama olursa, deməli o malın sütü yağludu.

***

**Nehrə**ən belə qoyurduğ. Saxsı nehrə olardı. Nehriyə tökürdülər qatıx, bir də qatıx qədərə su. Ağzına da *sələ* bağlayurdular. Kəsilmiş malın qarnınnan olur. Onu təmiz ayrana qoyub, iysi qaçana qədər saxlıyardılar. Qarının təmizdənmişin nehrəən ağzına bağlayıb çalxıyardılar. Nehriyə,

qarğudan düdüy olur, gəzinə* keçirdidilər onı, havası çıssun, nehrə partdamasın deyibənə (S:2; T:1).

***

**Toyuğu kürt basdırmaq.** Toyux kürt düşəndə onun yerin hazırrayuruğ. Yumşax şey, təmiz saman qoyub kürt yatmağa yuva düzəldirik. Soora altına on üç, om beş yumurta qoyuruğ. Toyuğa om beşdən artuğ qoymuruğ. On üç qoyanda deyirsən, on iki imam eşqinə, on iki bala, biri fala. Om beş qoyuruxsa, deyirüg, on dördü bala, biri fala. Yumurtaan tooğun altına qoyanda bir dənə kömürnən bismillah-rəhmani-rəhim deyip, mənim əlim olmasun, Fatimeyi Zahra nənəən əli olsun, deyip yumurtaları üsdən aşağı xət-xət cızırıx. Ona görə cızırıx ki, üsdündə başqa toyux yumurtasa, tanınsun. Bilinsün ki, yanı bı kürt toyuğun yumurtasıdı. Elə bil ki, yumurtanı möhürrəyirüg. Toyuğun altına saf, qəşəng yumurtaları seçip qoyurux. Cücə üç həfdiyə çıxır – iyirmi bir günə. Hinduşqaan balası dört həfdiyə çıxır – iyirmi səkgiz günə.

***

Deyilənnərə görə, elçi gedəndə iynə aparallarmış, nazig. O iynəni atallarmış palaz üsdünə, xalça üsdünə. Həmin elçi gedilən qız da çay gətürərmiş sırfıya. O iynəni əgərrəri o görüb götürürmüşsə, bilillərmiş ki, o, zəkalıdu, ağulludu, zehinnidü. Bəyənəllərmiş. Bı iynəni görə bilmirmişsə, üssünən korafəhim* sırfaan salırmışsa, o qız bəyənilmirmiş (S:3; T:1).

***

Keşmişdə qız bəyənəndə bının əl qəbliyətin bilməy üçün ona nar verillərmiş ki, yesin. O, narı yiəndə onnan bir dənə yerə düşməseymiş, deellərmiş ki, hə, bının əl qəbliyəti var, almağ olar (S:7, T:1).

***

Heyva yetişən vaxdı, payız vaxdı heyvaların ən irisin yığıp tökürdüh təndirə, üssün külnən bassırıb, təndirin də ağzın örtürdüh. Bir qədər soora gəlip baxırdıx. Heyvalar elə gözəl bişmiş olurdu ki, külün çırpıb yiyirdih (S:8; T:1).

***

Narın qabığınnan boyağdan əlavə, onu aparıb çölə töküllər. Zavoddarda  gündə neçə maşın onun qabığı çıxır. Onı şoran yerrərdə yaşıyan adamlar pılnan alır maşın-maşın, aparıb həyətinə onu yayır peyin kimi, kübrə kimi. O, şoranı götürür. Duzu çəkir canına (S:22; T:1).

## ARIÇILIQ

Arının yeşiyinin ağzında palçığa oxşayan sarı, qara rəngdə vərəmum olur. Arının vərəmumu mədə, bağırsağ yarasın sağaldır.

Bir yeşiydə bir dənə ana olur. O arıın ana südi hər bir dərdə dərmandı. Beçə verəndə su atırsan, qalxır. Yumurta qoyur, çoxalır, ana yuvası qoyullar içəridə. Ana iki dənə çıxır. Bir ailə ayrılır. Qutuda bir dənə ailə olmalıdı. İki olanda o götürür öz başına yığılannarı, çıxır. O da qonur ağaca. Oun suynan qəyşərin alırsan. Suyu tökürsən arxasıycan göyə qalxanda. Oynan yenir aşağa. Onda əl çalırsan, qab çalırsan, o səsə enir. Düşür ağaca. Arıotu qoyulur.

Arıotu* həyətdə bitir. Gözəl ətri var. Arı həmin otun iyinə topalaşır. Dikqət eləməsən,  beçə uçup gedər. Çox yuxarı qalxanda onu heş cürə saxlamağ olmur. Yeşigdə əvvəlcə ana yuvası olur, iyrim bir günə o ana çıxır. Qabaxcadan üsdündə ana yuvası olan ramkanı götürüp başqa yeşiyə qoyursan. Onda uçub getmir. Ana öz yuvasında çıxır. Elə arı olur ki, bir ramkıya beş dənə, altı dənə ana yuvası qoyur.

Neçə ana varsa, o qədər yerə ayıra bilərsən. Hər yeşihdə bi dənə şah olmalıdı, artuğ ola bilməz. O ki beçə verəndə topeynan gedip qonur ağaca, onu əlünnən tutub götürüsən, qətiyyən adamı vırmır. Ona görə ki, çilədannarı* balnan doludu. Öz urzusun götürüp çıxır o. Götürdüyü ehdiyat balnan səkgiz gün qidalana bilər.

Devlət qanununnan, hərbi qanununnan da dəqiq arının qanunudu. Bir yeşig arının hamısını bir şah idarə eliyir. Yeşikdəki bütün arılar onu necə qoorıyır... O şahı özdəri qidalandırır, pəhəpəhnən gəzdirillər ramkaların üssündə. Bir yeşiyin arısı başqasına girməz. Yağış yağanda arılar uçmur, beçə vermir.

***

Təmiz bala kibrit vırırsan, yammır, əriyip su kimi olur. Pesoklu bal yanıp qapqara qaralır. Kimyəvi karandaşı batırırsan bala, xalis baldısa, onda izi qalmır. Yox, qatışığı varsa, onda bala rəng çıxır.

***

Arı isdi mürəbbiyə, şirniyata yaxın gəlmir. Əgər mürəbbə teşdinə arı darışıpsa, oun üsdünə bir sırfa atırsan. Hamısı qalxıp o sırfıya çıxacax. O, sırfıya çıxdıxcan sırfanı silkəliyirsən. Qabdan arı tamam təmzdənincən belə eliirsən. Oynan da nə arı tələf olur, nə də mürəpbə.

***

Arı deep ki, vurduğım ölsün, gətirdiyim qızıl olsun. Kimi vuracamsa, o adam ölməlidi. Allah-taala deyip, yox.

Allah-taala deer, xeyr. Səən gətirdiyün bal olsun, vıranda özün öləsən.

İndi bal arısı kimi vırdısa, özü ölməlidi. Neşdəri qalır vırdığı adamda, özü neşdərsiz yaşıya bilmir (S:2; T:1).

***

Arı niyə ölüp tökülür yeşiyin qabağına? O ola bilər ki, zəhərrənip. Zəhərə düşüp o arı. Elə bil ki, meyvə ağajdarına dərman vırıllar. Onnan gedir gül gətirəndə, şirə çəkəndə zəhərrənir. Arı gəlir bir təəri çatır. Yeşiyin qabağında yıxılıp ölür. Onu nədən bilməy olar ki, zəhərrənib ölüp, ya başqa səbəbdən? Arxa tərəfin belə sıxanda qaraqançır çıxırsa quyrux tərəfinnən, bil ki, bı zəhərrənip. Adi arını tut sıx, ağapbax çıxır.

Yeşiyin qabağına gəlib arı düşür. Görürsən ki, gedə bilmir. Baxırsan, qanadı qırığdısa, deməli, o arıda bit var. Bit birinci onun qanatdarın yiir. Onnan da arı inkişafdan qalır. Uça bilmir da.

Elə bil arıçının çoxlu arısı var, ya qonşiynan yanaşıdı. Çıxır düşür ağaca – beçə verir. Bilməy issir, hansı yeşiydəndi. Əvvəlcədən ana yeri qoyan yeşiyi aydınnaşdırırsan. Bilirsən ki, bı yeşik beçə verəcək. Onun qabağına quru un tökürsən, arı beçə verip gedəndə görürsən ki, həmin arılar una bulaşıp qurağlıx havada. Oynan bilirsən ki, bı yeşihdən çıxıp.

Tutax ki, yüz yeşig arım var. Mən üş günnən bir bı arıları bir-bir yoxliiram. Baxıram ki, analığı var. Beçə çıxdı. Biilki analığların hamısın kəsirəm, ləğv eliirəm. Qoymuram ramkada qala. O birsi ili baxıram ki, təzə analıx qoyup bı arı. Ana çıxanda, birincisi, görürsən ki, qabax tərəfdə qaraltı əmələ gəlir yeşihdə. Lap yüz dənə yeşiyin içinnən biri çıxanda o arının qabax tərəfində arı topalanır. Bilirsən ki, onnan çıxıp. Qalxızanda da baxırsan ki, analığın ağzı açılıp, bilirsən ki, bunnan çıxıp.

Arı beçə verəndə dəmir qab çalırsan. O səsə arı düşür, uçup getmır. Ən yaxşısı odu ki, görürsən ki, arı qalxır, qabağınnan su atan kimi tökülür. Arı yağışdan qorxur. Yağışda işə çıxa bilmir.

Analıx yeri olan ramkanı qabaxcadan başqa yeşiyə qoyursan yarı arıynan. Amma anaan da o birsi yeşihdə saxliirsan. Özzəri o anaan çıxardacax. İşdiyəcəh. Day beçiyə qalxmiyacax.

***

Allah-taala beşinci yaratdığı şey bal arısıdı. Deer, mən bını ona görə yaratdım ki, məəm yaratduğlarıma bı gedəcəh çiçəhlərdən qətrə-qətrə topliyıp gətirəcəh, onların min bir dərdinə əlac olacax.

Deer, əgər yer üzündə bal arısı məhv olarsa, beş ilə bəşəriyət məhv olar.

Arı ən çox akasiya ağacınnan bal toplıya bilir. Bı ağacın həm çiçəyi çox olur, həm də çiçəhləmə müddəti.

Ən yaxşı bal qaratikan balıdı.

Cavan fəal ana arı bir gündə iki-üç min yumurta qoya bilir.

Ana arı yumurtadan on səkkiz günə çıxır. Adi arılar isə iyirmi iki-iyirmi dört günə çıxır.

Erkəy arı bal vermir. Olar həm tozdanma aparır, həmi də yaxşı su daşıyır. Olar su işinə baxır. Arıda şireynən su yarıbayarı olur.

Arı halallığı sevir. Arı murdar, halal olmuyan şeyləri qəbul eləmir. Arı özü təbii balnan qidalansa, bir çox xəsdəlihdən xilas olmuş olur.

Pesoknan qidalanan arının qırılmax, tələf olmax ehdimalı çoxdu. Amma təbii balnan qidalanan arı, elə bil ki, vaksinnənir, sığortalanır xəsdəlihdən.

Bir siçanı öldürüb at yeşiyinə, mındar bir şey at içəri. Gücü çatırsa, onu dartıp atır çölə. Gücü çatmırsa, onu bax helə (əli ilə bükmək tərzini göstərir – top. X.K.) mumnan bükür. Day issir o, orda nə qədər qalsa da, onun iyi, mindarı keçmir. Onnan soora işə başdiyır (S:3; T:1).

***

Ayı meşədə balın yerini öyrəmməyçün arını tutur, ocunda fırrayır, atır. Arı uçup bal yığdığı yerə gedir. Ayı da balı tapır, yeyir (S:4; T:1).

## OVSUNÇULUQ

### I

Mən uşağ olanda bir dəfə ofsunçu gəlmişdi həyətimizə. Dedi ki, sizin o balaca otaxda ilan var. İssəsöz, o ilanı otaxdan çıxardaram, tutaram. Bizdən bir prasdina aldı, soora o, paltarını çıxartdı, o ağa büründü. Başdadı ilanı çağırmağa. İlanı çağıranda belə dedi:

Ay Allahın heyvanı!
Şah dişi, şahmar dişi
Dəyməsin, dolaşmasın.
Hey ki, Süleyman,
Yüzdə bir xəta etməsin.
Ey Allahın heyvanı, gəl.

Bını deyən kimi gördik ki, damnan bir dənə ilan düşdü gəldi, durdu kişinin qabağında. Kişi əyildi, o ilanı götürdü, qoydu torbasına. Öydən ofsunçuya pul verdilər. Kişi paltarın geyindi, ilanı da götürdü, getdi (S:14; T:1).

### II

Təxminən 65-ci illərdə bizim qooşugildə, rəhmətə gediplər indi, oların evlərində ilan var idi. Hətda qorxudan olar, yay güni idi, düşüb həyətdə yatırdılar. Hər gecə evdə görürdülər deyə, girib yatmırdılar. O vaxlar da arabir gəlirdi osunçu.

Bir dəfə də kəndə osunçı gəldi, eşitdi ki, belədi. Bılar gətirdi onu. Biz hamımız da dayanıb böyüg, uşağ (mən uşağ

idim onda), tamaşa eliyirdüg. Osunçu bı ilana nə oxudusa, iki dənə, – dedi, yelmardı bılar, – iki dənə ilan bax o barıynan yavaçcana sürüşdü, düşdü yerə, öyün tinində. Meşoku tutdu. Gəldilər, ikisi də girdilər meşoka. Ağzın bağladı, götürdü getdi.

***

İlanda o qədər cəltdiy var ki, handa xam, naşı adam ilana elə-belə, təxmini tuşdasun tüəngi, atsın, bı qırmanın, güllənin sürəti nə qədərdisə, o ilanın atılmağı, sıçramağı helə güjdüdü. O göydə gələn qırmıya özü atılır. İsdər-isdəməz ona güllə dəyir (S:22; T:1).

## MİLLİ MƏTBƏX

**Qatma*** əməköməci bitgisinnən hazırranır. Əməköməciin malıcəvi xüsusiyəti çoxdu. Sinəsi tutulan, soyuxdəyməli adama qatma bişürürüg. Əməköməciin pörtdədürüg, nar şərabnan, ya qatuğnan yeyirüg. Suyun da içirdürüg ki, sinənin açılmağuna çox kömәy eləyir.

Qazanda bir əz su qoyuruğ. Qaynıyanda yerri düyü atıruğ içinə. Duz aturuğ. Bir də ki, paxla lobyası. Soora əməköməciin də yuyub, doğrayıb tökürüg onun içinə. Ona soora çeşmə vururux. **Çeşmə** də unnan suyun horrasıdu. Çalıb tökürüg oun içinə. Bı bişəndə onu kimisi narşərabnan, kimisi qatuğnan içir. Çörəhsiz yeyilən bir yeməydü. Qəlyanaltı kimi.

***

**Ərişdəən** də bişirməyçün yuxaan yayıruğ. Onu reyka kimi büküp soorasına nazüg-nazüg kəsirüg. Urfalayuruğ, çırpıruğ. Tellənir o. Yağ-soğan eləyirüg. Tökürüg qaynıyan suya. Aş lobyası pörtdədirüg. Bir də ki cır alçanın qurumuşu – turşu tökürüg. Bılar bişənnən soora axırda həmin tellənmiş ərişdəni tökürüg onun içinə. Zəfəran vururug, nanə qurusu

səpirig üzünə. Ya qoraynan, ya nar şərabnan içirüg. Soyuxdəyməyə dərmandu.

***

**Tutmac** da qəlyanaltı yeməydi. Su qaynayanda paxla lobyasın pörtdədip ona qatırsan. Duz atırsan. Adicə xəmir yoğurub bir az qəlinhal yuxa açırsan. Oxleynən firrayırsan o qaynıyan suya. Onnan soora o yuxanı da hissə-hissə o suya salırsan-çıxardırsan, salırsan-çıxardırsan. Parçalanır, yanı bir ölçüdə olmur: irisi də olur, balacası da olur. Bişir. Sarımsağlu ayrannan içilir.

***

**Qara umac.** Su qoyursan. Soğanı yağnan qorursan, tökürsən onun içinə. Soora una su çiləyirsən. Əlində umac ovursan. Xəlbirdən keçirdirsən. Ələyirsən. Tökürüg qaynıyan qazana. Üsdünə quru nanə ovurux. Abqoraynan yeyirüg. Varsa, nar sıxıruğ. Soyuxdəyməən dərmanıdu. Adamı yaxşı tərrədür, yumşaldur.

***

**Boranılı umac.** Sütü qaynadırsan. Yarıbayarı su qatırsan. İçinə yumru düyü tökürsən. O da bişir. Boranını da kubik kimi doğrayıb tökürüg onun içinə. Bir az da pəsox, bir çimdih duz əlavə eləyirsən. Soora umac ovursan az miqdarda. Tökürsən içinə. Yaxşı səhər yeməyidi. Sinəni yumşaldır.

***

**Əvəlihli umac.** Sütə bir o qədər də su qatıp qaynadırsan. Yumru düyü tökürsən. Soora saç formasında hörülmüş quru əvəliyi oxalayırsan onun içinə. Axırda da umac tökürsən.

***

**Süzmə xingəl.** Xəmiri bir əz bərk yoğurup yayıruğ. Xəmirə bir dənə də yumurta vururuğ gözün tutmağ üçün,

yarpağlar yapışmamağdan ötəri. Xingəlin kəsilmişinə **yarpağ** deyirüg. Qazın üsdünə atıruğ, bir üzü azca təpiyir. Soora sərirüg. Soora doğrayırux. Adi su qoyursan: duzdu, sudu, qaynayır. İçinə azca yağ atıruğ ki, yapışmasun. Qaynayur, ağarur, pörtdənür. Soora tökürüg çilosüzənə. Suyu süzülür. Siniyə töküb, üsdünə bol yağ əlavə eləyirüg. Pendir ovurux. Sarımsağ qatığ eləyirüg. İsdiyən soğannan, sarıköknən çolpa qourur onun yanına.

***

**Tərək.** Nişasdadan bişir. Nişasdanı suynan həll eləyirsən. Tökürsən yağa. O elə bil, tərhalvanın oxşarıdı. Tərhalvadan boş olur, rəngi ağ olur.

***

**Qındı.** Bəzi yerrərdə bına hayhay da deyillər. Sütə azca pesok da atırsan, bir çimdih duz da atırsan. Un da qatıp həll eləyirsən soyux-soyux. Soora bulaya-bulaya qoyursan odun üsdünə. Qatılaşır, özün tutur. Qaynamağ isdiyəndə yağ da atırsan. Zəif odda, ağzını örtürsən. Qazmax da tutur.

***

**Səməni halvası** – qara halva Buğdanı təmizdəyürüg, artdayuruğ, yuyuruğ. Soora salavat çəkirüg, surfa duası oxuyuruğ, onnan soora təmiz bir qabda onu isdaduruğ. O su iylənməməlidü. İsdanannan soora süzürüg. Gətirib ılığ yerə qoyuruğ, üsdünə nəm əsgi sərürüg. Gündəliy də baxuruğ ona. Görəndə ki, azca ağarır, elə bil ki, ucu saralıb yaşıllaşmağ isdiyəndə onda onun vaxdudu. Onu qəşəng biz döürüg, cunayıdan yaxşı süzürüg, o olur kraxmal, süd rəng məhlul. Onnan xəmir yoğururuğ. Özü də şirin olur. O xəmirin özün yoğurannan soora onnan bir qədər saxlayuruğ – suyunnan: bir iki isgan, üç isgan. Bişirdüyüə baxır. Həmin o suyu tökürüg

tavıya, isinəndə həmin bı yoğurduğumuz xəmiri də qoyuruğ onun içinə. Başdayuruğ yaxşı-yaxşı qarışdurmağa. Qarışdırursan, qarışdırursan, bişir.

O bişəndə oun içinə yağ tökürüg, ona az pəsox vururuğ, çoxlu-çoxlu qarışdırırux, tam o bişip qızarıp qaralana qədər. Ona biz səməni halvası demirüh, qara halva deürüh - rəngi qara olduğuna görə, o ağ məhlul olur qapqara. Onnan soora ona qoz, fındığ əzürüg, pəsoğa qaturuğ. Azca sarıkök vıruruğ həmin o hazırradığımıza. Soora əlimizi yağa vurub onnan yumrulayuruğ top-top. Həmin o əzilmiş qoz-fındığa bulayıb siniyə düzürüg. İsdiir o bir ay qalsun, nə ətrini, nə dadunu itirmir. Rəzyənə vuurruğ, zəncəfil vuurruğ ona həll olana yaxun. Çox xeyirri, həm də qüvvətdidi (S:3; T:1).

***

Əvəlih bitgisinnən soyuxdəymədə issifadə edilir. Onnan **əvəlih çilov** bişirillər. Əvəliyi əvvəl yaşıl vaxdı saç kimi hörüp qurudullar. Onnan çilov bişirəndə əvvəl yağ-soğan eliyillər, soora onun üssünə əvəliyi ovup tököllər. Soora üssünə düyü tököllər və düyünün üssünə çıxana qədər su tököllər və qoyullar bişməyə. Əvəlihli çilov süzülmür, onu hoppaca kimi bişirillər. Düyü bişir, onnan soora onu dəmə qoyullar. Əvəlihdən umac bişirillər. Yağ-soğan bişirilmiş qabada suyu qaynadıllar onun içinə halva unu kimi ovulmuş unu suyu qarışdıra-qarışdıra tököllər. Elə sürətnən qarışdırıllar ki, un düyürrənmir. Soora içinə əvəlih ovup tököllər.

***

Soora bizzə bişirillər **nişasda halvası**. Çox daddı bir nemətdi. Nənəm bığdanı yuyurdu, soora issadırdı.Tez-tez də suyunu dəyişirdi. Bığdanı o qədər issaxda saxlıyırdı ki, bığda yumşalırdı, şişirdi. Əllə bığda dənəsin sıxanda içinnən ağ süd kimi sü çıxırdı. Soora nənəm onu tökürdü iri bir mis aşsüzənə.

Soora iri bir qaşığnan bığdanı aşsüzəndə döyürdü. Onun sütü çıxıp aşsüzənnən süzülürdü ayrı qaba.

İndi də biz eliyirik onu. Amma indi onu əllə olan ət maşınında çəkirik. Soora onu su ilə qarışdırırıq. Bığdanın sütü keçir suya. Soora o ələhdən süzülür. O süt qalırdı suda. Soora onu qoyurdular, nişasda çökürdü suyun dibinə. Soonra onun suyunu süzürdülər. Onu o qədər süzürdülər ki, qabda ancax qatı nişasda qalırdı. Soora onu al günün altına qoyullar. O quruyur, cadarranır. Onun içində, bir qram da olsun, su qalmırdı. Soora onu qabın dibinnən yığıp döyüllər. O qədər döyüllər ki, o un halına gəlir. Soora onu ələhdən əliyillər. Onu o qədər dikqətnən eləməh lazımdı ki, o bığda suda qalıp iylənməsin, o iy nişasdıya keçməsin. Soora onu parça torbalara yığıllar ki, içində, az da olsa, nəmlik qalıpsa, o torbada qurusun.

***

Nənəm bı unnan – nişasdadan iki cür yavannıx bişirirdi. O nişastadan çalırdı suya, bir az qatı olurdu. Ona bir qədər də bəhməz qatırdı. O, soora bir tavıya yağ töküp, onu dağ eliyirdi və onu tokürdü tavıya, ağzın örtürdü. Soora yağ qusana qədər, yəni yağ pıçır-pıçır qaynıya qədər qaynadırdı. Nəticədə tünd şakalat rəngli halva kimi yemək alınırdı. Soora onu çörəhnən yiyirdik. Nənəm bına **tərhalva** da deerdi.

***

Bir də həmin nişassadan **sucux** bişirillər. Nişassanı suya çalılar, horra şəklinə gətirillər. İçinə şəkər tozu, sarıkök töküp qarışdırıllar. Onu da ocaxda qaynadıllar. Xəşil kimi, bir az da qatı bir şirniyyat alınır. Onu da boşqablara iki-üş santimetr qalınnıxda yayıllar. Üzünə ovulmuş xırda qoz səpilir. Soora onu soyumağa qoyullar. Soyuduxdan soora onu paxlava formasinda kəsib süfrəyə verillər. Bı bizim rayonda daha çox yas mərasimlərində, bir də oruşdux bayramında bişirilir.

***

Soora bizdə qara bayramda, yas mərasimlərində **firni** bişirillər. Firnini əvvəllər bişirməh üçün düyünü dingə deyilən alətnən döyürdülər. Deməli dingə iri həvəhdəssəni xatırradırdı. Bir vedrədən çox düyü tuturdu. Deməli düyünü tokürdülər dərin o dingənin öz qabına. Soora bir tərəfinnən də onun dəssəyini arvatdar qaldırıp bıraxırdılar. O dəssəh çox ağır bir misdən idi. Onu o qədər döyürdülər ki, o un halına gəlirdi. Soora onu əlyirdilər. Ələhdən keçən narın hissəsinnən sütə qarışdırıp bişirirdilər. Soora onu boşqablara yayıib, üssünü də darçınla bəziyillər.

***

**Düyü ununnan halva** bişirillər. Düyü ununu ovurdular, soora az yağda qoorullar. Sapsarı olur. Ona şərbət qatıllar. Halva qıçalarınnan da bir az böyüh qıçalar doğranır və süfrəyə verilir.

***

Soora onnan **quymax** da bişirillər. Suya düyü unu töküllər, qarışdırıp horra halına salıllar. İçinə rəzyənə, sarıkök, hil, darçın qatıp, dağ yağa töküp qarışdırıllar. Xəmir alınır. Soora onun üzün hamarrıyıp qızarmağa qoyullar. Hər iki tərəfini qızardıllar. Onun hər tərəfi qazmax olur, amma içi qatı horra şəkilində olur. Onu qazmax dağılmağa qoymur. Ona bal, ya da bəhməz töküp issi halda yeyillər.

***

**Yannama**nın xəmrin acıtmeynan yoğurullar. Nazig olur. Yuxadan qalın olur, adi çörəhdən nazig.

Acıtmanı da, nənəm malın qursağın suda issadırdı, içinə mis atırdı. Soora o sudan xəmir yoğururdu. O xəmir gələnnən soora həmin xəmirdən bir kündə götürüp bankada saxlıyırdı gələn dəfə xəmir yogurana. Götürdüyü xəmirə də valatı

deerdilər. Hər dəfə qursax eləmirdilər. O balatını aylarla elə issifadə eliyirdilər.

Bir də arpa **cad**ı olurdu. O da, nənəm deerdi ki, arpanın kirşədə çəkilmiş daha narın hissəsinnən xəmir yoğurup, çörəh bişirirdih. O çörəh cadar-cadar gedirdi. O hamar çörəh olmurdu. Adamın ağzın dalıyırdı.

***

Ayrıca Göyçaya məxsus yeməklər: Lobya turşusu, nar qoorma, höüc – şirin nar qoorma, kələm siyığı – üssünə də nar sıxırsan, ciladar, göy dolması (S:7; T:1).

***

**Nardançа**nı belə bişirillər: yetişmiş narı giləliirsən, yuursan, üssünə pesox səpirsən, azcana su tökürsən, qoyursan bişməyə. Bir az bişir, mürəbbə kimi, qatılaşanda hazır olur. Nardançanı adətən döşəməli aşnan, sütdü aşnan yiillər.

***

**Nar şərab.** Yetişmiş nar gilələnir. Təmiz yuyulur. Qazana töküp, üssünə azca su əlvə eliirsən. Vam odda gilələr yumşalanadək bişirilir, suyu çıxır. Pörtdənmiş gilələr aşsüzənə tökülür. Gilələrin yumşax hissəsi aşsüzənnən keçir alta, tumları qalır aşsüzəndə. Onnan soora qoyursan qaynamağa, xeyli qaynıyır, tamam qatılaşır, canında su qalmır. Oddan götürənə yaxın duz tökürsən.

İssi-issi yuyulub qurudulmuş bankalara yığırsan, ağzını kip bağlıyırsan. Ona görə isdi-isdi yığırsan ki, isdi olanda arada boşdux qalmır, qıcqırmıya şərayit olmur. Adətən balıxnan yiyilir. Fal-fal doğranmış soğana azacıq duz, bir də nar şarap vurulur. Göyçayda qışda çox vaxd ət xörəhlərinin yanında salat kimi süfriyə verilir.

***

**Fəsəli**ni belə bişirillər: Əvvəlcə nazih yuxalar yayılır. Xəmir yoğrulanda mütləq ona yumurta qatılır. Çünki yumurta qatılmış xəmir yayılanda cırılmır. Soora onu sərəndə yuxa yaxşı dartılır, lap nazilir. Soora üssünə bir yuxa yayılıb sərilir, yağ çəkilir, yuxa sərilir, yağ çəkilir. Beləcə yuxalar üsd-üsdə qoyulur, yağlanır. Adətən yeddi və ya dokquz yuxa yayılır. Soora olar dilimlənir, bükülür – şorçörəyindəki (şorqoğalı) kimi. Bükülənnən soora içinə heç nə qoyulmadan nazik yayılır.Təxmınən iki santimetrdən də nazik kökələr yayılır. Tavada yağ içində o üz-bu üz qızardılır. Qızarmış kökənı tava-dan götürənnən soora üssünə şəkər tozu səpilir. Bizim kətdə – Mırtıda nişannı qızzara xonça gedəndə mütləq fəsəli olmalıydı. Fəsəlinin şorqoğalınnan fərqi ondadı ki, fəsəli tavada yağın içində qızardılır, içinə də heç nə qoyulmur. Amma şorqoğalına isə xüsusi içlik hazırranır, içinə doldurulur. Qoğal sobada bişi-rilir. Fəsəlini vaxdilə sacda da bişiriplər (S:8; T:1).

***

**Kəvər tutması.** Kəvərin körpə zoğları yığılır. Əvvəlcə onu adi şit suda saxliyırsan. Üş dəfə suyun dəyişirsən – gündə bir dəfə. Acı suyu çıxır. Axırda duzdu su tökürsən üsdünə, sirkə, sarımsax. Onnan soora ağzı möhgəm bağlanır. Kəvərin açılmamış gülünnən – düyməsinnən də tutma olur. Onu yığıp ayrıca tutullar elə həmin üsulnan. Onu ən çox sütdü aşnan yiillər (S:15; T:1).

***

**Bəhməz** düzəltmək. Demək, kub yarım tutan üzüm çəni düzəldirdih ağaşdan, qarğıdan. Ağaşdar bir-birinə calanırdı, kvadrat olurdı. Alt tərəfinə bir üzü üssə qarğı döşənirdi. Soora tərsinə çöörüb o biri üzü üssə döşənirdi. Olurdı alt-üsd. Soora üzümü yığıllardı. Gətirip töküllərdi həmən çənə. İki nəfər kişi

– bayavoy adamlardan – əyaxların yuullardı təmiz, dəssamaz alıllardı, namaz qılıllardı, keçillərdi oon içinə. Başdillardı oon tafdamağa. Tafdadıxcan – üzüm də yığılıp da bir yarım ton, qarğıın arası var axı, o qarğıdan su tökülürdü aşağı. Aşağıda da qab qoyuplar, o qabın içinə. Qutarannan soorasına oon cecəyini, tumını yığıllardı içəridən, aparıp töküllərdi həyətdə bir tərəfə. O cecəyin içində tumları toyuxlar dənniyirdi.

Onnan soora üzümün suyun götürüllərdi. Töküllərdi dərin qazannara. Dağdan bəhməz torpağı gətirillərdi. O torpağı da gətirip töküllərdi içinə. Bəhməz torpağı üzümün turşduğunu götürür. O torpağ olmasa, o bəhməz o dərəcədə şirin olmaz. Axşamnan töküllərdi suyun içinə. Səər-səər durullardı. Yavaçca qabı qaldırıllardı, başqa qaba süzüllərdi. Bırda qalırdı lehməsi. Gənə də suyu çıxırdı, süzüllərdi. Yoxdu ki, daay təmiz suyu? Onnan soora, tiyannar vardı, ocağı qalıyıllardı, tiyannar düzüllərdi, o suyu töküllərdi ora.

Qaynadıxcan qatılaşırdı. Onda hazırdı deməli, ojaxdan götürüllərdi. Bəzi vaxdı qabın dibində bir əz saxlıyıllardı. Qozu ləpəliyip töküllərdi içinə. Qarışdıra-qarışdıra bişirillərdi. Olurdu sakqız kimi. Sooyanda onu yığıllardı qətdannara, qoyullardı süfriyə quru şirniyat kimi.

Hazır bəhməzi yığıllardı küpə. Qoyurdular bana. Evin üssündə dirəyə bağlıyıllardı. Qışda gedirdin götürməyə, görürdün halva... Bəhməz olub halva. Xarrıyırdı.

***

**İrçal** düzəldillərdi. Üzümü giləliyip töküllərdi teşdə. Üzümnən su düzəldillərdi, töküllərdi giləən üssünə. Bişib olurdu irçal.

***

Qışa saxlamaq üçün meyvəni yığıb qoyırdılar evin banında torpağın üssünə. Üzümü elə dərməh lazımdı ki,

saplağı əzilməsin, qayçıynan üzməh lazımdı. Qışda gedirsən ki, götürəsən, görürsən bir əz sıxılıb, amma bir dənə də çürüh yoxdu. Salxımlar bir birinə dəyməməlidi. Salxımın ucuna bir üzüm giləsi də taxıllardı ki, ordan şirə çəkir. Əzgili yığırsan. Bir dənə-dənə düzürsən. İnnabı da sərirsən, qalır qışa. Heç nəyi üs-üssə yığmağ olmaz, hamısı sərilməlidi.

***

**Kişmiş qurutmax.** Qubada görmüşəm, təndiri qalıyıllardı. Təndir qızdı. Daay orda odun, çırpı qalmadı. Közün üssün nazih qaysax kimi kül alır. Şiş kimi çubuxları olur. Kişmişi üzümün salxımların keçirdillər ona. Qoyurdular təndirə, qurudullardı. Soora salxımnan qurumuş gilələri təmizziirlərdi.

**Qax**ı da helənçiynə düzəldillərdi. Sapa düzüllərdi, asıllardı təndirdən. Alma qurusun, ərih qurusun.

Göyçayda belə eliillərdi: kişmişi üzümü yığıllardı ağaşdan. Təmiz artdıyıllardı çürüyün, zədəlisin. Sabah kişmiş düzəldiləcəhsə, büyünnən kül suyu düzəldillərdi. Qazanda suyu qoyullardı, bir yarım vedrə külü də töküllərdi o qazana. Qarışdırıllardı kəfgirnən. Kömürrərin götürüb atıllardı. Su qaynıyannan soora altın söndürüllər. O qalırdı, elə durulurdu. Səər o suyu süzüllərdi başqa bir qaba. Qoyullardı ocağa. O ocaxda yavaş-yavaş qayniyırdı. Qaynadıxcan, rəhmətdih nənəm götürüp salxımın ucunnan salırdı o qaynıyan sua – kül suyuna, çıxardıp yığırdı mərcimayıya. Öyün üssünə də tərəcə qoymuşdılar. Mərcimayı dolduxcan aparıp düzürdüh tərəcəən üssünə – qarğıın üssünə. Quruyannan soora töküb oordu, höösüyirdi, baş olurdu. Oldu yarım torba kişmiş, bir torba kişmiş (S:26; T:1).

# QARĞIŞLAR

Ağzınnan çıxsın, qoynua tökülsün.
Başua daş düşsün.
Əllərin xına görməsin.
Dizüün üssünə oğlan sidiyi dəyməsin.
Toy otağın yasa dönsün.
Səni görüm qız qarıyasan.
Allah sənə qotur versin, dırnax verməsin (S:3; T:1).

***

Özün bil, Allahın bilsin.
Allah ləyağuu versin.

***

Bir deyim də var ki, bı su da bərəkərtdi. Haxdan gələn bir nemətdi. Qonşu qonşuya su verər. Vermiyəndə deyir: Görüm səni yuanda üssündə su tapılmasın (S:6; T:1).

***

Bizdə el arasında tez-tez işdənən **qarğışdar**:

Təpənnən çalınasan.
Beynin qana dönsün.

Köndələn gedəsən. Mənası odu kü, tabutda adam uzanır, köndələn gedir.

Meyidin çıxsın.
Qız öləsən, *yaxud da* oğlan öləsən.
Ağzında dilin yansın.
Ciyarın yansın. Yəni övlad dağı görəsən.
Ürəyüvə güllə dəysin.
Başuva daş düşsün.
Kül başuva.
Səni çörəh tutsun.
Çörəy üzünə həsrət qalasan.

Allah çörəyüü kəssin (S:7; T:1).

***

Pis gözə pıçax batsın (S:8; T:1).

***

Qazancuu it yisin, yaxoo da bit yisin.
Qapılarda qalasan.
Heç üzüə qapı açılmasın.
Anan qanuu asvaltdan yalasın.
Mələr qalasan.
Bədənüə piltələr yerisin.
Anan qannı köynəyüü yusun.
Adın qara daşdara yazılsın.
Hər tikən qulağın boyda olsun.
Allah başua daş salsın.
Səni xıncım-xıncım olasan.
Bala, vay deyəsən.
Çörəh deyəndə hax deyəsən.
Bala deyəndə dodağın yeddi yerə parçalansın.
Daşım düşsün başua.
Başua özün ağırrıxda daş düşsün.
Allah bəloo versin.
Çörəy atdı olsun, sən piyada.
Allah işığuu söndürsün (S:12; T:1).

***

Dərin gedəsən.
Rahat yatmiyasan.
Əzizzərin yanına aparsın.
Gordan-gora dazıyasan.
Cəhənnəm oduna yanasan.
Qır qazanında əriyəsən (S:24; T:1).

# ALQIŞLAR

Baxtlılar baxdına olasan.
Əlünən yeyib, ayağunan dağıdasan.
Ruzun bol olsun.
Günün ağ olsun.
Əlünən tapasan, əyağunan eşəsən.
İssədihlərünnən yarıyasan.
Ağac əkəndə deerig, Allah birə min versün.
Mal doğanda deerüg, höörü qəlin olsun.
Allah səni atoon, anoon gözünə çırağ eləsün.
Yarımışdardan olasan.
Yolun açığ olsun.
Allah işüü avand eləsün.
Şərdən, şeytannan, mərdimazardan uzağ olasan.
Əli köməyin olsun.

Görüm işin iş olsun,
İşin uçar quş olsun.
Məleykələr köməhçin,
Allah yoldaşın olsun (S:3; T:1).

***

Allah şər şeytannan, quru böhdannan qorusun.
Sucan ömrün olsun.
Ömrün uzun olsun (S:6; T:1).

***

Deyillər ki, nəyə əl atırsansa, Allah onu qızıla çevirsin.
Yəni ruzi-bərəkət versin.
Allah sənnən razı olsun.
Allah nə muradın var, versin.
Görüm, neyniyim, necə eliyim demiyəsən.

Tur dağına dönəsən.

Allah ürəyivə görə versin. Anam həmişə deerdi ki, "Allah ürəyivə görə versin" bunu həm qarğış, həm də alqış kimi deyillər. Elə açıxlıyirdi ki, əyər mənə qarşı pissənsə, ürəyin xəbisdisə, ürəyüvə görə versin deyəndə qarğış olur. Amma yaxşı münasibət gössərirsənsə, alqış olur.

Soora deyillər ki, evin abadan olsun. Yəni evində hər şey yerbəyerində olsun.

Ağ günə çıxasan.

Balalaruun xeyirin-bəhrin görəsən.

Balannan görəsən.

Nə diləyin varsa, Allah çatdırsın.

Daduva Xızır İlyas yetişsin.

Allah duavu qəbul eləsin.

Əlin-qolun var olsun.

Namərdə Allah səni möhtac qoymasın.

İşığın sömməsin.

Bir də, adətən toyda qız evdən çıxanda ata der ki, suyun gəlmiş olsun, çörəyin bişmiş olsun.

Allah imdaduva yetişsin.

Qurbanun qoyun olsun.

Heş yerdən, heş vax zaval görmiyəsən. Zaval dərd-bəla deməhdi.

Gözün aydın olsun (S:7; T:1).

***

Çörəyin bol olsun.

Allah heç kəsi çörəhnən sınağa çəhməsin.

Allah sənə nəvə qismət eləsin.

Allah səni min butağ eləsin.

Allah sənə can sağlığı versin.

Allah səni heç kəsə boyun əti eləməsin (Yəni heç kəsə ölənə qədər ehtiyacın olmasın, özüü idarə eliyə biləsən).

Allah sənə bala dağı görsətməsin.

Oğluun toyunda oynıyım.

Allah qızuva ağ gün qismət eləsin.

Allah səni pis gözdən, nəfisdən qorusun.

Öy-eşiy olasan (S:8; T:1).

***

Anam qardaşıma alqış eliyəndə deerdi, bala, səən görüm sinəndə ağ tühlər bitsin (S:15; T:1).

***

Yolun uğurru olsun.

Getdiyin yollarda mərdimazara ras gəlmiyəsən.

Allah dünyada səən arzuladığın nə varsa, hamısın tezzihnən yetirsin (S:23; T:1).

***

Allah səni xoşbəxd eləsin.
Bəxdəvər olasan.
Yarıyannardan olasan.
Oğullu-qızzı olasan.
Süfrən bərəkətdi olsun.
Ömür boyu üzün gülsün.
Qonşuluxdan əsgiy olmuyasan.
Qapua həmişə xeyir iş qismət olsun.
Balalaruun toyuna gələk.
Nəvəli-nəticəli olasan.
Balalarınnan yarıyasan.
İtin hürsün, çırağın yansın (S:24; T:1).

***

Təndirə çörəh yapıb çıxardıllar. Üzü təndirə tutub deillər:

İçin dolu bərəkət.

Təndirdə çörəyi qızardıllar. Tam qızarmıyanda haça budaxdan qıra düzəldillər. Çörəyə o haça qıranı keçirdip, təndirin közünə tutup, qızardıllar. Çörəyi bişirip qutarannan soora o qıranı təndirin içinə də, çölünə də üş dəfə fırrıyır, təndirə çörəh yapan əlin üş dəfə vurur və deer: İçün dolu bərəkət. İçün həmişə dolu olsun (S:8; T:1).

# AND VƏ XEYİR-DUALAR

Hirsdi Həzrətabbasın kəsiy qolları hakqı
İmam Həsənin, imam Hüseynin ala gözdəri hakqı (S:3; T:1).

***

Qız köçürəndə deirlər ki:
Çörəyin bişmiş olsun,
Suyun gəlmiş olsun (S:8; T:1).

# ATALAR SÖZÜ

Anası gəzən ağajdarı balası budağ-budağ gəzər.

Anasına bax qızın al, qırağına bax bezın al.

Bir ağajda oturup minin sirkələyir (mərdimazar adamlar hakqında deyilir).

Dooğa dokqazacan.

Qatma qapıyacan.

Qaymax yaylağacan. *Bəzən yayma da deyillər:*

Yayma yaylağacan.

Paxıl artmaz.

Qonşuu iki inəyli isdə ki, biri də sənin olsun.

Qonşum qonşu olsa, kor qızım ərə gedər.

Yaxşı qonşu uzax qohumnan yaxşıdı.

Qonşun pisdi, köç qutar, dişin ağrıyır, çək qutar, başın ağrıyır, öl qutar (S:3; T:1).

***

Dos dar gündə tanınar.

Dos dossa tən gələr, tən olmasa, gen gələr.

Artıx tamah baş yarar.

Hoha var, dağa mindirər, hoha var, dağdan endirər.

Pıçax yarası sağalar, dil yarası sağalmaz.

Ağıllı baş özünə qapaz vırdırmaz (S:5; T:1).

***

Qadağan olummuş şey şirin olar.

Duran öküz yatan öküzü ayaxlar.

Söz bir kərə olar.

Sözün çürüyün çıxartma.

Dos kimi oturax, düşmən kimi danışax.

Hər qaynıyan bulağ olmaz.

Özgədən gələnnən öynəli olmarsan.

Məəm yaram ağrıyır, səən haran ağrıyır?
Aləmə it hürər, bizə çakal uluyar.
Sağ əlin verdiyin sol əl bilməsin.
Dərziyə köş dedilər, iynəsin başına saşdı.
Mıs-mıs deyincən, bir dəfə mısdafa de.
Otuzun osmannıxda, qırxın samannıxda qoyup (pis adamlar hakqında deyillər).
Əyri oturax, düz danışax.
Qız ağacı, qoz ağacı, hər gələn bir daş atar.
İtə daş atırsan, qıza dəyir (yəni qız çoxdu).
Yetənə yetir, yetmiyənə bir daş atır.
Şeytanı güjdü olup (bunu mərdimazar adamlar hakqında deyillər).
Günümü göy əsgiyə büküp (bir adam o birisin çox incidəndə inciyən adam deyir).
Qulağıın diinnən halva iyi gəlir (qocalıb əldən düşmüş adamlar hakqında).
Ələyi ələnip, xəlbiri göydə fırranır.
Üzünnən torpax tökülür (çox qocalmış hakqında).
Qulağıın dibi saralıp.
Kitabı bağlanıb (yəni bəxdi, taleyi, bağlanıb, ömrü sona yetip). Nənəmnən eşitmişəm ki, hər adama mələhlər bir kitap yazar. Onun ömrü sona çatanda oun kitabı bağlanar. Onun qismətində nə varsa, hamısı o kitapda olar.
Keçəl başuu yudun, yudum da, daradım da (S:6; T:1).

***

Oğurrux pılnan alınan eşşəh suda batar.
Öküzü batan güjdü olar.
Kimin başmağın cütdiyip qabağına qoydumsa, dedi ki, yanın gözümü deşdi.
Özün çakqal olasan, tükün məxmər.

Arvat kişiin vəzir də eliyər, rəzil də.
Mollaan dediyin elə, elədiyin eləmə.
Eşşəyin başın xonçıya qoydular, dığırranıp düşdü.

Verərsən şordan-mordan,
İşdərəm ordan-bırdan.
Verərsən ətdən-mətdən,
Vıraram bərtdən-bərtdən.

Su işdiyin qaba tüpürmə.
Sürü qayıdanda keçiin axsağı qabağa düşər.
Oğrudan oğrıya halaldı.
Eşşəyim var, başı qızıldan.
Ər arvadın sağ canına yiyə çıxar, bacı-qardaş da adamın var-dölətin axdarır.
Adam döör, elə bil Həmədan eşşəyidi.
İkinci arvat şalvarda yamax kimidi.
Kişi həmişə ikinci arvadı çox issir, kürəyinə əl çəkir.
Yengəsi gülüm olanın başına külüm olsun.
Sağlığında kor Fatma, öləndə badam gözzü.
Anası duran yerdə xalasıın ürəyi getdi.
Adam bildig eşşəyi,
Altına saldıx döşəyi.
Doğru danışanın papağı yırtığ olar.
Bir dəvə boşdu ol, bir yumurta boşdu olma.
Hər naxırda bir qotur dana olur.
Tənbəl arvadın qızı dirbaş olar.
Nənəm mənə kor deyip, gəlip-gedəni vır deyip (S:7; T:1).

***

Qızıl heş vaxd yiəsinə qismət olmır.
Neynirəm o qızıl teşdi ki, içinə qan qusacam.
Zər qədrin zərgər bilər.

Qız qızıla dönüpdü, xəbəri yox oğlannarın.
Eşşəh vırıp cənnətə salıp.
Al molladı (yəni verə bilmir).
İlanın ağına da lənət, qarasına da.
Yaxşını vermə, hayıfdı, pisi vermə, ayıpdı.
Nisyə, girməz kisiyə.
Kasıbın sacı axırda qızar.
Kasıb itiin adın gümüş qoyar.
Kasıp çıxacağın bilməz.
Kasıbın işi varrıın pılın saymaxdı.
Kasıbın nəyi olmasa da, çoxlu uşağı olar.
Kasıp comərd olar.
Qulax gündə təzə söz eşitməsə, kar olar.
Qurban olasan zərgara, səni salıp pərgara.
Yetimə gəl-gəl deyən çox olar, çörəh verən az olar.
Analı qızın özü böyyər, anasız qızın sözü böüyər.
Sən saydığuvu say, gör fələh nə sayır.
Gördün yeməh, day nə deməh.
Aj toyux yuxusuda darı görər.
Toxun ajdan nə xəbəri.
El elə sığar, ev evə sığmaz.
Pis günün ömrü az olar.
Oxunu atıb, yayın gizzətmə.
Yaxşılığı da, pissiyi də unutma.
Ana hakqı, tanrı hakqı.
Ananın haqqını ödəməy olmaz.
Hər quşa öz yuvası, hər kəsə öz vətəni.
Dəvədən böyüh fil də var.
Hakk nazilər, üzülməz.
Dəlidən doğru xəbər.
Ana – yana (yəni ana baladan ötrü  daim yanır).
Ata – bata (yəni batmaq mənasında).

Bacı – soğannan acı.
Qardaş – qar, daş (qar kimi soyuq, daş kimi bərk).
Baba – yaba,
Nənə – gənə.

Hər şeyin təzəsi, dossun köhnəsi.
Kələhnən gələn küləhnən gedər.
Dağına baxıb, otunu verib.
*Və ya:*
Dağına baxıb, qarını verib. Yəni birin yazza diyər adam, birin qışda.
Yıxılana balta çalan çox olar.
Elnən gələn dərd toy-bayramdı.
Elin gözü tərəzidi.
Allahdan ümüd üzülməz.
Bir ovuc qızıldan bir ovuc torpax yaxşıdı.
Haynan gələn, huynan gedər.
Hoha var, dağa qaldırar, hoha var, dağdan endirər.
Yalan söz üz qızardar.
Yalanın əyağı gödəy olar.
*Və ya:*
Yalanın ömrü qısa olar.
Yalan əyax tutar, yeriməz.
Armudun yaxşısın meşədə çakqal yiyər.

Qız qarnı – quzu qarnı,
Gəlin qarnı – kəlin qarnı,
Arvat qarnı – at qarnı.

Bizzərdə yuxa çörəyi, təndir çörəyi, bir də yannama çox bişirilirdi.
Çörəy açan qapını qılınc açmaz.
Çörəy itirmə.

Çörəyi ver çörəhçiyə, birini də üsdəlih.
Çörəh Qurannan irəli gəlip.
Loxma – boğmadı.
Loxmanı boğma eləmə.

Tısbağanı ya öldürdün, ya arxası üssə çevirdin.
Tısbağa qınınnan çıxdı, qının bəyəmmədi.
Tısbağa yeriyə bilmir, xalasın da dalına alır.
Dos mənə bir qoz versin, o da puç olsun.
Bəxdüü qızda sına, qozda sına.
Bəxdüü qarpızda sına, qızda sına.

***

Bular məsəldi, atalar sözü də kimi işdənir:
Aldım, allatdım dünyasıdı məgər?
İssanmışın yağışdan nə qorxusu.
Məşdibad demişkən ...
Ağ at arpa yimir?
Eşşəh vurub cənnətə salıb.
İlanın ağına da lənət, qarasına da (S:8; T:1).

***

Yiməmisən qaz ətin,
Nə bilirsən ləzzətin.
Yiyərsən qaz ətin,
Bilərsən ləzətin.
Ördəh qaz yerişi yeriyə bilməz.
Başmağımı geyərsən, yerişimi yeriyə bilməzsən.
Yönnü oğul neynir ata malın,
Yönsüz oğula ata malınnan nə fayda.
Arvadı əri saxlar, pendiri dəri saxlar.
Arvat yıxığ evin dirəyidi.
Arvat yıxan evdən Allahın xəbəri yoxdu.

Xəbərçi adam hakqında deellər ki, ağzıın qaytanı olmaz.

Ara sözü ev yıxar.

Özü özünə eliyənə, el yığılsa, eliyəmməz.

Dil başa gətirəni el başa gətirə bilməz.

Yeriyənə yol vermir, danışana macal.

At yerinə də dinir, it yerinə də.

Soruşan dağlar aşar, soruşmıyan düzdə çaşar.

Hər qarannıx gecəən bir işıxlı gündüzü var.

Atın izi itin izinə qarışmaz.

Nenirəm qızıl taxdı, bir quru baxdım olsun.

Hörmətsiz adamlar hakqında: adam olmuyan yerdə adamdı.

Adı it dəfdərində də yoxdu.

Yaxşılıx bilmiyən adam hakqında: barmağuun beşin də bal elə, sox ağzına, yenə deyər ki, acıdı.

Hikgəli, inadkar adam hakqında: bildiyin dədəsinə də verməz.

Yersiz danışana: "yuyulmamış çömçə" deyəllər.

Bilmir harda bişip, deer, məə də bir çömçə.

Acgözə deyillər: qarın sənnən aşağıdı (S:12; T:1).

***

Qızı olan quzu olar.

Qızın oldu, qırmızı donuu çıxart.

Qızı bələ, cehizin yığ.

Təmbəl deer, ver, yiim, ört, yatım, gözzə, canım çıxmasın (S:13; T:1).

***

Evinə haram gətirmə, halaluu da aparar.

Qız ağacı – qoz ağacı,

Hər gələn bir daş atar.

Qonağ evin gülüdü.

Qonax gəlməmişdən ruzusu gələr.
Qonax qonağı sevməz, ev yiyəsi heş birin.
Dəyirmanda yiyiplər, dədəmə də deyiplər: halva şirin olur.
Halva-halva deməhnən ağız şirin olmaz.
Halvaçı qızı daha şirin.
Qazan der, dız-dız, çömçə der, bulanıb çıxmışam.
Səbr ilə halva bişər, ey qora, sənnən,
Bəsləsən, atlaz olar tut yarpağınnan.
Su səhəngi suda sınar.
Qonşuya ümid olan şamsız qalar.
Qonşudan gələn öynəliy olmaz, o da vaxdlı-vaxdında.
Qooşum qooşu olsa, kor qızım ərə gedər.
On iki imama yalvarınca, bir Allaha yalvar.
Bazara pulsız gedən gora imansız gedər.
Aldım qoz, satdım qoz, mənə qaldı şaxşaxı.
Qoyun oyundı.
Ləzgi nədi, güzgü nədi (S:14; T:1).

***

Oğlan evi alıncan, qız evi ölüncən.
Bəxdüü narda sına, yarda sına.
Taylı tayın tapbasa, günü ah-vaynan keçər.
Ağanın malı gedər, muzdurun canı.
Kor tutduğun buraxmaz.
İlanın zəhləsi yarpızdan gedər, o da gəlip yuvasıın ağzında bitər (S:15; T:1).

***

Deer, söyüdün başı göylərə dəysə də, dibi qıldı, əsib yıxılacax – köksüzdü.
Əsməliydən əsilmə, əslin-kökün bəllidi,

Gərməliydən gərilmə, gəldiyin yol bəllidi.

Əsməliy,* yanı sərv ağajdarın olan yer – əsmə, titrəmə. Gərməlih* – indi gər ağacıın hörməti yoxdu, qurt tut ağacıın yarpağın yeyir. İpəy əmələ gətirir. Meyvəsinnən bəhməz düzəldillər, min bir dərdin dərmanıdı. Mürəbbəni bəhməznən bişirürdilər. Gərməlihdən gərilmə, yanı göynən getmə (S:21; T:1).

***

Yaxşını elinnən çıxartma, hayufdı,
Pisi də elinnən çıxartma, ayubdı.
İşləmiyən dişləməz.
Qızın döymiyən dizin döyər.
Fərri arvad, fərri at, fərri ət heç vax döyülməz.
Alim yanında dilüü, usda yanında əlüü saxla (S:22; T:1).

***

İt hürər, karvan keçər.
İt itin əyğın basmaz.
İtin dişi, donuzun dərisi.
İtnən dossuğ elə, çomağı əlinnən qoyma.
İtə yiəsinə görə hörmət eliyəllər.
İtdən çox çarığ aparan yoxdu, əyaxyalındı ki, əyaxyalın.
İt hardan tapıp çörəyi ki, birin yiyə, birin də başıın altına qoya.
İt nədi, yunu noola.
Aləmə it hürəndə bizə də çakqal uluyar.
Ağıl ağıldan üsdündü.
Ağılsız baş yiəsinə dooz güddürər.
Ağıl yaşda döör, başdadı.
Ağıllı fikirrəşincən dəli vırdı çayı keşdi.
Keçəl halva yiər, pılına minnət.
Keçəl suya getməz.
Keçəl dərman bilsə, öz başına çəkər (S:24; T:1).

# MƏSƏLLƏR

Kür çayınnan qollar çəkillərmiş ki, torpaxları sulasınnar. Köməhçı dəssə gedirmiş arxı qazmağa. Amma o dəssə könüllü olmurmuş, oları məjbur aparıllarmış on gün, on iki gün biyara. Şirvan kanalı, Qarabağ kanalı sooradan çəkilip.

Bizzə Qəzyan arxı, Potu arxı, Lək arxı, Qantarma arxı, Şilyan arxı var. Hər il su çox gəlsin diyə, düşüp o arxları kəntdərin kişiləri, cavannarı qazırdılar. O məjburi iydi. Eldə indi də məsəl qalıp ki, noolup, elə bil, Kür biyarına gedirsən. Yəni bir işi ağır-ağır, köölsüz iş görəndə deellər.

***

Göyçayda belə məsəl var: kələ deellər, a kəl, səən sataram Qarabakqala, müsəlman üzü görməzsən. Mən atamnan soruşurdum ki, bəyəm bizim kətdə müsəlman yoxdu ki? Niyə deeplər? Deerdi ki, yox, müsəlmançılıx, adət-ənənələr bizim kəntdə çoxdu.

Bı kənd çox işdəh camaatdı. Doğurdan, indi də helədi. Bir dəyqə diyanan döol. Bı kəl də, o vaxdı kəl işdənirmiş axı, şum sürüllərmiş, taxıl əkillərmiş. Hamısı bı kəlnən, heyvannarnan görülürmiş da. Arada açıp bı heyvannara bir dinşdih vermillərmiş. Bı keçən çamaat da, gəlmələr də deep ki, a bala, heyvana bir dinşdih ver da, yazıxdı, bir isdirahət eləsin. Ona görə başqa kətdərin camaatı deermiş ki, a kəl, səni sataram Qarabakqala, müsəlman üzünə həsrət qalarsan. Yəni müsəlmanşılıxdı da, aç, heyvanı bırax, bir əz dincəlsin. Gecə-gündüz yatmiyıp işdiyillərmiş. Heyvana da dinşdih vermillərmiş. İşdəmiyən, təmbəl heyvannara təbirən deyilip. Dinnən heş bir bağlılığı yoxdu (S:7; T:1).

***

İki adam bir-biriynən söhpət eliyəndə "bəlkə" deyəndə o biri deer: Bəlkəən əkiplər, bitmiyip. O, bəlkə döör, bəlgədi.

Bəlgə* – iki qonşuun sahəsiin arasında olan tirə. Bəlli eliyən bəlgə olur. O tirə ayağaltı, tapdax yer olduğuna görə nə qədər əhsən də, heş nə bitmir. Tapdanır axı (S:14, T:1).

***

Bir qozbel səfərdən şəhərinə qayıdır. Gec gəldiyi üçün şəhər qapısı bağlı olur. Şəhərdən kənarda bir xaraba hamam varmış. Bu adam gedib orada gecələmək issiir ki, şəhər qapıları açılsın, şəhərə varid olsun. Gecə səs-küyə ayılır. Görür ki, cinlərin toyudur, halay vurub oxuyurlar:

Şənbədi, hay, şənbədi,
Şənbədi, çərşənbədi.

Cinlər oynaya-oynaya bunu da dəstəyə qatırlar. Bu da oxuyur, şənlənir. Cinlərin bundan xoşu gəlir və belindəki xozu (qozu) götürüb taxçaya qoyurlar. Onun beli düzəlir.

Səhər açılır və o, şəhərə daxil olur. Onun kimi bir qozbel də var idi. O görür ki, bu qozbel şax yeriyir. Ona deyir ki, sən filankəs deyilsən? O da deyir ki, bəli. Soruşur ki, necə oldu belin düzəldi? O da əhvalatı danışır. Bu qozbel də deyir ki, mən də gedəcəyəm oraya. Və gedir həmin xaraba hamama.

Yenə gecə cinlərin toyu imiş. Bunu da salırlar halaya və oxuyurlar:

Şənbədi, hay, şənbədi,
Şənbədi, çərşənbədi.

Qozbel deyir ki, yox bu gün cümədi (doğurdan da o gün cümə imiş). Cinlər deyir çərşənbədi. Qozbel deyir, yox, cümədi. Cinlər hirslənib o kişinin xozunu da qoyurlar bunun belinə. Beli bir az da əyilir.

Səhər qayıdır şəhərə. Beli düzələn deyir ki, bəs sənin belin bir az da əyilib ki. Qozbel də əhvalatı danışır. Beli

düzələn deyir: ay zalım oğlu, noolardı, sən də çərşənbə deyərdin, dilin quruyardı?!

İndi birinin dərdinin üstünə dərd gələndə deyərlər: Xozunun üstünə xoz qoyub.

***

Gecə qoyun qovurması,
Gündüz təsbeh çevirməsi.

Bir nəfər yalançı mömin olur. Daima əlində təsbeh çevirir, zikr eləyirmiş. Gecələr də oğurluğa gedirmiş. Kiminsə qoyununu oğurlayıb, gətirib kəsib, gecə qovurma qovurub yeyirmiş. Səhər yenə təsbeh çevirib, zikr eləyirmiş. Ona görə deyirlər ki, gecə qoyun qovurması, gündüz təsbeh çevirməsi (S:36; T:3).

# XALQ DEYİMLƏRİ

Sənə elə söz deyərəm yeddi qatınnan keçər.
Sənə elə söz deyərəm, dəymişin durar, kalın tökülər.
Sənə elə söz deyərəm, düz yoluu əyri gedərsən.
Sənə elə toy tutaram, dədöön toyu yadua düşər.
Sənə elə toy tutaram, gəldiyin yolu tanımazsan (S:3; T:1).

***

Bacılar həmişə qardaşdan ötrü yanır. Qardaş deellər ki, qar, daş, yəni qar kimi soyux, daş kimi bərk.

***

Bizdə deyim var ki, nəyəsə israfçılıx eliyəndə deelər ki, ilan ilannığıynan torpağa qənayət eliyir ki, qurtarar.

Elə bil qulağıın dibinə daş vırıplar (bərk yatan adamlar haqqında deyillər) (S:7; T:1).

***

Müxtəlif məsəllər var ki, bizim Göyçay ərazisində çox işdənir. Məsələn, dərd dərd üssən gələndə belə deyillər: Beş də beş üsdən. Və yaxud da kimsə varranırsa, dalbadal yaxşı imkanı yaranırsa, onun haqqında deyillər: elə bunda beş var idi, yenə beş də beş üsdən qazanır.

Bunun bir variyantı da var: Qar qar üsdə yağar.

***

Sifəti gözəl olan qızdara, qadınnara, uşaxlara deyillər qoğalı göyçəy. Bu cür – sifətdən gözəl oğlannara isə zənənə gözəl deyillər.

***

Dedilər, ac oğlu ac, dedi, oldu, yimədim? (S:8; T:1).

***

Dünyanın ucu qalıp, insannarın bici qalıp (S:10; T:1).

***

Bizdə çoxbilmiş adam hakqında deyillər ki, qurtdu, qoyun dərisinə girip.

Yaxut da deyillər ki, dooşanı arabeynan tutur.

Gizzin iş görməy isdiyən adama qıraxdan görənnər deyir: dərə xəlvət, tülkü bəy.

Dəvə gözün yumup girdi pambıxlığa, dedi, heş kim məni görmür.

Adam hirsdi olanda deellər ki, gözdərinnən qan damır. Ya da deyillər, çırtma vırsan, qanı tökülər.

Avara, tüfeyli adam hakqında deyilir: səhər gedir naxıra, axşam qayıdır axura.

Söz çürüdən adama deyillər: tutub ucunnan gedir ucuzzuğa.

Belə atalar sözü var: qonağa get deməzzər, altınnan palazı çəkəllər.

Arxı tullan, soora bərəkallah de.

Yaxşı arvat kişinin üzünə baxmaz, sözünə baxar.

Gooru var ki, kəfəni də ola?

Nadir şahı taxdda görüp, Şah Abbası qundaxda.

Niyyətin hara, mənzilin ora.

Sayanın quluyam, saymıyanın ağası.

Tikan olub əyağa batınca, gül ol, yaxıya sancıl.

Uman yerdən küsəllər.

Hələ quyruğu qapı arasında qalmıyıp (çətinnih görmiyip, yekə-yekə danışan adam hakqında deyillər).

Ya da deyillər: başı daşa dəymiyip.

Çatana çatır, çatmıyana daş atır.

Pisliy eliyənə deyillər: işıx gələn yerə barmağın dirədi.

Nə qanır, nə qandırır.

Vıran igid dayısına gənişməz.*

Tutan it hürməz.

Qılıxlı min ev yiip, qılıxsız bir ev də yiyə bilmiyip.

Ev kimindi – oturanın, söz kimindi – götürənin.

Hər Məkgiyə gedən dəvə Hacı olmaz.

Hər oxuyan Molla Pənah olmaz.

Qooşuun muncuğun götürən ancax gorda taxar.

Qooşu payı dolu gələr, dolu gedər.

Qonşuun iti qooşuya hürməz.

Səbirsiz adama belə deellər ki, anaan qarnında necə qalmısan?

Çox əziyət çəkəndə deyillər ki, anadan əmdiyim süt burnumnan gəldi.

Analı qızın özü böyüyər, anasız qızın sözü böyüyər.

Anasızın gördüyü iş dannaxsız bitməz.

Qonşu hakqında deyillər ki, anan-bacın kimdi? Deyir ki, yaxın qooşum.

Atannan atamı deyincə, özünnən özümnən de.

Atan soğan, anan sarımsax, sən hardan oldun gülbəşəkər.

Qız evlərdə tanınar, ipəh dəzgahda.

Qızım, sənə deyirəm, gəlinim, sən eşit.

Uşağ atadan yox, anadan yetim qalar.

Ananın səbri çox olar.

Uşağ atasın hamıdan güjdü bilər (S:12; T:1).

***

Çayırrıxda çayır bitgisi çiçəy açır. Oon çiçəyi uzunsov olur. Onu dərip salırdıx burnımıza. Əlimiznən də vırırdıx, deerdih:

Axdaxana,

Bırnım, qana.

Kəs başımı,
Yolda qana.

O qədər deerdih bını, o çiçəh də dəyirdi içərdə bırına, bir də görürdüh bırnımız qanadı, şarratan qan açıldı.

***

Yemlih, yemlih, dombal, çıx.

***

Bir şey itəndə deerdih, şeytan, şeytan, tap, qoy. Təkrar-təkrar deerdik, guya şeytan da tapıp qoyurdu.

***

"Fatma xala" cüjüsün qoyurdux ocumıza, deerdik, Fatma xala, dooğa bişən yerə get, Fatma xala, dooğa bişən yerə get. Hansı tərəfə uçurdusa, deerdik, hə, orda dooğa bişirillər (S:13; T:1).

***

Bir arvat çox ərə gedipbiş. Bınnan soruşullar ki, neçə kişiyə ərə getmisən? Deer ki, fındığ alan, qoz satan, irəhmətdih səən atan, bir də bı köndələn yatan.

***

Qızı bələ, qara bassır, oğlanı bələ qora bassır. Qor – təzə sömmüş ocağın külünə deyillər. Orda hələ ocağın issisi qalmış olur. Qızın canı bərk olur. Oğlan uşağı zərif olur, gec böyüyür.

***

Böyüklər deep ki, qızı beş ayında qax, otursun, oğlanı altı ayında öp, otursun.

***

Qız gündə bir arpa boyda, oğlan bir bığda boyda böyüyür. Qız uşağı tez yetişir.

***

Nənəmnən eşitmişəm ki, bir qadının yeddi dəfə uşağı düşərsə, onda ona cəhənnəm odu yoxdu. Deer, cəhənnəmin yeddi külfəsi var. Deer, o düşügün hər biri gəlip durur o külfəən qarşısında, qoymur ananı cəhənnəmə getməyə.

***

Siçana dellər, bı deşihdən çıx, gir o deşiyə, sənə min tümən verəcəm, deyir mənzil yaxın, qiymət ağır, burda nəsə bir hikmət var (S:14; T:1).

***

Kətdə cavan qız rəhmətə gedip, ailə qurmıyıp da. İndi ağlaşmada onu deeb ağliyıllardı kı, öy tikip öyümmüyüp, yüh yığıp söyümmüyüp.

***

Nooruz bayramında bı dişi olmıyan yaşdı qadınnar qoorğanı əzirdilər həvəhdəssədə. Oun hamı qaşıxnan qoodu ağzua qoyannan soora zarafatyana bir-birinə deerdi ki, bir “Alpout” de görüm. O sözü deyən kimi ağzındakı qoudun hamısı pusgürüp dağılırdı.

***

Bı Loğman dediyimiz həkim, əslində oun adı Loğman olmıyıp, Luqman olup. O qədər savatdı, elimli olup ki... Amma savatdı olduğu qədər də eybəcər olup sifətdən. Ona bir nəfər, hər keçəndə eybəcərriyinə lağ eliyirmiş. Bir dəfə də

helə lağ eliyəndə deer ki, sən məə lağ eləmirsən ey, sən Allahın yaratdığına lağ eliirsən. O da birbaşa Allaha lağ eləməhdi da.

Bir misal var ey:

Özüm pisəm, Allahıma gül,
Paltarım pisdi, dərzimə gül (S:15; T:1).

***

Cijimnən eşitmişdim ki, bir gəlin olur. Bı qaynənəsin issəmir da. Bı aşı bişirir. Qaynəniyə pay çəkəndə altdan daş yığır, üssən aş. Ana da hər dəfə öz-özünə deer: üssü aş, altı daş. Oğlı soruşur, ay ana, nədi ey, elə həmişə deersən, üssü aş, altı daş? Ana dimmir. Bir gün belə, beş gün belə. Axırı bir günnərim aş bişip gəlir ortalığa. Oğul anasıın aşın götürüp qoyur öz qabağına yiməyə. Bir qaşıx vırır, iki qaşıx vırır. Üçüncü qaşıxda görür ki, hə, daşdar çıxdı. Deer, hə, anam ona görə deermiş, altı daş, üssü aş (S:18; T:1).

***

Birinə deellər ki, qızın anası yaxşı adam döör, narahat adamdı, alma. Atasıın sözünə baxmırmış. Bı bir gün atı götürüb aparır bulağa sulamağa. Qız da orda olur. Atı sulıyan atı döyür. Qız deer, niyə döörsən, oğlan? Deer, onun anası o ağaca çıxırdı, bı da çıxmalıdu. Qız deer, onda döy. Anası çıxan ağacı balası budağ-budağ gəzər (S:22; T:1).

# NAĞILLAR

## ŞAH ABBASIN NAĞILI

Günnərin bir günü Şah Abbas yenə Allahvərdi vəzirnən ölkəsini gəzməə çıxmışdı. Bir qədər gəzənnən sora gəlib bir kəndə çatıllar. Əyax saxlib görüllər ki, bir qoca kişi xəndəy atır.* Çatıllar mına, salam-əleyküm. Deer, əleykümətssalam və rəhmətüllahü və bərəkatül. A qoca, neyniyirsən? Deer, xəndəy atıram. A kişi, bəs doqquzu vurdun, üçə çatmadı? Dedi, otuz iki qoymadı (Hə, otuz iki qoymadı).

– Kişi!

– Bəli.

– Uzaxdasan, yaxında?

Dedi, bəyağdan uzaxdeydım, indi yaxındıyam.

– A kişi?

– Bəli!

– İkisən, üç?

Dedi, bəyağdan ikiidim, indi üçəm.

– A kişi?

– Bəli!

– Qaz göndərsəm, yona bilərsən?

Dedi, elə! Dedi, əgər? Ə kişi, dəliyəm bəgər. Götdülər, getdilər. Bir qədər gedənnən sora gəlib bir əkin yerinə çatıllar. Əyax saxladılar. Gördülər bir kişi cüt əkir. O başda da ho-ho öküzü saxliyır, nəysə gedir qulağına deer, bu başda da.

– Salam-əleyküm, salam-əleyküm. Allah quvat versin!

– Avatuz xeyir olsun, avatuz xeyir olsun!

Addiv gedir. Gedillər, ha gethaget, gethaget. Gedib göör ki, kətdən-kəsəhdən çıxdıx, aralandıx, biyavan, düz... Düzdü. Yol gedir. Ama heş kət deyən şey yoxdu. Çıxıb gedir (Şah oğlu Şah Abbasnan vəzir Allahvərdixan dərbiş donunda gəzillər daa, görəh neçə güzəran elir əhali). Nəsə qarannıxladı,

nağayırdı. Bılar gördülər bir uzax yerdən, uzax bir məsafədən işıx gəlir. Dedi, vəzir Allahvərdi, o uzax yerdən o işıx bekarə yerdən döör. Nə o kətdi, nə binədi, ya nədi, ahırı işığa gedəh da! Dedi, gedəh da, Allaha pənah, işığa gedəh.

Düşdülər yola. Getdilər, çatdılar o işığın yaxınnığına. Gördülər ki, böyüh binadı. Ha yavaş-yavaş, ha yavaş-yavaş, getdilər (Ədə, it olar, nə bilim mən, nə bilim, bizi döyəllər, fılan, hmm). Çatallar, bılar görəllər ki, pəncərədən baxallar, görəllər ki, üş dənə loti tüəngi söykib kart oynillar. Ama formasınnan bıra meçitdi.[15] Nə bilim, gecəni yarıdan keçirdillər, nağayrıllar.... Deer, ayə, ay zalım oğlannarı (bir-birinə), adə, dayı sabahdı (Üş dənə lotudu da!). Der, bəs gedəh, durun əğa gedəh. Bir-birinə deer, saallah, gəlin bir əhd eliyəyin. Bılar da pencərəən qısılıb börünnən baxıllar. Deer ki, deyin da. Deer (lotulardan biri), məəm nıxdıma* bir şey gəlib. Səən canuçün, bı ant məm üzərimə qənim olsun, sabeynən çaara məə Şah oğlu Şah Abbas, iki yüz manat mənə pul vərə, deyə ki, zalım oğlu, get başu saxla, pılı sənnən dayı issəməcəm, bı ant haqqı, mən bı tüəngi tulliyıb day mən bı lotuluğu eləmərəm. Geeb onnan çax-çux elib, alvər elib başımı saxliyaram. Əyə, nə bilim, gecə yarıdan keçib, qorxumuzdan kəndedəmmirık. Allahın öyündə oturub kart oynirıx. Bı da işdi?! Lap nifrət elirəm mən bı işimizə. Bəli, bı belə dedi. Ayə, indi sən de də, görəh nə dersən? Dedi, ə, (ikinci lotu) sən öləsən, bı mən öliim, Şah oğlu Şah Abbas məi çağıra sabeynnəri, mənə bir dəs yəhər-əsbab, yaxşı bir nasdayaşi at, onun üssündə paltar – xurom sapox, çərkəzi papax (hə də, formalı), əlimə tatarı, deyə – lotı, get, nə bı atı, nə bı paltarı sənnən issəməcəm, mən bı haq-hesabı qoyaram yerə. Eləmərəm day bu lotuluğu, bəsdi! O atınan belə sağa-sola vuraram özümü, dolanaram. Bı da belə əhd eliyir. Üçüncüyə nobat düşəndə deer, mən də deyəcəm. Deer, de. Deer, sən öləsən, qardaşdarım, özüm ölüm, bir on, on beş gün

bunnan qabağa o Şah oğlu Şah Abbasın paytaxtının qabağınnan keçirdim. Ə kişi, onun ailəsi çıxdı eyvana, əyə, vijdanım haqqı, hayıl-mayıl oldum, yaxşıca özümnən getmişdim, biyabır olacağdım (Darvazanın qabağınnan keçirmiş). Adə, aynangünnən əlləşir e, bah-bah, nə qədər adam gözəl olarmış. Onu bircə gecə mənə vərə, onnan bir gecə elə həmsöpət olam, əyə, bı ant haqqı, bı işi işdətmərəm, dayı bəs eliyər məçün.

– Qutarduun?

– Qutardım.

– Ayə, tüəhləri elə bırda qoyın, gedəh.

Deer, yox ə, aparax, hər kəs atar da haraysa, çıxah gedəh. Çıxıb gedillər. Bılar gedənnən sora şah bir təər özünə gəldi. Dedi, ayə, vəzir Allahvərdi, girəh bir hour bırda yatax. Girir, yatıllar bırda.

Açılır sabah, üzuza xeyir açılsın. Düzəlillər yola. Az gedillər, çox gedillər, sözüm yox, gedib çıxır, qırmızı geyinir çıxır taxta.

– Vəzir Allahvərdi!

Dedi, bəli! Deer, bax getdih bir qociya çatdıx. Deer, bəli. Qociya dedim, salam-əleyküm. Dedi, əleykümədssalam və rəhmətüllah və bərəkatül. O məna nə mənasın vərir? Dedi, qibleyi-aləm, heş məəm ağlım özümdə olmadı, yalan deyərəm, deyə bilməcəm, mənasın deyəmməcəm. Yaxşı, sora çöördüm ona mən ki, kişi, nağayrırsan? Dedi, xəndəy atıram. Mən ona dedim ki, doqquzu vurdun, üçə çatmadı? O saatda elə ağzımnan çıxan kimi cavab verdi ki, otuz iki qoymadı. Onun mənası neydi?

Dedi, deyəmməcəm, onda da ağlım özümdə olmadı. Sora onnan soruşdum ki, uzaxdasanmı, yaxında? Cavab verdi, bəyaxdan uzaxdeydım, indi yaxındiyam. Bunun mənası nədi? Dedi, deyəmməcəm. Dedim ona ki, ikisən, üç? Dedi, bəyaxdan ikiidim, indi üçəm. Oon mə'nası nədi? Dedi, vallah, deyə

bilməcəm! Sora ua mən dedim ki, qaz göndərsəm, yona bilərsən? Dedi, elə! Mən ona dedim: Əgər... O, mənə cavab verdi ki, dəliyəm bəgər?!

– Oon mənası neydi?

Dedi, deyə bilməcəm. Üş gün möhlət vər, onun mənasın gətirərəm. Üş gün möhlət vərdim, dedi, get! Gəldi bir yəhərqaş heybə* doldurdu qızılnan (Allahvərdi xandı daa!). Bir yəhərqaş heybə doldurdu qızılnan, keçirdi yəhərin qaşına. Hə, getdi gördü həhəhəhdi, yazıx xəndəy atır. Salam-əleyküm. Dedi, əleyküməssalam və rəhmətül və bərəkatül. Dedi, kişi. Bəli! Dedi, mən sənə dedim salam-əleyküm, sən demədin əleykümə ssalam. Nədi, dedin əleykümə ssalam və rəhmətül və bərəkatül. Bu nə məna verir? Dedi, havayı döör, bala. Yəhərin qaşınnan qızılı götürüb cağğatan atdı xəndəyə. Dedi, kişi, bı yəhərqaş heybədi, iki gözü də dolu qızıldı, oğul-boğul yesən bəsindi, mənasın de! Hə, baxdı gördü, dourdan da yəhərqaş heybə dolu qızıldı. Dedi, oğul, məə çatıp dedin ki, Allahın mərhəməti səni üzərua, yəni salam-əleyküm o deməkdi ki, Allahın mərhəməti sənin üzərua. Mən də derəm, əleykümə ssalam və rəhmətüllah və bərəkatül. Və mənim üzümə, və sənin üzua, hər ikimizin üzünə, o mənanı verir. Hə, çox yaxşı. Kişi! Bəli! Bəs bırdan iki dərbiş keçib, sənə bir söz diib.

– Nə sözü, bala?

– Səə deeb ki, ə kişi, bəs doqquzu vurdun, üçə çatmadı? Sən demisən ki, otuz iki qoymadı. Bu nə məna verir, dərbişdərə belə demisən?

Dedi, ay bala, o mənə dedi ki, doqquz ay qazandın, bu üç ay qışa çatdıra bilmədin ki, sən bı qışın günündə əluu hoxura-hoxura* xəndəy atırsan, o deməhdi. Mən ona cavab verdim ki, otuz iki qoymadı. Otuz iki o deməhdi ki, ağzımda otuz iki diş var, yanı yedim, qalmadı, qazandığımı yedi, qalmadı, bu mənanı verdi o.

Bəs səə deeb, uzaxdasan, yaxında? Demisən ki, bəyaxdan uzaxdeydim, indi yaxında. O nə məna verir? Dedi, ə kişi, sən məni sual-caaba tutdun ki, o bu mənanı verir ki, o mənə dedi ki, uzağı görürsənmi? Yəni gözün görürmü səən? Mən ona cavab verdim ki, biaxdannan cahıl vaxtı görürdüm, day indi görmürəm, yaxını görürəm. Qayıtdı mənə ki, ikisən, üç? Mən cavab verdim ki, bəyaxdan ikiydim, indi üçəm. Yəni biyaxdannan iki əyağımnan gəzə bilirdim, indi hasa olmasa gəzə bilmirəm.

Hasanı yerə vırır, bı üç əyax oldu da! Bu da bu mənanı verir. O qaz ki var ha, o da sən idin, şah məəm yaama göndərib, mən də səən bütün qızıllaru əlinnən aldım, səə yonub bıraxdım.

Qutardı ordan, qayıtdı gəldi vəzir Allahverdi. Gəldi, salam-əleyküm, şaha.

– Getdin öyrəndin?

Dedi, öyrəndim.

– Necə, mən deyən kimi? Bı, bına pərt halda belə cavab vərdi, həə. Bı kişi də qızılına çatdı daa! Dayı xəndəyi bıraxdı.

Dedi, indi bir söz. Dedi, de. Dedi, bir cütcüyə çatdıx. Cütcü o başda da öküzün qulağına nəsə deerdi, bu başda da. Dedi, hardadı tapıb, götürüb, gəlirsən! Çıxdı getdi, gördü elə yazığ orda xışnan əkir. Ə kişi, salam-əleyküm. Salam, ay cütcü baba!

Dedi, bəli. Dedi, səni Şıxı oğlu Şah Abbas çağırır (Bına Şah oğlu Şah Abbas da dellər, Şıxı oğlu Şah Abbas da, bilinmir hansıdı). Dedi, ay sənə qurban olum, kişi, sən bir əməlli adama oxşirsan. Dedi, haa, bəs necə, dünyanın yiyəsi mənəm elə. Səni Şah oğlu Şah Abbas çağırır. Qatdı qabağına gətdi.

– Salam.

– Əleyküməssalam, ay cütcü baba.

Dedi, bəli. Dedi, iki dərbiş keçib sənin yanınnan, fılan tarixdə. Sən onda öküzü o başda da saxlib qulağına nəsə deer-

sənmiş, bı başda da. Öküz nə qanır, ya sən nə diyəsən? Dedi, qibleyi-aləm sağ olsun, öküz qanmır, düzdü, ancax yaradıcı qanır da! Yaradıcı bilir mən nə derəm. Dedi, onu məəm qulağıma deyərsəən? Dedi, necə demərəm? Deyərəm! Vəzir Allahvərdi xana dedi, sən keç oyanda diyan. Keşdi. Ağzın söykədi qulağına. Dedi, qibleyi-aləm. Dedi, bəli. Dedi, mən o öküzə deyirdim ki, sən haqqınan ol, haq səninəndi. Elə bu? Dedi hə, əlbəttə, bu! Sən haqqınan ol, haq sənnəndi.

– Haq nə deməkdi?

Dedi, haq yaradıcıdı da! Sən haqqınan ol, haq səni qoruyacaq. Şahın söz çox xoşuna gəldi. Dedi, kişi! Dedi, bəli. Dedi, gedirsən öküzu da, xışu da, evu da, onnan həş-beşuu,* hamısın satırsan. Bir ailəlıru götürüb gəlirsən bıra. Nəqqədərə ömrün var, gündə, hər sabah gəl mını məəm qulağıma de, bir dənə onnux qızılu al mənnən, get. Sən nə yaxşı gözəl söz deersənmiş! Odu ki, cütcünün əlacı kəsildi. Getdi, arvad, dedi, vətəni tərk eliyəsi oldux.

– Niyə?

Dedi, şah deer, gəl dahı məəm yanıma.

– A kişi, getdik, orda harda oturacix? Der, dayı Şah çağırır bizi. Day bının tikintisi az dör ki, verəcək birin, oturaciyıx daa. Öküzin satdı, xışın, ayının-oyunun,* hamısın talan elədi, satdı. Dedilər, ayə, bı cütcü dəli olub, bı nağayrır?!

Hər sabah gəldi, bı sözü bına dedi: “Sən həqqinən ol, həq sənnəndi”. Bir onnux qızıl aldı, vərdi, getdi (Vəzir Allahvərdi xan vəzir idi, ama cüt olullar da olar. Biri də vardı, vəkil). Vəkil baxdı gördü ki, adə, sən ölmiyəsən, bı cütciyə bı bir haq qoyub (Şıxı oğlu Şah Abbas), dayı bı vəkil, heş dayı sayılmır. Sabah obaşdannan arvadı durquzur ki, dur bir az təpitmə bişir. O cütcü babaan qonax gətirəcəm, xingal bişir. Yaxşı sarımsağqatıx zad, pendir düzəlt. Arvad bıları hazırramaxda olsun, vəkil nağayırdı. Getdi, ay qoca, ay-hay! Gördü cütcü gəlir.

– Xoş gəlmisən!

– Sağ ol.

– Əşşi, dur gedəh bizə.

– Əşşi, mən şahın hüzuruna gedəcəm.

Deeb, dur gedək bizə, mən də şahın yanına gedəcəm daa. Bizdə yiyəh, içəh, gedəh. Durdu üzün-əlin yudu, nağayırdı, dəssamaz aldı. Gəldilər bılara. Başdadılar yeyib-içməyə. Yedi, işdi, durdular düşdülər yola (Ayə, belə deyəh da, məhdəbə gedəcedilər daa). Asvalta çıxanda düşdü yadına ki, adə, mən şahın qulağına söz deyəcəm, ayə, bı sarımsağ-qatığı mən niyə yidim? Bı nə işdi? Mənim ağzımnan sarımsağ iyi vıracağ kişini. Allah, ayə, bı nə oyundu mən düşdüm? Gəldi,"salam". "Əleyküəssalam". Bəli, vəkil ordan otdu, oyannan (əlinən göstərir – top. A.Ə). Bı yaxınnaşdı bına. Belə ağzın bəyana tutub dedi ki, qibleyi-aləm sağ olsun, sən haqqınan ol, haq sənnəndi. Vəkil ordan qaq-qaq-qaq-qaq glildü. Vəzir Allahvərdi xan təəcüb elədi bı işə. Hə, şah özü də təəcüb elədi ki, ayə, bı vəkil nəyə güldü (Da bı ağzın bayana tutub boynin ardinan sözü qulağına deyəndə bı bəkil bərtdən güldü. İş aydın olsun daa). Hə, qızılın aldı, vərdi qızılın bıın, saldı yola (Vəzir Allahvərdixan iş qurcalir daa). Dedi, ayə, vəkil, nəyə gülürsən? Dedi, əşi, bə gülmim, nağayrım?! Görmürsən çölün bir cütcüsün sənin şahın nə təər qudurdub?! Boynunun dalinan dedi kişiyə sözü! Haa, dedi, vallah düz deersən, boynunun dalinan dedi. Nahax yerdən demədün. Dedi, ayə, qudurub da! Şah bılara heş ıə demədən, səni kimi (mənə işarə ilə – top. A.Ə.), vərəqi açıb qənşərinə, qələmi çaardıb başdadı yazmağa. Dedi, ayə, ged onu çaar, qaytar gəlsin bıra!

Vəkil gedib onu çağırıb, qaytarıb gəlir. Vəzir Allahvərdixana da deer ki, ayə, dur ged öz işua. Bını yaannan qour. Başdadı yazmağa Tiflisin başçısının üssünə (belə deyək daa): Bax bı kağızı yazıram sənə (Şıxı oğlu Şah Abbas). Bı adam-

nan heş bir sual-cavab almadan, kağızı oxuyan kimi çəkib dar ağacının dibinə boynun vurdırarsan. Qatdib kağızı qoyub paketə, ağzın da müşəmbərriib* yaman.

– Cütcünü gətir, gətir (əllə işarə edir – top. A.Ə). Dedi ki, cütcü baba! Dedi, bəli!

Dedi ki, bəs elədi mənim qulağıma dedügün. Mənim Tiflis şahı dossumdu. Bu paketi aparıb verirsən ona. Bir il də bı sözü onun qulağına deersən. Qoy aylələrin elə bırda qalsın. Bir il də onun qulağına deersən, oradan gələrsən məəm yanıma. Aldı kağızı cibinə qoydu. Vəkil dedi, pah atoııan, kəçciyə bax! Sən öləsən, Tiflisin də başçısı bını taniyası oldu. Da mənə, day yer yoxdu, sən öl. Gecəni yatdı. Nə fıkirrəşdi (məni kimi), çox fikirrəşdi... Xülasə, durdu tərpəndi səhər tezzənnən kəndin əyağına, getdi diyandı. Gördü kişi gəlir. Salam-əleyküm! Ay əleyküəssalam! Əşi, bırda niyə durmusan, ay vəkil? Dedi, elə səən yoluu gözzirəm. Navar? Dedi, o paketi mən aparası oldum, sən yox. Ver o kağızı mənə. Dedi, həə, Allah səə köməy olsun, ala. Vərdi, gəldi. Gördü cütcü bıdee, gəlir. Salam-əleyküm! Dedi, əleyküəssalam! Bəs səə demədim ki, o kağızı apar, Tiflisə getginən, o kişiin qulağına de, niyə getmədin? Dedi, qibleyi-aləm, səə qurban olum, unu mənnən vəkil aldı.

– Niyə?

Deer, de ki, day mən gedəsi oldum, sən yox. Mən də vərdim ua, çıxdı getdi. Ha yox! Vallah! Dedi, kişi. Dedi, həə. Dedi, düz dersənmiş. Hay dedi, sən düz dersənmiş, sən haqqınan ol, haq sənnəndi, hmm. Dünən məəm qulağıma ağzunan niyə demədin sözü, boynun ardinan dedin, hay?! Dedi, qibleyi-aləm, o məni sabah namazı gəldi yerimnən durquzdu ki, gedəh bizdə yiyəg-içəh, sora gedəh şahlığa daa. Gəldih, gördüh ki, o xəngəl pişirib. Sarımsağı o qədərə əzib töhmüşdü qatığın, pendirin üssünə ki, taa olmiyan kimi. Mənim də ağlıma gəlmədi. Əvvəldən

yeyib, özümü pərgarriib* yolda gələndə yadıma düşdü ki, adə mən şahın qulağına söz deyəcəydim. Bəs indi deyərəmsə, nolar bı? İy gedər daa mənnən, sarımsağ iyi vıracaqdı səni. Ona görə ağzımı bayana tutdum, sənin qulağua o sözü elə dedim ki, mənim ağzımnan səni sarımsağ iyi vırmasın. Yoxsa, vallah-vallah, orda heş bir, yani başqa bir məna yox idi. Sənə sarımsağ iyi dəyməsin deyə belə dedim. Dedi, hə, kişi, indi bildim. Demişdilər ki, bəs sən haqqınan ol, haq sənnəndi. Kişi elə "sən haqnan ol, haq sənnəndi" – bını düz deersən! O kağıza mən yazmışdım, sən ora çatan kimi sənin boynuu dar ağacınnan assırıb, vırdıracaqdı. İndi onı vırdırası oldı, getdi qiyamata. Gündə gəl, de, çıx get. Deməli, o sənə quyi qazıbdımış. Doğrusu belə olub, dedi? Doğrusu, beb olub, vallahi-vallahi! Həə, odı ki, vəkil getdi, Tiflisə çatan kimi, kağızı oxuyan kimi, dar ağacın qurdırdı. Heş bir sual-caab eləmədən, assırıb, ordan vırdırdı boynın.

Həə, bir gün də fıkirrəşir, fıkirrəşir, dedi aə, Allahvərdi vəzir. Dedi, hə! Dedi, üş lotuya ras gəldik haa, gedirsən dedi, o lotuların üçün də tapırsan. Gətiməsən, səən boynu vurduracam. Gəldi, gəldi, çatdı kətxudan yaana. Həə, dedi ki, bala, bilirsən nə var? Dedi, bilirəm ki, onu bilirəm sən vəzir Allahvərdi xansan, Şah oğlu Şah Abbasın vəzirisən. Dedi, mən bı məniya gəlmişəm ki, səən kəndində üş lotu var, cərəkəsən.* Həmən o üş lotuun tapıb gətirirsən!

Bir adam göndərdi ki, get fılankəssəri çaar gəlsin. Üçün də çaatdırdı. Dedi, bərı bax, mən bilirəm siz (bizə məlumat gəlib), başqa yerdən çalıb-çapırsuz. İndi sizi şah oğlu Şah Abbas çaarır. Gedirsiz, görün Şah oğlu Şah Abbas, görün nə deer. Həə, Vəzir Allahvərdixan götdü bıları gəldi.

– Həə, Vəzir Allahvərdi, gəldin?

Dedi, gəldim.

– Lotuları gətimisənmi?

Dedi, hə.

– Dedi, çaar gəlsin. Gəldi, çağırdı. Dedi, ayə, filan tarixdə meçitdə üçuz kart oynamısuuz? Dedilər, həə, oynamışıx.

Orda biri-birüznən söhbət eləmisüüz?

Dedi, bəli, eləmişik. Dedi, and olsın bu taci-taxtıma, hansuuz düzgün sözü, orda dediyi sözü bırda desə, onun dediyi sözü haxlı eliyəcəm. Hasuz bir kəlmə, bu taci-taxt haqqı, yalan desə, bax dar ağacın görürsüüz, cəlladdarda görürsüz soyunub-çirmələnib, qılışdar da durub yanında. O dar ağacınnan assırıb, boynuzu da vurduracam. Ama ordahı sözü üçünüz də söhbət eləsüz, dedi, bırda düzgünün desüz, bu taci-taxt haqqı, onu hasil eliyəcəm. Dedi, vallah-vallah, nə danışmışıx, deyəciik.

– Hmm, deyin görüm, nə söhbət eləmisüz? O pıl issiyən utanmadı daa.

Dedi, qibleyi-aləm, vallah-vallah, belə əhd elədim ki, Şah oğlu Şah Abbas çaarıb mənə iki yüz manat pıl vərsə, bı ant mənim üzərimə qənim olsın, mən bı lotılığı qoyacam yerə.

– Ayə, xəzinədar (gəlir)! Xəzinədən iki yüz manat pıl vər ua. Həə, dedi, get.

– Sora olmiyacax haa, verəmmiyəcəm haa bını.

Şah dedi, elə bil atunnan qalıb, ama bir də eləmə ha, belə nadürüsdük eləmə, boynu vurduraram, get!

– Həə, sən.

Dedi, şah, qibleyi-aləm, mən səə yalan deyəmmərəm. Bı ant məm üzərimə qənim olsın, mən, nə desən, elə də deyəcəm, dedi. Dedi ki, şah məə çağırsa, bir gölüm issiyən nasdayaşi at, onun üssündə yəhər-əsbabı, yəhərinin qatarçını, o ata ləyax təzə bir dəs paltar, ayağımda xurom sapox, bir çərkəzi papax, yəni məni bir şahzadə kimi o ata mindirib, məni evimə göndərsə, bı ant mənim üzərimə qənim olsın, ömrümün axırınatən lotulux eləməcəm. Dedi, adə, bir dənə fılan tölədə olan atdardan lap

yaxşısın, birin ver, gəlsin. Ə, sən də get bir dəs paltar, ə, sən də get bir dəs xurom sapox, filan-bəsməkən, hmm, papaxçıya deer, bir papax, həə, xülasə buun da oturtdu ata. Dedi ki, şah, qibleyi-aləm, səə qurban olum, bını mənnən issiyesəən? Mənim yoxumdu haa! Dedi, adə, dədünnən qalıb, götü apar. Ama eləmə o işi haa, eləsən boynu vurduracam, bıa dedi. Baş üstə! Dedi hə, lotu sən. Dedi, qibleyi-aləm, mən dünyanın lotuluğun eləmişəm, dediyim sözü mən dala götürəndə bəs mən kişi olaram? Bir sabah bırdan keçirdim, sənin arvadın eyvana çıxmışdı, acca qaldı ürəyim getməyə. Dedim şah, bı ant mənə qənim olsun, onu bir gecəliyə mənə versin, mən onnan bir gecə söhbət eləsəm, mən dayı bı işi eləmərəm. Dedi, arvad (day nə desin). Dedi, hə. Dedi, bı gecə lotunun qucağındasan. Mənim gözüm üssə, şah, dedi, getdi. Gəldi hamamçıya dedi, hamamı qızzır. Bir dəs yaxşı kəsdum, alt tuman-köynək, mən nə bilim, nə, filan. Dedi hamamçıya, götü apar, öz paltarını soyunsun, yuundır, oları geyinsin. Qırx dənə əlinin altında kəniz var idi, “qırx qız”. Dedi, hərüüz bir yımırta boyıyarsuz. Qırx qızın yımırtasın yığın bir boşqaba. Biri sarı, biri qırmızı, filan, filan, nə bilim, bəsməkan, qırx qızın yımırtası, hərə bir dənə pişirsin! Hərə bir dənəsin pişirənnən sora yığdılar bir xonçiya. Yığdılar qızzar ortiya, qırx qız piləkannan çıxanda uyannan dönüb qayıdır şahın arvadı. Yuundu gəldi, lotu dəsmallandı, filan (qız da baxır), duxulandı, nağayırdı.

– Əyləş.

Dedi ki, əyə, bı yımırtaları görürsəən? İndi bı qırx yımırtanı ye, durax kefimizi çəkəh. Dedi, ay xanım, mını bir gürcü seyizinin dərisi tutmur (Seyiz keçidi, çobanın yanında, sürünün qənşərində gedən iç-dörd illih keçi). Dedi, mını üç-dörd illih seyiz dərisi tutmaz, mənim qarnım, dedi, bı qırx yumurtanı tutar? Tutdu-tutdu, mını mən yedim-yedim, part-part olmaram? Tay deynən səni öldürməy issirəm daa! Dedi, yoo, niyə olmır?

Adə, qırx yumurtadı da, bı bir şey döör ki, yeginən. Dedi, xanım, pox yemişəm, qələt eləmişəm atamın atasinan, mən bı sözü demişəm! Dur, baax, məni nəynən öldüreysən, dur öldür, ancax day belə yox! Bu qədər yumurtanı məıı yeə bilmərəm (Qırx yumurta zarafat döör ki). Dedi, köpək oğlu, sən öləsən, onu yedirdəcəm sənə. Əyər yeməsən, onun hərəsin bir qız boyiyib, qırx dənə kənizim var, çağıracam, olar elə hərəsi səə bir yumrux vursa, qırx yıımrux səə bəs elir. Səni yıxıb oların əyağıın altında döydürüb, döydürüb öldütdürəcəm. Yaxşısı bıdı, ye, başuu qutar mənim əlimnən. Dedi, xanım bacı, yox, elə deersən, helə yeəmməcəm! Gördii yoox, yeməcək, bın dayı ayrı yolu yoxdı. Dedi, adə zalım oğlu zalım, sən nə Allahın heyvanısan?! Bı qırx yumurtaan hərəsinnən bir fındıx qədərə yeyə bilərsəən? Dedi, həə. Dedi, qırx fındığı bir yerə topalasan, bir yımırta boyda olacax, lap olsın iki yımırta. Yiməhnən adam ölər? Hərəsinnən, deməli fındığın içi qədərə ye! Odu ki, qırx yımırtanın hərəsinnən bir fındıx qədərə yedi, oturdu.

– Qutardıın?

Dedi, hə!

– Nə dadı verirdi?

Dedi, yımırta. Dedi, ə, yalan niyə dersən, qızzarı çaarıb səni öldütdirəcəm, qırmızı yımırta sarı yımırtaan dadın vərər? Dedi, xanım, and olsun bu taci-taxtuza, bı ant haqqı, hamısı yımırta dadı verir. Dedi, ayə, (şkafı aşdı) dedi ki, bax gorürsən (cərgəcərgə durub şkafdakı paltarrar)? Şkafdakı paltarrarı gössərdi. Dedi, bı məəm əynimdəki paltarı görürsəən? Dedi, hə. Dedi ki, bı məəm öydəki iş paltarımdı. Səən arvaduun toy paltarınnan təmizdi, yaxşıdı. Dedi, mən bılardan geyib eyvana çıxıram, a kopolu! Get bı paltardan geyindir arvadua, sənin arvadun mənnən gözəl olacax. Niyə sən məə nəfs eliyırsən, bı paltardan geyindirmiyib, arvadınnan sən küsürsən? Sənin arvadın mənnən gözəldi. Get bı paltardan geyindir. Mən, bax bı paltarı geyib

çıxıram eyvana. Deer, gözəllih bax bı paltardadı, hmm, dondadı! İndi düş, kopoyoğlu, yolun altinan gəlmisən, üssünən, üssünən gəlmisən, altinan elə gedərsən ki, heş kəs səni görməz, kopoyoğlu! Sənin o paltaruu da təmizzib, kənizzər verəcəy özua. Düşürtdü, saldı yola. Bı yannan şah düşdü gəldi. Dedi, arvad, indi bildim ki, elə Şıxı oğlu Şah Abbasa ləyax arvadsan! Mən bı qədərə dünyiyə başçılıq elirəm, bı hadisəni bilməzdim.

*İndi, ay məllim, sənə canım qurban olsın, vallah nə bilim, deeblər, eşitmişih daa. Mən nə bilim, olub, olmiyıb bı sözzər.*

## ŞAH ABBAS VƏ CÜTÇÜ[16]

Günnərin bir günü Şah Abbas vəzirinən səyahətə çıxır. Çox gəzənnən soram bılar gəlib bir çöllüyə ras gəəllər. Şah göör ki, bir cütçü yer sürür. Yeri bir şum sürənnən sora hoha deeb, öküzün qulaana nəsə deer. Şah bınnan maraxlanmağa başdir. Göör ki, kişi bu dəfə də şumu başa çatannan soram əylib öküzün qulaana nəsə deeb, təzədən sürməə başdir. Bu iş bir neçə dəfə təkrar olunur. Şah başa düşür ki, burda nəsə var. Bılar qaydıb saraya gələr. Şah vəzrinə deer ki, vəzir, sən fikir verdinmi, kişi öküzün qulaana nəsə pıçıldirdı şumu sürənnən sora? Vəzir deer, şah sağ olsun, fikir vərdim, ancax başa düşəmmədim ki, bu nə hərəkətdi. Şah Abbas deer ki, bəs, vəzir, bu iş mənim yaman marağıma səbəb olub. O kişiin mütləq yaama gətiməlisən! Vəzir baş üssə deeb kişiin dalican gedir. Gəlib kişiin yer sürdüü yerə çatır. Göör ki, kişi işinən məşğuldu. Salam verib kişiyə deer ki, bəs şah səə yaana çaatdırır. Kişi fikirrəşir ki, mən bir cütçü babayam, şahın mənə nə işi ola bilər? Ona görə vəzirə deer ki, şah məə ninir? Vəzir deer ki, bəs şah sənnən bir şey soruşacax, oniçün səə çaatdırır. Kişi o saat yəqin elir ki, bırda nəsə başqa iş var. Bəli, hazırraşıb şahın yaana getməli olur. Bılar gəlib çıxannan sora şah cütçüyə

deer ki, kişi, sən yer sürəndə mən səə fikir vərirdim. Şumu başa çıxannan sora hoha deeb, kəlin qulaana nə söylirdin?

Kişi deer ki, şah sağ olsun, burda elə bir iş yoxdu. Mən kələ deerdim ki, öküzüm, sən haxnan ol, hax sənnəndi. Cütcüün bı cavabı şaha xoş gəlir və kişiyə deer ki, bu günnən sən sarayda qal. Heş nə iş görmürsən, hər səhər yanıma gəlib, həmən sözü məəm qulaama astadan deersən. Səə də hər gün bir qızıl verəcəhlər. Özün də yaxşı yaşıyesan. Kişi əvvəlcə etiraz eləməh issədi ki, şah sağ olsun, mən bir cütcü babiyam, məəm sarayda nə işim var?! Qoy gedim kəlimi sürüm, əkinimi əkim. Soram ürəyinə gəldi ki, şahdı, mərhəməti olduğu kimi qəzəbi də var, acığına gələr, əlinnən sağ qutarammaram. Nə isə kişi razı olur. Qayıdır öyünə, arvadına deer ki, arvad, bizə də bir qapı açılıb. Şah der, öküzuu, evi, əkin yerini sat, gəl mənə qulluq elə.

Bu minvalinən cütcü hər səər gəlib, həmin sözü şaha deeb, qızılın alıb gedirdi. Kişiin yaşayışı yaxşı, kefi kök, damağı çağ dolanırdı. Şahın da döləti günü-gündən artırdı. Cütciin hörmətinin artdığın görən vəkil mına paxıllığ elir. Bir yolnan kişini şahın gözünnən salmağa çalışır. Bir günnərim vəkil cütcüün evinə qonaq aparır. Qəsnən sarımsaxlı xörəh hazırradır. Bılar yiib-içənnən sora vəkil kişiin yola salır. Cütcü də ordan gəlib padşaha həmən sözü deməli idi (Yiməhdən boyun qaçırammamışdı kişi, onu evinə qonağ aparmışdı vəkil. Naəlac qalıb yemişdi). Bayannan da bı vəziyyətdə, ağzınnan sarımsağ iyi gələ-gələ bı sözü şaha nətəər deməliydi? Çox götür-qoy eliyənnən soram qərara alır ki, sözü padşahın qulaana yox, boyniin ardına, üzün başqa səmtə tutaraq desin. Vəkil də mını busırmış. İşi belə görən vəkil şaha deer ki, şah sağ olsun, bu cütcü qudurub. Əvvəllər sözü qulağına deyirdi, indi isə boynuuzun ardınnan deer. Şah fikirrəşir ki, vəkil doğru buyurur. O saat qərara alır ki, daa bı kişiin bırda saxlamağ olmaz. Mına əngəl açar. Şahın başqa

vilayətdə bir qardaşı padşahlıq edirdi (Şahın qardaşı Tiflisdə idi). Onun üssünə bir kağız yazır ki, bəs qardaş, səən yanua bir adam göndərəcəm. Yanua çatan kimi, sorğu-sualsız boynun vurdurarsan. Belə yazıb qutarannan sora şah kişiyə deer ki, bu kağızı filan məmləkətə, filan padşahın yanına çatdırarsan. O padşah məəm qardaşımdı. Bəssi məə qulluq gössərdin, indi gedib oon yanında qulluq eliərsən.

Cütcü kağızı şahdan alıb yola düzəlir. Vəkil işi belə görüb fikirrəşir ki, elə kağızı özüm aparıb qulluq gössərərəm, az bir zamanda dölətdi olaram da. Bın fikirrəşib, sabeyn kişi yola düşəndə qabaan kəsib deer: Bəs şah dedi ki, kağızı məə vərsin, mən özüm aparım. Sən bırda qal, şaha qulluq gössər. Şah belə buyurub. Kişi kağızı vəkilə verib, geriyə – şahın yaana qayıdır. Bir az keçənnən sora şah göör ki, kişi bıdı gəlib. Xəbər alır ki, bəs nooldu məəm göndərdiyim yerə getmədin? Kişi deer ki, şah sağ olsun, vəkil məə yolda saxliib dedi ki, şah əmr edib ki, kaazı mən özüm aparım, sən burda qalginan. Padşah fikir elir ki, vəkilin nə isə bir kələyi var. Oniçün də kişidən soruşur ki, kişi, bəs sən niyə o sözü məəm qulaama yox, boynumun ardinan dedin? Cütcü deer ki, şah sağ olsun, o günnərim vəkil məə qonax çaatdırmışdı. Özü də sarımsaxlı xörəh bişitdirmişdi. Mən də naəlac qalıb yedim. Soram fikirrəşdim ki, əgər ağzımnan sarımsağ ii gələ-gələ bu sözü səə desəm qəzəbin tutar. Oniçün də qulağuza yox, üzümü uyana tutdum, sözü boynuuzun arxasına dedim.

Şah göör ki, cütcüün heç bir günahı yoxdu, bılar hamısı vəkilin kələyi imiş. Soram deer ki, bəs o məəm qardaşımın yaana çatan kimi boynu vurulacax. Sən haxlı olduğua görə salamat qaldın. Doordan da, bu söz düz imiş: Sən haxnan ol, hax səninəndi!

## ŞAH ABBAS VƏ QİSMƏTİNİ TAPAN OĞLAN

Hər dəfə olduğu kimi, günnərin bir günü Şah Abbas gənə də öz vəziri Allahvərdi xanınan siyahətə çıxır. Bir qədər gəzib-dolaşannan soram gəlib bir çöllüyə ras gəlillər. görüllər ki, bir cahıl oğlan daşın üssünə başın qoyub yatıb. Altına da eşşəyin palanını salıb. Şah tez özünün möhürü vurulmuş bir kağız çıxarıb bu sözzəri yazır: Bu dünyanın işin necə issəsən elə də tuta bilərsən (Yəni, bu dünyada necə istəsən elə yaşiya bilərsən). Şah bir kağız çıxarıb üssündə bu sözzəri yazır, soram bına bir möhür də vurub qoyur oğlan başın qoyduğu daşın yaana (Oğlanın eşşəyi bir az aralıda otduyurdu). Bılar yavaş-yavaş çıxıb gedillər. Bir az keçənnən sora oğlan ayılır. Durub aağa gərnəşir. Sora o tərəfə-bu tərəfə boylanır. Aşaı əylib palanı yığışdırmax issiyəndə göznə bir kağız sataşır. Tez kağızı götrüb o tərəfinə-bı tərəfinə baxır. Üssündə Şah Abbasın möhrün görəndə lap çaşıb qalır. Başdir oxumağa: Bu dünyaan işin nə təər issəsən elə də tuta bilərsən. Oğlan o saat başa düşür ki, Şah Abbas bı tərəflərdə olub və kaazı da o yazıb, qoyub. Bı bir az fikrə gedənnən sora qərara gəlir ki, aparıb eşşəyi satsın, özünə əyin-baş alsın. Helə də edir. Eşşəyi bazarda dəyər-dəyməzinə verir. Gedib özünə bir dəs yaxşı bəyzadiyə məxsus paltar, papax alıb geynir. Hər tədarükün görənnən sora uzax səfərə çıxır (Geyim bını elə dəyişdirir ki, lap bəyzadiyə oxşirdi). Görən, tanımiyan elə bilirdi ki, lap Şah Abbas oğludu. Bir qədər gedənnən sora gəlib bir karvansarıya yetişir (Oğlan Şah Abbasın yazdığı möhürlü kağızı əynində etibarlı bir yerdə gizzədir). Ətrafa göz gəzdirib içəri girir. Bırda mın görənnər bəyzadə kimi qarşilillar. Mına yer vərillər, qullux gössərillər. Karvansaradakılar elə güman elillər ki, bəs bı şah oğlu Şah Abbasın oğludu, təsadüfən gəlib bıların yerinə çıxıb, səyahət edərkən. Oğlan bıları inandırmaq üçün Şah Abbasın möürlü kaazını bırdakılara gössərir.

Sabeynnərim şəərə səs yayılır ki, şah oğlu Şah Abbasın oğlu bizim şəərə gəlib çıxıb. Mını eşidən bütün şəər əhli bir-birinə dəyir. Şəərin xanı şah oğlin görüşünə hazırraşır.

Xanın bir göyçəh qızı var idi. Nə qədər başqa vilayətdərdən issirdilər, addı-sannı xan oğlannarı, qız heş kimə məhəl qoymurdu. Özü də ağıllı-kamallı, tədbirri qız idi. Xan güman elir ki, ta qız bı oğlana ərə gedər. Çünki şah oğlu Şah Abbasdan böyük şahzadəyə ras gəlmiyəcəhki?! Bəli, xan öz adamlarinan oğlan qalan karvansariya gəlir. Oğlannan xoş-beş eliyənnən soram xəbər alır ki, bəs nətər olub, bizim yerrərə təşrif gətimisən. Oğlan caabında mına deer ki, səyahətə çıxmışdım, bəs yol azmışam, qoşun əhlindən ayrı düşüb bıra gəlib çıxmışam. Xan oğlana deer ki, heş fikir eləmə, bırdan bizə gedərik. Bir neçə günnən sora adamlarım səni atuun məmləkətinə çatdırar. İndi hazırraş, məəm qonaamsan.

Oğlan başa düşür ki, bı kişi şəərin hörmətdi adamıdı. Onunçün oon sözün yerə salmır və kişinən bılara gedir. Bı vaxtı xanın qızı sarayın pəncərəsinən çölü seyr elirdi. Bir də gördü ki, bıdı atasiin adamları kimisə təm-təraxnan saraya gətirillər. Yaxınnaşanda qız gördü ki, bı elə bir oğlandı ki, qızzar görən kimi tappadan ürəyi gedib yıxılar. Qız özün birtəər saxladı. Tez içəri keçib öz otaında oturdu. Xan oğlanın şərəfinə böyük ziyafət verir. Qonaxlıxdan sora xan nökərrərinə əmr elir ki, şah oğlunu ən yaxşı otaxların birinə aparsınnar, qoy dincəlib rahatdansın. Oğlanı bir yaxşı otağa gətirillər. Heş demə bı otağın da pəncərəsi düz xan qızının pəncərəsinnən üzüzə imiş. Səər oğlan yerinnən qalxır. Pəncəriyə yaxınnaşıb bayra baxmax issir. Bir də göör ki, qarşıdakı pəncərədən bir qız boylanır. Qız dööl e, mələkdi, mələk. Qız da biyaxdan oğlanı görmüşdü, indi də lap yaxınnan görür. Nə isə bılar bir könüldən min könülə bir-birinə aşığ olullar. Bılar xannan gizzin başdillar görüşməə. Aradan bir az keçənnən sora xan

bıların bı işinnən xəbər tutur. Xan çox sevinir, çünki, qızıın şah oğlu xoşuna gəlmişdi. Hər ikisi bir-birrərin issədiyini xana deellər. Xan toy tədarükü görür. Qıza hər cür desən cehiz verir. Soram üzün oğlana tutub deer:

– Əlbəttə, sən şah oğlusan, mən səə toy eliyərdim nə cür desən. Ancax qoy atan özü səən toyuu eləsin. Çünki şah xəbər tutar ki, onsuz toy eləmişik, acığı tutar.

Oğlan bı sözə razı olur. Xan bıları şərafətinən öz şəhərrərinə yola salır, xeyir-dua verərək. Yolda oğlan çox fikir elirdi. Bilirdi ki, bı işin üssü açılacax. Onunçün də qərara gəlir ki, hər şeyi olduğu kimi qıza desin (bir bəhanə axtarırdı). Qız xəbər alır ki, nolub, niyə bikəfsən? Oğlan bir dimmir, iki dimmir. Axırda qız bir də sual eliyəndə başdir əhvalatı əvvəldən axıra kimi qıza nağıl eləməyə. Sora da qızdan xəcalət çəkir ki, bəs sizi də allatmışam. Qız oğlana deer ki, ta hər şey keçib, indidən sora fikirrəşmək lazımdı. Bir halda ki, sən öz ağlınla, qabiliyyətinlə şah oğlunnan seçilmirsən, mən də səni bəyənmişəm. Sənin yaannan heş yana getmiyəcəm, sən hara gessən mən də ora gedəcəm, çünki məəm qismətimdəki sənsən.

Oğlan deer, bəs hara gedəh, nə təər eliyəh ki, bı işi bir yoluna qoyax? Bir tədbir de! Qız deer ki, eşitdiyimə görə Şah Abbas ədalətdi şahdı. Gedib əhvalatı ona danışax, bəlkə bizə irəhmi gəldi. Oğlan qıznan razılaşır. Bılar üz tutullar Şah Abbasın məmləkətinə (Qoşunun isə bı işdən xəbəri yox idi).

Bəli, az gedillər, çox gedillər, ahırda gəlib oğlanın vətəninə çıxıllar (Şah Abbas olan ölkəyə). Bı vaxtı şahın adamları oa çıxmışdılar. Görüllər, bıdı uzaxdan bir dəssə görünür. Qabaxda da bir oğlan atın üssündə oturub ki, deyərsən ki, Rüstəm Zalın özüdü. Bılar yaxınnaşıllar. Şahın adamları xəbər alır ki, bəs siz kimsuuz? Hardan gəlib, hara gedirsuuz? Oğlan caabında bılara deer ki, bəs mən Şah oğlu Şah Abbasın oğluyam. Çoxdan idi siyahətə çıxmışdım. Başqa məmləkətdə

yaşiirdım. Bı qız da arvadımdı, həmin məmləkətin xanının qızıdı. Bı qoşun da olarındı. Şahın vəzri də bırda idi. Həmin günü şah naxoş olduğunnan oa çıxa bilməmişdi, sarayda qalmışdı. Vəzir ağıllı adam idi. O belə fikir edir ki, yəqin Şah Abbas başqa yerə səfər eliyəndə kimnənsə evlənib və o arvaddan olan oğludu, indi durub bıra gəlir (Çünki şahın indiki arvadınnan züryəti yox idi).

Bəli, bılar ədəb-ərkannan oğlannan qızı saraya gətirillər. Şaha xəbər göndərillər ki, bəs gözün aydın, oğlun gəlib çıxıb. Şah bir qədər təəcüb edir ki, görəsən bı nə işdi? Şahın arvadı mını eşidən kimi hissənir və şahdan acığ elir. Şah arvadın sakitdəşdirir ki, arvad, bir diyan görək bı nə işdi? Arvad şaha deer ki, necə yəni diyanım, başqa məmləkətə gedəndə orada evlənmisən. İndi ordakı arvaddan olan oğlundu da gəlib sənin tax-tacua sahib olmağa.

Şah bı işə lap məətəl qalır. Çünki o bilirdi ki, oon belə bir oğlu yoxdu. Səbr elir, görsün bı nə işdi. Bıları yaana çaatdırır. Arvad da bı vaxtı içəridə idi, pərdə dalınnan qulağ asırdı. Şah xəbər alır ki, bəs deyin görüm bı nə işdi məəm başıma gətirmisuz?! Oğlan başdir əhvalatı əvvəldən axıra kimi, qız diyən qaydada danışmaa. Şah mına diqqətnən qulax asannan sora oğlana deer:

– Əhsən sənə ki, məəm adımı yaxşı qorumusan, ləkələməmisən. İndi sən dourdan da, məəm oğlum olmağa layixsən.

Bı vaxtı arvad da pərdəən dalınnan çıxıb, qızı baarına basıb qucaxlir və deer:

– Sən də bu günnən məəm gəlinimsən!

Şah görür ki, arvadı da işdən xəbərdardı, tez adam göndərib hər yerə xəbər saldırır ki, toy tədarükü görsünnər. Şah oğlinan gəlininə qırx gün, qırx gecə toy elir. Bı toyun sorağı hələ indi də ətraf yerrərdə danışılır.

## ŞAH ABBASIN NAXIRÇI QIZI İLƏ EVLƏNMƏSİ

Bir gün Şah Abbas vəzir Allahvərdinən ua çıxıllar. Qoşun da bıların arxasıcan gəlirdi. Bılar bir qədər gəzənnən sora gəlib bir düzənniyə çıxıllar. Birdən bıların qəşərinnən bir ceyran keçir. Şah tez əmr edir ki, ceyranı qoub vursunnar. Əgər kimin çiyninən başı arasınnan keçsə, onun boynun vurduracam! (Bılar ceyranı qoub ortalığa salıllar, dörd bir tərəfdən). Bı vaxtı ceyran Şah Abbas tərəfdən, başinan çiyni arasınnan siçriib qaçır. İşi belə görən əyannar şah tərəfdən qaşdığına görə heş kəs bı işi yernə yetirməyə cürət eləmir. Ceyranın qaşdığın görən şah adamlarına belə deer:

– İndi ki belə oldu, mən ceyranı axtarmaa gedəcəm. Onu tapmamış geri dönmiyəcəm.

Şah bir az qızıldan, daş-qaşdan götürüb, saray adamlarinan vidalaşıb yola düşür. Şah az gedir, düz gedir, gəlib dərin bir meşəyə çıxır. Birdən şah göör ki, bir xəlvət yerdə bir imarət var ki, mıın imarətinnən qat-qat yaxşı. Evin qabağında heş kəs yoxdu. Bir az o tərəfə-bu tərəfə boylanannan sora görür bir gözəl oğlan oturub imarətin qənşərində nə isə yazır. Şah yaxınnaşıb salam verir. Oğlan mıın salamın alıb yenə başdiir yazısın yazmağa. Şah xəbər alır ki, ey oğlan, sən nə yazırsan (Sən kimsən və burada nə yazırsan?). Oğlan cavab verir ki, mən bu gördüyün imarətin sahibiyəm və insanların qismətin yazıram. Şah deer ki, indi ki belədi, de görüm mənim qismətimə kimi yazmısan? O saat oğlan bir kitab açır, vərəqliib bir yerdə dayanır və qaydıb şaha deer:

– Sənin qismətua bir naxırçı qızı yazılıb.

Şah bınnan bir az pərt olur və hirslə oğlana deer:

– Sən gəl onu poz. Mən şah oğlu Şah Abbas ola-ola naxırçı qızı ilə ömr sürmərəm!

Oğlan şaha deer ki, heç elə şey ola bilməz. Yazıya pozu yoxdu! Mını deeb kitabı örtür. Şah özünnən çıxıb oğlana deer:

– Elə isə mən onu pozaram.

Mını deeb, şah qılıncını siyırıb issir oğlanı vursun. Bir də baxıb göör ki, bıdı oğlan yoxa çıxdı. Əvvəlki imarətdən də heş bir əsər-əlamət yoxdu. Şah bı işə lap məətəl qalır. Ətrafa göz gəzzirir, görür ki, bir biyabandadı. Başdiir yol alıb getməyə. Bir az gedənnən sora bir daxmaya ras gəlir. Daxmaan qapsın açıb içəri girir ki, bırda gecələsin (Axşam olduğunnan heş yana gedə bilmir). İçəri girəndə görür ki, bir qız yerdə uzanıb. Şah güman elədi ki, qız naxoşdu, çünki hərdən bir zarıldiirdi. Şah yaxınnaşıb xəbər alır ki, sən kmsən? Qız taqətsiz halda başın qaldırıb göör ki, içəridə adam var. Kim olduğunu təyin eliyəmmir və astadan deer:

– Naxırçı qızıyam, özüm də bərk naxoşam. Atam həkim dalican gedib. Siz kimsiniz?

Şah o saat yaman tutulur. Oğlanın dedikləri yadına düşür. Fikirrəşir ki, onsuz da xəstə qızdı, yəqin öləcəh. Qoy elə özüm öldürüm, heş kəsin xəbəri olmaz. Bı vaxtı çölün düzündə kimdi bıra gələn? Elə bı fikirdə şah qılıncın çıxardıb qızın qarnına soxur. Qız o saat dərinnən bir ah çəkib yuxuya gedir. Şah güman elir ki, qız öldü. Tələsik burdan uzaxlaşır. Gətirdiyi qızıllar, daş-qaşlar da yadınnan çıxıb bırda qalır. Sən demə qızın qarnında yara var imiş. Şah qılıncı qızın qarnına soxanda həmin yaraya dəyib deşilib. Bınnan da qızın mərəzi keçib. Bir az keçənnən sora naxırçı qaydıb gəlir içəri. İçəri girəndə əvvəlcə gözzərinə inanmax istəmir. Əlinən gözzərin oxalir, görür ki, hamsı doğrudu. İçəridə bir daş-qaş, bir ləl-cəvahirat var ki, gəl görəsən. Tez naxırçı qıza sarı gedir. Görür ki, qız sakit halda uzanıb, daha zarımır. Əvvəlcə elə bilir ki, ölüb. Yaxınnaşıb göör ki, yox, hələ ölmüyüb, nəfəs alır. Tez qızı oyadır və ondan xəbər alır ki, bı nə işdi, bı qızıllar hardandır, danış görək. Qız başdiir əhvalatı atasına danışmağa. Kişi diqqətnən qıza qulax asannan sora deer ki,

qızım, bu adam olmaz, bu Gözəgörünməzin işidi, biz kasıb bəndələrinə yazğı gəlib. Səhərdən həkim dalisican getmişdim, heş kəsi pulum olmadığına görə gətirə bilmədim. Allahın bizə rəhmi gəldi, sənin mərəzin öz-özünə yox oldu. Bu qədər də var-dövlət sahibi oldux. Atası qıza deer:

– İndi ki belədi. Qoy elə bir imarət tikdirəh ki, oon tayı-bərabəri olmasın.

Qız atasına qaydıb deer:

– Ata, bilirsən ki, bizim padşahımız çox zalım adamdı. Sonra xəbər alar ki, bı qədər var-dövlət sənə hardandı? Nəyimiz var tutub alar əlimizdən. Gəl gedib başqa vilayətdə məskən salax. Eşitdiyimə görə Şah Abbas çox ədalətdi bir şahdır. Gedib oon məmləkətində yaşiyax. Bəlkə oon bizə rəhmi gəldi.

Bəli, bılar bırdan yığışıb üz tutullar Şah Abbasın ölkəsinə. Az gedillər, çox gedillər, dərə-təpə düz gedillər, axırda gəlib bir gözəl mənzərəli yerə çıxıllar. Bu yer başdan-başa gülüstan idi. Kişi elə güman edir ki, elə Şah Abbas ölkəsi bıra olacax. Onunçün də qızna deer:

– Deyəsən sən deyən yerə çatmışıx. Çünki ədalətdi padşahın ölkəsi ancax belə gülüstan olar.

Qız kişinən razılaşır. Bılar bırda bir imarət tikdirirlər. Elə bir imarət ki, Şah Abbasın sarayı onun yaanda daxmiya oxşiir. Bəli, bılar bırda şad-firavan yaşamaa başdillar. Heş demə bura da Şah Abbasın qoruğu imiş. Bir gün şah vəziri yaana çaarıb deer ki, vəzir, çoxdandı qoruğa baş çəkəmmirəm, bir oraları yoxla gör nə var, nə yox? Vəzir şahın yaannan çıxıb, bir neçə saray adminan qoruğa tərəf yan alır. Şahın qoruğu şəhərdən xeyli aralı olduğuna görə tez-tez ora baş çəkə bilmirdi. Hərdən ua çıxanda bıralara gəlib çıxırdı. Vəzir gəlib qoruğa çatanda gözzərinə inanmır. Görür burda bir imarət var, bir imarət var ki, Şah Abbasın sarayı oon yaanda töliyə oxşiir. Bir ayağ saxliib ətrafa boylanır. Heş nə başa düşə bilmir (imarətin başı göyə

dəyirdi). Qaydıb gördüyünü olduğu kimi şaha danışır. Şah lap məətəl qalır. Bir qədər duruxur. Sora fikirrəşir ki, yəqin qonşu şahlardan hansısa məəm sərhədlərimdə qala tikdirib. Tez əmr elir ki, qoşun hazır olsun. Özü də qabaqda, vəzir də mın yaanda qoruğa tərəf üz tuturlar. Gəlib çatanda şah göör ki, bırda bir imarət var ki, şahın, bütün xəzinənin hesabına belə bir imarət tikdirə bilməz. Şah imarətin ətrafında fırranır ki, görsün bir adam-zad vaar? Xəbər almax issirdi ki, görsün bı imarət kimindi və nə cürətlə onun məmləkətində məskən salıb?

Bı vaxtı naxırçı qızı sarayın hündür bir yerinnən ətrafa tamaşa edirdi. Bir də baxıb gördü ki, evin ətrafın qoşub büriib. Özü də sarayın başına atın üstündə oturmuş bir göyçək oğlan hərrənir. İşi belə görən qız aşağı boylanıb soruşur:

– Deyin görüm sizə kim lazımdı və bırda neynirsuz?

Şah başın yuxarı qaldırır ki, görsün danışan kimdi. Yuxarı baxanda özün atın üssündə zorla saxliir. Göör ki, bı elə bir gözəl qızdı ki, hələ ömründə bu gözəllikdə huri-məleykə görmüyüb. Şah bir könüldən min könülə qıza aşığ olur. Şah qayıdıb qıza deer ki, sən de görüm burda nəkarəsən, məəm məmləkətimdəki bu imarət kimindi? Səsə naxırçı özü çıxır. Görür qoşun əhli sarayın ətrafını bürüyüb. Tez özü şahın qabaana çıxır. Kişi o saat başa düşür ki, elə Şah Abbas bı özüdü. Gəlib ədəb-ərkannan salam verir. Şah xəbər alır ki, bı imarət kimindi və mənim torpağımda nə cürətnən bını tikdiriblər?! Naxırçı deer:

– Şah sağ olsun, imarət mənimdi.

Şah deer:

– Nə ixtiyarla mənim torpağımda belə bir imarət tikdiribsən?

Kişi deyir:

– Şah sağ olsun, zalım bir padşahın ölkəsində yaşiyırdıx. Bizə gün vermədiyinə görə məcbur oldux vətənimizi tərk etdik. Qızım dedi ki, Şah Abbas adlı bir ədalətdi padşah var,

gedəh onun ölkəsinə. O, bizə sığıncax verər. Mən də qızın sözünə baxıb bura gəlmişəm. İndi ki, sən də bizi bırda yaşamağa qoymursan, biz burdan da çıxıb gedə bilərik.

Şah deer:

– Kişi, mənim torpağıma ümidnən gələn adam heş vaxt mənnən ədalətsizlik görmiib. Yəqin o pəncərədən baxan da səən qızındı, hə?

Kişi deer:

– Şah sağ olsun, nökərinizin qızıdı, bəli.

Şah deer:

– Elə isə mən o qıza evlənmək təklif edirəm. Əgər razısansa toyumuzu edək.

Kişi deer ki, izin versəydiniz qızla məsləhətləşərdim. Şah başı ilə razı olduğun bildirir. Kişi tez yuxarı qalxıb əhvalatı qızna açır və çöldəki şahzadənin Şah Abbas olduğunu söyləyir. Qız şahın həm göyçək, həm də ədalətdi olduğunu eşitmişdi, özün isə görməmişdi. İndi şahın özü öz əyağına bura gəldiyini görən qız öz qismətindən üz döndərmədi və atasına razı olduğunu dedi. Kişi tez sevincək həmən xəbəri şaha çatdırır. Şah əmr edir ki, toy tədarükü görülsün. Kişyə də deer ki, bu günnən sən də yığış məəm sarayıma.

Bəli, qırx gün,  qırx gecə toy büsatı başa çatır. Günnər keçir. Bılar çox mehriban həyat sürüllərdi. Ancax bir fikir şahı yaman narahat edirdi. Arvadının hansı ölkədən, kimin nəslindən olduğunu bilmirdi. Onunçün də öz şah nəslinə uyğun olub-olmadığı şahı bərk narahat edirdi. Qız da başa düşürdü ki, nəsə şah axır zamannar yaman fikirri görünür. Bir gün şahdan bıın səbəbin xəbər alır. Qız deer:

– Axır zamannar gözümə çox fikirri dəyirsən. Heş sən belə deyildin, nə olub?

Şah elə bir bəhanə axtarırdı ki, ürəyindəkiləri açıb qıza desin. Şah deer:

– Düzdü, biz evləndik, uzun müddətdi ki, bir yerdə yaşirıx. Ancax hansı ölkədən, kimin nəslindən olduğunu heş hələ məə deməmisən.

Qız deer:

– Bunu səə deməməyimin səbəbi sənin soruşmamağın olub. Bir halda ki, soruşursan, hər şeyi olduğu kimi sənə danışaram.

Qız əhvalatı olduğu kimi şaha danışır və axırda deyir:

– Mən öz qismətimdən heş vaxt boyun qaçırmamışam, bı qismət lazım olanda özü məni gəlib tapıb.

O saat şahın yadına naxırçı qızı əhvalatı düşür. Neçə vaxtı öz qismətindən qaçdığının mənasız olduğunu indi başa düşür. O da qayıdıb qıza həmən adamın özü olduğunu danışır. O günnən sora bılar daha şad-firavan, xoşbəxt yaşamağa başdillar.

## AĞILLI ZƏRRAF

Günnərin bir günü İran şahı Azərbaycan şahına bir at yolliir. Bu at Azərbaycan şahının çox xoşuna gəlir. Tez adam yolliib, zərrafa üzün tutub deer:

– O atı göörsən, uun məə İran şahı göndərib. Özü məbləğində də pul issir, qızıl pıl!

Zərraf atın bir o yaana, bir bı yaana diqqətinən baxıb şaha deer:

– Şah sağ olsun, bı atı almağuu məsləhət görmürəm.

Şah bı sözdən incimiş kimi olur. Zərrafa bir söz demiib, getməyini məsləhət görür. Soram oturub öz-öznə fikirrəşir: Mən bı zərrafı hardan tapdım ki, o da bı gözəllikdə olan atı bəyənmədi?! Heç elə şey yoxdu. Atı qaytaran-zad döörəm. Şah xəznədən atın ağırrığına bərabər qızıl ayırtdırıb İran şahına yolliir. Özü də qaravaşdara (mehdərə) əmr eliib deer ki, tez ata kişmiş versinnər. Xeyli vax keçənnən sora şah ata baxmağ issir. Mehdərə xəbər göndərir ki, bəs atı hazırrasın,

gəlir ua baxmaa. Şah gəlib göör ki, at nə at! Neçə vaxdı at kişmişdən yiib, olub kişmiş kimi. Şah mehdərə deer ki, yüəni keçirsin, atı minməy issir. Mehdər atı hazırriib şaha deer ki, bəs şah sağ olsun, at hazırdı, buyursun minsin.

Şah ayağıın birin qoyıb, birin götürüb atı bir təərinə minir. At bıdıha götürülür. Şahı o başa aparır, bı başa aparır, axırda çıxardır çölliyə. Hindi at daı diyanmax bilmir. At xeyli var-gəl eliyənnən sora yaxınnıxdakı gölməçiyə üz tutur. Elə şah atın üssünnən düşməə macal tappamış at gölməçiyə girir, sora başdir gölməçədə ağnamaa. Şah da palçıx, lil qarışıq gölməçədən bir təər çıxmaa macal tapır. Şah üs-başiin palçığı, suu süzlə-süzlə kor-peşman qaydıb gəlir sarayna. Şah bı işə lap məətdəl qaldı. Öz-özzüyündə zərrafın sözüün düz çıxdığın fikr elədi. Sora adam yolliib zərrafı yaana çaatdırır. Şah zərrafa deer:

– Sən məə düzün de, niyə o cürə atı bəənmədin, yaağın bir şey bilirsənmiş! Bildiyuu məə aç, de. Əyərlərim düzün deməsən bı saat cəlladı çaatdıracam bıra.

Zərraf bir qədər fikrə gedənnən sora qərara alır ki, sirri açsa yaxşıdı. Yoxsa şahnan zarafat eləməy olmaz. Bı şahlarda insaf-zad olmur, bir də gördün dediyin elədi. Zərraf deer:

– Şah sağ olsun, o atı mən görən kimi bildim ki, o at suya yatacax. Çünki onun mayalığı gömuş sütünün mayasınnandı.

Zərrafın caabı şahın xoşna gəlir. Əmr eliir ki, çörəhçiin bıra çaarın. Çörəhçi o saat hazır olur. Şah mına deer:

– Sən zərrafa gündə neçə çörəh verirsən?

Çörəhçi deer:

– Şah sağ olsun, gündə üş dənə.

Şah deer:

– Bı günnən zərrafın çörəyin dörd eliirsən.

Zərraf bını eşidən kimi əslahu[17] deyib, ordan uzaxlaşır.

Aradan xeyli vax keçir. Bir günnərim İran şahı gənə Azərbaycan şahına bir qarpız göndərir. Qarpız nə qarpız, gecə-gündüz

otuu, qarpıza tamaşa elə. Özü də qarpız elə ağır idi ki, qırx qaravaş zornan qalxızıb bir tərəfə qoydu. Şah yenə qərara aldı ki, zərrafı çaarsın görək bı işə nə deer. Bəli, adam yolliir, zərrafı çaarıllar. Zərraf içəri girib ədəb-ərkannan şaha baş əyir. Soram onı nə üçün çaatdırdığın soruşanda şah üssü qırmızı örtüklə örtülmüş məjməyiin zərrafa nişan verir. Zərraf arif adamıdı. O saat başa düşür ki, İran şahı gənə bına "bəxşeeş" göndərib. Şah qarpızın üssündəki örtüyü qalxızıb, qarpızı zərrafa gössərir. Zərraf qarpızı görən kimi qanı bərh qaralır. Öz-özünə fikirrəşir ki, bu bööhlihdə ölkəən şahı oyın-oyıncax işdərnən məşğuldu. Bı vaxtı zərraf lal-səssiz diyanıb tamaşa eliirdi. Şah dedi:

– Hə, zərraf, nə deersən, deyəsən qarpız xoşuna gəlir ha, oonçün bir söz tappırsan qarpızı pissəməyə.

Zərraf caabında şaha dedi:

– Şah sağ olsun, qarpıza bir sözüm yoxdu, ancax de görüm bı qarpızın şərti nə şərt olacax?

Şah dedi:

– İran şahı bı qarpız ağırrıxda qızıl tələb eliir.

Zərraf deer:

– Əər məə gəəşirsənsə bı qarpızı alma.

Şah bir qədər fikrə gedənnən sora özzüyündə düşünür: Gənə bı dəfə zərrafın söznə qulax verməcəm, görəh axrı nə olacax. Şah bı fikirnən zərrafı yola salır. Zərraf bilirdi ki, şah peşman olacax, oonçün də bir söz demədən çıxıb gedir. Şah əmr eliir ki, xəznədən bir muşux qızıl gətsinnər. Bəli, xəznədən bir muşux qızıl gətirillər. Tərəzi də hazır olur. Tərəziin bir göznə qarpızı qoyullar (Bu işi qırx qaravaş zornan görür). O biri göznə də başdillar qızıldan töhməə. Muşux tamam boşalır, amma tərəziin gözü qarpızın bərabərinə gəlmir. Şah əmr elir ki, ikinci kisəən gətsinnər. İkinci kisəən də boşaldıllar. Genə də düzəlmir ki, düzəlmir. Bı qaydinan otuz doqquz kisə boşalır. Padşahın xəznəsində cəmsi qırx kisə qızıl vardı. Şah göör ki,

tayı xəznədə qızıl qalmiyacax, oonçün də tez zərrafı çaatdırır. Zərrafa xəbər verillər ki, bəs şah səə çaarır. Zərraf o saat işin nə yerdə olduğun anniir. Oonçün də şahın hüzruna getməzdən əvvəl cibinə bir ouc torpax tökür. Soram gəlib çıxır şahın hüzruna. Şah zərrafdan xəbər alır:

– De görüm bı qarpızın sirri nədi ki, otuz doqquz kisə qızılnan onu bərabərə gətirməh mümkün olmiib. Əyər bı sirri açmasan ta xəznədə qızıl qalmiyacax, axırıncı – qırxıncı kisəni gətirtmişəm.

Zərraf heç nə demədən sakitcə tərəziyə yaxınnaşır. Sora nökərrərə əmr elir ki, tez tərəzinin gözündəki otuz doqquz kisədən otuz yeddisini boşaltsınnar. Belə də edillər. Tərəziin gözündə iki kisə qızıl qalır. Soram zərraf cibindəki torpağı çıxardıb muşuxlar olan gözə səpir. O saat tərəziin gözü bir bərabərdə diyanır. Hamı bı işə mat qalır. Şah da təcübünü gizzədə bilmir. Tez zərrafdan xəbər alır ki, bı nə olan işdi, məə başa sal. Zərraf deer:

– Şah sağ olsun, bı tərəziin gözündəki qarpız tağda əmələ gələn qarpız dööl. Bı zülmnən, göz yaşinan əmələ gələn bir qarpızdı. Oon içindəki də insan gözünnən başqa bir şey dööl. Oonçün də göz heş vax dünyadan doymur. Ancax onı doydurmax üçün bir acca qara torpax kifayət eliyər. Oonçün də mən belə etdim.

Şah tez əmr elir ki, çörəhçi gəlsin. Çörəhçi gəlib çıxır. Şah deer:

– Bu günnən zərrafın çörəyin bir dənə də artırarsan.

Zərraf bı sözü eşidəndə yamanca pərttəşir, ancax özün o yerə qoymur. Əslahu deeb, ehmallıca ordan aralanır. Şah göör ki, zərraf gənə bı sözü işdətdi. Odu ki, elə zərraf təzəcə düşüb getmişdi ki, dedi o zərrafı çaarın gəlsin. Bı saat zərrafın dalica çıxıllar, uun geri qaytarıllar. Zərrafı şahın buyruğuna gətiril-

lər. Şah diqqətnən zərrafa baxdıxdan sora əliin işarəsinən saray meydanına tərəf tutub deer:

– O dar ağacın göörsən?

Zərraf meydana tərəf baxmadan başın aşaı saldı. Şah söznə davam elədi:

– Əyər əsl mətləbi məə deməsən səə dar ağacınnan assıracam.

Zərraf deyəsən əsl mətləbi annamışdı. Amma gənə özün o yerə qoymadı:

– Şah sağ olsun, siz soruşun, mən də mətləbi sizə bəyan edim.

Dedi:

– Bayax saraydan çıxanda o söz nə idi dedin?

Zərraf gənə heş nə annamadığını qəsdən şaha bildirdi. Axırda şah dözəmmiib qeyzə gəldi:

– Zərraf, sən heş də küt adam döölsən, sözü də nahaxdan deməsən. Əyər məəm əslimə şübhə yerin varsa, aş de, yoxsa yalan demisənsə səə assıracam!

Zərrafın çıxış yolu yox idi. Hindi ədalət gücün tərəfindeydi. Onsuz da yalan desə də, düz desə də aqibəti pis olacaxdı. Oonçün də elə ölümə düz danışıb gessə dayı yaxşı olar (Zərraf bir neçə dəfə şaha "qibleyi-aləm sağ olsun, bıın mənnən soruşmiin, deyə bilməcəm" söyləmişdi). Şah söznə əlavə etdi:

– Yox, düzün danışsan günahınnan keçəcəm.

Zərraf sözə başdiir:

– Şah sağ olsun, əyər səən zatua şüpən varsa, bına sözüm yoxdu. Ancax iki dəfə səə ağıllı məsləət verdim, bı məsləətimlə iki dəfə xəznəni dağılmaxdan qorıdım. Hərçənd birincidə sözmə əhəmiyyət vermədin, amma nəticədə mən deyən doğru oldu. Bıın mığabilində sən şah kimi yox, çörəhçi oğlı kimi iş tutdun. Əyər sən həqiqətdə Ədil şahın oğlidınsa

məəm məsləətdərimin əvəzində məə qiymət verərdün. İndi isə zatua şüpən varsa, uun anannan soruş. Oon mən də bilməcəm.

Zərrafın sözünnən sora şahın öznə qarşı şüpəsi dayi da ço-xalır. Tez anasın yaana çaatdırır. Üzün anasına tutup sözə başdir:

– Ana, əgər mən həqiqətdə Ədil şahın oğliyamsa bırda camaatın yaanda aş de, yox əgər Ədil şahın oğlu olmiib, bir başqasiin oğliyamsa onda gənə aş camaatın yaanda söylə. Mən həiğəti bilməy issirəm!

Şahın anası qorxur ki, əhvalatı açıp desə şah ona qəzəblənər. Ancax dayı gizzətməyin mənası yox idi. Oonçün də əhvalatı düz danışmaa qərara aldı (Arvad bir neçə dəfə şah xəbər alanda ki, kimin oğluyam, demişdi Ədil şahın. Ancax şah təkid eliyənnən sora məcbur olub düzün danışmaa başdir).

Şahın anası sözə başdadı:

– Mən Ədil şahın arvadı idim. Şad-firəvan yaşirdıx. Ancax öladımız olmurdu. Bizim çörəhçimiz vardı. Oon da arvadı uşağ üznə həsrət idi. Bir gün çörəhçiin arvadı da, mən də hamilə oldıx. Qərara gəldih ki, əər bizim oğlumuz oldı – oldı, yox əyər qızımız olsa, oların oğlu olsa, dəyişərik. Çünki Ədil şah oğlan issirdi ki, şahlığa varis olsun. Elə də oldı. Çörəhçiin oğlı oldı, bizim isə qızımız. Söz vərdiyimiz kimi, çörəhçiin arvadinan bı uşaxları dəyişdih (Hadığımız* yox idi, bu işi xəlbətcə tutdux, heş kim də bilmədi).

Soram arvad üzün şaha tutub deer:

– O vaxtdan da sən Ədil şahın oğlu oldun.

Şah anasınnan xəbər alır:

– Yaxşı, bəs o çörəhçi hindi hardadı?

Şahın əmrinnən çörəhçiin oon hüzruna çaarıllar. Şah deer:

– Tez məəm anamı və Ədil şahın qızın bıra gəti.

Çörəhçi bı işə mat qalır. Sora şahın anasın bırda görüb işin nə yerdə oldığın annir. Çörəhçi şaha baş endərib çıxır. Bir

az keşməmiş arvad və qızinan bırda hazır olır. Şah üzün camaata tutub sözə başdiir:

– Camaat, bilin və agah olun. Mən bı günnən təx-tacdan əl çəkirəm. Ədil şahın əsl övladı çörəhçi qızı kimi tanıdığuuz bax bı qızdı. Oniçün də tax-tac qanunnan ona verilməlidi.

Hamı bı işə mat qalır. Heş kəsin inanmağı gəlmirdi. Hamı susıb durmışdı. Çörəhçiin qızı kimi tanınan şah qızı ağıllı oldığınnan şahın bı təklifinə razı olmır. O, şaha deer:

– Qibleyi-aləm sağ olsun, camaatı ağıllı-başdı idarə eləməh üçün təcrübə lazımdı. Məəm belə bir təcrübəm yoxdı. Oonçün də sarayda ağıllı, tədbirli, devlət işdərinnən baş çıxardan zərraf var. Yaxşı olar ki, dövləti qoy o idarə eləsin, siz də olun oon vəziri.

Camaat hamısı şah qızının bı təklifini alqışdadı. Bı şahın da xoşuna gəldi. Çünki tədbirri, ağıllı zərrafın vəzri olmax tədbirsiz şah olmaxdan yaxşıdı. Şah dedi:

– Mən bına razıyam. Bəs sən nə edəcəksən, axı əsl varisdih səə çatır?

Zərraf subay oldığınnan şahın qızınnan yaman xoşı gəldi. Həm də belə tədbirri qızın ona həiği ömür yoldaşı olacağına inandı. Oonçün də zərraf öz fikrini qıza açıb söylədi. Zərraf dedi:

– Ölkəni idarə eləməh təhcə bir adamın işi döör. Mınçün tədbirri, ağıllı ömür-gün yoldaşı gərəhdi.

Qız zərrafın ağlına bələd idi. Oonçün də oon təklifin rədd eləmədi. Saray əhli tez tədarükə başdadı. Bəli, qırx gün, qırx gecə məclis davam etdi. Bınnan sora zərraf öz tədbirri ömür yoldaşinan ölkəni ədalətnən idarə etməə başdadı.

*Məsəl: Əsil əsilliyin itirməz, bedasıla öyüd-nəsihət verərsən onu götürməz, söyüd ağacı nə alma, nə armud gətirməz.*

## ÜÇ QARDAŞ[18]

Bir vaxtar İnçədə üş qardaş olub. Bıların bidənə inəhləri varmış. Bir günnəri bıların inəyi yoxa çıxır. Böüh qardaş deer, gəlin axtarax. Bılar başdillar axtarmaa. Çöldə gəzərkən bidənə ləpir görüllər. Böük qardaş ləpirə diqqətinən baxdıxdan sora deer ki, bəs bı bizim inəyimizi oğurriyan adamın ləpiridi, özü də ucaboyludu. Ortancıl qardaş deer ki, bəs əgənnərim ucaboyludusa, rəngi də sarı olmalıdı. Kiçih qardaş da deer ki, əgənnərim ucaboyludusa, rəngi sarıdısa, onun gözzəri də göydü. Bınnan sora başdillar ləprin izinən getməə. Bir az getmişdilər ki, yolda bir adama ras gəəllər. Həmin adam yolnan bılara sarı gəlirdi. Qardaşların yaana çatanda görüllər ki, deylən üş əlamətin üçü də bı adamda var. Kişiin saxlillar ki, bəs sən bizim inəyimizi oğurramısan, bəs bı saat get gəti. Kişi deer nə inəhbazzığıdı, məəm heş nədən xəbərim yoxdı. Bılar çox deellər, kişi deer ki, bəs mən inəh-zad görməmişəm. Bı vaxtı yolnan bir yolçu (atdı) ötürmüş. Qardaşdar atdiin saxlillar, əhvalatı necə var ona nağıl elillər. Böüh qardaş deer ki, bəs inəyimiz itmişdi. Başdadıx axtarmağa. Axtaranda bir ləprə ras gəldih. Mən dedim ki, inəyi oğurriyan adam ucaboyludur. Ortancıl qardaşım dedi ki, əyər ucaboyludusa təngi də sarı olmalıdı. Kiçik qardaşımız da dedi ki, əyər ucaboyludusa, təngi sarıdısa, gözzəri də göy olmalıdı. Başdadıx getməyə, yolda bu kişiyə ras gəldih. Onda da bu əlamətdərin hamsı var. Bı kişi inəymizi vermir ki, vermir!

Atdı deer ki, siz dəli olubsuz, nədi! Bıninan da oğrin tappağ olar? Qardaşdar deer ki, bəs oğru bı kişidi ki, durub. Atdı yolçu onda bılara deer ki, cibimnən bir şey çıxardacam, əyəllərim bını tapa bilsuuz nədi, onda sizin sözuza şüpəm yoxdu, bı kişidən inəyuzu alın. Yo, əgər tapammaduuzsa, kişidən əl çəkin. Kişi əlində cibinnən bir şey çıxardıb qardaşdara deer ki, tapın görüm bı nədi? Böüh qardaş bir az fikirrəşənnən sora deer ki, o nədisə yumru şeydi. Ortancıl qardaş o

saat deer ki, əyər yumrudusa rəngi də sarıdı. Kiçik qardaş da deer ki, bəs yumrudusa, rəngi sarıdısa, özü də darıdı. Kişi əlin açıp bılara gössərəndə görüllər ki, dourdan da, bu yumru, sarı olan şey darı imiş. Soram bılara deer ki, sizə zaval yoxdı. Oğruun düz tappısuz. İnəyuzu bu kişi oğurrib. Həmin adama da deer ki, zəhmət çəh qardaşdarın inəyin qaytar (S:38; T:3).

## HAQSIZIN NAĞILI

Günnərin bir günü Şah Abbas Allahvərdi vəzirnən səyahətə çıxır. Bir az gəzənnən sora gəlib bir əyalətə ras gəlillər. Bırda bir az gəzənnən sora yolları bir məhtəbin yaannan düşür. Bılar bir səs eşidillər. Şah səs tərəfə çörülüb baxanda göör ki, bir oğlan uşağı dossuna deer:

– Ə, Haxsız, Haxsız dərvişə baxee (Şahla vəzir dərviş paltarında idilər).

Uşax mıın deeb gedir. Həmən Haxsız da dərbişdərə bir az baxannan sora yola düzəlir. Şah vəzrinə deer:

– Vəzir, bı uşağın dalican gedəh görəh bıın adın nə üçün Haxsız qooblar?

Uşah getdiyi tərəfə getməə başdillar. Ahırda göörrər ki, uşax bir həətə girdi. Bılar da bıın dalican həmin həətə girillər. Qapiin ədəb-ərkannan dööllər. Ev yiəsi zənən xeylağı idi. Qapıya çıxır göör ki, iki dərbiş peyda olub. Dərbişdər deerlər ki, Allah qonağiyıx, qonax saxliarsanmı? Arvad deer ki, dərbişdər, evin kişisi yoxdu, mən sizi necə qonax saxliım? Dərbişdər deer ki, heç bir tədarük-zad hazırramax lazım dööl. Bircə gecə qalacıın, həm də bir şeyi soruşacıın. Arvad bıları içəri dəvət edir. Axşam olur, bılar söbət elillər. Dərbişdər hardan gəldiklərinnən, hansı ölkələri gəzdihlərinnən maraxnan danışmağa başdillar. Sora şah sual vərir ki, bı uşağın adın nə üçün Haxsız qoubsuz? Arvad sual vərir ki, hardan bilduz bını? Şah deer ki, məhtəbin

yaannan keçəndə yoldaşı onu belə çaardı. Biz də oon izinnən bu evə gəldih ki, bu işi öyrənəh görəh bu nədi.

Arvad dərinnən bir ah çəhdi. Sora dedi ki, atası öləndə belə vəsiyyət edib. Şah sual verdi ki, atası nə üçün başqa ad döör, elə Haxsız vəsiyyət eliib? Arvad issədi ki, mətləbi gizzətsin. Sora annadı ki, mənasızdı, onsuz da dərbişdər əl çəhmiəcəhlər, ta tamam-kamal mıın bilməcən. Ona görə də sözünə davam etdi:

– Günnərin bir günü hamilə idim (qarnım dolu idi). Ərim də gəzəgardı. Tez-tez səfərə gedərdi. Bir günnərim də məə dedi ki, bəs arvad, yol tədarükü gör, səfərim var. Mən də olannan hazırradım. Ərim, bir də iki dossu səfərə çıxdılar. Bılar bir qədər gedənnən soram gəlib bir yerə çıxıllar. Yola götürdühləri azuqədən yillər, bir yerdə uzanıb dinclərin almalı olullar. Ərim yorğun olduğunnan o saat yuxuya gedir. Yoldaşdarı göör ki, kişiin bırnınnan bir göy milçək çıxdı, sora gedib xarabalığın yaanda bir çatdağa girdi. Milçək ordan qayıdıb qaşığın üssünnən keçdi (Qaşıq atlamanın* üssündə idi). Sora göörlər ki, bıdı kişiin qan-tər basıb. Kişi hövlənk yuxudan ayılır. Deer, bəs süt dəryasıın üssünnən bir ağac qoymuşdular. Mən də həmən ağacın üssünnən abırsız keçirdim. Sora gedib bir xarabalığa çıxdım. Gördüm ki, orda qızıl var (Məə dedilər ki, bıraan qaz, bırda qızıl var). Bılar dellər bəlkə bı doğrudu, mıın bir yoxliax. Bəli, gəlillər, xarabalığı qazmağa başdillar. Göörlər ki, bıdı bir küp çıxdı. Ağzın açıb göörlər ki, içi qızılnan doludu. Bılar qızılları üş yerə bölüllər. Hərəsi öz payın götürür. Sora iki yoldaş öz aralarında danışıllar ki, bəs kişiin öldürəh, oon da qızılın götürəh. Deyərih ki, yolda başına iş gəldi, canın tapşırdı. Bılar xəlbətcə kişiin boğazına kəndir keçirdillər. Mıın öldürəndə kişi deer ki, məə öldürürsuz öldürün, qızılları da sizə veerəm, ancax bir vəsiyyətim var, ona əməl edin. Bılar deer ki, o nə vəsiyyətdi, de görəh. Kişi deer ki, mən gələndə arvadım hamilə idi.

Mən əhd eləmişdim ki, oğlum, ya qızım olarsa adın Haxsız qoyum. İndi ki məə öldürürsuz vəsiyyətimi arvadıma yetirin. Mən də kişiin vəsiyyətinə əməl eliib adın Haxsız qoydum. Dedim bir gün bu uşağı yetim qoyan haxsızzıx öz yerinə çatar.

Şah arvadın bu söhbətinə qulağ asannan sora deer ki, bəs indi o adamlar hardadılar? Arvad bıların harda olduğun deer. Səhərisi günü şah qırmızı geynib taxta çıxır. Adam göndərib həmən arvadı çaatdırır. Sora bı adamları da gətirdir. Şah bılara sual elir ki, bı Haxsız adı nə ilə bağlıdır? Əhvalatı olduğu kimi məə deen. Bılar əhvalatı öz bildikləri kimi danışmaa başdillar. Şah nə olub hamısın bir-bir açıb deyəndə kişiin yoldaşları mat qalıllar. Şah üzün bılara tutub deer:

– Bəs siz bilmirsuz ki, bir vaxt gələcək, haqqın da bir duanı olacaq?!

Sora da əmr elir ki, hər ikisin də boynu vurulsun (S:39; T:3).

## ÖGEY ANA

Bir yoxsul kişi olub. Üş dənə mının qızı olub. Meşədən şəlinən dalında odun daşıyırmış. Bir günnəri ügey ana bı qızzara deb ki, bala, atuz meşyə getdi. Çörəh verim aparın atuza. Deməli, günbatanda meşə olub, günçıxanda meşə olub. Arvad kişyə deb ki, hansı meşiyə gessən, kişi, desən. Kişi deb ki, gün batan meşyə geccəm. Aparıb, arvad iki dənə gön çarığı bağlıyıb bir-birinə, aparıb bi kişi getmədigi meşədən asıb. Qızzara deb ki, bala çörəği bişirdim, aparın bi tərəfdəki meşyə (günçıxana). Qızzar geb görür ki, meşədə taqqıltı gəlir. Geblər axtarıblar, bi səsi tapbıblar. Gəzib-gəzib, dolana-dolana çatıblar bi meşəyə, itiblər. Ata gəlib arvada deb ki, qızzar hanı? Deb ki, bəs sənə çörəh yollamışam. Deb, bəs, mə çörəh gəlmiyib. Arvad der ki, qızzarundı, get özün tap. Kişi bıları axtarmağa başdir, tapbib geri qayıdır.

Qızzar gedib bəyin sarayına çıxıblar. Heç kəs bıları görmiyib. Geb at tolasına qısılıblar. At səsi eşidiblər (damağınan fınxırıb). Görüb ki, dal tərəfdən bir pencərə var. Giriblər bi atdarın xurmasınnan yiyiblər. Sabah açılanda çıxıllar. Day hindi neçə qün gedib bilmirəm. Böyük vəzir deb ki, atdar yaman arıxlib. Der ki, bir çıxardın çölə bi atdara baxım. Deb busmaq lazımdı. Üç vəzirin hərəsi bir keşihçi qoyublar bıra ki, görsünnər bi atdarın yiməyinə kim dadanıb. Bir gün böyük vəzir axtarıb, heş nə bilmib, ortancıl da bilmiyib. Kiçik görüb ki, qızzardı, oturub atdarın axurunda. Pencərəni bağlayıb, gedib paççahın yanına. Qızzar kişmişdən yiyib olublar maral balası. Bala, nəçisüz, nəkarəsüz? Bılar oğru olduğu üçün qorxublar. Bıları sığallib deblər ki, hardan gəlmisüz, deyin! Bılar da deblər hal qazıya belə (başdarına gələni danışıllar). Padşah inana bilmir. Deblər ki, sən xəbər alırsan, biz də derik. Cavablar paccahın xoşuna gəlir. Götürüb bıları yaxşı hamamladıb, geyindiriblər. Az-çox bilmirəm, xəbər alır ki, bacılardan, bala əluzdan nə gəlir, sizi bir sənətə qoyum hindi. Deyilənnərdə bala, böyük deb ki, mən bir xalça toxuyuram. Oturursan, hansı mənzilə istəsən səni aparır. Ortancıl deb ki, mən də bir surfa toxuyuram. Açaram, sərərəm yerə, nə nazu-nemət desən tökər yerə. Balaca deb ki, mən heç nə öyrənməmişəm. Mənim də bir züryətim olar qızıldan. Paccah böyüh qızı vəzirə verib. Ortancılı da vəkilə verib. Paccahın da züryəti yox imiş. Bını özü götürməli olub. Böyük bacı deb ki, nə tər oldu ki, biz bu qədər iş bilə-bilə vəzirə, vəkilə gedirih, bı bir kəlmə söznən padşaha getdi, gəl bına bir elm qurax. Deblər bir qarı var, bı süz deyən elmə çarə çəkər. Vaxt olub bı iş başa çatanda deblər bı iş başa gəlməsin. Bir dənə it küçüyü tapıb, gətirib, qarı həmin uşağı dəyişdirib. Padşaha bacılar de ki, arvadın it küçüyü balalib. Burdan vəzirə əmr edib ki, onu ağaca bağlib qabağına yal* töksünnər. Helə bağliblar. Deblər

ki, onun üssünə tüpürsünnər. Keçiblər belə. Bı qarı uşağı bir sandığa qoyub bir axar suya atıb. Bir gün bir qadın çaya, suya gedib, sandığı görüb, çıxardıb. Gör ki, tappıltı gəlir. Götürüb gətirib öynə. Bını padşaha elan ediblər ki, bir şey tappışıx. Padşah der, gətirin mən açacam. Sandığı açır ki, uşax çıxır. Padşah başa düşür ki, bu həmən uşaxdı. Gəlini aşdırır, qırx gün mını hamamladır. Əmr edir ki, öyünə küçüh qoyan qarını çaarın bıra. Uşağı mına gössərir, der aç de! Der ki, bacıları elib. Böyük vəzirə der ki, filan atı yəhərrə. Qarını ata bağlillar. Der, sür meşiyə parçalansın. Bacıları da atın quyruğunda sürüllər. Hindi a bala, ədalət var da!

## YEDDİ QARDAŞ BİR BACININ NAĞILI

Günnərin bir günü, bir arvadın yeddi oğlu olur. Bir gün oğlannar anasına deyir: Əgər bu boynundakı uşaq oğlan olsa sac qoy, qızın olsa ələk qoyarsan darvazanın başına. Sonra oğlannar çıxıb gedir. Aradan xeylax keçir, arvadın qızı olur. Gətrir qapnın başına bir ələk qoyur. Bunların qonşularında bir paxıl arvad vardı. Tez gəlir bu ələgi götrür, yerinə sac qoyur.

Arvadın oğlannarı gəlir görür yenə oğlu olub. Oğlannar qaydıb, baş götrib gedir. Gedib həmin bu oğlannar kanarda bir ev tikirlər, orda yaşayırlar. Sonra həmin bu arvadın qızı bööyür. Həmin qız gəlir qızlarnan oynayırlar. Bir qızın üzdiyi itir. Başlayır bu qız, o qız and içir. Amma bu qıza çatanda həmin bu arvadın qızı qardaşı olmadığna bir ala danası vardı, ona and içir ki, ala danamın başı üçün məndə yoxdu. Bu qız gedib görür ki, bunun ala danasını kəsiblər. Bu qızın adı da Banuçiçək olur. Banuçiçək ağlaya-ağlaya gəlir çayın başına, başdayır bu dananın ətin yumağa. Bir qızıl quş gəlir düşür bunun yanına. Bundan xəbər alır ki, niyə ağlayırsan? Banuçiçək deyir: Bir ala danam vardı, onun başna and içdm, getdim gördüm ala danamı kəsiblər. Bu qızılquş deyir ki, o ətdən mənə

bir az ver, aparım balalarıma, səni də aparım qardaşlarının yanına. Bu ətdən Banıçiçək qızılquşa verir. Qızılquş deyir: Bir torba da tik, onun ağzın cır, içinə də kül doldur.

Qızılquş balalarına yemək aparır, qız da qaydır evlərinə. Gedib bir torba tikir, içinə kül doldurur, gəlir çayın başna. Görür ki, qızılquş bunu gözləyir. Bu torbanı keçirir qıyağna (caynağına – top. A.Ə). Sonra yola düşürlər. Bu kül hara düşür qız da o külün izi ilə düşür gedirlər. Qız gəlib çatır qardaşdarının evinə. Görür ki, evdə heç kim yoxdı. Qız başdayır ev-eşiki silir, süprür. Çay-çörək hazırrayır. Qardaşdar gəlir görür ki, çay-çörək hazırdı. Qardaşdar deyir:

– Bunu kim eliyər?

Böyük qardaş deyir ki, bu kimdisə bunu tutmaq lazımdı. Gərək ki, sifdə özüm qalam!

Neysə, böyük qardaş qalır, tuta bilmir. Sonra o bir gün böyükdən balaca qardaş qalır. Gəlir görür ki, yatıb, üstündən addıyıb keçir, gedir. Çay-çörəki hazırlayır, yenə oğlanın üstündən addıyıb keçir, gedir. Yenə qardaş aylır görür ki, çay-çörək hazırdır. Neysə, kiçik qardaş qalır. Bu kiçik qardaşın yuxsu gəlir. Tez barmağını kəsir, yerinə duz basır, yıxlır yerə. Banıçiçək elə bilir ki, qardaşı yatıb. Bunun üstündən keçir, gedir. Çay-çörəki hazırlayıb çölə çıxanda bunu tutur. Banuçiçəkdən xəbər alır: Sən kimsən? Qız deyir ki, siz mənim qardaşımsız.

Neysə, bırada tanış olullar ki, bı qız onun (qardaşdarın) bacısıdır. Axşam olur, görür ki, qardaşdar işdən gəlirlər evə. Böyük qardaş deyir ki, tapmadun? Kiçik qardaş deyir ki, tapmışam, bizim bacmızdı. Neysə, qız qardaşdarıynan öpşür, görşür. Yatıllar, səhər açlır. Ortancıl qardaş deyir: Göydən bir dənə kişmiş düşəcək. Burada bir boz pişik var. Əgər ondan ayrı yesun ocağı söndürəcək. Yarsın ona ver.

Qardaşlar gedillər işə. Göydən bir kişmiş düşür, bunu qız tez götrür atır ağzına. Yadınnan çıxır, bunun yarsını pişikə

vermir. Pişik tez gəlir ocağı söndürür. Qız deyir mən neynəyim, axşam qardaşdarım məndən çay-çörək istəyəcək. Onda mən onnara nə cavab verəcəm? Banıçiçək çıxır çölə. Görür bir kanarda bir tüstü gəlir. Qız düşür yola. Az gedir, çox gedir, gedir görür ki, bir arvadın dizinin üstündə dö* yatıb. Özdə başın bitdədir. Banıçiçək deyir: ay bacı mənə bir az od ver. Arvad deyir: Verəmmərəm, dö bilər. Banıçiçək deyir: Qurban olum, bir az mənə od ver.

Neysə, arvad deyir, ordan qayçını ver mənə. Qayçını verir arvada. Arvad oddan bir az kəsir, verir Banıçiçəyə. Banıçiçək düşür yola. Bunun da cibində bir aşıx sapı olur. Düşür bu sap açla-açla gedir. Aradan bir xeylax keçir, dö durur ayağa. Arvaddan xəbər alır ki, bura kim gəlmişdi? Arvad deyir: Heç kim. Dö görür ki, bir aşıq sapı var. Götrür bunu əlinə doluya-doluya düşür yola. Gəlib çıxır düz qızın yanına. Dö qapnı açmaq istəyir, aça bilmir. Görür ki, bağlıdı. Dö deyir: Aç qapnı, ananam, gəlmişəm. Qız qapını açmır. Dö deyir: Banıçiçək, Aç qapnı, ananam, gəlmişəm. Qız yenə qapnı açmır. Dö deyir: Yaxşı barmağnı çıxart qapının deşiyindən, barmağna üzdik taxım. Banıçiçək barmağını çıxarır qapının deşiyindən çölə. Dö bunun barmağnı tutur o qədər sorur ki, qız ölür, yıxlır qapının qabağına.

Axşam olur qardşdar gəlir işdən. Qapnı basıllar, qapı açılmır. Qızı nə qədərə çağırırlar hay verən olmır. Kiçik qardaş özni atır buxorudan* içəri. Görür ki, bacsı ölüb. Qapnı açır, girillər içəri. O biri qardaşdar da görür ki, bacsı ölüb. Götrüb qızı dəfn-kəfn eləyib, aparırlar bastırırlar ağlaya-ağlaya. Bir çoban bunlardan xəbər alır ki, siz niyə ağlayırsız? Qardaşdar deyir ki, dö bacımızı öldürüb. Çoban deyir, onu diriltsəm mənə nə verərsüz? Qardaşdar deyir, sənə qırx yüklü dəvənin qızılnı. Çoban gəlir durur qızın başının üstündə. Çoban çubuğun yerə vurur və deyir: Vur çomağım, vur çomağım. Üş dəfə bu sözü

təkrar edir. Qardaşdar qəbri qazıllar, göörlər ki, qız durub otrub. Qızı götrüb, qardaşdarı öpə-öpə gətirillər evlərinə. Sonra qardaşdar gedib dönü öldürüllər (S:41, T:3).

## ÜÇ DOST

Hə, rəvayətə görə, bir şəhərdə üş dos yaşiirmış. Bı dosdar o qədər mehriban yaşıyallarmış ki, qardaşdan da artıx. Günnərin bir günü bılar yenə bir yerə toplaşanda dossarın biri bir təklif irəli sürür ki, biz çox kasıp yaşiirıx. Məmləkətimizdə heş cür dolanışacax yoxdu. Gedəh başqa ölkələrə özümüzçün ruzi qazanax gətirəh, ailəmizi dolandırax.

Bıın təklifiynən o biri dossar da razılaşıllar. Bılar özzərinə yol ehdiyatı götürüp yola düşüllər. Bir neçə gün yol gedənnən soora tale bıların qismətinə bir qızıl külçə yetirir. Bılar sevinillər. Deellər ki, bı tapdığımız külçə bizim qismətimizdi. Bını üş yerə bölüp ayləmizi dolandırarıx ömrümüzün axırına qədər. Bınnan artıx nə qazancımız ola bilər.

Amma yol azuqələri qutardığına görə dala qayıtmağa bıların gücü qalmamışdı. Bir ağacın dibində bulax başında bılar düşərgə salır. Çox götür-qoydan soora, uzaxda bir kənt görsənirmiş. Bı yaşca kiçiy olan dossa deellər ki, sən get həmən kətdən bizə azuqə tap gətir, bırda yiəh, dala qayıtmağa yolumuza da yüh tutax. Gedib öz kəndimizdə bı külçəni bölüp həyatımıza davam eliyərik.

Bı kiçih doss gedir çörəh dalıycan. Bı o tərəfə gedən kimi bı iki doss belə tədbir tökür ki, bı üçüncü adam artıxdı. Bı külçəən üş yerə bölməhdənsə, iki yerə bölməh sərfəlidi. Qayıdıp gələn kimi bı dossu vırıb öldürərik. Evlərinə də gedip deyərik ki, bəs üssümüzə yolda hücüm elədilər, bı dossumuzu itirdih, öldü. Bılar bıın fikirrəşməhdə olsunnar, sizə kimnən xəbər verim, balaca dosdan.

Bı dos da gəlip bı məmləkətə çatır. Özünə çörəh tapır, yiir. Yoldaşdarına da çörəy alanda birdən fikirrəşir, şeytan bıın da qəlbinə dolur. Deer ki, bəs elə bıların çörəhlərinə zəhər sürtərəm, aparıp verərəm. Bılar da yiən kimi öləllər. Bı külçə də məə qalar.

Gəzir şəəri dolaşır. Bir tükannan bir az zəhər tapır, alır, sürtür çörəhlərə. Qayıdıp gəlip dossarıın yanına çatan kimi dossar bıın daldan vırıllar. Bı ölür. Bilar başdiip çörəhlərin yiillər. Çörəyi elə yiip qutaran kimi zəhərin təsirinnən bı iki yoldaş da ölür. Qızıl külçə qalır ortada.

Allah heş kəsə belə doss qismət eləməsin.

## ARTIQ TAMAH BAŞ YARAR

Bir gün bir oğlan meşiyə odun yığmağa gedir. Baltasın, ipin götürür, yola düşür. Gedip meşəən dərinniyinə çatanda görür ki, qəribə bir səs gəlir. O tərəfə baxır, bı tərəfə baxır. Axdara-axdara səs gələn tərəfə gedir. Görür ki, bir dənə ilan maralı udup, maralın buynuzzarı qalıp bıın boğazında, uda bilmir, əlləşə-əlləşə qalıp. Uje axır nəfəsidi. Oğlan baltasıy-nan bı maralın buynuzzarın qırıxlıyır. Köməhliy eliir, bı ilanın canın qutarır, azad eliir. İlan bilmir, bına nə təər yaxşılığ eləsin. Sivişip gedir.

Səəri günü oğlan gənə həmin yerə gəlir. İlana yazığı gəlir. Özüynən süt gətirir, bir nimçəən içinə sütü tökür, qoyur ilanın yanına ki, işsin, boğazıın yarası sağalsın. İlan sütü içip qutarannan soora həmən nimçəən içinə bi dənə qızıl ləl qusur. Hər gün oğlan süt gətirip bına verərmiş, ilan da sütü içip əvəzində yerinə ləl qusarmış.

Günnərin bir günü bı oğlanın işi olur. Öz dosduna deer ki, bəs meşiyə gedərsən. Orda bi dənə ilan var. Ona mən hər gün süt aparıp veerəm. Süt verərsən ona. Amma orda nə gör-sən, heş kimə danışmarsan. Oğlan da deer ki, yaxşı.

Bı dosdu gedir meşədə həmən yeri tapır. Nimçədə sütü verir ilana. İlan sütü içənnən soora bi dənə ləl qusur. Bı oğlan da ləli götürüp baxır. Görür ki, qızıldı. Bı çox həvəsə gəlir, hərissənir qızıla. Fikirrəşir ki, yağın bı ilanın girip-çıxdığı yer hamısı qızıldı. Ordan yağın mıın çıxardır verir. Elə yaxşısı bıdı, mən bı ilanı öldürüm. O yuvaan qazım, qızılların hamısın özüm götürüm ordan. Bı ilanı vırmağ issiyəndə ilan mınnan cəlt tərpənir, oğlanı çalıb öldürür.

Səərsi günü ilanın canın azad eliyən oğlan görür ki, dossu gəlmir. Gedir meşiyə. Görür ki, ilan mıın dossun çalıb öldürüp. Hə, ilana deer ki, bəs sən niyə məəm dossumu öldürdün? Deer ki, sən bəs məən tapşırıp getmişdin həmən oğlana. O da məən öldürməy issədi. İssədi ki, qızıllara sahib olsun. Daa bilmədi ki, bı qızılları mən hər gün bir dənəsin səə verə bilərəm da. Elə bildi ki, məəm yuvam qızılnan doludu. Məən öldürüp həmən qızılları götürməy issədi. Nəfsi başına bəla oldu. Artıx tamah baş yarar (S:5; T:1).

# LƏTİFƏLƏR

## MOLLANIN FƏNDİ

Mollaan arvadı heş nə bişürməyibmiş nahara. Arvat deer ki, qonşu xaşıl bişürür. Molla deer ki, mən səni döyəcəm. Sən qaç o qooşuya.

Nəsə bılar şərəşurruğ* salıllar. Güə bı arvadı döyür. Arvat da qaçır həmin o xəşil bişürən qooşuya. Qooşu da deer, sən Allah, sakitdəşün, niyə dalaşırsuz. Bı da bının dalıycan gedir da.

Oturdullar bıları. Bılara da bir qabda yiməy çəkillər. Bı xaşılın da ortasına bəkməz tököllər, bal tököllər, yağ tököllər. Bı arvad bijdiy işdədir ki, bı yağlı, bəkməzli tərəfi özünə gəlsün. Xaşılın qabında cızığ çəkir ki, innən belə mən səynən kəs-küs. Məən danuşdurma. Bı yağ, bəkməz tərəfin öz qabağuna eləyür.

Molla da bic olur, başa düşür. Qaşığı götürür, qarışdrır, qarışdırır. Deer sənə bir cimciməli don alacam, bax belə-belə, belə-belə gülləri olacağ.

## HƏR DƏFƏ TƏRS, BİR DƏFƏ DƏ DÜZ

Molla nökəriynən eşşəyin belində bir meşok un aparırmış. Bı molla da bı keçəl nökərə nə deyirmişsə, keçəl bınnan bezipbiş, həmişə əksinə eləyirmiş.

Çayın qırağıynan gedəndə görür ki, un aşacağ çay tərəfə, eşşəyin belinnən düşəcəh. Deer, indi mən desəm ki, onu bu üzə elə, tərsinə eliyəcəh, day da tez aşırdacax. Qoy bı dəfə bına tərsin deem, avand eləsin. Görür day un aşır. Deer köməy elə, o un aşır, köməy elə, aşsın.

Deer, molla, həmişə tərsinə eləmişəm, Allaha da xoş gedər, qoy bir dəfə də sən deyəni eliyim. Unu aşırdır çaya.

## MOLLANIN SEÇİMİ

Molla Nəsrəddinin iki eşşəyi olur. Binın birin satmağ isdiyir. Deer, görüm bı eşşəyin hansu ağılludusa, onu saxlayım.

Eşşəyin birinin belinə duz yükləyir, birinə pambuğ yükləyir. Sürür aparır bıları, salır çaya. Görür ki, bı eşşəylər ikisi də yatdı çaya. Bı duznan yükləmmiş eşşəh yatır, qalxır. Duz əriyir axı, yüngülləşir. Bı birsi eşşəy də görür, o yatır suya, qalxır. Bı da pambuğnan yatır sua, qalxır. Day da ağırraşır.

Molla görür ki, bı duzu yavaş-yavaş əritdi, yükün azaltdı. O birsi də yükün çoxaltdı. Aparıb o pambuğ yüklənəni satur.

## NƏ GƏTİRİBSƏ, ONU DA APARACAQ

Bir gün Molla Nəsrəddinin qonağı gəlir. Bı eşşəynən gəlir. Gəlir qapıya çatır. Mollaan qapısında başdayır eşşəyi döyməyə. Molla gəlir, ay adam, noolub, Allahın heyvanıdı, bını nəyə görə döyürsən?

Deer, molla, sizə pay gətürməy isdirdim. Nə qədə elədim, bı eşşəg diyammadı, gözdəmədi ki, payı yükləyəm. Molla da başa düşür ki, nə deməg isdəyir. Yanı əliboş gəldiyi üçün utanır.

Molla deer ki, döymə heyvanı. Nə gətiribsə, onu da aparacax.

Apardı çaylar məni,
Həfdələr, aylar məni.
Yüküm qurğuşum yükü,
Yordu bu taylar məni (S:3; T:1).

## BƏHLUL DANƏNDƏ HAQQINDA

## ÜÇ HİKMƏTLİ SÖZ

Deellər bir şah oğlu Şah Abbas varmış. Bıın da Allahvərdi adında bir vəziri olub. Bir günnəri Allahvərdi yol ilən gedirdi,

bir də gördü bıdı yolun qırağında bir adam diyanıb. Gəlib göör ki, bu adam Bəhludanədi. Allahvərdi vəzir bıninan ədəb-ərkannan salamlaşannan sora göör ki, Bəhludanəən qənşərində üş topa kül var. Vəzir xəbər alır ki, bu küllər nədi belə yığmısan qənşərua? O da cavab vərib mına deer ki, bəs bıların hərəsin bir maata satıram. Allahvərdi vəzir dünyagörmüş adamıdı. Xeyli fikir eliyənnən soram çıxardıp kişiyə üş maat vərir və külləri bircə-bircə ayağınan dağıdır. Qutarannan sora xəbər alır ki, a Bəhludanə, indi bıların vecin de,* görüm nə olan şeydi? Bəhludanə əvəzində mına deer ki, bəs o əvvəl dağıtdığın kül var ha, olsun o adamın başına ki, ağasına bel bağlıya, ona etibar elyə. İkinci dağıtdığın kül də o adamın başına ki, arvada sir vərə. Üçüncü dağıtdığın kül də olsun o kəsin ki başına, təzə pıllanan adamnan borc elyə. Allahvərdi vəzir bir az fikir eliyənnən sora öz-özünə dedi: Gərəh bıların hər üçünü sınaxdan keçirəm. Allahvərdi vəzir bı fikirinən bir günnərim şahın sürüsünnən bir qoyun oğurriib xəlvətcə bir yerdə gizzir. Bazardan bir ayrısın alıb evə gətirir. Soram bını kəsir, doğrir, bir tərəfə yığır. Açıb əhvalatı arvada deer ki, bəs qoyunu şahın sürüsünnən oğurramışam. Aradan bir xeyli vax keçir. Bir günnəri Allahvərdi vəzir qəsnən arvadın döyməyə başdir. Arvad bına dözmib, eyvana çıxıb bərtdən qışqırır, deer ki, bı da şahın qoyunu dööl ki, oğurriib yiyəsən. Bını eşidən şah adamları Şah Abbasa xəbər vərillər ki, bəs hal-qəzyə belədi. Mıın eşidən şah yaman hirssənir. Allahvərdi vəzirin boynun vurmağı əmr edir. Bəli, Allahvərdi vəzirin əlin, qolun bağlib, başdillar şahın hüzuruna gətiməyə. Mıın qolların bağliib şahın yaana gətirəndə yolda bir nəfər camaatın içinnən çıxıb başdir mına sarı gəlməyə. Allahvərdi vəzir göör ki, bu iki həftə bınnan qabaq borc aldığı dossudu. Həmin adam deer ki, bəs şah səən boynuu vurduracax, ta mən səə görə bilməcəm. Yaxşısı bıdı mənnən aldığın pılı məə qaytar. Vəzir göör ki, Bəhludanən dediyi ikinci sözü də düz çıxdı.

Fikirrəşdi ki, üçüncüsün gözzim. Mın gətirillər nəhayət şahın hüzruna. Elə başdillar ki, bın boynun vursunnar, vəzir Allahvərdi möhlət issir. Şah mına deer ki, nolub, tez ol sözü de! Allahvərdi vəzir başdiib sözə deer ki, şah sağ olsun, bir günnəri yolnan keçirdim. Gördüm ki, Bəhludanə qənşərinə üş topa kül qoyub satır. Küllərin pulun verib oları dağıtdım. Soram soruşdum ki, bıların mənası nədi? O da əvəzində məə dedi ki, birinci kül o adamın başına ki ağasına etibar edə, ona inana. İkinci kül də o adamın başına ki, arvadına sir vərə. Üçüncü kül də o adamın başına olsun ki, təzə pıllanan adamnan borc eliyə (Allahvərdi vəzir qoynın pılın bir dossunnan borc eliib almışdı). Mən də bıların hamsını sınaxdan keçirməy issədim. Oniçün şah sürüsünnən bir qoynu xəlvət bir yerdə gizzətdim. Yaxın bir təzə pıllanan dossumnan borc alıb, geeb bazardan bir qoyun aldım. Qoynu evə gətdim, arvada dedim ki, bəs şahın sürüsünnən oğurramışam. Sabahısı arvadımı qəsnən döyməyə başdadım ki, görüm bu işin axırı nə olur. Arvad çıxıb eyvana bərtdən qışqırmağa başdadı ki, bı da şahın qoynu dööl ki, oğurriib, kəsib, yiəsən. Sizin hüzuruza məə gətirəndə borc aldığım dossum da qənşərimi kəsib pılın issədi. Hindi gördüm ki, Bəhludanənin dedihlərinin üçü də doğru imiş. Şah öz səfin başa düşdü, vəzirinə dedi ki, bəs bir işdi tutdum, gərəh məə bağişdiyasan. Allahvərdi vəzir isə mına irazı olmadı və o günnən şahın sarayın tərk eliir (S:40; T:3).

## QUYU QAZAN ÖZÜ DÜŞƏR

Şah Abbasın bir dəli baysı var idi. Bir günnəri bı arvat çörəh bişirirmiş. Üş kündüyə zəhər qatıb təndirə salır. Bı vaxdı Dəli Bəhlul bırdan keçirmiş. Bəhlulun qarqıdan bir atı vardı. Arvad gəlib çörəyi təndirdən çıxaranda Bəhlulu görür. Arvad Bəhlulu çaarır: Sən allah, ayax saxla, a Bəhlul! İssi çörəhdi, aparıb yiyərsən. Bını deeb, arvad kündən üçün də

bükub dəsmala veer Bəhlula. Əvvəlcə Bəhlıl çörəyin iksin götrür, deer bəsimdi. Arvad ha elir ki, üçün də götür, nolacax, yiyərsən. Bəhlıl əlajsız qalıb deer yaxşı, bağla atın tərkinə.

Arvad çörəyi bağlir qarqıya, gedir. Bəhlul az gedir, çox gedir, gəlib bir biyavana çatır. Göör ki, bıdı ha, bir dəvə yerə sərilib, yaanda da üş nəfər. Yaxınnaşıb salam veer. Deer, əşi bəs, nolub? Kişilər dəvəən gössərib deellər ki, üş gündü heyvanın qıçı sınıb, bizi də qoyub biyabanda. Acınnan da ölürük. Bəlkə əppəhdən-zaddan bi şeyin ola? Bəhlul baxır ki, kişilər acınnan lap birtəhərdilər. Deer çörəh atın tərkindədi, üçün də götrün. Kişilər issillər əppəyin birin bına saxlasınnar. Bəhlıl irazı olmır. Deer mən şəərə geccəm, lazım olsa ordan alaram. Götrün yiin, neçə gündü ajsuz.

Bəli, kişilər bir söz demib, çörəyin hamsın alıllar. Bəhlul gedənnən sora bılar başdillar yeməə. Yiənnən sora düşüllər partam-partdama. Bir az keçənnən sora hamsı ölür. Bı vaxtı kəndin adamları bırdan keçirrərmiş. Görüllər ki, bıdı ha, üş nəfər dəvəçi dəvəən yaanda yıxılıb qalıbdılar. Ha yaxınnaşanda görüllər ki, bılar bıyaxdannan keçiniblər ki. Tez kəndə xəbər verillər.

Bılar bırda qalsın, sizə xəbər verim Bəhlıldan. Bir az şəəri gəzib dolaşannan sora Bəhlıl üz qoyır kəndə sarı. Yolda xəbər tutır ki, bəs ticarətdən qaydanda üş dəvəçi filan biyavanda yıxlıb ölüb. Əzələn Bəhlıl heş nə anniyammır. Yolun haman biyavannan salır. Görür bırda heş kəs yoxdı. Üz tutur kəndə sarı. Yolın kəndin əyağınnan salır. Görür ayə səhərləri mına üş kündə əppəh verən arvadın qapsında bir yığıncax var ki, gəl görəsən. Haman arvat da özün həlak elir. Yaxınnaşıb xəbər alır ki, ay arvat, bə bı nə olan şeydi, bir danış görəh. Arvad deer bı ölənnərdən biri ərimdi, biri oğlumdu, biri də göyümdü.* Bılar uzax bir yerə alverə getmişdilər. Özzərinin də dəvələri var idi. Yolda dəvəən qıçı sınar, bılar üş gün ac-

əməndə qalallar çöllih-biyavanda. Sora da başdarına bı müsibət gəlir. Bəhlıl deer, a bədbax, olar səən əsabələrinmiş? Hindi mən bildim oların başına nə iş gəlib. Arvat deer, di de görüm, a Bəhlıl, nə bilirsən, ta məndə hal qalmadı. Deer ki, bəs sabeynnəri səən qapuun ağzınnan keçəndə məə verdigün üş kündəən alannan sora şəərə yollandım. Yolda haman biyavanda bı üş dəvəçiyə ras düşdüm. Acınnan taqətdəri kəsilmişdi. Yazığım gəldi, kündələrin üçün də verdim bılara ki, yesinnər, yazıxdılar, bə ölməsinnər. Özüm də şəərə yollandım.

Arvad o saat hər şeyi başa düşür. Bilir ki, tələyə özü düşüb. Deer, a Bəhlıl, eşitmişdim ki, quyin qazan özü düşər, ama görməmişdim. İndi məə aydın oldu ki, quyı məniçin qazılmışdı, özüm də düşdüm.

## ŞAH ABBAS VƏ ARVADI

Bir günnərim Şah Abbas arvadinan yol ötürdü. Uzaxdan görüllər ki, Bəhlul Danəndə topa torpaxların yaanda oturub çubuğinən yeri qurdalir. Yaxınnaşan şah xəbər alır ki, Bəhlul, xeyir ola, burda oturmusan? Bəhlul şaha o qədər əhəmiyyət vermədən deer ki, alış-veriş edirəm. Şah gülüb deer, bəs hanı səən dükanuun malları? Bəhlul heş kefini pozmadan deer, bəs bu üş topa torpaxdı. Şah eyhamla soruşur ki, neçiyə satırsan? Bəhlul deer, hər topanı yüz manata. Şah deer, səən başua hava gəlib? Kim quru torpağa yüz manat verər?!

Bı vaxtı arvad qayıdıb şaha deer ki, gəl bılardan birin alax. Şah deer, arvad, deyəsən sən də ağılsız müştərisən. Heç adam da torpağa pul verər?! Arvad zornan şahdan yüz manat alıb topanın birin alır.

Bılar yavaş-yavaş çıxıb gedillər. Bir az gedənnən sora saraya yetişillər. Axşam olur. Şahla arvadı yatmalı olullar. Şah elə təzəcə yuxuya getmişdi ki, gördü arvadı bir kef məclisindədi. Ətrafında hurilər, mələklər. Özü də cavan

bığıburma bir oğlanla kef çəkir (Rəqqasələr onu dövrəyə alıb, başın oğlanın sinəsinə qoyub). Şah tez hövlənk yuxudan ayılır. Tez arvadı olan səmtə baxır. Görür yox, arvad bərk yuxudadı. Bir az özünə gəlib, başın yerə qoyur. Yenə təzəcə yuxuya getmişdi ki, gənə həmən yuxin görür. Bı dəfə dözmib arvadı yuxudan oyadır. Arvad yuxulu-yuxulu xəbər alır ki, kişi nolub, nə xəbərdi?! Şah deer, arvad, yaman pis yuxu görürdüm. Kişi, özün yatammırsan, məə də qoymursan yatmağa. Mənsə huri mələklərnən, pərilərnən kef məclisində idim. Nə üçün məə yuxudan oyatdın? Şah deer, necə? Arvad deer, bəs nə bilmişdin, gördünmü Bəhluldan aldığım torpaq faydasız deyilmiş. Sənsə xəsislik edib yüz manat qıymadın. Onunçün də cəhənnəmdə əziyyət çəkirsən (S:38; T:3).

## ALLAH QANANLA QANMAYANI YOLDAŞ ETMƏSİN

Deer, Bəhlul Danəndə hikmət bilir, amma heç kəsə açmır. Deyiblər ki, sən niyə sirrü açmırsan? Padşah gedir, genə demir da. Padşah deer, atın zindana. Qırx gün ona ancax suynan çörəh verin, başqa heş nə verməyin. Soora gətirin yanıma.

Gedip zindanda görür ki, bir dənə də kişi var. Deep, sən niyə girmisən bıra? Deep, vallah, mən də patcahın çobanıyam. Sürüdə səhlənkarrığ eləmişəm. Onun bir dənə erkəyin qurd aparıb. Ona görə məni salıp bura. Oturuplar, uş gün, beş gün belə keçib.

Bir gün səhər görüb ki, zindannan balaca işığ gəlir. Deyip, hə, uje səhər üzüdü, günəşdi havadı. Deer, Bəhlul Danəndə feyziyab olub. Başdayıb öz-özünə şeyir deməyə, mouzalayıb. Görüp, deer, bı çoban ağladı. Deyib, Allah, sənə şükür, bir başa düşən, qanan adama ras düşdüm. Hə, çoban ağlayır. Bı Bəhlul Danəndə belə başın yelliyə-yelliyə deyir. Deep ki, ay çoban qardaş, mən öz dərdimi dilə gətdim. Sənin nə dərdin qövr elədi, sən də ağladın? Deer, vallah, ay qardaş, mənim

sürümdə bir dənə keçi vardı sakqallı, sən belə-belə elədiycən sakqalın tərpənir, o keçi yadıma düşdü. Mən ona ağladım.

Deep ki, zindanbanı gələndə çağır məni. Deyip zindanbanıya ki, məni çıxart apar, o patşaha deyəcəm sözümün açıxlamasın, hikmətin. Deyip, yaxşı, gə gedək. Gedip, deyip ki, Allah qanannan qammıyanı heç vaxdı yoldaş eləməsin, hələ nəinki bir yerdə yaşamax.

Deep, ay Danəndə, sən neçə gündü bı əziyəti bınnan ötrü çəkirdin? Deeb, onun mənasın bilmirsən da, ona görə sənə demirdim. Ancax genə mənim bu boyda sözümnən, hikmətimnən bir şey anlamayıb, mənim sakqalımı da keçiyə oxşadanın yanında durmağdansa, səən kimi qammaza deyim, çıxım gedim (S:21; T:1).

## KƏL NİYYƏT HAQQINDA

## BU QƏDƏR TOYUĞUN BİR XORUZU OLMALIDI

Deyilənə görə, Şah oğlu Şah Abbasın yaxın bir dossu olub. Adı da Kəl Niyət imiş. Bıların arası çox yaxın imiş. Bılar fürsət düşən kimi bir-birrərinə cürbəcür bəhanələrlə sataşallarmış. Nöbə Şah Abbasa çatası olur. Bir günnərim Şah Abbas oa getməli olur. Qoşuna tapşırır ki, bəs sabeyn oa gedəciik. Hər kəsən özinən bir yımırta götürsün. Elə ki, mən oturub başdadım qaqqıldamağa hamuz oturub qaqqıldaşarsuz. Mən yumurtaan gössərən kimi siz də altuzdan yumurtaan götürüb gössərərsüz. Bı qaydinan bılar oa çıxıllar. Bir az gəzib o eliyənnən soram qoşun şahın göstərişinən bir yerdə dayanmalı olur. Şah əmr elir ki, bı saat hərə bir yımırtda yımırtasın. Əgər kim yımırtamasa ona qırx çubuq vurduracam. Şahın əmri ilə hamı çömbəlib başdir qaqqıldamağa. Kəl Niyət əvvəlcə heş nə başa düşmür. Soram annir ki, nəsə bu Şah Abbasın nöbəti kələyidi. Gözzir ki, görək bu işin axırı nə ilə

qutaracax. Qoşun bir qədər qaqqildiyannan sora hərə altınnan bir yımırta çıxardıb şaha gössərir. Şah da öz yımırtasın çıxarıb Kəl Niyətə deer: Hə, indi sözün nədi? Çıxart sən də yumurtuu gössər! Kəl Niyət heç halını pozmadan kiçik bir təpənin başına çıxıb başdir bannamağa. Şah xəbər alır ki, bəs bu nə deməhdi? Kəl Niyət deer: şah sağ olsun, bı qədər touğun bir xoruzu olmalıdı, ya yox?! Şah Abbas bı dəfə də kələyinin baş tutmadığın görüb kor-peşman yola düşür.

## TAXILI AYAĞINDAN SULAMAZLAR

Bir günnərim Şah Abbasla Kəl Niyət çölə çıxıllar. Bıların yolu taxıl zəmisin yannan düşür. Şah bir zəmiyə baxır, bir də Kəl Niyətə. Sora qayıdıb deer: Ha bı taxılı əyağınnan bir suliyasan. Kəl Niyət şahın bu sözün eşidib əvəzində deer: Ha bı taxılın bir yağışı oleydi. Şah Kəl Niyətin bu sözinən razılaşmır. O der ki, bın əyağınnan suliyasan. Nə isə bılar çox mübayisə elillər. Soram başdillar yollarına davam etmə-yə. Bir az getdihdən soram gəlib bir arxın qıraana çıxıllar. Bılar atdarı sulamalı olullar. Birinci Kəl Niyət atın sua salır. Atın başınnan bərk-bərk tutub suun ortasında diyanır. Bir xeyli belə diyanannan sora şah xəbər alır ki, bəs Kəl, neynirsən? Kəl cavab verir ki, şah sağ olsun, atı suliram. Deer, bəs atı əyağınnan suliyallar? Kələ də elə bu cavab lazım idi. O saat caabında şaha deer ki, bəs şah sağ olsun, taxılı əağınnan suliyanda atı niyə başdan suliyax, qoy o da əyağınnan su içsin. Şah o saat başa düşür ki, səhv danışıb. Oniçün də Kəl Niyət yerində oon səhfin özünə deer. Şah bir söz demir və kor-peşman başın yelliir.

## BAŞ TUTMAYAN KƏLƏK

Bir günnərim Şah Kəl Niyətə deer ki, bəs, hazırraş, yaxın kətdərin birinə qonax gedəcik. Bılar hazırraşıllar,

yaraq-yasaqlarını götürüllər, yola düşüllər. Gəlib həmən kəndə çatıllar. Ev sahibi bıları yaxşı qarşılir. Şah atdarı mehtərə tapşıranda onu başa salır ki, bəs Kəl Niyətin atın ağzın hərrəmə kəssin. Mehtər də şah deyən kimi elir. Bılar yib-içillər, ordan-burdan danışıllar. Nəisə yatmax vaxtı çatır. Gecə bılar yerrərinə girəndə Kəl Niyət bayıra çıxmalı olur. Yerə düşəndə toladan qulağına səs gəlir. Fikirrəşir ki, bəlkə atdar ajdı. Gedim bir az arpadan-zaddan səpim qabaxlarına. Kəl gəlib töləən qapısın açır. Öz atına sarı gedəndə görür ki, atın dodağı hərrəmə kəsilib. Kəl o saat başa düşür ki, bı şahın kələyidi. Qılıncın çıxardıb şahın atin quyruğun kəsir. Sora gəlib yerinə girir. Sabeynnərim bılar durub hazırraşıllar getməyə. Ev yiəsinə xoş-beş elib yola düzəlillər. Bir az gedənnən sora şah atın mahmızdir ki, qəsdən qabağa düşsün. Şah qabağa çıxıb sürətdi götürülür. Soram arxiya dönüb Kələ deer ki, ay Kəl, atın nəyə dişdərin ağardıb hırıldir? Kəl heç kefin pozmadan cavab verir:

– Şah sağ olsun, sənin atun quyruğuna gülür.

Şah tez çevrilib atin quyruğuna baxanda başa düşür ki, Kəl də ona boşdı qalmiyıb. Soram üzün Kələ tutub deer:

– Kəl, deyəsən bı dəfə də kələyim baş tutmadı, özünü başqa vaxt gözzə.

## KƏLİMSƏN Kİ, KƏLİM

Qış vaxtidi. Qarrı gecələrdən biri idi. Şah gecəən bir aləmi yerinnən durub Kəl Niyəti səssiyir. Kəl soruşur ki, şah sağ olsun, nolub? Şah deer ki, bəs tez ol, dur ayağa, çöldə yad adam var. Kəl cəld yerinnən durur. Əvvəlcə fikirrəşir ki, bir qapıdan çölə baxım görüm bu nə işdi. Bəlkə şah yenə bir qurma qurub. Yaraqsız-yasaqsız halda əyilib qapıdan çölə baxmağ issiyəndə şah Kəli daldan itəlir çölə. Qapin da bərh bağlir. Çöldə də qar, çoğun. Kəl o saat işin nə yerdə olduğun

anniir. Hindi bının əynində üs geyim yox, qalın paltarı yox, başdir souxdan əsməə. Bir az belə qalannan sora deer ə, ölməy-ölməhdi, xırıldamax bəs nə deməhdi, deb, başdir yaxınnıxda tökülüb qalmış iri daşdarı bir-bir daşib o biri tərəfə yığmağa. Bı minvalınan bir neçə dəfə Kəl Niyət daşdarı gah o tərəfə, gah da ki, bı birsi tərəfə daşımağa başdir. Kəl daşdarı daşıdıxca issilənir, başdir tər töhməə. Lap bınnan tər su kimi gedənnən soram bir qədər diyanır ki, dincin alsın. Bı vaxtı şah içəridə şirin-şirin yatırdı. Səərə az qalırdı. Birdən şah oyanır. Yerinnən duranda fikirrəşir ki, ayə bəs Kəl çöldədi, bı yazıxdı axı, bəlkə souxda donub, bir baxım görüm nə haldadı. Şah pencərəən qabaana gəlib çölə baxanda nə görsə yaxşıdı?! Görür ki, bıdey Kəldən bir tər-su gedir ki, gəl görəsən. Şah bı işə məətdəl qalır. Tez aşağı düşüb qapıya yaxınnaşır. Qapin açıb başın çölə çıxardanda souxdan bırniin ucu göynir. Tez Kəldən xəbər alır ki, bəs qışın, qarın bı vaxtında bı tər-su nə deməhdi sənnən axır, ay Kəl? Kəl heç kefin pozmadı. Başın uzaxda zirvəsi qarra dolu olan dağa sarı döndərip deer ki, bəs şah sağ olsun, o dağı göörsənmi? Şah başın dağa tərəf döndərib deer, göörəm Kəl, hə, nə olsun? Kəl sözünə davam elib deer: Bəs səərə qədər o dağın başında bir işıx yanırdı. Mən də üzümü o işığa tutdum, o işığın istisi mənə gəlməyə başdadı. Helə sən çölə çıxana yaxın o işıx yox olmağa başdadı. Hindi də o işıxdan gələn istidi ki, bax məə bel hala salıb. Şah bu işə lap məətəl qalır. Ta matı-mutu qurir. Kəlin bı kələyin başa düşmiyən şah onun hünərinə heyran qalarax deer, Kəlimsən ki, Kəlim! Di bəsdi, gəl içəri, ta səə ölüm yoxdu. Kəl elə bın issirmiş kimi, tez yerinnən tərpənib qapıdan içəri girir (S:38; T:3).

# MARAQLI ƏHVALATLAR

## AYININ MÜKAFATI

Qəbələ tərəfdə bir kişi meşiyə odun yığmağa gedir. Meşədə qabağına bir ayı çıxır. Görür ayı nərə çəkir. Qorxup yaxınnaşmağa. Görüp, yox, ayı iki ağacın arasına keçip. Haça kimi yerdi. Ağ əti keçıb o haçaan arasına. Qorxup bına yaxınnaşmağa. Ayı az qala dilə gəlip. Gedip yaxınnaşıp, bını çıxardıb ordan. Onnan soora ayı yapışıp oun kürəyinnən, sürüyüp. Kişi deep ki, nəyə görə mən bına köməyliy elədim. Başımı bəlaya saldım. Bı məni yağın yeməyə aparır. Tutup sürüyüp-sürüyüp aparıp meşəən dərinniyinə. Düz ağaca çırpıb, qayıdıp gəlib ayı. Deer, baxdım ağaca, gördüm bal nə qədər, bal nə qədər...

Ayıya yaxşılığ elədiyinə görə ayı da onu mükafatdandırıp. Gedip bidon-zad gətirip. Balı yığıp-yığışdıra bilmirmiş (S:4; T:1).

## HAVAYI GÜLLƏ

Bunu atamnan eşitmişəm. Abbas ağa adında bir kişi olur. Bir gün bı kef məclisi düzəldir həmişəki kimi. Öz dossun, tanışın, dölətdi bəyləri, ağaları dəvət eliyir bı məclisə. Oturullar, yiillər, içillər, keflənillər. Bırda da başdıyıllar nöbeynən rəvayətdər danışmağa. Bir Bahadır bəy olur bıların içində. Nööbə gəlip çatır bına. Bı da çox gopçu, məzəli bir adam olur.

Başdiyır danışmağa ki, bir gün mən ova çıxmışdım. Gördüm ki, əy, qabaxdan dokquz dənə canavar gəlir. Elə gülləni aşmağımnan biri öldü, qalanı qaşdı. Bir az da qabağa getmişdim. Gördüm ikisi qayaan dalında gizzənip. Yenə bına bir güllə atdım. Atdım, biri öldü, biri qaşdı. Bir az da qabağa getmişdim, ayə, üçü də qabaxdan gəlir. Yenə gülləən atdım. Atdım, iksin birdən öldürdüm, biri qaşdı. Elə bı sööpətin məzəli, duzzu

yerində bir də görüllər ki, Abbas ağa yoxdu. Aya, hanı bı, hara getdi? Axdarıllar. Görüllər ki, Abbas ağa girip sdolun altına.

Ay ağa, sən bıra niyə girmisən bı söpətin məzəli, şirin yerində? Deer, ayə, görmürsən, havayı güllədi, birdən biri məə dəyər.

## YEYİLMƏYƏN EHSAN

Mamam danışardı ki, bizim kətdə (Qaraxıdırda) olup. Bir arvat çox vasvası olup, həddinnən artıx. Hüzürə gedərmiş, hüzürdə halva yiməzmiş. Heş kəsin ehsanınnan yiməzmiş, çay içməzmiş.

Bir gün də gəlir, ölüm haxdı da, kim bı dünyanı tutup durur, bı arvat da ölür. Bı öləndə, deer, halva bişirillər. Halva bişəndə gamış gəlip girib ora, bıynızıynan vırıp halvaan dağıdıb. O günü heş kəs halva yiyəmmiyip. Arvadın üçü günü olup. Ehsanı yiilmiyip.

## ALLAHDAN MÖHLƏT

Bunu mənə atam danışıb. Atam Göyçayın Qaraxıdır kəndinnəndi. Özü də usda olup.

Danışırdı ki, kətdə bir kişi olup. Özünə ev tikirmiş. Bı ərəfədə kişi ağır xəssələnir, yorğan-döşəyə düşür. Bı ölüm əyağında üzün tutur qibliyə, yalvarır ki, ay Allah, sənə qurban olum, sənnən ömür issəmirəm, möhlət issirəm. Mənə möhlət ver, canımı alma, qoy bı öyü-eşiyi tikim. Uşaxlarım yazıxdı. Tikənnən soora canımı alarsan.

Kişi bir müddət soora sağalıp durur. Başdiyır işinə davam eləməyə. Evi tikir. Evin üssün örtəndə Allahnan bı müqaviləsi yadına düşür. Deer, mən Allahdan möhlət issədim, o da verdi. İndi ev hazır olur, məəm möhlətimin vaxdı qutarır. Allah canımı alacax. Mən heş bı öyün içində yaşamadım.

Kişi ölməy issəmir. Ev də baş olmağ üzrədi. Kişi fikirrəşir ki, vallah, bı evin üssün örtəndə kəllə tərəfin açıx saxlıyacam, örtmiyəcəm. Qoy Allah görsün ki, evi hələ tikip qutarmamışam, yarımçıxdı, Əzreyili göndərməsin.

Uzun illər həmin evin üssü bir tərəfdən açıx qalıp (S:6; T:1).

## SAVAB İŞ

Nənəm deerdi ki, erməni-müsəlman davasında – 1917-ci ildə türklər gəliplər bizi xilas eləməyə. O türklər bax bı **Pir Usup baba qəbirsannığında** – orda yığıb baş ağaşdarın yandırıplar türk əsgərrəri. Pir Usup baba o qəbirsannıxda dəfn olunup, o ziyil piri də ordadı. Soyuğ olup, qar-qiyamət olup. O tut ağacınnan olan, xalq arasında gər deellər da, o gərdən olan möykəm olur, suya davamlı olur, çürümür. Saldatdar yığıp baş ağaşdarın yandırıplar, isiniplər. Mən nənəmə deerdim ki, bəs olar müsəlman döördülər. Deerdi ki, o, savapdı ki, donub ölməsin. Onsuz da müsəlmanın qəbri itməlidi.

## SEÇİLƏN QƏBİRLƏR

Mən atama sual verirdim, deerdim, hacıın qəbri nədən seçilir? O vaxdı tut ağacınnan eliirdilər qəbri, indiki kimi beton-zad olmıyıp. Deerdi ki, hacıların baş ağacın başqa cür yonurdular. Qəbirsannığa girəndə bilirdin ki, bı hacıın qəbridi. Necə olurdu oların baş ağacı, məsələn, elə yonurdular ki, qəribə bir əmmamə şəklində nəsə eliirdilər ki, o hacıın titulu bilinirdi. Bilirdilər ki, bı qəbirdə yatan hacıdı. O vaxdı axı üs düzəltməh, daş qoymax günah sayılırdı. Müsəlmanın qəbri itməliydi (S:7; T:1).

## SAĞSAĞANI ÇƏRLƏDƏN HACALIKƏNDLİ

Bir saxsağan hacalıkətdinin cücəsin aparırmış. Bılar bı saxsağanın öhdəsinnən gələ bilmillər. Hacalıkətdinin cücəsin apara saxsağan, olar da dura baxa. Deməli, nərdivannan çıxıllar, saxsağanın yumurtasın götürüp, bişirip, yerinə qoyullar. Saxsağan da kürt yatır. Nə qədər yatır balası çıxmır. Saxsağan axırda çərriyip ölür. Onnan da hacalıkətdilərin adı qalıp sağsağanı yuvasında çərrədən hacalıkətdidi (S:9; T:1).

## QARDAŞIN DƏYƏRİ

Bir qadının qardaşın, ərin, bir də oğlun tutullar. İndi bıları asasıdılar. Soruşullar ki, hansın bağışdıyax da, hansın issirsən, birin bağışdıya bilərik. Bı da deer ki, qardaşımı. Soruşullar, nəyə görə? Deer, əri eldən taparam, oğulu beldən taparam, qardaşı hardan taparam (S:13; T:1).

## QOVUD YEMƏYİN QAYDASI

Bir evə qonax gəlir. Nabələt qonağ olup da. Ev yiəsi gətirip bı əzilmiş qoutdan qoyup süfriyə, bir də bal. Qonax bilmiyip ki, bını nə təər yiillər.

Birdən bı dəmdə bir uşax girib içəri – ev yiəsiin uşağı. Qonax deer ki, oğlum, bıra gəl. Gəl, bınnan mən yimişəm, sən də yi. Görür ki, uşax əvvəlcə barmağın bala batırdı, soora qooda, qoydı ağzına. Rahatca yidi. Onnan soora qonax da bilir bıın yiməh qaydasın.

## AYININ ŞAPALAĞI

İsmayıllı tərəfdə bir kişi ova gedir. Ayıın ovlamağ issiyip tüfəhnən. Ayı da cəlt tərpənip. Gəlip kişiin əlinnən tüfəngi alıp, dizində sındırıb – iki yerə bölüp, atıp. Kişiin də qulağıın dibinə şapalağı nə təəri vırıpsa, kişiin qulağı kar olup.

O gün-bu gün, bı kişiin qulağı heş nə eşitmir. Hara gedir, o ayı oun fikrindədi da. Görür topa kişilər durup sööpət eliyir, diyanır oların yanında. Heş nə eşitmir axı. Baxır-baxır, deer, ayıdan danışırsuz? Yaman pis heyvandı, yaman pis heyvandı.

## MİRCƏFƏR BAĞIROVUN XOŞLADIĞI ŞORABA

Rəhmətdiy anam danışırdı. Məəm anam Kürdəmirin Qarabucax kəndinnəndi. Dəmir yoluun qırağındadı da o kənd. Deerdi ki, gəlip bizə sifarış verdilər ki, Mircəfər Bağırov kəvər tutması xoşduyur. Onnan tutun. Ora da şoran yerdi. O da şorannıxda bitən şeydi da. Mamam deerdi ki, bir on-on beş qadın briqada şəklində əllərində vedrə, bir dənə də meşok, səpələnirdilər, deer, düzənniyə. Bı kəvəri, deer, yığırdılar meşoxnan, gətirirdilər.

Deer, məəm anam da yaxşı tutan imiş kəvəri. Oun suyun dəyişillər axı bir neçə dəfə. Acısın alıllar, təzədən duzzıyıllar. Anam da deer, o yığılıp gəlmiş kəvərrəri tuturdu, suyun dəyişdirirdi. Boçqalarda, deer, tuturdu. Yığırdılar neçə boçqa. Soora, deer, onu qatarnan yola salırdılar Bakıya.

Mircəfər Bağırovun yaxşı qonaxları gələndə – Stalin ora qonax gələndə (o da xoşdıyırmış kəvər tutmasın – Stalin), o qonaxlıxlarda, deer, o tutmadan isdifadə eliirdilər.

## MƏSCİDƏ TƏZİM

Bizim kəndimizdə – bı Alpout kəndində bir Ziba xala var iydı, kalxoz sədri işdiirdi. Bı eşidip ki, meçidin yanınnan keçəndə meçidə salam verməh lazımdı. Bıın da bı kəndin lağlağıçı uşaxları görüllər ki, bı Ziba xala hər keçəndə meçidə salam verir.

Səhər tezzənnən keçiplər meçidin həyətinə, çəpərin dalında çömbəliplər aşağı. Ziba xala gəlib ordan keçəndə

ucadan deyip ki, sabaan xeyir, meçit! Uşaxlar da yavaşca deeplər ki, abətin xeyir, Ziba bajı.

## GORDAN QAYIDAN

Böyühlər sööpət eliyəndə eşitmişəm. Elə adam danışıp ki, oun başına gəlipdi. Rəhmətə gedip. Aparıp bını dəfn eliiplər. O vaxdı beton-zad qoymurdular ki, ölüün üsdünə. Elə-belə qarğıdan-zaddan döşüüllərmiş da. Nəfəs ala bilirmiş. Bı ölən adam oturup fikirrəşip ki, Ay Allah, mən bırdan nə təəri çıxım?

Elə bıın fikirrəşəndə görüp ki, nəsə qəbri eşir, qazıllar. Başa düşüp ki, bı kafdardı da. O vaxdar kafadar çox imiş. Gəlib eşip, ölüün çıxardıp yiillərmiş. Görüp ki, bir dənə uzun əl girdi qəbrə. Bı kafdarın qabağ əlləri çox uzun olur. Girəndə bı da yapışıp biləyinnən. Nə qədər dartıp kafdar, çıxarda bilmıyip əlin. Bı qəbirdəki əlin bıraxmıyıp da. Dartıp-dartıp, çıxardıp. Çıxıp çöldə o qədər əlbəyaxa oluplar ki... Axırı əl atıp yapışıp boğazınnan başdıyıp kafdarı boğmağa. Kafdar da bıın üzün-gözün cırıx-cırığ eliyip. Boğup-boğup, axırı öldürüp kafdarı, gəlib evinə.

Bınnan qorxuplar, heş kəs bına yaxın getmiyip. Yoldaşı bir az ürəhli olup. Deeb, az, mənə palrar gətir, çılpağam. Kişi geyinir, başına gələnnəri danışır. Həmin o kişiin də üzü çox pis hala düşüp da. Çayçıda oturup, bına sual veriplər ki, bı nə sir-sifətdi səndə? Uzun, dərin izdər olub üzündə. Danışıp ki, bəs məəm başıma belə iş gəlip. Mən ölmüşdüm. Bəs kafdar məən dartdı çıxartdı. Dalaşanda o məəm üzümü cırıxliip, bu günə qoyup (S:15; T:1).

## AYININ QİSASI

İki doss olur – ooçu dossar. Bir gün bılar yaraxlanıp-yasaxlanıb ova gedillər. Bılar ov eləməy issiyəndə yolda bılara

ayı ras gəlir – ayı, yanında da balası. Bı ovçulardan biri deyir ki, gəl gedəh, ayiynan bizim işimiz yoxdu. O birsi nişan alır ki, yox ayıın vıracam. Dossu nə qədər eliir, bı kişi əl çəhmir.

Ayıın vırmağ issiyəndə gedir güllə təsadüfən balasına dəyir. Balası ölür. Ayı görür ki, balası ölür, başına qapazı vırır, başdıyır ağlamağa, insan kimi, başına döyür, ağlıyır. Bu birsi dos deir ki, sən çox nahağ iş gördün, sən oun balasın öldürdün. Deir ki, balasın öldürməy issəmirdim. Dedi, mən səə dedim ki, nahağ elədin. O ayı səndə o hayıfı qoymıyacağ, gəl gedəh, özüü qoru, özüü gözzə.

Bı kişin heç ağlına da gəlmir ki, bı dediyi düz olar. Nəsə, bılar çıxıllar gedillər, ay keçir, il keçir. Bı ayı, heş demə, bı kişini pusurmuş, axdarırmış.

Bir gün bı kişi öyünnən çıxanda yol boyu hənirti eşidir. Görür ki, bir böyüg ayı bının arxasiycan gəlir. Kişi qaçır, ayı bıın dalıycan, kişi qaçır, ayı haxlıır kişini. Kişini parça-parça elir, öldürür, kişidən balasıın hayıfın alır (S:24; T:1).

## ŞƏQQÜL-QƏMƏR

Bir gənc ailə vardı. Ər-arvad hal əhli idilər. Bunların Mustafa adlı körpə uşaqları vardı. Qadının adı Pəri olub. Bir gün qadın uşağı qucağında oynadanda uşaq dırnağı ilə anasının üzünü cırır. Kişi evə gələndə gəlinin üzünü cırılmış görür və deyir:

Hüsni-ruyində nədir,
Əbr kimi şəqqə Pəri?

Pəri də deyir ki:

Müstəfa barmağıdır,
Şəqq eliyibdir qəməri!

Burada həm "Şəqqül-qəmər" hədisinə işarə edilir, həm də ana işarə edir ki, üzümü balaca Mustafa cırıb (S:36; T:3).

## XALİS ÇOBAN

Çoban qoyun otarırdı. Bir bəy də keçirdi. Dedi: Çoban. Dedi, bəli. Dedi qoyun neçə baş otdiir? Dedi, ağa, üş baş (Sürüdə beşüz-altıüz qoyun var idi). Dedi, kəlləmsağ* oğlı kəlləmsağ, bı qədər sürü üşdü? Dedi, bəli! Dedi, bəliyə ağzın öyrənib, nədi? Dedi, bəli, üşdü! De görüm nətərdi? Çoban dedi: Kərədi (qulaxsız), kürədi (yarımqulax), qulaxlıdı (uzunqulax). Dedi, bərəkallah, indi bildim ki, xalis çobansan (S:38; T:3).

## XANI ÖLDÜRƏN İNÇƏLİ

O vaxtı bir xan olub. Qoşininan gəlib tökülüb bizim kəndin əağına. Xanın İnçədən bir dossu olub.[19] Bılar bir-birinən çox yaxın idilər. Bir gün İnçəliin arvadı bına deer ki, bəs sən xanınan dossan, ona de ki, bizə xır yeri* vərsin. Kişi də arvadın söznə baxıb xana deer ki, bəs bizə xır yeri vər. Xan da caabında mıa deer ki, getginən səə Törədə[20] yer vərdim, ək özüçün. Kişi gəlib arvada deer ki, xan bizə Törədə yer verdi. Arvad bı sözdən yamanca pərt oldu, neçə gün kişinən danışmadı. Bir günnərim İnçəliin arvadı mına deer ki, əyər xanı öldürməsən başbırtımı sənnən alıb ua ərə gedəcəm. Kişi əlajsız qalıb xanı öldürməyi fikir eliir.

Aradan xeyli keşmişdi. Bir günnəri İnçəli xanınan ova çıxır. Xanın bir yaxşı xəncəri var idi. Kişi xana deer ki, bəs bu vaxtacan səninən dossux, bir dəfə də səən xəncəruu görməmişəm. Ver, baxım, görüm nətəər xəncərdi? Xan da mıa inanıb xəncəri kişiyə veer ki, baxsın. Kişi o saat xəncəri soxur xanın qarnına, xan ölür. Bı vaxtı xanın qoşnuna xəbər çatır ki, bəs xanı öldürüblər. Qoşun kəndin əyağınnan çəkilib gedir. O zamannan İnçədə belə bir məsəl qalıb: Xan kimi əjdəri[21] öldürən ay İnçəli (S:40; T:3).

# QAYNAQLAR

1. Zülfüqarlı M.P. Göyçay tarixi, Bakı: 1905. az STUDİO, 2022, 312 səh.

2. Cəbiyev Q.C. Girdiman tarixi (IV-IX əsrlər), Bakı: Şərq-Qərb, 2010, 616 səh.

3. Şirvani S.Ə. Əsərləri III clddə, III cild. Bakı: EA nəşriyyatı, 1974, 499 səh.

4. Əlioğlu Ə. Göyçay: nə bilirik, Bakı: İqtisad Universiteti nəşriyyatı, 2009, 308 səh.

5. Vəlişov (Tapdıqoğlu) N. Göyçay rayonu və onun toponimiyası, Bakı: Təhsil NPM nəşriyyatı, 2004, 246 səh.

6. Abbasova M.Ə, Bəndəliyev N.S, Məmmədov X.H. Böyük Qafqazın Cənub-Şərq hissəsinin toponimiyası, Bakı: Elm, 1993, 196 s.

7. Hacıyev N. Varislik, Bakı: Nurlan, 2007, 144 səh.

8. Qədirov F.V. Azərbaycanın şimal müdafiə istehkamları, Bakı: Elm, 1984, 150 səh.

9. Ərəb və fars sözləri lüğəti, Bakı: Yazıçı, 1985, 1036 səh.

10. Ciddi H. Buğurt qalası, Bakı: Azərnəşr, 1973, 56 səh.

11. Musayev İ. Göyçay rayonundakı dini abidələr və tarixi şəxsiyyətlər, Bakı, İpəkyolu nəşriyyatı, 2014, 158 səh.

12.https://m.facebook.com/story.php?story_fbid=pfbid0aFiMQe2MbEkbRYLinkod1bU3c8neAHn9LNq8LWnKMGQypdS5zzcpFShYzKxM9pqpl&id=100006847304223&sfnsn=mo&mibextid=6aamW6

## SÖZLÜK

- Acıtma – çörək məmulatları bişirmək üçün xəmirə qatılan maya. Acıtmanı uzun müddət saxlamaq olur.
- Adıyox – dəri xəstəliyi. Lokal xarakterli səpkidir. Daha çox üzdə olur.
- Ağsulaq – ağız boşluğunun xəstəliyi, stomatit
- Arıotu – ballı nanə, melissa
- Atlama – doğramac
- Ayın-oyun – azından-çoxundan
- Bəlgə – iki qonşunun əkin sahəsi arasındakı əkilməyən, istifadəsiz zolaq – tirə
- Bənövşə suyu – kiçik çillədə bağa, ağaclara verilən su – mövsümi suvarma
- Buxarı – əksərən evin daxili divarının içərisində kərpiclə tikilmiş və havaya çıxışı olan ocaq yeri
- Bulama – təzə doğmuş heyvanın iki-üç gün sonrakı südü
- Cərəkəsən – nadinc
- Çalası – qatıq qoymaq üçün maya
- Çinədan – quşlarda, həşəratlarda qida borusunun qida toplanan yoğun yeri; məcazi mənada – eşitdiklərini yadında saxlamaq, çinədanına yığmaq şəklində işlədilir.
- Dö – div
- Duz günü – bazar ertəsi. Həftənin birinci günü el arasında ağır gün hesab olunur.
- Əsməlik – çoxlu qovaq ağacı olan yer. Göyçayda ən çox əkilən növü əbrşüm adlanır. Yarpağı çox titrək olur, daim əsir.
- Əyən – əgər
- Gecəyanığı – dəri xəstəliyi, bədənin müəyyən hissələrində lokal xarakterli, suçiçəyinə bənzəyən viruslu səpki
- Gənişmək – məsləhət eləmək
- Gərməlik – tut bağı. Tut ağacına Göyçayda gər deyilir.

- Gəz – əşyanın əsas hissəsindən kəsilmiş, açılmış yeni oyuq, yarıq
- Göy – kürəkən
- Hadığ – mama həkimi
- Həş-beş – hər şeyi anlamında
- Hoxura-hoxura – isidə-isidə. Şaxtalı havada tez-tez nəfəs verməklə əllərin isidilməsi
- Xəkə – Göyçay bölgəsində quru çayın dəmlənilməsindən sonrakı adı; kömürün ovuntusuna, tozuna da xəkə deyilir.
- Xəndəy atır – yer qazır
- Xır yeri – çəltik əkilən sahə
- Kətəməz – yeni doğmuş heyvanın ilk südünü bişirdikdə alınan pendirəoxşar məhsul
- Kəlləmsağ – tərsə məzhəb anlamında
- Korafəhm – fəhmi, duyğusu, hissiyyatı zəif olan adam; düşdüyü vəziyyəti tam dərk etməyən
- Qaş qaralan vaxtı – axşamçağı
- Qatma – əməköməci bitkisindən hazırlanan az kalorili xörək
- Qulpundan çıxan – hər nə olsa; pay vermək məqamında onun üçün seçdiyin əşya
- Müşəmbərləmək – mətndə möhürləmək anlamında. Digər halda, ifadə "müşki-ənbərlə ətirləmək" kimi də anlaşıla bilər.
- Nıxdıma – nitqimə
- Ocaq günü – cümə axşamı, adına günü, ziyarət günü. Adətən ölüləri, müqəddəs yerləri həmin gün ziyarət edirlər.
- Papağaltı – papağın altına yumurta yığmaqla oynanılan oyun növü
- Pərgar – hazır olmaq
- Püləmək – üfürmək sözünün danışıq dilində təhrif olunmuş formasıdır.
- Sədəmə – ziyan, xəsarət

- Şamal – məftil və ya ağacın başına əsgi dolamaqla düzəldilən məşəl. Söz, "şam" (yanan) və "al" (qırmızı) kimi müstəqil tərkiblərdən ibarət olmaqla, həm də "qırmızı od" anlamını ehtiva edir.
- Şər vaxtı – axşamçağı. Xalq inancına görə, həmin vaxt şər qüvvələr fəal olur.
- Şərəşurluq – dava-dalaş
- Şil – əlsiz-ayaqsız, şikəst
- Şüə – şəvə sözündəndir. Qara rəngli uzunsov muncuqdur. Uşaq və zahı qadınları şər qüvvələrdən qorumaq üçün qoluna və ya paltarına həmin muncuğu taxırlar.
- Taxça – divarda oyuq şəklində hazırlanmış qapısız şkaf
- Tasadlıq – sədəqə
- Təpitmə – un, yumurta və yağdan hazırlanmış xəmir. İsidilərək əzilən və ya burxulan yerə qoyulur.
- Təpkeş – yer qazarkən istifadə edilən ölçü vahidi. Belin ağzı bir təpkeş sayılır.
- Valata – çörək bişirmək üçün bir neçə saat öncə acıtmaya su və un əlavə etməklə hazırlanan duru maya
- Vecin de – ərəbcə "vəc" sözündəndir. Dilimizdə "veyc" kimi işlənir. Mətndə dəyərini, faydasını, hesabının məqamını söylə anlamında
- Vərəmum – arının bitki tumurcuğundan topladığı qətranabənzər məhsul
- Yal – mətndə it yeməyi
- Yayın cırcıraması – yayın ən isti vaxtı. Həmin dövrdə havalar çox quraq keçir, cırcıramalar da aramsız oxuyur.
- Yəhərqaş heybə – atın yəhərinin altından asılan kiçik heybə
- Zamat – tərkibi yumurta və paltar sabunundan ibarət sınıqlarda istifadə edilən sarğı

## AYDINLATMALAR

1. Adlanmanın göy (səma) ilə əlaqəsi olduğu da ağılabatan versiyadır. Bunun da bir qaynağının “Göy Türk”lərə bağlandığını ehtimal etmək olar. Ümumiyyətlə, elmi mənbələrdə qədim türklərin göylə rabitəsindən çox danışılır.

2. Astrologiyaya görə (apostrofla yazılan) Sədnərud sözünün izahı: Tərkib halında baxıldıqda, söz “uğurlu ulduz altında doğulan xoşbəxt məkan” mahiyyətini ehtiva edir. Hissələrə ayırdıqda, **səd** (ərəbcə) – “uğurun”, “bəxtiyarlığın”, **nər** (farsca) – “cəsurluğun”, “igidliyin” rəmzi kimi səciyyələndirilir (Müasir ərəb-fars sözlüklərində nər, dəvə sözünün qarşılığı kimi də izah olunur). **Ud** (ərəbcə) – odun deməkdir, həm də məkani səciyyə daşıyır. Hindistanda bitən və yandırıldıqda xoş iy verən ağacın adıdır (9, 543; 472; 656). Şəcərəsi: Azərbaycanın mərkəzində (Göyçay adı ilə – A.Ə.) İslamın ətrini yayan Haqq aşiqi övliyaların xanəgahı – toplanış yeri; Mənəvi aləmdə tövbə qapıları olan Nuh çıxan yerlə Dərbənd arasında orta, yəni ədalətli mövqe tutan məkan deməkdir.

3. İndiyədək kənd sakinləri arasında toponimin açılışına münasibət birmənalı olmayıb. Məsələn, kənd sakini (dünyasını dəyişmiş) Oktay Mütdəlif oğlu Hacıyevin ehtimalına görə, Potu toponiminin Qaryagində (indiki Füzuli rayonunda) mövcud Potını dərə adı daşıyan toponimi ilə ilişkisi vardır. İnformatorun digər versiyasına görə, vaxtilə kənd əhalisinin bir qismi Qazax rayonunun Potubəyli adlanan ərazisindən bura köçmüş və bu da toponimin adlandırılmasını şərtləndirmişdir.

Bizcə, hələlik mövcud versiyaların içərisində “Göyçay rayonu və onun toponimiyası” kitabının müəllifi Nazim (Tapdıqoğlu) Vəlişovun bu haqda gəldiyi qənaətlər daha əsaslandırılmış görünür. Müəllif yazır ki, “Kəndin adının Türk dillərindəki “pot” və İran dillərindəki “u” komponentlərindən ibarət olması ehtimal olunur. Potu toponimi güman ki, “su üstündə keçid və ya bərə” mənasındadır.... Bu yaşayış məntəqəsi Arvan çayının sahilində, bərə yaxınlığında yerləşdiyinə görə belə adlanmışdır...

Kənd ərazisində vaxtilə çoxlu su dəyirmanları olmuşdur" (Əksər sakinlər də bu versiyanı dəstəkləyir və "keçid" sözü lokal ləhcədə "keş-gəl" kimi də izah olunur – A.Ə.).

Daha sonra müəllif əlavə edir ki, Pot komponentini "büzüşmüş", "büzüşük" kimi anlamlarda, bütövlükdə isə Potu sözünü şəxs adı anlamında qəbul edənlər də vardır (5, 203).

4. Bu məlumatı bizə vaxtilə Göyçay RİH-nin ideoloji məsələlər üzrə müavini olmuş və hazırda təqaüddə olan Rəcəbova Rəxşəndə Mirzəqulu qızı təqdim etmişdir.

5. Bizə çatan bir əlyazmada ilk dəfə Göyçayda bu istehsala burada məskunlaşmış erməni ustaları tərəfindən başlanıldığı qeyd olunur. Lakin usta Məmməd Alının hazırda Qarabaqqal kəndində yaşayan nəvəsi Nəbiyev Şakir Həmid oğlu ilə söhbət əsnasında bu məlumatın doğru olmadığını müəyyənləşdirdik. O bildirdi ki, bunu sübut etmək üçün çox da dərinə getmək lazım gəlmir: "Göyçay qəza olduqdan sonra babam Şəkidən bu kəndə gəlib və qirəmit istehsalını da ilk dəfə o, burada təşkil edib. Babamı görməsəm də, ağlım kəsəndən atamın bu işlə məşğul olduğunu görmüşəm (Atam Nəbiyev Həmid 1906-cı ildə bu kənddə doğulub). Həmişə mənə deyirdi ki, bu sənət ona atasından qalıb. Eşitmişdim ki, babam əvvəlcə sexi Qaraməryəmdə açıb, amma get-gəl işi çətinləşdirdiyindən sexi birdəfəlik kəndə – Rüstəmxan deyilən yerə köçürüb. Çünki torpaq burdan Qaraməryəmə daşınırmış (Torpağı kəndin istənilən yerindən götürmək olardı. Ancaq bu yerin, bir də ki, Sarıtorpaq deyilən ərazinin torpağı daha keyfiyyətli olurdu). Əgər ilk sexi bölgədə babam açıbsa (hələ kənd qalsın bir yana), necə olar ki, bu iş erməninin adına yazılsın?! Düzü, Göyçayda az miqdarda erməni yaşayıb, amma onlar şərabçılıqla məşğul olub (Bəziləri də tikintidə çalışıb). Atamdan sonra bir müddət bu sahədə durğunluq yarandı. Sonra mən bu işi davam etdirdim. Arabir dayanmalar da olurdu (əsas da əsgərliyə getdiyim dövrdə). Çətinliklər olsa da, 1976-cı ilədək bu sənəti yaşada bilmişəm. Çox heyif ki, indi ailəmizdə bu sənəti davam etdirən yoxdur!" Əlavə edək ki, kurs işi qismində qələmə alınmış əlyazmada bəzi yanlış-

lıqlar olsa da, burada dəyərli məlumatlar da verilmişdir və ön sözü yazarkən həmin məlumatlardan lazımınca yararlanmışıq (Əlyazmanın müəllifi və ünvanını olduğu kimi yazırıq: S.M.Kirov adına ADU-nun (indiki BDU) filologiya fakültəsinin I kurs "A" qrup tələbəsi Mehdiyeva Tamilla İsa qızının Şifahi Xalq Ədəbiyyatından kurs işi dəftəri. Göyçay şəhəri, Telman küçəsi, № 7).

6. Bığır kənd 3 nömrəli tam orta məktəbin təqaüddə olan müəllimi Məhyəddin Mehdiyevin açıqlamasına görə, əslində kəndin adı "Buqur" olmalıdır: "Bu adın qədim türk tayfalarından sayılan "Buq"larla əlaqəsi olduğuna dair əlimizdə faktlar var. Hətta 1917-1933-cü illərdə kənd Buğur variantında rəsmi qeydiyyata alınıb. Kənddə əsas məskunlaşma 1537-ci ilə təsadüf edir və əhali də bu əraziyə Niyaldağın ətəyində yerləşən (Şamaxı rayonuna məxsus) Qəleyi-Buğurt qalasının dağılmasından sonra gəlib. Görkəmli etnoqraf-alim Qiyasəddin Qeybullayev yazır ki, Azərbaycanda elə coğrafi adlar var ki, onların izahı qədim türk dilləri ilə müqayisəsini tələb edir. Alimin fikrinin davamı kimi deyə bilərik ki, bu cür izahına ehtiyacı olan toponimlərdən biri də Bığırdır. Toponimə münasibətdə çoxlu yanaşmalar olsa da, alınmış qənaətlər demək olar ki, bir-birini tamamlayır. Ümumiyyətlə, türkcə olan əksər mənbələrdə "Buqur" toponimi "donqar", "əyri", "yamac", "dağ döşü" kimi mənalar daşıdığı bildirilir".

Araşdırmadan belə nəticə çıxarmaq olur ki, türk qəbilələrinin bu ətrafda ilkin məskunlaşması Bığır məntəqəsinin salınmasından çox-çox əvvəllərə təsadüf edib. Bu da bizə onu ismarıcladır ki, məsələnin kökünü "Buğurt qalası"nda axtaraq. Çünki köçdən əvvəl əhalinin sakin olduğu Qəleyi-Buğurt artıq möhkəmləndirilmiş bir istehkam kimi mövcud idi və Şamaxı şəhərinin müdafiə sistemində önəmli mövqe tuturdu. Qala haqqında ayrıca tədqiqat aparmış tarixçi-alim Hüseyn Ciddinin fikirləri məsələni aydınlatmada tamamilə yerinə düşür: "A.P.Fituni Sultan Ağa adlı bir kişinin verdiyi məlumata əsaslanaraq bu qalanın Bığır xan tərəfindən tikildiyi üçün Bığır qalası adlandığını söyləmişdir. O, əlavə edir ki, Qaladərəsi həmin vaxtdan etibarən Bığır xanın şərəfinə Bığırdərəsi ad-

lanmışdır. Bu fikir həqiqətə uyğun deyildir, çünki, qeyd etdiyimiz kimi, hazırda bu dərə Bığırdərəsi deyil, Qaladərəsi adlanır. Digər tərəfdən A.P.Fituninin qeyd etdiyi Bığır xandan əvvəl bu yer qala yaxınlığında olduğu üçün Qaladərəsi adlanmışdır. Deməli, Bığır xandan əvvəl də Buğurt qalası mövcud olmuşdur. Əgər yerli əhalinin dediyinə əsaslanmış olsaq, burada keçmişdə Bığır xan deyil, Bığır ya Buğur adlı türk tayfası yaşamış və həmin tayfa bu qalanı tikdirdiyi üçün Buğurt qalası adlanmışdır. Əldə olan məlumata görə bu tayfa olduqca döyüşkən olmuş, sonralar həmin ərazidən Göyçayın yaxınlığına köçmüşdür. Hazırda Göyçayın yaxınlığında Bığır adlı kənd vardır. Tədqiqatçılar bunların türk tayfası olduğunu ehtimal edirlər" (10, 27-28). Qalanın türk dilindəki "berkut (qartal)" quşunun adından götürüldüyünə, həm də bu mənbədə işarə olunur. Məlumat üçün deyək ki, hazırda Bığır adını daşıyan daha iki kənd (Bığır və yeni Bığır) İsmayıllı rayonunun şimal səmtinə düşən ərazilərində yerləşir.

7. İnçədən olan həvəskar araşdırmaçı Əsədov Aslan Məhəmməd oğlunun qənaətincə, İnçə toponimi "incə" sözünün çevrilmiş formasıdır və qədim türk tayfalarından olan İncələrlə bağlantılıdır. Belə ki, bəlli türk axınları zamanı bu soy-birləşmələri Azərbaycana iki yolla, yəni Xəzər dənizinin şimal və cənub hissələrindən daxil olmuşlar. İnçə kəndi ilə bağlılığa gəlincə, Dərbənddən başlayaraq, şimaldan onlar Xızı istiqamətinə keçmiş, oradan dağlar vasitəsi ilə Şamaxıya və nəhayət indiki Göyçay rayonunun ərazisinə gəlib çıxmışlar. Göyçayda ilk məskunlaşdıqları yer isə İnçədəki "Köbər ərazisi" olmuşdur. Maraqlıdır ki, şimal istiqamətində hərəkət edən əhalidən bir qol ayrılaraq indiki Qax rayonunun Oncalar kəndində məskunlaşır. Bu toponimin də İncələrlə bağlılığına inanmaq olar. Cənub istiqamətində hərəkət edən əhali qrupu isə əsasən Lənkəran, Cəlilabad ərazilərinə paylanmışdır. (Məsələn, bu arealda İncə adlı çay, oba və dərə vardır. Deyilənə görə, hətta eyni adlı kənd də bu arealda movcud olmuşdur. Əhalisi azaldığından sonralar bu kənd İmişli rayonuna köçürülmüş, boş qalmış ərazisi isə əkin sahələrinə çevrilmişdir. Üçüncü istiqamətdə hərəkət edənlər (daha

doğrusu şimal səmtdə paylanmış əhalidən bir hissə) Şəki ərazisinə üz tutub və orada soylarının adına kənd məskunlaşdırıblar. Hazırda bu kənd İnçə Zunud adlanır. Daha sonra bu tayfa birliyi Şimali Qafqazın ətəklərinə doğru baş almış, Cənubi Qafqazın sol və qərb yamacları boyunca irəliləyərək Borçalı ərazisinə pənah gətirmişdir (Əsasən də Şəki və Qax istiqamətində paylanan əhali Borçalıda bir araya gəlmişdir). Nəhayət, oradan da Türkiyəyə – Anadolu ərazisinə daxil olmuşlar. Azərbaycana qayıtdıqda, deməliyik ki, hazırda Qazax rayonunda İncə dərəsi və bu adı daşıyan çay mövcuddur. O da nəzərə alınmalıdır ki, Dərbənd şəhəri yaxınlığında da İncə toponimi mövcuddur və rayon statusu almasa da, Qasımkəndin tabeliyində olan bu yaşayış massivi (oba) iyirmi beş min əhalini birləşdirir. Bütün bunlar deməyə əsas verir ki, kəndimiz məskunlaşmasına görə uzun və keşməkeşli proses yaşasa da, camaatımız mənşəyinə görə bu torpağın ilk sakinləri olan türk soylulardan törəmədir.

8. Material toplanılan zaman Ələddin baba həyatda olmuş, bir neçə il öncə isə dünyasını dəyişmişdir. Həmin şəxsin doğum və ölüm tarixlərini qeyd etməyi lazım bildik (1942-2019).

9. Şamaxılı Qazi Hacı Ələsgərin təşəbbüsü və Göyçayın imkanlı şəxslərinin vəsaiti hesabına tikintisinə 1896-cı ildə başlanılmış bu məscid 1902-ci ildə istifadəyə verilmişdir. Əleyhdarları tərəfindən vəhşicəsinə qətlə yetirilən Hacı Ələsgərdən sonra oğlu Şeyx Mehdi Şirvani bu işi başa çatdırmış və məscidə də ilk axund o özü təyin olunmuşdur. Bəzi sakinlərin açıqlamasına görə, köhnə məscidin yerində ucaldılmış bu yeni məscidin tikintisində 124 min saxsı kərpicdən istifadə olunmuşdur. Bunun da 124 min peyğəmbərə işarə olduğu bu açıqlamada bildirilir (S:36). Əlavə edək ki, indiyədək beş dəfə minbəri dəyişdirilən Əbülfəz lil Abbas məscidi əsaslı arxitekturasını günümüzədək saxlamışdır.

10. Bizə bəlli mənbədə qeyd olunur ki, Ayətullah rütbəsinədək yüksəlmiş Mirfazil Mirəbutalib oğlu XIX əsrin 60-cı illərinin əvvəllərində Şamaxı şəhərində anadan olmuşdur. Xan ailəsində dünyaya göz açmış bu mömin şəxs şəcərəsinə görə İmam Museyi Kazım (r.a.) nəslinin davamçısı idi və Əl Musəvi seyidlərindən

hesab olunurdu. Mirfazil ağa ilk təhsilini Şamaxıda aldıqdan sonra İraqın Nəcəfül-Əşrəf şəhərinə gedərək orada təhsilini davam etdirmişdir. İraqda oxuyarkən Türkiyəyə də can atmış, qısa bir dövrü əhatə etsə də, burada da təhsil almağa müvəffəq olmuşdur (Bəzi mənbələrdə dörd (11, 85), bəzilərində isə bu müddət iki il (12) göstərilir – A.Ə.). Şamaxıda aldığı ilk təhsil də nəzərə alınmaqla, ümumiyyətlə, ağa fasiləsiz olaraq 30 ilə yaxın oxumuşdur.

1906-cı ildə Şamaxıya qayıtmış və burada 12 il axundluq etmişdir. Şamaxının müctəhidi Mirmehdi ağa onu özündən sonra bütün Şamaxı mahalının alimi vəsiyyət etmişdir. 1918-ci ildə ermənilər Şamaxıya hücum edərkən Mirfazil ağa ailəsi ilə birgə Göyçaya pənah gətirmişdir. Bir müddət Potu kənd məscidinin axundu olmuş, sonra isə bu sahə üzrə Göyçay Yuxarı məscidində fəaliyyətini davam etdirmişdir.

37-nin repressiyası ağadan da yan keçməmiş, o, dəfələrlə əsassız ittihama məruz qalmış, hətta bir çox ev əşyaları müsadirə olunmuşdur. Nəhayət, 1941-ci ilin iyun ayının 23-də Mirfazil ağa həbs olunmuşdur. Mənbədən onu da bilmək olur ki, ağa əvvəlcə Gəncə həbsxanasına salınmış, sonra isə Bakıya aparılaraq oradakı Keşlə və Bayıl həbsxanalarında saxlanılmışdır. Onunla bir yerdə cəza çəkən həbsxana yoldaşları azad olduqdan sonra çəkinə-çəkinə olsa da ağanın kəramətləri haqqında bildiklərini öz yaxınlarına çatdırmışlar. Amma ən təəccüblüsü odur ki, Mirfazil ağanın sonrakı taleyi haqqında heç bir yerdən dürüst məlumat əldə etmək mümkün olmamışdır. Bircə o haqda danışılır ki, Mirfazil ağa həbsxanadan qeybə çəkilmişdir. Bir də danışılır ki, bu hadisə 1942-ci ilin aprelində baş vermişdir. Çox maraqlıdır ki, bu hadisədən sonra inzibati orqanlar tərəfindən ağanın evində axtarış aparılmış, "qaçırılma"da ailə üzvləri şübhəli bilinərək onlara qarşı ittiham irəli sürülmüşdür.

Mənbədə o da vurğulanır ki, Mirfazil ağa Nəcəfdə təhsil alarkən Raziyə adlı ərəb qızı ilə ailə qurmuşdur (11, 85-86).

Qız nəvələrindən Əlirasim Əhmədlinin (S:36-nın) bu haqda açıqlamasına görə, həmin izdivacdan onların ikisi oğlan

və üçü qız olmaqla beş övladı dünyaya gəlmişdir. Qeyd üçün deyək ki, bir vaxtlar Mirfazil ağanın rayonda yaşadığı ev indi də ziyarət olunmaqdadır. Ağanın kiçik qızı seyid Rübabə xanım ailəsi ilə birgə ömrünün sonunadək bu evdə yaşamış, həm də bu nüfuzun qorunub saxlanılmasında əlahiddə rol oynamışdır.

11. Sonda söyləyici həmin əhvalata uyğun bu şeir söylədi, amma müəllifini xatırlamadı.

12. Söyləyici əlavə etdi ki, haqqında danışılan ev Balaş adlı həmkəndlisinə məxsus olub.

13. Əslində kəndin adı Çərəcədir. Lokal ləhcədə "j" səsinin intensiv işləkliyi toponimin Çərəjə kimi təqdim olunmasını şərtləndirmişdir.

14. Qəbələ rayonunda qəsəbə adıdır.

15. Yaşayış sahəsindən xeyli kənarda yerləşən obyekt (məscid) xaraba dəyirman kimi də təsəvvürə gəlir. Ehtimalımız budur ki, lotuların "əməl sahibliyi"ni daha qabarıq planda diqqətə çatdırmaq məqsədi ilə söyləyici təhkiyədə belə bir əvəzlənməyə yol vermişdir.

16. Nağıl topluda təkrar nəşr kimi təzahürlənə bilər. Nəzərə alınmalıdır ki, "Şah Abbasın nağılı" başlığı altında təqdim etdiyimiz mətndə bu nağıl kontaminasiyaya (çulğaşmaya) uğramış variantda söyləyicidən qeydə alınmışdır. Elmi ədəbiyyatlarda kontaminasiya sözü bir süjet daxilində bir neçə oxşar süjetin birləşməsi kimi izah olunur.

17. Ədəbi dilə çevirdikdə ifadə "əslini de" mənasında anlaşılır. Digər mənası da "əslinə çəkən" anlamındadır.

18. Söyləyicinin məlumatına görə, əhvalat İnçə ilə Alpoud kəndləri arasında baş verib.

19. Söyləyicinin məlumatına görə, xanın adı Tahir, dostunun adı isə Məlik olub.

20. Göyçay ərazisində Aşağı Qaraməryəmlə İnçə kəndləri arasında təpə – kiçik dağ adıdır.

21. Söz təhkiyədə "əjdaha" anlamında ifadəsini tapmışdır.

22. Söyləyicinin oğlundan aldığımız məlumata görə, əslində, babasının adı Sərdar olmuşdur. O bu haqda atasından eşitdiklərini xatırlayaraq dedi ki, "xan, bəy zamanında hökumət adamlarından ailəmizə bildiriblər ki, Sərdar "yuxarı" təbəqəyə məxsus addır, belə adı ancaq "imkanlılar" götürə bilər, dəyişin ki, sonra "əziyyətini çəkməyəsiniz". Bundan sonra babama (atasının atasına – A.Ə.) Səftər adı verilib. Elə bu adla da böyüyüb, oğul-uşaq sahibi olub (Bir qardaşım bu adı daşıyır). Lakin babam vəfat etdikdən sonra nənəm Səməd adlı şəxslə ailə qurmuş və atam da həmin şəxsin oğlu kimi rəsmi qeydiyyata alınmışdır". Sonda informator vurğuladı ki, ömrünün sonunadək bu qeydiyyata sadiq qalsa da, amma nədənsə atam dünyaya gətirdiyi altı oğlundan heç birinə Səməd adı vermədi. Bunlar öz yerində, əsas odur ki, indi ailəmizdə Sərdar adıyla çağırılan var, bəndəniz indi bu adı daşıyır!"

Əlavə edək ki, haqqında danışılan söyləyicidən vaxtilə qeydə aldığımız mətnləri araşdırarkən onların bəzisində onun Sərdar oğlu, bəzilərində isə Səməd oğlu olmasına dair ziddiyyətli məlumatlar aşkarladıq. Dolaşıqlığı açmaq üçün söyləyicinin ailəsinə müraciət etdik və oğlunun açıqlamasından sonra əsl babasının kim olduğunu dəqiqləşdirə bildik. Məntiqə görə, bu halda söyləyici sənədə əsaslanmış olsa da, doğma atasının kimliyini də danmaq istəməmişdir.

## SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

1. Ağayeva Nailə Əli qızı, 1955-2015, Göyçay rayonu, Qarayazı kəndi, orta ixtisas təhsilli
2. Ağayeva Qəribə Nuralı qızı, 1955-ci il, Göyçay rayonu, Qarayazı kəndi, natamam orta təhsilli
3. Hüseynova Səfayə Əli qızı, 1957-2020, Göyçay rayonu, Qarayazı kəndi, orta təhsilli
4. Hüseynova Rəbiyyə Əliağa qızı, 1972-ci il, Göyçay rayonu, Qarayazı kəndi, orta təhsilli
5. Rəhimov Həmid Rəhim oğlu, 1970-ci il, Göyçay rayonu, orta təhsilli, sürücü
6. Daşdəmirli Rəna Həmid qızı, 1974-cü il, Göyçay rayonu, orta ixtisas təhsilli
7. Musayeva Xuraman Niyaz qızı, 1961-ci il, Göyçay rayonu, ali təhsilli müəllim
8. Behbudova Südabə Nəsrəddin qızı, 1956-cı il, Göyçay rayonu, müəllim
9. Qurbanova Gülşən Rasim qızı, 1974-cü il, Göyçay rayonu, müəllim
10. Rəhimov Rəhim Həmid oğlu, 1939-cu il, Göyçay rayonu, orta təhsilli, sürücü
11. Məmmədov Məmməd Qnyaz oğlu, 1962-2019, Göyçay rayonu, orta təhsilli
12. Məmmədova Nüşabə Sadıq qızı, 1962-ci il, Göyçay rayonu, II Ərəbcəbirli kəndi, orta təhsilli
13. Eyvazova Pərvanə Səməd qızı, 1956-cı il, Göyçay rayonu, alı təhsilli müəllim
14. Kərimova Zərifə Əlövsət qızı, 1938-2020, Göyçay rayonu, orta təhsilli
15. Muradova Ofelya Əliqulu qızı, 1956-cı il, Göyçay rayonu, orta təhsilli
16. Orucova Zərifə, 1938-ci il, Göyçay rayonu, orta təhsilli

17. Məmmədov Sənan Məmməd oğlu, 1991-ci il, Göyçay rayonu, orta ixtisas təhsilli
18. Məmmədova Fərrux Abdulxalıq qızı, 1957-ci il, Göyçay rayonu, Qaraxıdır kəndi, orta təhsilli
19. Mirzəyeva Elmira, 1947-ci il, Göyçay rayonu, orta ixtisas təhsilli
20. Muradova Xuraman Əlisahib qızı, 1953-cü il, Göyçay rayonu, ali təhsilli müəllim
21. Hüseynova Bahar Əli qızı, 1946-cı il, Göyçay rayonu, Qarayazı kəndi, orta təhsilli
22. Hüseynov İbad Nuralı oğlu, 1951-ci il, Göyçay rayonu, Qarayazı kəndi, orta ixtisas təhsilli
23. Ələkbərova Sara Xəlil qızı, 1943-2022, Göyçay rayonu, orta təhsilli
24. Həsənova İradə Cəlal qızı, 1972-ci il, Göyçay rayonu, orta təhsilli
25. Abdullayeva Vəfa Adil qızı, 1990-cı il, Göyçay rayonu, orta təhsilli
26. Məmmədov Həmid Əhməd oğlu, 1929-cu il, Göyçay rayonu, dülgər
27. Əliyeva Sənubər, Göyçay rayonu, Hüngütlü kəndi, əlli il müəllim işləyib, hazırda qorxuluq götürür
28. Yaqubova Gültəkin Əlövsət qızı, 1966-cı il, Göyçay rayonu, Ərəbşahverdi kəndi, çöpçü
29. Məmmədova Əminə Məhəmməd qızı, 1935-2018, Göyçay rayonu, orta təhsilli
30. Hacıyeva Gözəl Şeyda qızı. 1936-cı il, Göyçay rayonu, Alxasafa kəndi, orta təhsilli
31. Abdullayev Alay Həbib oğlu, 1926-cı il, Göyçay rayonu, ali təhsilli
32. Ağayev Ağa Ağaməmməd oğlu, 1938-ci il, Göyçay rayonu, Ulaşlı-Şıxlı kəndi, orta təhsilli
33. Əliyeva Qələmnaz İbrahim qızı, 1928-ci il, Göyçay rayonu, Qarabağlar kəndi, orta təhsilli

34. Məmmədov Xanlar Soltan oğlu, 1942-ci il, Göyçay rayonu, Bığır kəndi, ali təhsilli
35. Baxışov Sahib Məsim oğlu (Kərbəlayi), 1952-ci il, Göyçay rayonu, Potu kəndi, orta ixtisas təhsilli
36. Əhmədli Əlirasim Sədrəddin oğlu, 1953-cü il, Göyçay rayonu, ali təhsilli
37. Rəsulov Nəsir Dursun oğlu, 1974-cü il, Göyçay rayonu, Qarabaqqal kəndi, orta təhsill, inşaat ustası
38. Allahverdiyev İsa Səməd[22] oğlu, 1896-1993, Göyçay rayonu, İnçə kəndi, əkinçi
39. Xəlilov Şıxı Rəhim oğlu, 1905-1992, Göyçay rayonu, İnçə kəndi, əkinçi
40. Abbasov Fəzil Şükür oğlu, 1902-1991, Göyçay rayonu, İnçə kəndi, əkinçi
41. Cəfərova Məryəm Qurban qızı, 1902-2001, Göyçay rayonu, Alxasafa kəndi, natamam orta təhsilli

## TOPLAYICILAR HAQQINDA MƏLUMAT

1. Filologiya üzrə fəlsəfə doktoru Kərimova Xuraman Daşdəmir qızı
2. Elmi işçi Abiyev Vüsal Mirabi oğlu
3. Filologiya üzrə fəlsəfə doktoru, dosent Əhmədli Atəş Şövkət oğlu

## MÜNDƏRİCAT

**ÖN SÖZ (Ataş Əhmədli)** ............................................. 3

**MİFOLOJİ MƏTN, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**

Cin haqqında ........................................................ 24
Kəblə Seyid babanın kəramətləri ............................... 36
Arpanı divara yeridən molla ...................................... 39
Ələddin babanın kəraməti .......................................... 39
Haqlıq muncuğu ...................................................... 39
Müsəlmanların Əlisi .................................................. 40
Durnaya dur deyən babalar ........................................ 40
Atalığın aqibəti ........................................................ 43
Naxışın yatdı, sən də yat ........................................... 44
Qaraçuxanın oyanması ............................................... 44
Duanın gücü ............................................................ 45
Mirfazil ağanın kəramətləri ........................................ 45

**ƏFSANƏLƏR**

Şanapipik ............................................................... 48
İsax-Misax quşları .................................................... 49
Qarğa ilə qızılquşun söhbəti ....................................... 51
Bülbül haqqında əfsanə ............................................. 51
Quşların özlərinə şah seçməsi ..................................... 52
Tovuzquşu haqqında əfsanə ........................................ 52
Ay və Günəş ............................................................ 53
Dünyada ən gözəl bala ............................................... 53
Barmaqların bəhsi ..................................................... 53
Qız və ilan .............................................................. 54
Qovaq ağacı ............................................................. 54
Kor bağırsaq ............................................................ 54
Qarpız haqqında əfsanə ............................................. 55

**RƏVAYƏTLƏR**

Buğda haqqında rəvayət ........ 56
Qatırın lənətlənməsi ........ 56
Yoncaya bərəkət verilməsi ........ 57
Əcəl mıxı ........ 57
Loğmanın məsləhəti ........ 57
Kimdir güclü ........ 58
Hərənin dərdi özünə dəvə boydadı ........ 58
Haqqı-nahaqqı bilinməyən ölkə ........ 59
Açılmayan sirr ........ 60
Yarım fındıq qabığı ruzi ........ 60
Borcu dananın aqibəti ........ 61
Şeytana lənət ........ 62
İsgəndər Zülqərneyn haqqında ........ 63
Dirilik suyu ........ 64
İsgəndərin buynuzu ........ 65

**Dini rəvayətlər**

Peyğəmbərlər haqqında ........ 65
Adəm peyğəmbər ........ 66
Habil və Qabil ........ 68
Nuh peyğəmbər ........ 69
Davud peyğəmbər ........ 69
Süleyman peyğəmbər haqqında rəvayətlər ........ 70
Süleyman peyğəmbər və bayquş ........ 71
Atla dayçanın söhbəti ........ 72
Hərənin malı özünə qayıtdı ........ 72
Süleyman peyğəmbər və qarışqa ........ 73
Ədalətli bölgü ........ 73
Xızır peyğəmbər ........ 74
Xızır kimi yetişdin ........ 75
Musa peyğəmbər ........ 75
İsa peyğəmbər ........ 80
Məhəmməd peyğəmbər ........ 80
Həzrət Əli ........ 83

Xanım Fatimeyi-Zəhra ............................................... 85
Xanım Zeynəb ........................................................... 85
Mələyin İmam Hüseyni ziyarət etməsi ....................... 86
Uveys baba ................................................................ 90
Əzrailin narazılığı ..................................................... 91
Ömrün müddəti........................................................... 93
Savab ov .................................................................... 93
**Toponimik rəvayətlər**
Bəd dərə .................................................................... 93
Qarayazı kəndində olan toponimlər............................ 94
Törə dağı ................................................................... 95
Xanım bağı ................................................................ 95
Əsgərbeli ................................................................... 96
Qaraxıdır ................................................................... 96
Gözəlcə bulağı ........................................................... 96
Baba dağı.................................................................... 98
Qarabaqqal................................................................. 98
Ulaşlı Şıxlı.................................................................. 99
Yekəxana................................................................... 99
Hüngütlü.................................................................... 99
Çərəkə kəndində olan toponimlər............................... 99
Dəyirmanın başı......................................................... 100
Karvansara................................................................. 100
Rayonda olan digər toponimlər ................................. 101

**ZİYARƏTGAHLAR**
Müzəffər mıxı........................................................... 102
Yara piri .................................................................... 102
Mustafa babanın ocağı .............................................. 103
Ziyil piri .................................................................... 103
Hacalı babanın ocağı.................................................. 103
Göytəpə qəbiristanlığı................................................ 104
Çinarlı pir .................................................................. 104
Pir Usub baba ............................................................ 104

Hacı İsa Əfəndi ........ 105
Mırtı kəndində pir ........ 106
Hacı Əfəndi babanın ocağı ........ 106
Şil qızın qəbri ........ 106
Baba dayının ocağı ........ 107
Sarı Molla ........ 107
Qara pir ........ 108
Sofu Məmməd baba ........ 108
Həsən baba ........ 108
Pir palıd ........ 108
Sədrəddin baba ........ 109
Qara Şıx baba ........ 109
Çiləxana piri ........ 109
Hacı Məmməd Əfəndi ........ 109
Tikan piri ........ 110
Qarabaqqal kəndində olan digər pirlər ........ 110

**İNANCLAR** ........ 111
Təbiət hadisələri ilə bağlı inanclar ........ 130
Yasla bağlı inanclar ........ 132
Toyla bağlı inanclar ........ 134
Gəlinin qırxa düşməsi ........ 136
Göz-nəzər inancları ........ 138
Yuxuyozmalar ........ 141

**NOVRUZAQƏDƏRKİ MƏRASİMLƏR** ........ 144
Çillə ........ 145
Novruz adət və inancları ........ 147

**XALQ TƏBABƏTİ** ........ 154
Türkəçarələr ........ 165
Ruh tutmaq ........ 167
Qorxuluq götürmə ........ 169
Çöpçülük ........ 170

**ETNOQRAFİK BİLGİLƏR** ........................................ 171
Arıçılıq ........................................................................ 173
Ovsunçuluq.................................................................... 177
Milli mətbəx .................................................................. 178

**QARĞIŞLAR** ................................................................ 188
**ALQIŞLAR**.................................................................... 190
**AND VƏ XEYIR-DUALAR**........................................ 194
**ATALAR SÖZÜ** ........................................................... 195
**MƏSƏLLƏR**................................................................. 204
**XALQ DEYİMLƏRİ**................................................... 207
**NAĞILLAR**
Şah Abbasın nağılı .......................................................... 213
Şah Abbas və cütçü.......................................................... 225
Şah Abbas və qismətini tapan oğlan ............................. 228
Şah Abbasın naxırçı qızı ilə evlənməsi ......................... 232
Ağıllı zərraf ..................................................................... 237
Üç qardaş......................................................................... 244
Haqsızın nağılı................................................................. 245
Ögey ana.......................................................................... 247
Yeddi qardaş bir bacının nağılı...................................... 249
Üç dost ............................................................................ 252
Artıq tamah baş yarar ..................................................... 253

**LƏTİFƏLƏR**
Mollanın fəndi ................................................................ 255
Hər dəfə tərs, bir dəfə də düz ....................................... 255
Mollanın seçimi .............................................................. 256
Nə gətiribsə, onu da aparacaq........................................ 256
**Bəhlul Danəndə haqqında**
Üç hikmətli söz ............................................................... 256
Quyu qazan özü düşər.................................................... 258
Şah Abbas və arvadı........................................................ 260
Allah qananla qanmayanı yoldaş etməsin .................... 261

**Kəl Niyyət haqqında**
Bu qədər toyuğun bir xoruzu olmalıdı ........................ 262
Taxılı ayağından sulamazlar ....................................... 263
Baş tutmayan kələk ..................................................... 263
Kəlimsən ki, kəlim ..................................................... 264

**MARAQLI ƏHVALATLAR**
Ayının mükafatı .......................................................... 266
Havayı güllə ............................................................... 266
Yeyilməyən ehsan ....................................................... 267
Allahdan möhlət ......................................................... 267
Savab iş ...................................................................... 268
Seçilən qəbirlər .......................................................... 268
Sağsağanı çərlədən Hacalıkəndli ............................... 269
Qardaşın dəyəri .......................................................... 269
Qovud yeməyin qaydası ............................................. 269
Ayının şapalağı ........................................................... 269
Mircəfər Bağırovun xoşladığı şoraba .......................... 270
Məscidə təzim ............................................................ 270
Gordan qayıdan .......................................................... 271
Ayının qisası ............................................................... 271
Şəqqül-Qəmər ............................................................ 272
Xalis çoban ................................................................. 273
Xanı öldürən İnçəli ..................................................... 273

**QAYNAQLAR** .............................................................. 274
**SÖZLÜK** ..................................................................... 275
**AYDINLATMALAR** ..................................................... 278
**SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT** ............ 286
**TOPLAYICILAR HAQQINDA MƏLUMAT** ............ 289

**Göyçay folklor örnəkləri,**
**I kitab**
Bakı, “Elm və təhsil”, 2022.

Nəşriyyat direktoru:
***Prof. Nadir Məmmədli***

Nəşriyyat redaktoru:
***Nigar Abdullayeva***

Kompüterdə yığdı:
***Ruhəngiz Əlihüseynova***

Kompüter tərtibçisi və
texniki redaktoru:
***Aygün Balazadə***

Kağız formatı:
Mətbəə kağızı:
Həcmi: 296 səh.
Tirajı: 300

Kitab AMEA Folklor İnstitutunun
Kompüter mərkəzində yığılıb səhifələnmiş,
“Elm və təhsil” nəşriyyatında hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.